# ELMİ TƏDQİQATA GİRİŞ

AĞAZEYNAL A. QURBANZADƏ

"Kooperasiya" nəşriyyatı
Bakı - 2019

Ağazeynal Alı oğlu Qurbanzadə. **Elmi-tədqiqata giriş.** Bakı, "Kooperasiya" nəşriyyatı, 2019, 272 səh.

Kitabın yazılmasında məqsədimiz həm coğrafiya elmi-tədqiqatın fəaliyyəti, həm də coğrafiya elminin gücü və genişliyi haqqında biliklərinin verilməsidir.

Aparılan tədqiqat işlərinin kompleksliyinə, yeni nəzəri-praktikasına üstünlük verilir. Bu sahədə gənc elm sahiblərinin mühüm coğrafi problemlərlə məşğul olmasına dair tövsiyələr ayrı-ayrılıqda şərh edilir.

Ümid edirik ki, gənc elm sahibləri bizim kitab vasitəsi ilə elmi-tədqiqatının necə fəaliyyət göstərdiklərini öyrənəcək və elmi ideya mənbələrindən istifadə etdikləri problemlərinə fərqli münasibət bilidirəcəklər.

Kitabda elmi klassik araşdırma metodlarını nəzərə almaqla yanaşı, yaradıcılıq baxış bucağından yeni elmi-tədqiqat məqsədli ideya mənbələrinə də üstünlük verilmişdir. Coğrafiya elminin daxili səmərəsinin məzmunu, dayanıqlı inkişafın texnologiyası, onun metodiki və praktikasının yeni tədqiqat seçimi ilə bağlığını əhatə edən materiallarını önəmə gətirilmişdir.

Kitab ali məktəb müəllim və tələbələri, həmçinin coğrafiya üzrə tədqiqat aparan gənc elmi sahiblərinin istifadəsi üçün monoqrafik elmi mənbə kimi nəzərdə tutulmuşdur.

ISBN 5-8067-1773-4

# MÜƏLLİF HAQQINDA



**AĞAZEYNAL ALI OĞLU QURBANZADƏ**

***coğrafiya elmləri doktoru, professor***

12 mart 1938-ci ildə Astara şəhərində anadan olmuşdur. M.Ə.Sabir adına şəhər orta məktəbini bitirmişdir. 1957-1962-ci illərdə Azərbaycan Dovlət Universitetinin geoloji-coğrafiya (coğrafiya şöbəsi) fakültəsinin tələbəsi olmuşdur.

ADU-nin əyani aspiranturasına daxil olmuş və N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində işləmişdir. 1973-cü ildə coğrafiya elmləri namizədi alimlik dərəcəsi aldıqdan sonra elmi-pedaqoji fəaliyyətni davam etdirmişdir. 2006-ci ildə "Azərbaycan Respublikasının aqrar funksional strukturunun ərazi təşkili" mövzusunda doktorluq dissertasiyasını müdafiyə etmişdir.

Lənkaran Dövlət Universitetində "Coğrafiya və ekologiya" kafedrasını yaratmış və ona rəhbərlik etmişdir. Hazırda Azərbaycan Kooperasiya Universitetinin professorudur.

Tədqiqatlarında coğrafiya elminin nəzəri-metodoloji məsələlərinə üstünlük verir. Coğrafiya elminin fundamental problemlərinə aid monoqrafik, dərsliklərinin və məqalələrinin müəllifidir. Dialektik coğrafiya, tibbi coğrafiya, insan coğrafiyası, regionalogiya, funksional coğrafiya və s. mövzullar üzərində çalışır. AMEA-nın Coğrafiya İnstitutu nəzdində fəaliyyət göstərən dissertasiya şurasının üzvidir.

Elmi yaradıcılığının naliyyətləri:

- aqrar strukturun funksional "ideal" modellərini təklif etmişdir;
- dayanıqlı aqrar klaster ideyasını önəmə gətirmişdir;
- diversifikasiya tsiklinin formalaşmasının yollarını təhlil etmişdir;
- coğrafi-elastiklik təliminə dair təhlillərini əsaslandırmışdır;
- insan potensialının koordinat sisteminin dialektik coğrafi ideyasına dair təkliflər irəli sürmüşdür.
- "ritmik dəyişkənlik sıraları" təlimini irəli sürmüşdür.

# KİTABDAKILAR

**Müəllif haqqında** .......... 3
**Ön söz** .......... 7
**Kitaba qısa baxış** .......... 11

**Fəsil 1. Coğrafiya elmi: başlanğıc məntiqi və davamlı durumu**
1.1. Antik coğrafiya elminin öyrənmə seçimi .......... 28
1.2. Coğrafiya elmi bilik təliminin sahibləri .......... 34
1.3. Coğrafi tədqiqatın idrak model davranışı .......... 44
1.4. Tədqiqatçının yaradıcılıq təşəbbüskarlığı .......... 53
1.5. "Tədqiqat & Praktika" terminin ideal məqsədləri .......... 59
1.6. Tədqiqatın obyektiv-subyektiv motivləri .......... 63

**Fəsil 2. Tədqiqatın coğrafi məkan varlığı: tədbiqi aparatının arxasındakı reallıqlar**
2.1. Coğrafi məkan varlığının təbiəti .......... 69
2.2. Coğrafi məkanın məna ifadələri .......... 75
2.3. Coğrafi məkanın situasiyallı yanaşmaları .......... 78
2.4. Coğrafi məkanın hərəkəti haqqında biliklər .......... 81
2.5. Coğrafi məkanın çoxxətli ölçüləri .......... 85

**Fəsil 3. Coğrafiya elmi tədqiqatın koordinasiyası**
3.1. Elmi tədqiqatın məhsuldarlığı .......... 90
3.2. Tədqiqatın koordinasiya şəbəkəsi .......... 95
3.3. İdarə edilən coğrafi proqnozları .......... 100
3.4. Coğrafi elmi biliyin "qüvvə"si haqqında .......... 103

**Fəsil 4. Coğrafi elmi tədqiqatın elastiklik seçimi**
4.1. Tədqiqatın elastiklik seçiminin ifadə olunması .......... 112
4.2. Dayanıqlı (həssaslıq) elastiklik dəyişkənliyi haqqında .......... 117
4.3. Elastiklik miqyasının "duymaq" seçimi .......... 121
4.4. Elastiklik tələb baxımının daxili məzmunu .......... 126
4.5. Elastiklik seçimində irəliyə baxış .......... 130

**Fəsil 5. Elmi araşdırmada ideyanın ötürülməsinin önəmliyi**
5.1. İdeyanın ötürülməsinin qaydaları haqqında .......... 135
5.2. Coğrafi ideyanın ötürülmə sıraları .......... 139
5.3. Asimmetrik statistik ötürmənin təhlili qaydaları .......... 144
5.4. Qeyri-müəyyənlik: ideyanın ötürülmə seçimi .......... 148

**Fəsil 6. Kreativ işləmə kodunun mənbələri haqqında**
6.1. Kreativ işləmə kodunun seçimi.............................................. 154
6.2. Kreativ işləmə kodunun təklif qaydaları.................................. 159
6.3. Kreativ işləmə kodun davamlılığının tendensiyası................... 163
6.4. Kreativ elmi təhlilinin qaydası.................................................. 167
6.5. “Elmi kreativ dili” haqqında.................................................... 173
6.6. Kreativ ideyanın texnoloji tərəqqisinə baxış............................ 177

**Fəsil 7. Tədbiqi elmi işləmənin texnologiyası**
7.1. Tədbiqi elmi işləmənin imkanları............................................ 184
7.2. Tədbiqi elmi işləmə texnologiyası haqqında............................ 186
7.3. Elmi işləmənin ehtimallığı və qərar qəbuletmə......................... 189
7.4. Mövzu seçimi və elmi işləmə texnologiyası haqqında bir neçə söz.......................................................................... 195

**Fəsil 8. Elmi ideyanın məhsulu haqqında**
8.1. Elmi məhsul - başlanğıc ideya nöqtəsinin dərkidir................... 200
8.2. Tədqiqat məhsulun elmi ölçüsünün kardinal dəyişkənliyi......... 206
8.3. Tədqiqatın elmi məhsula olan tələbin müəyyənliyi.................. 209
8.4. İnnovativ elm sahibi haqqında bir neçə söz............................. 213

**Fəsil 9. Coğrafi tədqiqatda diaqnostik təhlil nə verə bilər?**
9.1. “Diaqnostik” ifadəsinin coğrafi təlimi haqqında....................... 218
9.2. Diaqnostik modellərinin seçimi............................................... 221
9.3. Coğrafi diaqnostik işləmələri haqqında.................................... 225
9.4. Diaqnostik nəzəri rabitəsinin gözləntiləri................................ 230

**Fəsil 10. Tədqiqat haqqında tənqidi düşünmək**
10.1. Tədqiqatda seçim xətasına dair münasibət............................... 241
10.2. Səbəbiyyət xətası varlığının dərk edilməsi............................... 244
10.3. Statistik tədqiqatın tənqidi düşüncə tərzi................................. 248

**Son söz**........................................................................ 251
**Lüğət**........................................................................... 256
**Müəllifin çap olunmuş elmi əsərləri**.......................................... 261
**Müəllifin tədqiqatlarına dair rəylər**.......................................... 266
**Seçilmiş qısa mənbələr**............................................................ 269

# ÖN SÖZ

Elmi tədqiqatlara yaradıcılıqla yanaşılması meyilləri bütün dövrlər üçün aktual düşüncə tərzi olmuşdur. Məsələ onunla ölçülür ki, elmi tədqiqatlar ölkənin potensial dayanıqlı inkişafının əsasını təşkil edir. Elmi-tədqiqatın üzərində qurulan iqtisadi-sosial struktur sahələri optimallığı ilə fərqlənir və coğrafiya elminin praktikasında özünü göstərir.

Son dövrlərdə ölkəmizin ümumi inkişaf potensialına uyğun olaraq elmi tədqiqatlara tələbat artmış və yeni istiqamətli tədbiqi əsərlərinin yaranmasına səbəb olmuşdur. Bu sahədə coğrafiya elmi tədqiqatlarının texnologiyasında və milli gənc kadrların yetişdirilməsi sahəsində naliyyətlər qazanılmışdır. Coğrafiya elmin və onun optimal tədqiqat sahələrinin müəyyənləşdirilməsi üçün aparılan elmi-metodiki işlərinin dəyərlərinin önəmə gətirilməsi tələb olunur. Bu baxımdan, coğrafiya elmləri doktoru, prof. A.A.Qurbanzadənin "Elmi tədqiqata giriş" kitabı gənc tədqiqatçılar üçün xüsusi metodiki aktuallığa malikdir.

Məlum olduğu kimi, coğrafiya elminin müstəqil tədqiqat sahələri qədim dövrlərdən meydana gəlmişdir. Antik dövrlərdən başlayaraq müasir dövrə qədər coğrafiya elminin müxtəlif istiqamətlərində tədqiqat işlərinə dair elmi araşdırmalar aparılmışdır. Bununla yanaşı coğrafiya elmin bir sistem kimi, tədqiqat obyekti və predmet prizmasına gətirilməsi xüsusi olaraq əhəmiyyət kəsb edir.

A.A.Qurbanzadənin "Elmi tədqiqata giriş" kitabı məhz elmlə bağlı bütün əsas tədqiqat istiqamətlərinə dair mənbələrinin ehtiva etməsi ilə seçilir. Müəllif öz pedaqoji varlığı ilə gənc tədqiqqaçılara aparılan mövzulara kənardan, biganə baxmamağı tövsiyyə edir. Aparılan elmi işlərinin yerinə yetirilməsində coğrafi zəka sahibinə malik olmasına gənc tədqiqatçılara məsləhətlərini təqdim edir.

Elmi tədqiqat zamanı müəllif coğrafiya elmin daha dolğun və daha obyektiv təhlillərinin və nəticələrinin mənzərəsini yaratmağa çalışır. Onun baxışlarında ənənəvi tədqiqatlarından fərqli olan daha konstruktiv cəhətlərinə üstünlük verir. Bu üstünlüklər həm də iqtisadiyyat, tarixi-coğrafiya, fəlsəfi və s. elmlərə bələd olması və aparılan elmi tədqiqat sahələrinin konstruktiv ortaq məxrəcə gətirmək cəhdləri ilə bağlıdır.

Qeyd etmək istəyirəm ki, prof. A.Qurbanzadə coğrafiya elmin sistemli tədqiqinə hələ ötən əsrin 80-ci illərindən başlamış və tanınmış tədqiqatçılarının sıralarında xüsusi mövqeyə malik olmuşdur. Yaradıcı alimlərindən biri kimi, Azərbaycanda apardığı tədqiqat işlərində coğrafi modellərinin işlənib-hazırlanmasında iştirak etmişdir. Təsadüfi deyil ki, aqrar funksional strukturunun aktual coğrafi problemlərinə dair yazdığı monoqrafiyası elm aləmində maraq yaratmışdır.

"Elmi tədqiqata giriş" əsəri öz ensiklopedik xarakteri ilə seçilir. Elmi-tədqiqat haqqında elm məktəblərinin miqyasında coğrafi tədqiqatların əldə edilmiş ən yeni nailiyyətlərinə dair məlumatlara üstünlük verilir. Digər tərəfdən, kitab yeni konseptual bir yanaşma üzərində qurulmuşdur və müəllifin öz şəxsi tədqiqatlarını, ideya və təkliflərini də özündə birləşdirmişdir. Maraqlıdır ki, A.Qurbanzadənin coğrafiya elmi tədqiqatlarla bağlı araşdırmaları onun bundan əvvəlki əsərlərində də nisbətən təhlillərinə üstünlük vermişdir. Amma müəllif bu kitabında daha geniş bir sıra coğrafiya elmi üçün konstruktiv əhəmiyyət kəsb edən məsələlərinə ilk dəfə olaraq aydınlıq gətirmişdir. Əsas məsələlərindən biri coğrafi tədqiqatların yalnız elmi araşdırmalarının mövqeyindən deyil, həm də elmi coğrafi mədəniyyətinin tədqiqat meyilli məfkurəsini tamamilə əhatə edir.

Kitab coğrafiya elmi tədqiqat problemlərlə yanaşı, iqtisadi sahədə də aparılan variantlarını da əhatə edir. Azərbaycanda coğrafiya elmində tədqiqat mövzularının yenidən təşkilatlanmasına dair fikirləri və məsləhtləri qarşıda duran ən mühüm vəzifələr müəllif tərəfindən ardıcıllıqla izahı verilmişdir.

Müəllifin haqlı olaraq belə bir fikri ilə razılaşmaq olar ki, müasir dövrdə ölkəmizdə coğrafiya elmi tədqiqatlarının elmlilik səviyyəsi yetərincə deyildir. Məntiqi və praktiki məqsədlərə söykənən elmi tədqiqat işlərinin həyata keçirilməsi və praktik ehtiyaclarının ödənilməsi üçün coğrafiya elmi mövzularına həssaslıqla yanaşmağını diqqət mərkəzinə çevirir.

Bu proses o zaman mümkün olur ki, elmi tədqiqatlar effektli ideyalar üzərində qurulsun və konstruktiv istiqamətdə aparılsın. Digər tərəfdən isə, gənc tədqiqatçının elmi untellektual səviyyəsinin yüksəldilməsi və tədbiqi sahələrinin getdikcə mənimsəməsinə doğru dəyərləndirilməsinə dair məlumatlar bölmələr boyu izah edilir. Bütün bu tendensiyaların öyrənilməsi coğrafiya elminin praktiki cəhətdən ideya məqsədlərinin meydana gəlməsini tələb edir. A.Qurbanzadənin təqdim etdiyi kitabın məğzində hər iki aspektdə elmin davamlı olaraq rolunun artmasına və konstruktuv tədqiqatlar aparılmasına imkan verir.

Elm haqqında irəli sürülmüş mənbələrinin tədqiqat prosesinə çevrilməsi üçün təklif etdiyi seçimlər yeni coğrafi tədqiqatlar üçün məqsədəuyğun hesab edilməlidir. Bu gələcəkdə gənc tədqiqatçılarının yaradıcı elmi iradəsindən asılıdır.

Kitabda düzgün olaraq göstərilir ki, elmi-tədqiqat sahələrinin realizasiyası üçün tədris sahəsindən başlamış, ölkənin bütün inkişaf istiqamətlərini əhatə edən elmtutumlu proqramlarının həyata keçirilməsinə böyük ehtiyac vardır. Elmtutumlu proqramlar da öz növbəsində daha geniş və hərtərəfli elmi tədqiqatlar sahəsində həyata keçirilə bilər. Bu cəhəti nəzərə alan müəllif coğrafiya elmi tədqiqatlarının strukturunda optimal variantlarının seçilməsinə də xüsusi diqqət vermişdir.

Təqdim edilən əsərdə elmi tədqiqatların səmərəsini artırmaq məqsədində gənc elmi işçilərə yeni məzmunlu əsərlərinin yaradılması üçün verilən innovativ təkliflər diqqəti cəlb edir. Məntiqi olaraq müəllif tərəfindən təklif edilən ali məktəblərində coğrafiya elminin yaradıcılıq səviyyəsinin artırılmasına dair təklifləri diqqətəlayiqdir.

Müəllif yazır ki, coğrafiya elmi tədqiqatın keyfiyyət dərəcəsini müəyyən etmədən, hər hansı bir elmi nəticəyə nail olmaq qeyri-mümkündür. Ölkəmizdə dayanıqlı inkişaf prosesi gedir. Təbii-resurs potensialının tədbiqinə xüsusi diqqət yetirilir. Digər tərəfdən, kompleks xarakterli elmi tədqiqatlarına da böyük ehtiyac duyulur. Bu sahədə digər elmlərlə yanaşı, coğrafiya elmi tədqiqatlarnın praktiki istiqamətlərini də nəzərə almağını tələb olunur.

Kitabın başlıca məziyyətlərindən biri də onun söykəndiyi elmi-metodiki mənbələrinin zəngin, məntiqi bazasının aktual olmasıdır.

***Ə.S.Məmmədov***
***coğrafiya elmləri doktoru, professor***

***

ELmi-tədqiqatın davamlı inkişafının məqsədində onun elmi-praktiki tədqiqat struktur sahələrinin araşdırılması və onun yeni metodunun təyinini tələb edir. Elmin yaradıcılıq tələbinə uyğun vəsaitlərinin yaradılması və təbliği hər hansı bir tədqiqat sahəsinin effektliyi üçün mühüm əhəmiyyət kəsb edə bilər. Bu baxımdan A.A.Qurbanzadənin "Elmi tədqiqata giriş" kitabı gənc tədqiqatçılarının elmi maraqlarının artırılmasında faydalı sayıla bilər. Mövzunun problematikası sahəsində illərdən bəri özünə yer almış boşluğun doldurulması baxımından təqdirəlayiqdir. Vəsait özünün coğrafi idrakı məzmunu və elmi tədqiqat aparatının istiqaməti ilə diqqəti çəkir. Bu səbəbdən vəsait uğurla yazılmışdır və bu uğur həm coğrafiya elmi aparatının gücündən, həm də onun müəllifinin elmi səriştəsindən irəli gəlir.

Coğrafiya elmində yenicə qədəm qoyan elmi işçilər üçün təklif edilən yaradıcılıq və intuisiyaya həsr olunmuş bölmələr və yarımbölmələr tədiqat sahələrinin kompleks öyrənilməsi baxımından daha əhəmiyyətli sayıla bilər. Müəllif coğrafi tədqiqat intuisiya yaradıcılıq xəttinin dərk edilməsinə aydınlıq gətirərək onun məntiqi mahiyyətini,funksiyalarının müxtəlif metodlarını açıqlayır.

A.Qurbanzadənin "Elmi tədqiqata giriş" vəsaitinin elmi-metodiki siqləti ondan ibarətdir ki, yerinə yetirilən mövzularının seçilməsi, elmi təhlillərinin innovativ və kreativ formalarına üstünlük verilməsindən ibarət olmasıdır. Vəsaitdə öz əksini tapan "tədqiqat və inkişaf" ideyalar tədqiqatçıda və istərsə də oxucuda tədqiqat əməliyyatlar, onların daxili mexanizmi haqqında adekvat və birmənalı biliklərə yiyələnməyə imkan verir.

Maraqlı cəhətlərdən biri də vəsaitdə coğrafiya elmi biliyində yaradıcı elmi işlərində özünü təşkil etməsində, məntiqi-coğrafi kontekstində metodoloji yollarına münasibətdə daha ətraflı və dəyərli hesab etmək olar. Maraqlı məzmuna malik olan təqdim edilən əsərdə verilən materiallarının ideya istiqamətləri, coğrafiya elminin tədqiqat metodloji bazasına dair materialları yenidir və gənc alimlərinin yaradıcılığı üçün faydalıdır. Fikrimizcə, kitabda irəli sürülən ideya mənbəlăriundən iqtisadiyyat, sosial və digər elmi təhlillərinin aparılmasında dəyərli mənbə kimi də istifadə edilə bilər.

***Q.S.Süleymanov***
***iqtisadi elmləri doktoru, professor***

# KİTABA QISA BAXIŞ



***"Elmi axtarışda irəliləmək üçün, əvvəlcə, artıq əldə edilmiş nəticələrini yenidən işləmək lazımdır. Bu çür yenidən işləmə prosesində əldə edilmiş faktlar zənginləşdirilir və dəqiqləşdirilir."***

***akademik A.X.Mirzəcanzadə***

***"Elmi təfəkkürə nail olmaq, məntiqi mühakimə yolunun seçimində təqdim edilən mənbələrinin öyrənilməsi və dərk edilməsi tədqiqat işini "hərəkətə" gətirir."*** [1]

## Kitabın məntiqi mühakiməsinin dəyəri nədir?

Kitabın yazılmasında məqsədimiz coğrafiya elmin fəaliyyəti, həm də elmin gücü və geniş miqyaslı tədqiqat sahələrinə malik olmasına aydınlıq gətirilməsidir. Coğrafiya elminin tədqiqatında düşüncə tərzinin potensialı və metodoloji imkanlarının hər birinə olan tələbinin gənc tədqiqatçının nəzərinə çatdırmağını məqsədəuyğun saymışıq. Kitabın hər bölməsində "coğrafiya elmi tədqiqat sahəsinin dərk edilməsi"nə maraq hissinin yaradılmasının məqsədində görkəmli elm sahiblərinin ideya mənbələrinə üstünlük verilmişdir.

Ümumi kompleksli ideya mənbələr irəlicədən söylməyə imkan verir ki, elmi düşüncə gücünün uyğunluğu tədqiqat işlərinin aparılması üçün çox effektlidir. Kompleksli effektliyinin tədbiqinə əsaslanaraq = gənc tədqiqatçı üçün aparılan elmi işlərinin yerinə yetirilməsinin zamanında neçə fəaliyyət göstərilməsinə dair yollar təklif olunmuşdur. Biz coğrafi düşüncə tərzinin elmlilik səviyyəsi ölçülərinin hər bir gənc alimlərinin nəzərinə çatdırmağa çalışırıq.

▪ **Haşiyə:** *Ümid edirik ki, gənc elm sahibləri tərəfindən verilən materiallarının dəyərli coğrafi düşüncəsinin sənətininin reallıqlarını mənbələr üzrə öyrənməyə, elmi əsaslarla təhlil etməyə və bir sıra məqsədli yaradıcılıq fərdli qərarlar verməyə maraq göstəriləcəkdir.*

---

[1] - Bölmələr üzrə stat kimi verilən ifadələr - kitabın müəllifinə aiddir.

Coğrafiya elmi tədqiqatının nə qədər geniş olduğunu və bu sahədəki əksər yeni tədqiqat sahələrinin nə qədər həyəcanverici olduğunu nəzərə alaraq, kitabın yazılışında məntiqi yaradıcılığının sferasının fonunda yenilik kəsb edən bir sıra əsas tematik məqsədlərinin üzərində qurulmasıdır:

- ✓ coğrafiya elmi metodologiyası ilə tarazlılıq kəsb edən tədqiqtlarının aparılmasına münasibət bildirmək. Hər bir yarımbölmənin səhifə sonu qeyd şəklində yox, əsas mətində və ya təfsilatlı xülasələrində izahı verilir;
- ✓ hər bir xülasə tədqiqatın qavramaq üçün dərk edilən məsələnin necə istifadə edə biləcəyini göstərir;
- ✓ bu yanaşma tərzi təkcə coğrafiya elmi imkanlarını müəyyən etmir, həmçinin, coğrafi işləmə modellərdən istifadəsinin dəyərlərinin zənginləşdirir və onları daha dəqiq və anlaşılan edir;
- ✓ elmi-tədqiqatın proqnoz coğrafi sisteminin təşkilinə aid metodiki təkliflər irəli sürülmüşdür. Bunu nəzərə alaraq kitabın bölmələrinin məzmununda bir sıra əsas dialektik coğrafi seçimlərinin metodiki qaydalarının mənimsənilməsinə üstünlük verilmişdir;
- ✓ elmi tədqiqatının dayanıqlı şaxələnmiş coğrafi struktur formalarının əmələ gəlməsinin və tsiklli nəticələrinin üstünlüklərindən qaynaqlanan təhlilləri kitabda təkrar - təkrar müzakirə mövzularının obyektinə çevrilir.

Coğrafiya elmi-tədqiqat sahələrinin ənənəvi şərhinə görə, nəzəri-metodoloji elmi işlərinin məzmun və məqsədinə görə = münasibət fərqlərinə nikbinliklə baxılır. Bu nikbinliklər təkcə coğrafiya elmi araşdırmaları üçün "həyatı" çatdırmır, həmçinin aparılan mövzunun praktiki məzmuna dair mənbələrindən aldığı biliklərini möhkəmləndirir. Onu daha dəqiq məntiqi cəhətdən anlaşılan edir.

Elmi-tədqiqatın yerinə yetirilməsi zamanı tövsiyyə edilir ki, mövzunun elmlilik xarakterinə cavab verən yaradıcı metodologiyanın üzərində qurulması daha önəmlidir. Bu önəmli seçimi: "coğrafi elmi bilik - tədqiqat - praktika"nın dayanıqlı sərhədlərinin elmliyinin çərçivələrinin tamlığını əharə edir.

Tədqiq olunan mövzudan asılı olaraq metodoloji seçim variantlarının bəzilərini daha çox önəmə gətirmək, digərlərini isə sadələşdirilmiş və yaxud arxa planda verilməsi daha real və məzmunlu ola bilər. Yenilənmiş təhlillərinin aparılması, mümkün olan variantlarının bütün bölmə və yarımbölmələr üçün xarakterik praktiki seçimlərinə aid təkliflər verilir. Tədqiqatın materiallarının üzərində necə yaradıcılıqla işləmək qaydaları və eləcə də onların mənimsənilmə-

sinə aid ideyalarının xüsusi çəkisinə diqqət yetirilmişdir. Coğrafiya elminin yaradıcılığının sferasında daha çox istifadə edilən "hərəkət" üsullarının daha əhatəli və məntiqli baxışlarına, düşüncə tərzlərinə daha çox üstünlük verilmişdir.

## Fərqləndirici baxışlar

Kitabdakı bütün nəzəri-metodiki nəticələri real elmi-tədqiqat mənbələrinin nümuləri ilə əlaqələndirərək, oxuculara təqdim etməyə çalışmışam. Mətnin özündə faktların müzakirəsindən əlavə çoxsaylı xüsusi coğrafi hadisələri və məntiqi düşüncə tərzini özündə birləşdirən haşiyələr, müxtəlif məqsədli düşüncələr və s. göstərmişəm. Hər bir yarımbölmənin sonunda verilnən "praktiki düşünək" qeydlər oxucu ilə dialoq yaradır və bununla qarşıya çıxan çətinlikləri (məsəllərini) asanlaşdırır, həmçinin, anlayışların və qarşıya qoyulan məqsədlərin daha effektli davranılmasını təmin edir.

Səhifənin kənarında qeydlərdən istifadə etməklə, "müəllif-tədqiqatçı" arasında yaranan interaktiv əlaqəni müəyyən dərəcədə mətnlə paralel olaraq təkrarlanmağa çalışmışam. Yarımbölmənin sonunda fikirləri daha da genişləndirmək məqsədi ilə "xülasə" ifadəsində qısa və ya əsas fikirlərinin xülasəsində əlavələri qeyd edilir.

Kitabda təqdim edilən nəzəri-metodoloji elmi mənbələrinin nəticələri real tədqiqatlarla əlaqələndirilir. Buna uyğun olaraq uzun müddət elmi-pedaqoji fəaliyyətim dövründə əldə etdiyim real coğfiya elmi düşüncələrinə söykənən praktiki vərdişlərinin də mətinlər üzrə təqdim etməyə çalışmışam.

Mətnin özündə elmi müzakirələrindən əlavə, coğrafiya elmi informasiyalarında baş verən çoxsaylı faktlarının və mənbələrinin müzakirə obyektinə çevirən ideyalarının önəmində sətraltı haşiyələrinin verilməsini məqsədəuyğun saymışıq.

Elmi dəyərli mövzularının seçilməsi və planlaşdırılması sferalarında "müəllif-tədiqatçı" arasında interaktiv əlaqələrinə xüsusi diqqət yetirilmişdir. Bu çox vacib bir məsələdir. Məntiqi varlıq onunla ölçülür ki, müəyyən səviyyədə mətnlərinin təhlili ilk növbədə tədqiqatçı tərəfindən həyata keçirilir, digər bir tərəfdən isə müəllif təhlil edilən mövzunun elmi cəhətdən dərk edilməsində bələdçilik edir.

***Məqsədli yanaşma:*** *coğrafiya elmi tədqiqat toplusundan istifadə etməklə kompleks məzmun daşıyan dəyişilmələrinin nəzərə alınması, daha ətraflı bələdçi qaydalarına sahib olmasının imkanı da artıra bilər. Bu artım tədqiqatın aparılmasının məqsədi üçün hesablanmış metod və seçimdən neçə istifadə edilməsindən asılıdır.*

**Elmi-tədqiqatın nəticələrini anlamaq üçün bəldçilik**[2]

**Mövzunun elm ilə uyğunluğu.** Bu göstərici elmi işin nəticələri ilə uyğunlaşmasından asılı olaraq, elmlilik səviyyəsinin yüksəkliyini təmin edir.

**Təhlil üçün seçim önəmi.** Coğrafiya elminin təhlilində seçim faktoru ümumi dəyişkənliyinin taktiki variantlarından biridir. Seçim-coğrafiya elmi tədqiqatının əsas önəmidir.

**Sərbəstlik dərəcələri.** Mövzu ilə metodiki aparat arasında tarazlığın qorunması dərəcəsinin təyinində sərbəstliyin saxlanması mühüm şərtdir. Bu o deməkdir ki, sərbəstlik dərəcələri rasional olmalıdır. Rasionallıq dərəcələri effektli olarsa elmi-tədqiqatın aparılması bir o qədər praktiki əhəmiyyət daşıya bilər.

**Metodiki qaydalara müraciyət.** Qarşiya qoyulan tematikaya uyğun işlək metodiki aparat seçilməlidir. Metodiki aparat mövzunun “hərəkəti”ni və “güçü”nü müəyyən edir. Burada şablon metodlardan uzaq olmaq lazımdır.

Coğrafiya elmi tədqiqatının bölmələrində nəzəri-metodikasının müəyyənliyinin məqsədində gənc oxuçularının fəaliyyətinin aktiv mühitinin yaranmasına dair suallar qoyulur və kompleksliyi üçün tədbiqi istiamətlərini tövsiyyə edirəm:

- mövzunun mənimsənilməsi üçün qıssa yarım bölmələr üzrə suallar qoyulmuş;

[2] Bu bələdçilik tam şəkildə elmi-tədqiqatın anlamını əhatə edə bilməz. Lakin bu coğrafiya elm sahiblərinin istifadəsi üçün tədqiqat parametrlərinin təyini üçün faydalı ilkin fikir yaradır.

- bu suallara münasibətinin önəmində oxucunu düşündürın praktiki göstərişlərinə cavablandırılmasının təklifi tövsiyə olunur;
- innovativ resurslarnın elmi-tədqiqatda necə istifadə edilməsina dair "Tədqiqat və Tərəqqi" anlayışının coğrafi əhatə dairəsinin miqyasının üstünlüklərinin önəmə gətirilməsinə səy göstərilmişdir. Bu anlayışin mənimsənilməsi və tədbiqi coğrafiya elmi tədqiqatı üçün çox dəyərli məsələlərinin təhlillərinə üstünlük verilir.

Hər bir yarımbölmənin əvvəli və sonunda coğrafi tədqiqatının məqsədinə və öyrənildiyi mənbələrinin təsnifatlarına aid materiallarının mövzu ilə uzlaşdırmasına köklənən fikirlər irəli sürülmüşdür. Burada elmtutumlu mövzularının ətrafında yaranan fikirlərinə müsbət yanaşılmış və geniş məna daşıyan mövzularının təhlillinin qaydalarının miqyası əsaslandırılmışdır.

Kitabın sonunda istifadə olunan mənbələrinin qısa izahı verilmişdir. Lüğət bölməsində elmi tədqiqatların mənimsənilməsi üçün yeni terminlərin izahı təqdim edilmişdir.

## Tədqiqat üçün elmi çalarlar

Kompleks elmi təddiqat işlərinin yerinə yetirilməsi və tamamlanması heç də sadə bir məsələ deyildir. Elmi tədqiqat işinin nə qədər geniş olduğunu və bu sahədəki əksər yeni problematik məsələlərinin nə qədər aktual olduğunu dərk edilməsinin və s. tədqiqatçının bilik səviyyəsi ilə bağlıdır. Aparılan tədqiqatın nəzəri-metodiki cəhətdən nə qədər düzgün olması, mənimsənilən mövzunun tələblərinin qarşısında özünü necə aparmasının suallarının cavabları kitabın ayrı-ayrı bölmələrində daha çox yer ayrılmışdır.

Hər bir yarımbölmə üçün tədqiqatçını mətndəki təhlillərə geri qaytarmaq və bu sahə üzrə nümunələrinin davamlılığını saxlamaq məqsədində coğrafi prinsiplərinin oxunaqlığını təminatı üçün suallar əlavə edilmişdir. Bu prinsip hər bir tədqiqatçı üçün mövzu dairəsinin elmlilik səviyyəsi ilə əsaslandırmasının miqyası üçün əsas meyardır. Mövzunun təsir sərhəddinin önəmli olmasını nəzərə alaraq, ayrı-ayrı bölmələrinin məzmun və məqsədinə uyğun olaraq elmi-praktiki məqsədlərə söykənən statlara üstünlük verilmişdir.

Elmi-tədqiqat prinsiplərinə dair təhlil edilən mənbələrinin çalarlarından istifadə etməklə yanaşı, qeyd olunmamış, coğrafiya elmi üçün dəyərli hesab etdiyimiz metodiki aparatının yaradılmasına səy göstərmişik. Metodiki apartaının

nə qədər geniş olduğunu nəzərə alaraq, fəsillər üzrə yeni elmilik mənbələrinin coğrafiya elmi tədqiqatının davamlı inkişafının təminatını özündə birləşdirən dinamik modellərini təklif edirik. Ona görə ki, dinamik modelləri = istinad etdiyi coğrafi-tədqiqat anlayışlarının təyin olunmasında, rasional nəticələrinin alınmasında əsas rol oynayır. Bu istiqamətdə təhlil edilən mözularının fəsillər üzrə bölüşdürülməsindən başlayıb, elmin son nəticələrinə qədər davam edir.

***Məntiqi yanaşma:*** *Fikrimizcə, elmi zəka sahiblərinin ona görə dahi adlandırırlar ki, onlar öz tədqiqatlarının innovativ dinamik modelli informasiyasına söykənməsinin əsasında qurulmasıdır. Zəka sahibləri təhlil etdiyi ideya və praktiki nəticələr demək olar ki, heç kimin ağlına gəlmir. Düşünülmüş və dərk edilmiş elmin sahibləri, həm də intellektik tədqiqatlarının ilkin sahibləridir.*

Yaradıcılıqda sadə, mükəmməl coğrafi biliyinin tədqiqat prosesində neçə istifadə etməyinin yollarının haqqında şəhrlər verilmişdir. Dərk edilə bilən metodiki anlayışlarının xüsusi statlarının üzərində qurulmuşdur. Mövzu ilə metodiki qaydalarının bir-biri ilə təmasda olmasına dair mülahizələrinə aydınlıq gətirilmişdir. Təhlillərinin hansı istiqamətdə necə "bir araya gəldiyini" düşünməsinin ilkin mərhələlərinə dair tövsiyyələrinin veriməsini məqsədəuyğun saymışıq. Biz, coğrafiya elmi biliyinin mənimsənilməsində (tədrisində) tədqiqatçıları (tələbələri) coğrafiya haqqında bir sıra əlaqəli, həvəsləndirici variantlarınnın öyrənilməsinə daha çox diqqəti artırmağına tövsiyyə etmişik.

Coğrafiya elmi biliyinin aparıcı probleminin öyrənilməsinin aktual məsələlərinə dair kitabın fəsillərinin qaydalarına uyğun olaraq bir sıra yeni tendensiyallı metodiki işləmələrinə üstünlük verilmişdir. Elmin daxili strukturunun tamlığını yalnız bir variant miqyasında deyil,müxtəlif variantlarda təhlillərinə dair tövsiyyələr də verilmişdir. Söhbət təhlil zamanı təkcə lokal mövzulu variantlardan deyil, innovativ məzmun daşıyan variantlarınının işlənməsinin qaydalarından ( baxışlarından) gedir.

Məntiqi reallıq ondan ibarətdir ki, bəşəri coğrafi ideyalarının dəyişiklikləri bütün dövrlər üçün xarakterik olmuşdur. Buna müxtəlif baxışlarının olmasına baxmayaraq, ümumi yanaşma tərzi üçün demək olar ki, eyniliklər çoxluluğu üstünlük təşkil edir. Coğrafi çalarlarının çoxluluğu tədqiqat sahələrinin durum fərqlərinin olması ilə müşahidə olunur:

- məntiqi-təhlil durumu. Bu duruma malik olan tədqiqatçılar əsas etibarılə ciddi problemlərə meyil göstərməklə yanaşı, həm də elmi işinin əxlaq

normalarının mənimsəmək ruhunu əsas mənbə kimi qəbul edir;

- emosional durumu. Tədqiqat prosesində qarşısına qoyduğu probleminin həllinin yolunu emosional şəklidə qəbul etməyə üstünlük verir;
- şoxşaxəli durum. Burada tədqiqatçı tərəfindən birinci və həm də ikinci durumlarını mənimsəmək, onları eyni səviyyədə öyrənmək və təhlil etməyə üstünlük verir.

Üçüncü qrupa məxsus olan şəxslərinin əksəriyyəti, həm riyazi-məntiqi düşüncə tərzinə malik olur, tədbiqi sahələrinin fundamentallığna qarşı reaksiyasının optimallığı ilə seçilir. Elmin inkişafına töhvə vermək mədəniyyətinə malik olan bu şəxslər ömrüboyu yaradıcı olur. Bütün bunları nəzərə alaraq kitabın yazılışında aşağıdakı coğrafiya elminnin variant tərkibinin = tədqiqat sahələrinin durumuna aid seçimi verilmişdir.

| **Elmin məntiqi dürümü** | **Tədqiqatın yaradıcılıq təbiəti** | **Kreativ işləmə kodu** |
|---|---|---|
| **I-II fəsillər**<br>Coğrafiya elmin başlanğıc mənbələri. Elmin idrak modeli, coğrafi məkan modeli. | **III-V fəsillər**<br>Tədqiqatın ehtimalı. Elmi biliyin "qüvvəsi" və dayanıqlığı. Elmi biliyinin "hərəkəti". | **VI -VIII fəsillər**<br>"Elmi kreativ dili". İdeyanın qəbul edilməsi. Ehtimallıq funksiyaları. İntellektual qərar qəbuletmə. |

**Elmi biliyin dayanıqlığı**

**IX- X fəsillər**

Elmi bilik "məhsulu" seçimi. Diaqnostik nəzəri baxışlar. "Tədqiqat və inkişafın" coğrafi informasiya formaları. Tədqiqatın tənqidi düşüncə tərzi.

**Tədqiqatda coğrafi biliyinin dərk edilməsi (varinat)**

İnformasiya və tədqiqat sahəsində qazalınan biliklərinin tədbiqinin praktikası coğrafiya elminin gücünün görməyə imkan verir. Yerinə yetirilən problemin səmərəlilik imkanlarının dərkini düymayınca, alınan nəticələrinin təhlilinin aparılması və onun müzakirəsinin aparılması mümkün deyildir.

Bu, I II fəsildən etibarən X fəslə qədər bizim məqsədimiz bu istiqamətlərə köklənir. Bununla da elm sahiblərə, onların yaradıcılığına və ətraf aləmə coğrafiyanın geniş və maraqlı tədbiqləri haqqında düşünməyə kömək edir.

## Elmi biliyin əhatə dairəsi

Elmi biliyin əhatə dairısi nədir? Sualı bir çox məna daşıyıcılarını özündə əks etdirir. Dialektik, analitik baxışlarının coğrafiya ilə əlaqələri; elmi-praktiki ehtimallığı və s. elmi biliklərinin öyrənilməsi və tədbiqi sahələri buraya daxildir. Elmi biliyin əhatə dairəsinin metodoloji imkanlarını, effektliyini, müasirliyini, gələcəyini və s. məna düşüncə tərzlərinə aid məsələlərinin mətn boyunca təhlillərinə üstünlük verməklə davam etdiririk. Bununla biz müasir dövrdə coğrafiya elminin ən mühüm məntiqli əhatə dairəsinin motivlərinin qəbulu kimi dərk etməyini tövsiyyə edirik. Yəqin ki, bunu deməyə ehtiyac qalmır: məntiqi düçüncə tərzi ilə yanaşsaq, qapalı coğrafiya elmi düşüncəsi ilə elmi-tədqiqata giriş mətninin yaza biləcəyimiz imkanlarının günləri çoxdan öz funksiyasını itirmişdir.

Bilik informasiyanın tədqiqat sahəsinə çevirmək, qarşısına qoyduğu problemlərini başa düşməli, real elmi nümunələri və tədbiqləri vasitəsi ilə əsas coğrafi anlayışlarını təhlil etməyə tədqiqatçı hazır olmalıdır. Bütün bunlar = "tələb-təklif" qaydalarına sahib olmasını tələb edir. Tələb və təklif qaydaları bərabər olanda elmi işinin məzmunun da tarazlığının yaranmasına səbəb olur. Elmi biliklərinin qəbulu və onun ötürülülməsi yolunun təyin edilməsinin önəmində tələb və təklif qaydalarının tarazlığından çox asılıdır. Bu asılılığın prinsipləri coğrafiya elminin əhatə dairəsinin əsas məsələlərindən biridir. Lakin bu yolun məqsədi çox zəhmət və yaradıcı düşüncə mövqeinə sahib olmağını tələb edir. Bu tələblərinin elmi mənbələrinə şevirmək və metodiki cəhətdən ümumi nəticəyə gəlməsinə dair fikirlərinin arasındakı müxtəlifliklərinin olması da mövcuddur.

M.Şeler[3] biliyi metofizki mənasının çərçivəsində təhlili zamanı üç təsnifat ayırmışdır:

(a) şəxsiyyətin tam inkişafına xidmət edən biliklər;
(b) biliklərlə zənginləşərək yetkinləşməyən, məqsədi olan ilahi biliklər;
(c) təbiəti mənisəmək, dünyanı dərk edən praktiki biliklər və ya pozitiv elmlərə aid biliklər.

S.Xəlilov[4] göstərir ki, bilik elmin tərkib hissəsidir. "Elmi bilik" ifadəsi altında onun daxili məzmunu ilə yanaşı, ümumi əlamətləri də tədqiqat obyektinə çevrilir. S.Xəlilovun mülahizəsinə istinad edərək deyə bilərik ki, deməli, hər bir

[3] М.Шелер. Формы знания и образование. М.,1994.
[4] S. Xəlilov. Elm haqqında elm. Bakı, 2011.

elmi biliyin ümumi təqdim edilən struktur sahəsi və buna uyğun tədqiqatın sərhəddi mövcuddur.

Gənc tədqiqatçı özündən əvvəlki elm sahiblərinin qoyub getdiyi ideyalara yaxşı münasibətdə həssas olmalı və onun inkişafına diqqətlə yanaşmağının vərdişinə nail olmalıdır.

Məsələ onunla izah olunur ki, bilik ehtiyatı nə qədər dəyərlidirsə, tədqiqatın keyfiyyəti də bir o qədər elmlilik təsir qüvvəsinə (həssaslığına) malik olur. Bu da araşdırma prosesinin effektliyinin artmasına, yeni məzmuna malik olma imkanını genişləndirir.

Məntiqi misiyanın əsas məqsədli vəzifəsi = mənbələrinin öyrənilməsinin məzmununda coğrafi tədqiqatlarının kompleksliyinə təsir edir və o cümlədən problemlə məşğul olan alimlərinin yaradıcılığının potensialı ilə uzlaşdırılır. Elmi təfəkkürə və yaradıcılıq potensiallına malik olan gənclərinin bu istiqamətdə coğrafi elmlilik məşqulluğunun artırılmasına, elmi həyat tərzinə təsiri inkaredilməzdir. Yaradıcı insan öz-özünə nəzarət etməyini üstünlük tutmaqla yanaşı, mövzunun həlledici parametrlərinin seçilməsini vacib sayır.

Kitabın demək olar ki, bütün bölmələri boyu coğrafiya elmi biliyinin tövhəsindən, əhatə dairəsindən bəhs olunur. Bununla yanaşı, həmçinin tədqiqatçının üç əsas məntiqinə də sahib olması tövsiyə edilir:

* düşünmə yollunu öyrənmək;
* daima seçim etməli;
* yaradıcı tədqiqatcı olmaq tezislərinə üstünlük vermək.

Elmi biliyinin əhatə dairəsinə həm də lovğalığa meyilliyin olmaması daxildir. Bəzi hallarda müəyyən bilik qazandıqdan sonra, dərhal özlərini başqalarından üstün tutan gənclər müdrik olmaq əvəzinə, lovğalığa meyil göstərirlər. Lovğalıq: səmimi, yaradıcı, yardımçı ifadələri ilə əvəz olunması daha məzmunludur və müdriklidir. Elmi rütbələrinin, adlarının izahına fikir versək = hamısında öyrətmək, cəhd etmək və s. ifadələrinin əsasında yaranmışdır.

**Qeyd:** *Elmə xidmət edən personallarının ifadələrini izahını verək: professor (lat. müəllim, söyləmək, mühazirə oxumaq):dosent (lat.hərfi mənası öyrədən); aspirant (lat.cəhd edən); lektor ifadəsi (lat.qiraətçi) və s.*

## Praktikada coğrafi tədqiqata ehtiyac

Kitabın bütün bölmə və yarım bölmələrindəki əsas coğrafi anlayışının dəstəkləyən son elmi praktiki tədqiqatlara və ya informasiyalarına köklənir. Gənc tədqiqatçılara, onların həyatlarına və cəmiyyətə coğrafiyanın geniş əhatə dairəsinə uyğun tətbiqləri haqqında düşünməyə köməklik edir. Bəzi bölmələrində bununla əlaqədar real həyatla daha da əlaqələndirmək üçün bir və ya bir neşə suallarda təklif olunur.

Mətn boyu coğrafiya elminin tədqiqtlarından ölkənin iqtisadi - sosial ehtiyaclarına, mənəviyyatına xidmət etməsini önəmə gətirilməsinə səy göstərilmişdir. Ölkənin ümumi dayanıqlı inkişafına xitmət edən mövzularının seçilməsinə, onun praktiki dəyərlərinin diqqət mərkəzinə çevrilməsinə dair tövsiyyələrinin verilməsini də önəm gətirilmişdir. Önəmin məqsədində təyin edilən mövzular praktiki və məqsədyönlü problemlər üçün təməl yaratmaq imkanına malik olmasına münasibət bilidirilir.

Coğrafiya elmdə baş verən yeniliklərinin mənimsəməklə yanaşı,məsələyə öz düşüncə tərzi ilə yanaşmağı bacarmaq imkanlarına dair baxışlar demək olar ki, bütün bölmələrində diqqət sahəsinə çevrilir. Bölmələrdə belə bir ifadələr irəli sürülür ki, o vaxt aparılan elmi işlər yenilk kimi qəbul oluna bilər ki, coğrafi tədqiqatlarının nəticələrində praktiki məsələlər üstünlük qazana bilsin və s. Yəni tək bir mövzu daxilində deyil, elm aləmində baş verən keyfiyyət seçiminin dəyişilmələri üzərində qurulan araşdırmalarının nəticələri daha çox praktikaya xidmət edə bilər.

> “**Coğrafiya**: ərazi resursun və cəmiyyət təbiətinin coğrafi məkan çərçivəsində dərk edilməsi və seçiminin qanunuyğunluğunu öyrənən elmdir”. Tərifdəki “coğrafi məkan” və “seçim” əsas ifadələrdir.

Hər bir növbəti fəslin məqsədi bu tərifi daha ətraflı şərh etmək, coğrafiyanın öyrənmə problematikasına dair tədqiqatçının nəzəri biliklərini artırmaq üçün bir sıra suallarının qoyuluşunu göstərə bilərik:

* “coğrafi məkan” ifadəsi haqqında nə kimi mülahuzələr var?
* coğrafi məkanın seçimi nə deməkdir?
* nə üçün praktiki coğrafiyada “coğrafi məkan və seçim” üstünlüyə malikdir?
* coğrafi məkan sistemində seçiminin hansı yollar ilə təhlil obyektinə çevirmək olar?
* bu seçim faktında daha effektli variant ola bilərmi?

* niyə? nəticə yaxşıdır, yoxsa pisdir? və s.

Dövrün tələbinə uyğun gələn bu sullarının cavabı coğrafiya elminin praktiki hərəkətverici "qüvvəsi"nə daha çox yaxınlaşdırır və üstünlük qazanmasına şərait yaradır. Bu tip suallara cavablar axtaran öxucu özündə = elmə qarşı qətiyyətlilik qazanır; elmi araşdırmaya münasibətdə müsbət keyfiyyətlərini birləşdirir.

Müasir dövrdə coğrafi innovasiyanın əhatə dairəsinin dialektik və optimal funksiyalarının seçiminin tədqiqat sahələrinə çevrilməsinin praktikası daha çox dəyərli qəbul edilir. Praktiki coğrafi seçiminin mobilizasiyasının fonunda "tələb-təklif"in qəbulu haqqında düşünərkən, toplanmış bilik və əldə edilmiş təhlillərinin məzmunun elmliliyi ilə əlaqəlidir. Ona görə də, kitabın məqsədinə çavab verən elmi təhlillərinin praktiki xarakterli mövzularına və metodlarının seçiminə üstünlük verilməsinə dair yarımbölmələrində daha ətraflı, yeni materiallarının təqdimatı zamanı "öyrənmək-bilik toplamaq-təcrübə əldə etmək" prinsipi əsas məqsəd kimi qəbul olunmuşdur.

## Təhlil etmək üçün resurslar

Coğrafiya elmi araşdırmasının qaydasında "resurs" ifadəsinin özünəməxsus müəyyənliyi var. Lakın müəyyənliyinin nə qədər vacib olduğunu elm sahibi yaxşı dərk edir. Həqiqət ondan ibarətdir ki, hər bir tədqiqat sahəsinin müəyyən dərəcədə resurs imkanlarına uyğun aparılır və tamamlanır.

Resurs = tədqiqatın texnoloji arqumentidir. Resursun növü və onu əldə etmək üçün tədqiqatın məqsəd və seçiminin funksiyalarının müəyyən tərzi ilə bağlıdır. Tədbiqi vasitəsi ilə resurs kompleks yaradır və onun strateji istiqamətlərini təmin edir. Elmi tədqiqatın dövriyyəsinə daxil olan resurs potensialı dinamikdir və həm də çoxfunksionaldır.

**"Resurs" ifadəsinə daxildir:**



"Resurs" ifadəsinin altında imkanlarının nümunələri və tədbiqlərinin vasitəsi ilə əsas coğrafi anlayışlarının müəyyənliyinin araşdırılması müasir dövrün tələblərindən irəli gəlir.

Resursların praktiki funksiyalarının öyrənilməsi, realizasiyası elə də sadə bir məsələ deyil. Kreativtutumlu və kapitaltutumlu tədqiqat sahələrinin resurs təminatınına doğru aparılan yolunda elmi kadrlarının hazırlanmasından asılı olaraq həyata keçirilir (xüsusən varlı sənaye ölkərində).

Azərbaycanda elmi tədqiqatlarının həllinə dair dövlət proqramları qəbul olunmuş və həyata keçirilir. Ölkəmiz kifayyət qədər maliyyə resurslarına malikdir. Gələcək inkişafa uyğun olaraq strateji resursların elmin inkişafına necə yönəldilməsindən asılıdır. Əsas məsələ maddi cəhətdən zəngin olmaqdan daha çox, optimal iqtisadi və elmi-texniki siyasətinin yeridilməsinə, elmi resusrlarının istifadə edilməsinə nəzarətinin artırmağını düşünək. Elmi əsaslar isə, bir tərəfdən, yeni elmi potenasialına diqqətin artırılması, digər tərəfdən isə coğrafiya elmi tədqiqatlarının keyfiyyətinin artırılmasına münasibətdə səfərbərlik nümayiş etdirilməsidir. Səfərbərlikdə elmi-tədqiqatlardan istifadə edə bilmək üçün öncə coğrafiya elmin özünə həssas yanaşmaq, hər tərəfli münasibətinin yaradılmasını tələbi vacibdir. Məntiqi yanaşma onunla ölçülür ki, tədqiqatçı ilk növbədə elmin tendensiyasına yanaşma qaydalarına münasibət bildirməyinə səy göstərsin. Yəni təhlil etdiyi resursun yarada biləcəyi istehsal funksiyalarının potensiallığını əsaslandıra bilsin. Bu zaman, özünün dərkinə uyğun araşdırdığı predmetinə və məqsədinə aydınlıq gətirə bilər.

Müasir dövrdə coğrafiyanın ümumi inkişafında rolu və yeri məsələsinə ölkəmizdə elmə münasibət problemi ilə heç də qənaətbəxş deyildir. Digər ölkələrlə müqayisədə coğrafiya elminin tədbiqi sahələri ölkəmizin iqtisadi və sosial inkişafına xidmət variantları azlıq təşkil edir. Başqa sözlə, coğrafiya elmi tədqiqatlarının təməli elmtutumlu sifariş əldə etməklə inkişaf edə bilər.

## Tədqiqatçı üçün əlavə mənbələr

Elmi-tədqiqata giriş kitabının hazırlanmasında istifadə edilən mənbələrinin sıralarında coğrafiya elminin inkişafı üçün fundamental tədqiqatlar aparmış şəxslərinin əsərlərindən istifadə edilmişdir. Məqsədimizə uyğun olaraq aşağıda tədqiqatçı üçün faydalı saydığımız bir sıra klassik coğrafi elm sahibləri haqqında məlumatları kitabda əlavə olaraq verməsini məqsədəuyğun saymışıq. Səbəb ondan ibarətdir ki, coğrafiya elm sahiblərinin apardıqları araşdırmalarının

nəticələrini bilmədən, konstruktiv problemlərinin yerinə yetirilməsi qeyri-mümkündür.



İngilis coğrafiya elmi məktəbinin formalaşmasında xidmət göstərən **P.Xaqqet** (Peter Haqqett) tədqiqatlarında "Məkan təhlilləri" nəzəri baxışlarına yeni prizmadan aparılmasına, praktikasına önəm yaratmışdır. Onun "Coğrafiya: müasir elmi biliklər" (1972-ci il) adlı sanballı monoqrafik tədqiqat işi coğrafiya elminin davamlı və kompleks inkişafında mühüm rasional idrak mənbəyi hesab edilir. P.Xaqqet həmçinin bir çox coğrafiya elmi istiqamətlərinə, o cümlədən konstruktiv coğrafiya elminin aktual məsələlərinə aid araşdırmaları da dəyərli hesab edilir. Vautrin Lud Prize adına Coğrafiya üzrə Nobel mükafatını almışdır.

***



İngilis-Amerika coğrafiya elmi məktəbinin klassik nümayəndəsindən biri də **Devid Harvi** (David Harvey) sayılır. Coğrafiya elminin inkişafında konstruktiv ideyalarını önəmə gətirilməsi ilə fərqlənir. "Radikal coğrafiya" elminin banisidir. "Kosmopolitanizm və coğrafi azadlıq" ("Cosmopolitanizm and Geographies of Freedom", 2009); "Coğrafiyanın elmi təhlili" ("Explanation in Geographu", 1969) və digər əsərləri coğrafiya elminin nəzəri metodologiyasında dəyərli mənbə kimi çox faydalıdır. Tədqiqatlarının nəticələrinə görə Vautrin Lud Prize adına Coğrafiya üzrə Nobel mükafatına layiq görünmüşdür.

***



**Corli Ricard** (Chorley Richard). Coğrafiya elmində kəmiyyət metodunu, fiziki coğrafiya tələmində sistem, coğrafi məkan konsepsialarının formalaşmasındakı fikirləri çox önəmlidir.

***



**R.C.Conston** (Ronalid John Johnston) coğrafiya elmində kompleks terminoloji cəhətdən zənginləşməsində xidmətləri çox böyükdür. Elmin metodologiyasına dair tədqiqatlarının fəlsəfəsində "Şəhər sosial coğrafiya", "Elektron coğrafiya" və s. xüsusi yer tutur. Onun fikrincə, coğrafiyanın yalnız peşə təlimi kimi qəbul etmək olmaz, bu elm fundamental elmlər sərasına daxildir və müstəqil nəzəri-metodoloji elmi istiqamətinə malikdir. Vautrin Lud adına Coğrafiya üzrə Nobel mükafatını alıb.

***



**Vilyam Bunqe** (William Bunqe). Riyazi coğrafiya, nəzəri coğrafiya və coğrafi proqnoz elmi istiqamətlərinə dair araşdırmaları coğrafiyanın inkişafında mühüm əhəmiyyət kəsb etmişdir. Radikal coğrafiya elmi istiqamətli ideyalara meyilli olmuşdur. Onun riyazi-coğrafi modelləri elmin radikal istiqmətli inkişafında xüsusi mövqe tutur.

***



**Əskər Əyyubov**. Azərbaycanda biometerologiya elminin banisidir. İqlimşünaslığın tədbiqi elminə dair coğrafi tədqiqatları konstruktiv xarakterə malikdir. İqlimin bonitirovkası, aqroresurslarının elmi-praktiki cəhətdən mənimsənilməsinin ideyaları çox önəmlidir. Onun rəhbərliyi ilə hazırlanmış "Azərbaycan Respublikasının aqroiqlim atlası" adlı sanballı əsərinin metodikası kompleks hədqiqat mənbələrinin sıralarında önəmli yer tutur.

***



**Rizvan Piriyev**. Azərbaycanda morfometrya elmi məktəbinin yaradıcısı hesab olunur. O, ilk dəfə olaraq relyefin riyazi modelini, ryazi-statistik metodunun sahibidir. Relyefin funksional paylanmasının ekstremal yüksəkliklər üzrə apardığı araşdırmaları elm aləmində nəzəri əsas kimi qəbul olunmuşdur. Onun "Relyefin morfometrik təhlili" monoqrafiyası coğrafiya elminin tədbiqi sahəsində praktiki yer tutur.

***



**Budaq Budaqov.** Müasir və qədim buzlaşmasını öyrənmiş, ərazinin xəritələrini tərtib etmişdir. İlk dəfə (1956) Qafqazda 3600 m mütləq yüksəklikdə Üst Sarmaq yaşlı dəniz faunasını aşkara çıxarmışdır. Aerokosmik üsullarla Böyük və Kiçik Qafqazın şərq hissəsinin morfostruktur quruluşunun qanunauyğunluqları və landşafın differensiasiyasına dair elmi işlərini yerinə yetirmişdir.

***



**Əbdülrəhim Hacızadə**. Ərazi-istehsal və ərazi-sənaye kompleksinin inkişafına dair təhlillərini aparmışdır. "Azərbaycanın sənaye kompleksi" və s. əsərlərinin mahiyyətində elmi-praktiki cəhətdən əhəmiyyət kəsb edir. Yeniliyi sevirdi. İlk dəfə olaraq tədqiqatlarında sadə təsvirlərdən dərin təhlilə keçərək təbii ehtiyatların bal göstəriciləri ilə iqtisadi coğrafi təhlillərini aparmış, sənayenin tskilli inkişafına dair metodlarını irəli sürmüşdür.

***



**Sabir M.Hüsenzadə**. Moskva Dövlət Universitetinin iqtisadi-coğrafiya kafedrasında apardığı tədqiqatlarında riyazi modellərinin coğrafiya elminin müxtəlif sahələrindəki istiqamətlərinin tədbiqində praktiki əhəmiyyət daşıyır. "Əhalinin yerləşməsi və kənd yaşayış məskənlərinin modelləri", "İqtisadi və sosial coğrafi tədqiqatlarında idarəetmə sistem metodlarının tədbiqi" və s. monoqrafik əsərləri coğrafiya elmi yaradıcılığında mühüm yer tutur.

# BİRİNCİ FƏSİL

# Coğrafiya elmi: başlanğıc məntiqi, davamlı durumu

**Fəslin icmalı və tədqiqat məqsədləri:**

**1.1. Antik coğrafiya elminin öyrənmə seçimi**
Antik elm sahiblərindən gəlmiş coğrafiya elminin resurslarının neçə istifadə etməyinin yollarını bilmək marağı elmin inkişafına səbəb olmuşdur.

**1.2. Coğrafiya elmi bilik təliminin sahibləri**
Coğrafi bilik sahibləri ərazilərinin təbii-coğrafi şəraitini, baş verən hadisələrinin elmi düşüncə tərzində tədqiqat sahələrinin öyrəməyə cəhd etmələri ilə fərqlənmişlər.

**1.3. "Elmi tədqiqatın idrak modeli" haqqında**
Məqsəd ondan ibarətdir ki, tədqiqatçı üçün idrak modellərinin qurulması və istifadə edilməsinin faydası çox əhəmiyyətlidir və qarşıya qoyduğu məsələnin izahında koməklik göstərir.

**1.4. Coğrafiya elmin yaradıcılıq təşəbbüskarlığı**
Elmin yaradıcılıq təşəbbüskarlığı ilə bağlı nəzəri və praktiki yönümlü tədqiqatlarının önəmə gətirilməsinə məqsədli araşdırmalar aparılmışdır.

**1.5. "Tədqiqat & Praktika" terminin ideal məqsədləri**
Elmin ideyalarının "Tədqiqat & Praktika" terminin öyrənilməsinin qaydalarına aydınlıq gətirilmişdir.

**1.6. Tədqiqatın obyektiv-subyektiv motivləri**
Elmi "duymaq" üçün tədqiqatçı obyektiv-subyektiv motivlərini öyrənmək və istifadə edilməsinin mədəniyyətinə malik olmasına dair izahları verilmişdir.

## 1.1. Antik coğrafiya elminin öyrənmə seçimi

*"Hər hansı yeni bir problemi həll etdikdə əvvəlcədən hazırlanmış resept yoxdur. Burada cəsarət, yenilikçilik və şəraitə uyğun ağıllı tədqiqatlar tələb olunur."*

**B.Fonteneneli**

"**Coğrafiya**: ərazi resursun və cəmiyyət təbiətinin coğrafi məkan çərçivəsində dərk edilməsi və seçiminin qanunuyğunluğunu öyrənən elmdir". Tərifdəki "coğrafi məkan" və "seçim" əsas ifadələrdir.

Bu və növbəti bölmələrinin məqsədi bu tərifi daha ətraflı şərh etmək və coğrafiya üzrə aparılan elmi araşdırılmalarında tədqiqatcının necə hərəkət etdiyinin yollarına bələdçilik etməkdir. "Coğrafiya" ifadəsində = ərazi kompleksinin = dinamikasının necə seçim etməsinin məzmunu durur. Tədqiqatçının seçimləri üst-üstə düşdükdə və metodoloji cəhətdən tamamlandıqda elmin seçiminə çevrilir. Bütün bölmələrdə bu prinsiplərə məqsədli olaraq əməl edilir.

Bu yarım bölmədə coğrafiya elmi tədqiqatlarının ənənəvi şərhindən fərqli olaraq, elmin antik dövrlərindən başlanmış inkişaf parametrlərinin və problemlərinin özündə əks etdirən yaradıçı coğrafi öyrənmələrinə oxucunu səyahətə dəvət etməkdir. Bölməyə daxil edilən mövzularının tematikasının ənənələrinə sadiq qalaraq yarımbölmələr üzrə məntiqi başlanğıc durumlarına diqqət yetirilir. Məqsədli olaraq gələcək araşdırma zamanı bir neçə suallarının izahının cavab tapılması üçün maraq yaratmaq misiyası təklif olunur:

1. Antik coğrafi düşüncə təliminin mənbəyi hansı məntiqə söykənmişdir?
2. Coğrafi məkanın dərk edilməsinin izahı elm üçün dəyərlidirmi?
3. Coğrafi düşüncə tərzinin praktikasının elmdə nə kimi seçim etmişdir?

Coğrafiya elminin başlanğıc məntiqində antik dövr fəlsəfəsinin metafiziki[5] təliminin mənbələri durur. Metafiziki düşüncə tərzində real coğrafi şərait hadisələrinin öyrənilməsinə uyğun seçimlərinin müəyyənliyinə dair irəli sürülən təsviri düşüncə məntiqinə söykənən fikirlər üstünlük təşkil edirdi. Coğrafiyanın

[5] **"Metafizika"** sadəcə Aristotelin " Metafizika" kitabının mənasındadır.

təbiəti, formaları, onların metodiki izahının reallıqları antik fəlsəfi-coğrafi düşüncə tərzinin "məhsulları" hesab edilir.

Coğrafiya elminin daxili məzmununda xüsusi yer alan "təbiət-insan" düşüncə tərzinin dərk edlməsinə dair filosof-coğraflar tərəfindən məzmunlu seçimlər irəli sürülmüşdür. Bu seçimlərinin durumu sonrakı dövrlərdə coğrafiya elminin qarşısında dialektik metodiki əsaslarla öyrənilməsinə qarşı ideyalarının yaranmasına səbəb olmuşdur. İdeya məzmunlu araşdırmalarının nəticələri və praktikası coğrafiya elmi yaradıcılığının təməli kimi tədqiqatçılar tərəfindən müxtəlif istiqamətli izahları təklif olunmuşdur (1.1.1).

Coğrafiya = antik yunan mənbəyində = ***"GEOGRAPNİKA***" ifadəsi kimi işlədilir. Elmi düşüncə sahibi, antik yunan filosofu Strabon ilkin olaraq coğrafiya (təbiətşünaslıq) məktəbini yaratmışdır.



**Starbon**: 17 kitabdan ibarət-***"GEOGRAPNİKA***"-əsərinin müəllifidir. Qafqaz Albaniyası və Antropotena haqqındakı fikirləri elmi mənbə kimi Azərbaycan coğrafiyası və tarixi üçün çox faydalıdır.

Dünyanın dərk edilməsində antik dövrünün filosof-təbiətşünasları (coğrafiyaşünasları) emosianal-psixoloji və idrak-məntiqi coğrafi seçimin izahına üstünlük vermişlər. Filosof-coğraf mütəfəkkirlər çoxtərkibli "təbiət-cəmiyyət"in qarşılıqlı əlaqələrinin dinamikasının öyrənilməsinə dair fikirlərinin praktikası bütün dövrlər üçün mənbə kimi istifadə olunmudur.

- ***Seçimə baxış:*** *Antik dövrün dünyagörüşünün əhatə dairəsi və dəyərliyi haqqında fikirlərinin formalaşması, gələcək nəslin coğrafiya elminin yeni mərhələnin başlanğıcı kimi hesab etmək olar. Sözün əsl mənasında yüz illər ərzində coğrafiya elminın təlimi barəsində çoxlu sayda müzakirə mövzusu olmuşdur. Fikrin əleyhdarları coğrafi mühitin nəzərə alınmasına dair öyrənilən mövzular üzrə fikirlərdə seçim obyektinin müxtəlifliyində özünü göstərir.*




### 1.1.1. Antik fəlsəfi-coğrafi seçiminin müxtəlifliyi

Antik fəlsəfi-coğrafi təfəkkür tərzinin önəmində real coğrafi mühitin dərk-etmə durumun yaradıcılığının – öyrənmə mahiyyəti ön plana çəkilməsi antik-coğraflarının ideya daşıyıçılığının məqsədlərinin tərkibinə daxildir. Coğrafi mühitinin varlığının mühüm kateqoriya kimi qəbul edilməsində optimizmin[6] ideyaları aparıcı sahələrindən birinə çevrilmişdir.

Coğrafi duyumun dərk edilməsində optimizim antik fəlsəfənin əsas motivlərindən biri olması ilə elmin tədqiqatlarının sıralarına daxil olmuşdur. Sonrakı dövrlərdə isə onun praktikasına aid fikirlərinin toplusu elmin inkişafında mühüm yerə ala bilmişdir.

Bu sahədə antik yunan Eley məktəbinin nümayəndələrinin təklif etdikləri "təfəkkürün varlığa münasibəti"nə yanaşma seçiminin irəli sürülməsinin nəticələrinə qarşı marağın yaranmasına səbəb olmuşdur. Eley məktəbinin nümayəndəsi sayılan Ksenofanun (e.ə.565-473) məntiqində "hər şey torpaqdan yaranır, hər şey son nəticədə torpağa qayıdır". Yunan filosofu Parmenid (e.ə. 540-470) "Təbiət haqqında" əsərində göstərir ki, "bütün varlıqlar təbiətlə bağlıdır"; Empedokl isə (e.ə. 490-430) "Təmizləmə" əsərində qeyd edir ki, "hər bir varlığın əsasını: torpaq, od (istilik. A.Q.), hava və su təşkil edir".

Coğrafi duyumun dərk edilməməsinə dair antik filosiflarının bir qısmi dünya dərk edilmir ifadəsi altında skeptizm[7] (Pirron, Monten və b.) və adnostizm[8]

[6] "Dünya dərk edilir" - ifadəsidir.
[7] Skeptizm – dünya tam dərk edilmir.
[8] Adnostizm – dünya dərk edilmir.

(Yum, Max və b.) nümayəndələrinin fikirərinin qəbul edilməsi coğrafiyaya marağın artmasına səbəb olmuşdur. Bu fikirlərinin düşüncə tərzində "mütləq ideya", "mütləq ruh" hər şeyin (coğrafi şəraitin, A.Q.) yaradıcısıdır ifadələrini göstərə bilərik.

Qədim Yunan fəlsəfəsində coğrafi mifik anlamının motivlərində Milet fəlsəfə məktəbinin rolunu qeyd etmək olar. Fales (b.e.ə. 624-547) "üfüq", "üfüqün cəhətləri" terminini ilk dəfə işlətmiş və o vaxtdan coğrafiya xəritələrinin cəhətlərinin əsası yaranmış və tərtibində istifadə olunmağa başlanılmışdır. İlk məzmunlu xəritənin tərtib edilməsində Milet məktəbinin filosof-coğraflarının nümayəndələrinin ideyaları diqqətə layiqdir.

Bu sahədə Aneksimandr (e.ə. 601-546) tərəfindən "Dünyanın xəritəsi" və "Qlobus" traktlarında coğrafiya haqqında, xəritələrinin tərtib edilməsinin metodikasına dair fikirlərini qeyd etmək olar. "Qitələr" terminindən istifadə edərək "Asiya" və "Avropa" arasındakı sərhədlərinə dair coğrafi mülahizələrinin elmi əhəmiyyətinin dəyərləri bugün də özünü göstərir.

Heradot (b.e.ə. 490-425) "Tarix" kitabında təkcə coğrafi hadisələr haqqında deyil, həm də ölkəşünaslıq elminin yaranmasında xidmətlərini də qeyd etmək məqsədəuyğundur.

Yerin kürə şəklində olması haqqında Parmenid, Pifaqor, Aristotel və astronom Evdoks və s. xidmətlər göstərmişlər. Bu fikirlər faktlarla təsdiq edilmir. Fəlsəfi-coğrafi düşüncə sahibi Eratosfen "Coğrafi qeydlər" kitabında Yerin təsvirini vermiş və məlum olan ərazilərinin xəritəsini tərtib etmişdir. O,Yerin kürə şəklində olması ideyasını qəbul edərək Misirin İsgəndəriyyə şəhərində ölçmə işləri aparmışdır. Eratosfen Yerin radiusunun 6310 km, 1°-lik meredian qövsünün 110 km olduğunu təyin etmişdir.

Enliklərin dərəcələrlə hesablanmasını ilk dəfə Hipparx aparmışdır. O, ilk dəfə meridianı 180 dərcəyə bölmüş, xəritədə dərəcə şəbəkəsi çəkmiş, Yerin məskunlaşma hissəsində 12 iqlim, yəni enlik zonalarını təklif etmişdir. Dünya okeanının vahidliyi haqqında fikiri ilk dəfə Aristotel söyləmiş, sonra Eratosfen tərəfindən inkişaf etdirilmişdir. O, deyirdi ki, "əgər Atlantik okeanının geniş suları mane olmasa, eyni paralel üzrə İberiyadan (Priney yarımadası) Hindistana üzüb keçmək olar". Bu dövrdə Cənubda olan torpaq sahələri Terra Australis İncognita (Naməlum Cənub Torpaqları) adlanmışdır.

Yunan filosofu Klavdi Ptolemey öz dövrü üçün əhəmiyyətli əsər sayılan "Coğrafiya" kitabında "İntibah" dövrünə qədər ölkələr haqqında zəngin mənbəyinə, o cümlədən xəritələrinə dair məlumatlar toplanmışdır. Eratosfen və Ptolomeyin xəritələrində oxşarlıq odur ki, onların hər ikisində eyni quru ərazilər -Yeni və Köhnə Dünya – Cənubi Avropa, Ön Asiya və Şimali Afrika təsvir olunmuşdur. Fərqli cəhət odur ki, Ptolomeyin xəritəsində meridian və paralellər çəkilmiş, yerin kürəviliyi nəzərə alınmışdır. XV əsrə qədər Ptolomeyinin xəritəsindən elmdə istifadə olunmuşdur.

Şumerlilər tərəfindən ən qədim topoqrafik xəritə, Babilistanda çəkilmiş ən qədim xəritələrindən sayılır. Mesopotamiya ərazisində yaşayan xalqlar ilkin coğrafi biliyə malik olmuşlar. Dünyanın dörd cəhətdən təyin edilməsinə dair fikirləri şumerlərə məxsusdur. Babilistana aid olunan (b.e. V əsr), hazırda Böyük Britaniya muzeyində saxlanılan xəritələrin birində şəhərlərin təsvirindən görünür ki, dünya dairəvi və yastı formadadır.

Coğrafiya düçüncə tərzinin formalaşmasında Çinin tarixi-coğrafi kitablarında öz əksini tapmışdır. Qədim dövrlərdə Çində ipək parça üzərində tərtib olunmuş torpaq və poçt yolları və digər xəritələrinin ("hərbi", çaylar, dağlar və s.) məzmunu maraq doğurur.

Antik dövrün elm coğrafiya tarixinin yaradılması və buna uyğun coğrafi anlama dünyagörüşünün fəlsəfəsində xüsusi mövqe tutması ilə fərqlənmişdir. Sonrakı dövrlərdə coğrafiya elminin müstəqilliyini təmin edən tədqiqatlarının nəticəsində müasirləşmiş, yeni elmi məktəblərinin yaranmasına səbəb olmuşdur.[9]

Qərb ölkələrinin coğrafiya elmi məktəblərinin xüsusi xidmətlərini qeyd etmək olar. Böyük Coğrafi kəşflərindən sonrakı dövrlərində Dünyanın bölüşdürülməsi ilə bağlı coğrafi mənbələrinin öyrənilməsinin nəticəsində elmi məktəblərinin rolu və mövqeyi genişləndi.

[9] Де Воно Эдвард. Рождение новой идеи. М., 2000.

# Xülasə

- Coğrafiya elmi antik dövrün fəlsəfi düşüncə tərzində formalaşmışdır. Antik coğrafi tədqiqatlarının əsasını "təbiət – insan" fəlsəfəsi önəmli olmuşdur.

- Yerin kürə formasında olması, Dünya okeanın vahidliyi, xəritə tərtibi və s. coğrafi biliklərinin inkişafı üçün mənbəyə çevrilmişdir. Coğrafi dünyagörüşünün formalaşmasının təməli antik fəlsəfəsinin imkanları ilə bir dövrdə yaranmışdır. Antik dövrünün elmi mənbələrinin əsasında coğrafiya yeni bir istiqamət yoluna qədəm qoymuşdur.

- Antik fəlsəfi-coğrafi təfəkkür tərzinin önəmidə real ətraf mühitin (coğrafi mühitin) dərketmə durumun mahiyyətinə diqqətin artması ön plana çəkilmişdir.

- Coğrafi duyumun dərk edilməsi antik fəlsəfənin əsas motivlərindən biri olmuşdur və onun praktikası elmi mənbəyinə çevrilmişdir. Bu sahədə antik yunan Eley məktəbinin nümayəndələrinin təklif etdikləri "təfəkkürün varlığa münasibəti"nə yanaşmanın coğrafi seçimi bir təlim kimi maraq doğurur.

- Şumerlilər tərəfindən ən qədim topoqrafik və Babilistanda çəkilmiş ən qədim xəritələr coğrafi-praktiki istiqamətli yetərli sahələri hesab olunur.

- Antik dövrün fəlsəfəsinin məzmunu əsasında yaranan coğrafiyanın tarixi dövrlərinin rasional ideyalarının qəbul edilməsi sonrakı elmi inkişafının mərhələlərdə isə özünü göstərmişdir.

**Praktiki düşünək**:

1. Antik coğrafiya biliklərinin fərqli cəhətləri. Bununla bağlı nə düşünürsünüz?
2. Antik coğrafi seçimdə hansı anlayışlar daha elmi məzmun daşıyır?
3. Coğrafi tədqiqatlar üçün antik mənbələrinin araşdırmasında sizin məqsədiniz və bu haqqda nə fikirdəsiniz?

## 1.2. Coğrafiya elmi bilik təliminin sahibləri

*"...Digər bilik formaları ilə müqayisədə məhz elmi biliklər getdikcə daha böyük önəm kəsb edir".*

*"Yaradıcılığın hökmdarı elmi biliklərdir."*

**Filosofların kəlamları**

Hər bir tədqiqatçı üçün fərdi elmi biliklə məşğul olmasının vərdişi olmalıdır. Fərdi coğrafi bilik qazanmaq üçün klassik elm sahiblərinin tərəfindən yaradılmış coğrafi təliminin mənimsəmək və öz işində istifadə etməyi bacarmalıdır. Bu zaman pozitiv coğrafi məhsulun yaxşı və ya pis olmasını mühakimə edilə bilər.

Qloballaşan coğrafiya elminin inkişafı qədimliyi ilə fərqlənir. Erkən dövrlərdən başlayaraq tədbiqi yeniliklərə doğru davam edən coğrafiya elm sahiblərinin yaratdıqları təlimlərə və metodiki mənbələrinə münasibət bildirmək istəyirəm. Müəyyən elm sahibinin mənəvi tələbatına uyğun yaranmış fikirləri, sadə bir düşüncə olmayıb, coğrafiya elminin inkişafına xidmət edən ideya-nəzəri mənbəyinin əsası kimi qəbul edirik. Bunu nəzərə alaraq bir sıra sullar da yaranır:

- klassiik elm sahiblərinin yaradıcılığının zirvəsində hansı məqamlar daha önəmli olmuşdur?
- klassik və müasir coğrafi işləmələrinin arasında nə kimi yeniliklərinə aydınlıq gətirmək olar?
- elm sahiblərinin düşündürən coğrafi işləmələrinin variantlarını təhlil etməyə və ondan istifadəsinin dəyəri varmı?

Müasir elmi-tədqiqatlar ilə klassik elm sahiblərinin təklif etdikləri ideyalarının arasında isə "elmi yaradıcılıq"ın təməli qurulur və davamlı olaraq onun miqyası yeniləşərək müstəqil bir elm sahəsinə çevrilməsinə səbəb olur. Bu elmi-tədqiqat üçün olduqca çox dəyərli seçimdir. Tədqiqatçı klassik elmi sahələrinin apardıqları mövzunun çalarlarını və məramlarını öyrənməklə, yeni biliklərinin mənimsənilməsinin kodlarını müəyyən edir, öz məqsədləri üçün istifadə edə bilər. Belə bir mühitin yaradılması təkcə öyrənmək yox, eləcə də onu hansı yeni üsullarla istifadəsinə dair praktiki məsələlərinə yönəldilən ideyalarının yaranmasına da köməklik göstərmək imkanına malikdir.

Qərbin coğrafiyasının yeniləşməsinə köməklik göstərən elm sahiblərinin əsərlərinə müasir dövrdə də statlar gətirirlər və öyrənilir.[10] Çoxsaylı mənbələrinin əsasında coğrafi tədqiqatlar üçün əhəmiyyət kəsb edilən "tələb – təklif" modelinin yaranmasına və istifadə edilməsinə aid yanaşmalarına üstünlük verilir. Buna görə də coğrafiya planetar elmlərinin çərçivəsinə daxil olmuşdur. Ümumbəşəri məsələlərinin həllinin yolunda coğrafiyanın da xüsusi yeri və mövqeyi mövcuddur.

Elmin bəşəri çərçivəsinə daxil olan coğrafi mövzularının təhlilinin metodikası elm sahiblərinin daima diqqət mərkəzində olmuşdur. Mərkəzdə isə əsasən aşağıdakı seçimlərini önəmə gətirmişlər (1.2.1.):




**1.2.1. Elm sahiblərinin coğrafi seçimləri haqqında**

Orta əsrlərinin elm sahibləri = coğrafiya elmi biliklərinin formalaşmasının və özünütəşkilnin seçimləri və onların öyrənilməsinin yollarının təlimlərinin baniləri hesab olunurlar. Məsələ ondan ibarətdir ki, coğrafi bilik sahibləri qədim dövrlərdən başlayaraq ətraf əraziləri, onların təbii-coğrafi şəraitini, təbiətdə baş verən hadisələrinin elmi düşümcə tərzində öyrənməsinin məsələlərini cağrışlar etmişlər.[11]

Eyni zamanda Dünya haqqında, burada yaşayan tayfa və xalqlarının məskunlaşması, həyat tərzinə aid biliklərinin yeniləşməsinin təlim formalarının önəmə göstərmişlər. İlkin mənbələrdə coğrafiya elmi istiqamətində Yer kürəsində fiziki-coğrafi mühitinin yaranmasının səbəbləri, insan coğrafiyasına aid mənbə-

[10] Р.Дж.Джонстон. География и географы. М.,1987.

[11] География. Теория. Практика. Киев. (сб). 2001.

lərini, ölkəşünaslığının təlimləri və s. məsələlərinin əhatəsinə dair əsərlər yaranmışıdır. Orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrinin coğrafi bilik sahiblərinin əsərlərinin əhəmiyyəti,bu gündə elm aləmində maraq doğurur.

Coğrafiya elmi bilik təliminin seçimində *Əl-Biruni Əbu-Reyhanin* xidmətlərini göstərmək olar. Səyahətlər zamanı İran yaylasını, Xəzər dənizinin şərq və cənub sahillərindəki ölkələri, Mərkəzi Asiyanın böyük hissəsini öyrənmişdir. Bu səyahətlər zamanı Əl-Biruni türk xalqlarının məskunlaşdığı coğrafi məkanları, onların etnoqrafiyası haqqındakı fikirləri elm aləmində yüksək qiymətləndirilir.

Əl-Biruni özündən əvvəlki coğrafiyaşünaslardan irəli gedərək, *Nihâyâtü'l-Emâkin*", qısa şəkildə "*Hindistan*" adlandırılan əsərində ilk dəfə olaraq yerin günəş ətrafında hərəkətini və dünyanın hərəkətsiz deyil, dönən bir kütlə olduğunu Kopernikdən 500 il əvvəl söyləmiş və məşhur hind astronomu Brahmaquptanın "Yer hərəkətdə, göylər isə sükunətdədir" fikrini əsaslandırmışdır.

Əl-Biruni Əbu-Reyhan tərəfindən müasir astronomiya və fizikanın ilk təməllərini yaratmışdır. O, dünyanın bir çox şəhərlərinin (o cümlədən-Dərbənd, Bakı, Təbriz, Ərdəbil və s. kimi qədim və böyük şəhərlərinin) enlik və uzunluq dairələrini göstərmişdir. Onun məhşur "*Kitâbü'l-Camahir fi Marifeti'l-Cevahir*" kitabında müxtəlif mineralların və qiymətli daşların mənşəyi, xarakteri və mədənlərinin yerləşməsi haqqında şəhrlər vermişdir.

Əl-Biruni Əbu-Reyhan, cisimlərin sıxlığını təyin edən cihaz düzəltmiş və "*Xüsusi çəki*" kitabında onu təsvir etmişdir. Mayelərdə xüsusi çəkini ölçmək üçün düzəltdiyi başqa bir cihazın köməyi ilə suyun soyuq və isti hallarda, şirin və duzlu suların xüsusi çəkilərini təyin edərək göstərmişdir ki, suyun sıxlığı ilə onun xüsusi çəkisi arasında bir asılılıq mövcuddur.

Əl-Biruni "Astronomiya və ulduzlar haqqında Məsud Cədvəli" kitabında coğrafi koordinatların təyin edilməsi üsullarını izah etmiş, 600-dən çox yaşayış məntəqəsinin enlik və uzunluq koordinatlarını hesablamışdır. Diametri 5 m olan qlobus hazırlamış, 1°-lik uzunluğunu (111,6 km), Yerin meridian çevrəsinin uzunluğunu hesablamış (41500 km), onun Günəş ətrafında fırlanmasını söyləmişdir. O,Yerin fırlanma oxunun 29°34' olduğunu müəyyən etmişdir.

Coğrafiya elmi təliminin sahiblərindən *Nəsrəddin Tusi* (1201-1274) 1259-cu ildə Marağa şəhərində rəsədxana qurmuşdur. N.Tusi "Zic-Elxani" əsərində yaşadığı dövrdə məlum olan 256 şəhərin coğrafi kordinatlarını göstərmişdir.

Mənbələrə əsasən, 1266-ci ildə Mağara rəsədxanasında N.Tusi ilə birlikdə elmi fəaliyyət göstərən azərbaycanlı mühəndis Ə.Səlmasın tərəfindən yaradılan qlobusda (qlobusa bənzər) Yer kürəsinin meridian və iqlimlərinin riyazi formuluna dair təsfirləri verilmişdir.

Astronomik müşahidələri "İlxanilərin astronomik cədvəlləri" adlandırılan kollektiv əsərin yaranmasına səbəb olmuşdur. Cədvəllər dörd kitabdan ibarətdir. Birinci kitabda yunan, fars, yəhudi, ərəb və türk təqvimləri təsvir olunur və bir təqvimdən digərinə keçməyin qaydaları göstərilirdi.

İkinci kitab ulduzların hərəkətinə və onların ekliptik koordinatlarının yerləşməsinə həsr olunub. Elə buradaca sinus və tangenslərin cədvəlləri, habelə 256 coğrafi məntəqənin yerləşdiyi uzunluq və en dairəsi göstərilir. Nəsirəddin Tusinin uzunluq dairəsinin ölçüsünü Qrinviç meridianından 34-35 dərəcə qərbdən götürərək, indiki Cənubi Amerikanın şərq hissəsindən keçirir. "Cədvəllər"in üçüncü və dördüncü kitabları astrologiya məsələlərinə həsr olunub.

Dünyanın dərk edilməsində N.Tusi məktəbinin mühüm elmi-metodoloji və tədbiqi mövqeyi olmuşdur. Yer kürəsinin müəyyən coğrafi koordinatları üzrə riyazi mənbələrnə dair ideyalar müasir dövrdə də elmi mahiyyətini saxlamışdır.

Azərbaycan fəlsəfə elminin banisi sayılan *Bəhmənyar* "Fırlanma hərəkətinin yaranması üçün kənar səbəbin olması vacibdir" ideyası təbiətşünaslıq elminin dinyagörüşündə yeni bir mərhələnin yaranmasına səbəb olmuşdur.

XI əsrin dahilərindən sayılan Bəhmənyar əyrixətli hərəkətin kainatda yeganə hərəkət növü olduğu nəticəsinə gəlməklə, belə bir fərziyyə irəli sürür ki, bu, məkan və zamanın xassəsi ilə bağlıdır. Bəhmənyar yazır: "...Ölçülərin sonlu olması xassəsindən asılı olaraq sənə aydın olmalıdır ki, sonsuzluğa gedən düzxətli hərəkət yoxdur". Bu mühüm elmi mühakimədən zaman və məkanın əyrilik xassəsinə malik olması xüsusiyyəti aydın görünür.

XX əsrin əvvəllərində Eynşteyn tərəfindən yaradılan "Ümumi nisbilik nəzəriyyəsi" göstərdi ki, fəzada olan bütün xətlər qapalıdır, mütləq düzxətt yoxdur. Ümumi nisbilik nəzəriyyəsində Eynşteyn tənliyi materiyanın paylanması və hərəkəti ilə məkan və zamanın həndəsi xassəsi arasında mövcud olan əlaqəni müəyyən edir - hissəciklər və sahələr məkan - zaman daxilində yerləşərək onları əyir, yəni əyilmiş məkan - zaman ümumi nisbilik nəzəriyyəsinin simvolu hesab

olunur. Bəhmənyarın elmi irsi xəzinədir. Bu xəzinənin nəzəri-metodoloji tərkibində coğrafiya elmi biliklərinin "açarı"da mövcuddur.

Orta əsrlərdə yaşamış coğrafiyaçı alimlər arasında *Əbdülrəşid Bakuvi* tərəfindən coğrafi məkanda 7 iqlim qurşağına bölünməsi haqqındakı fikirləri elmdə maraq doğurmuşdur. O, Azərbaycan və onun şəhərləri haqqında verdiyi məlumatlar ölkəşünaslığın inkişafında mühüm yer almışdır. Bakuvi əsərlərində Azərbaycan coğrafi məkanını 4-cü və 5-ci iqlim qurşaqlarına aid edir.

Türk mənşəli *Piri Rəis* – görkəmli coğrafiya elmi tədqiqaçılarından biridr. O, Atlantik okeanının Afrika sahillərini, Atlantik okeanın dəqiq topoqrafik xəritəsini (1513-cü il) tərtib etmişdir. Tərtib etdiyi xəritə də Avropanı və Şimali Afrikanı tamamilə düzgün bir formada göstərmişdir.

**Qeyd:** *Piri Rəis – Osmanlı İmperiyanın dəniz admiralı və kartoqrafı olmuşdur. Onun iki xəritəsi (Antraktida və Amerika) və "Kİtabi Dəhriyyə" adlı əsəri coğrafiya elminin inkişafında mühüm yer tutmuşdur. Piri Rəisin çəkdiyi xəritədə yerləşən Amerika materikində eramızdan əvvəl yaşamış sivilizasiyanın izlər də mütəxəsislər tərəfindən təsdiqlənmişdir. Xəritə dəvə dərisi üzərində səkkiz rəngdə çəkilmişdir.*

Piri Rəyisin xəritəsində Antarktida materikinin öz əksini tapması xüsusi əhəmiyyət kəsb edir. Antarktida dağları demək olar ki, dəqiqliklə göstərilmişdir. Belə ki, bu dağlar ancaq 1952-ci ildə səs ötürücü alətlərdən istifadə edilərək müəyyən edilmişdir.

- ***Öyrənmə məqsədi:*** *Geofizik alimlər iddia edirlər ki, Antraktidanın nəhəng buz qatının altında "donmuş tektonik blok" yerləşir ki, bu kütlə geoloji baxımdan digər qitələrlə həmcins olması ilə fərqlənir. Kosmik peyk vasitəsilə geofiziklər Antraktidanın tektonik xəritəsini tərtib ediblər və məlum olub ki, buz qatlarının altında qədim superqitənin qalıqları yerləşmişdir*

Coğrafiya elmi biliklərinin yaranmasında fransız *Vautrin Lud Prize* ((1448-1527) xidmətlərini də göstərə bilərik. Onun xidmətlərindən biri də dünya coğrafiyasında baş verən dəyişikliklərinə dair verdiyi təhlilləri və təklifləri hesab olunur. İlk dəfə onun təklifi ilə Yeni Dünyaya Amerika (Ameriqo Vespuççi) adı təklif olunmuşdur. 1991-ci ildə ən dəyərli elmi coğrafi tədqiqatlara görə "Coğrafiya üzrə Nobel mükafatı" Vautrin Ludin şərəfinə tərtib edilmişdir.

XVII əsrdən başlayaraq coğrafiya elminə söykənən tədqiqat formaları yeni mərhələyə = konstruktiv meyillərə daha çox reaksiya veirirdi. Digər tərəfdən də, daha artıq təbii resurslarla kifayətlənə bilməyən tədqiqat sahibləri kompleks resurslarının səfərbər olunması və ona yeni istiqamətlənmiş meyllərinə dair əsərlərinin yaranmasına səbəb olurdu.

Coğrafiya elmin rolu və yeni təlim məsələlələrinə dair elm sahibləri arasında təlimə olan münasibət problemi ilə heç də həmişə üst-üstə düşməmişdir. Belə ki, elmi tədqiqatın miqyası kifayət qədər geniş olsa da və coğrafiya elm məktəb bir sistem kimi formalaşmamışdır. Başqa sözlə, coğrafiya elminin dəyərinə olan ehtiyac heç də bir qayda ilə həmişə ortaya çıxmamışdır.

XVIII əsrin ortalarından başlayaraq bəşəri elminin ideyalogiyası və məntiqi seçimlərinin yaranması və inkişafı coğrafiya elmi biliyinin seçiminin praktikasında da yeni məzmun almasına səbəb olmuşdur. Bu səbəbdən də coğrafiya elmi biliklərinin praktika ilə əlaqələndirilməsinin imkanlarının miqyası genişlənməyə meyil göstərdi.

Coğrafiyanın müstəqil elminə çevrilməsi prosesi, problemə qarşı münasibətlərinin dəyişilməsi Avropa ölkələrində məqsədə doğru hərəkət edən konstruktiv tədqiqatlarla bağlıdır. Bu üstünlük faktı elmin praktika ilə əlaqələndirilməsi, onun davamlı olaraq inkişafını təmin edən yeni məzmunlu elmi məktəblərinin yaranması ilə bağlı olmasıdır.

Avropada baş verən iqtisadi və sosial sahələrinin yeni idarə edilməsinin siyasətinə keçməsindən (XVIII əsrdən) sonra coğrafiya elmində "Tədqiqat & Praktika"nın davamlı ideyalarla "yüklənmə"si mərhələsinə qədəm qoyulmuşdur. Bu dövrdə baş verən yeni elmi təhlillərini "K.Ritter - F.Ratsel" coğrafiya elmi məktəbinin mövqeyi və rolunu inkaredilməzdir. Berlin Universitetində yaradılmış coğrafiya kafedarsının fəaliyyəti və sonrakı dövrlərdə də tədqiqatlarının konstruktiv ideyalarla zənginləşməsi, yeni tipli elmi əsərlərinin meydana gəlməsində "K.Ritter - F.Ratsel" məktəbinin adı ilə bağlıdır.



**K.Ritter** (1779 -1854) alman coğrafiya elminin banilərindən sayılır. Asiya və Afrikanın coğrafiyasına dair 18 cildli toplunun müəllifidir. Dövlətin "həyat məkan" (Lebensraum) modelini təklif etmişdir.

K.Ritter coğrafiya elminin materialist baxışları ilə zənginləşdirmişdir. Onun fikrinə görə coğrafi məkan əlaqələrinin təsiri nəticəsində ölkələrinin iqtisadi və sosial inkişafında yeni formalarının əmələ gəlməsinə şərait yaratmışdır. Bu məna baxımdan K.Ritter coğrafiya elmi araşdırmalarının nəticələrinin belə bir kəlamı maraq doğurur ki = "*Coğrafiya*: *Yer kürəsinin fiziki-coğrafi müxtəlifliyinin fiziologiyası və anatomiyasıdır"*. Bu ideya elm aləmində geniş maraq dairəsinə daxil olmuşdur.

K.Ritter dünya xalqlarının,etnik qruplarının formalaşması, iqtisadi sahələrinin coğrafiyası və s. məsələlərinin özündə birləşdirən çoxsaylı əsərlərinin müəllifidir. Coğrafiya elminin tədqiqat predmeti daxilində coğrafi mühit və onun təsnifatı, əhalinin məskunlaşması və s. elmi-praktiki və sahə coğrafi təhlillərinə üstünlük vermişdir.[12]



**F.Ratsel** (1844-1904) alman coğrafiya elmini yaradanlardan biri. Antropocoğrafiya elminin nəzəri əsaslarını vermişdir. Geosiyasi, etnoqrafiya, sosialogiya və s. sahələr üzrə praktiki fundamental əsərlərinin sahibidir.

Öz dövrünün çoxşaxəli tədqiqatçısı sayılan F. Ratsel coğrafiya elminin fundamentallığı uğrunda çalışırdı. İlk dəfə "Siyasi coğrafiya" (1897) fundamental əsəri ilə yeni elmi məktəbinin əsasını qoymuşdur. Onun = "ölkə coğrafi cəhətdən genişlənməlidir*"* = virtual təlimi bütün dövrlər üçün aktual hesab edilir. Qloballaşan müasir dövrün tələbləri baxımından bu tezisin tələbləri = yəni ölkələrarası iqtisadi, siyasi və sosial əlaqələri

[12] К.Риттер. Идеи о сравнительном землеведении. 1853. т.2.

= coğrafi cəhətdən geniş miqyasa malik olması nəticəsində inkişafının strategiyası baş verə bilər.

Coğrafiyanın elmlilik miqyasının ifadəsində baş verən dəyişikliklərinin meydana gəlməsi yeni metodiki mənbələrinin imkanlarının yaranmasına səbəb olmuşdur. Elmi və metodiki əsərlərinin yaranması, coğrafi məkanının öyrənilməsi, eləcə də nəzəri və aksiomalaının tədqiqat sahələrinə çevrilməsi ilə bağlıdır. Məsələ onunla ölçülür ki, Almaniya, Fransa və b. ölkələrdə coğrafiya elminin müstəqilliyi bərpa olunmuş, bir elmi tədqiqat kimi özünütəşkiletmə mərhəlsinə qədəm qoymuşdur.

Bu sahədə *A.Hubboltun*[13] xidmətlərini göstərmək olar. A.Hunbolt fiziki-coğrafiya, bitkilərin coğrafi ekologiyası, geomaqnitizm və s. elmi istiqamətlərinin formalaşmasına dair araşdırmaları coğrafiya elmi üçün mühüm əhəmiyyət kəsb edir. Onun beş cildlik "Kosmos" adlı əsəri fiziki-coğrafi kompleks əlaqələrinin və eləcə də onların qanunauyğunluqlarına dair elmi dəyərlərinin aktuallığı elmi məktəblərinin yaranmasına xidmət etmişdir. Coğrafiya elmi məktəbinin nümayəndələri A.Huboltun coğrafiya elminə dair fikirlərini əsas götürərək regional, siyasi və sosial aspektlərində təhlillərində metodiki əsas kimi qəbul edərək, ona üstünlüklər vermişlər.

*N.N.Kolosovski* - tədbiqi coğrafiya elminin banilərindən biridir. Coğrafiya elminin tədbiqi sahəsində gördüyü işlər bütün dövrlər üçün tədqiqat mənbədir. Onun "enerji-istehsal tsikllər" nəzəriyyəsi fundamentallığı ilə seçilir.



**N.N.Kolosovski** (1891-1954). Coğrafya elminin nəzəri probleminin əsasında tədqiqatlar aparmışdır. Coğrafiya elmi tədqiqatlarının praktikası sahəsində araşdırmaları bütün dövrlər üçün aktualdır.

Bu nəzəriyyə əsasında ərazi-istehsal kompleksinin yaranması və metodologiyası işlənilmiş, coğrafiya elminin tədbiqi üçün dayanıqlı seçimlərindən

[13] Гумбольдт А. фон. Космос: Опыт физического мироописания М.,Ч. 1. - 1862; ч. 2. - 1862; ч. 3. - 1863. Гумбольдт А. География растений. М.,1936. Гумбольдт А. Картины природы М.,1959.

effektli istifadə edilir. Rusiyanın Asiya hissəsinin mənimsənilməsi; Transsibir magistirial şəbəkəsi; Baykal sənaye kompleksi və s. enerji-istehsal tsikllərinin əsasında öz tədbiqini tapmışdır.

N.N.Kolosovskinin tədbiqi coğrafiya elmi məktəbinin davamçıları müasir dövrdə də fəaliyyət göstərirlər. "Şaxələnmiş iqtisadi inkişaf", "İstehsalın diversifakiyası", "Klaster metodları" və s. bu kimi elmi düşüncə tərzləri "Enerji-istehsal tsikllər" nəzəriyyəsinin əsasına söykənmişdir.

• ***Məntiqi baxım:****Məntiqi baxımından coğrafiya elmi tədqiqatının əsas məqsədində rasional istiqmətli təhlilinin metodiki yönəmlərinin reallaşdırılması ilə əlaqəlidir. Bu istiqamətinin əsas elmliyi ondan ibarətdir ki, kompleks elmi-informasiya mənbələrinin yeniləşdirilməsi və coğrafi elmi təhlillərininin praktikasında istifadə edilməsidir.*

Elm ancaq "ideya-praktiki" təməlinin üzərində özünün "qüvvə"sini sınaya bilir. Belə bir şərait Avropa və digər ölkələrinin coğrafiya elmi məktəblərində özünü göstərir. İlk növbədə varlı sənaye ölkələrdə formalaşmış coğrafiya elmi məktəblərində aparılan tədqiqat nəticəsində həyata keçirilir. Tədqiqat sahələrinin tədbiqi əhəmiyyəti və nüfuzu elm sahiblərinin tərəfindən yerinə yetirilir. Reallıq ondan ibarətdir ki, Qərbdə yaradılmış coğrafi modellərinin hesabına iqtisadi - sosial komplekslər yaradılır və idarə olunur. Maraqlıdır ki, Azərbaycanda da, coğrafiya elminin inkişafı məhz Qərb modellərinin üzərində təqdim edilir.

Qeyd etdiyimiz kimi, coğrafiya planetar, ümumbəşəri bir elm sahəsidir. Böyük elm sisteminə daxil olan coğrafiya lokal sahələrlə yanaşı, kompleks lahiyələrinin, proqramlarının həyata keçirilməsində fəaliyyət göstərir. Elm-iqtisadi və siyasi mühitinin optimalığının təminatında xüsusi mövqeyə malikdir.

Bu sahədə ölkəmizdə tədqiqat aparan coğrafiya elm sahiblərinin dünya miqyasında əldə olunmuş yeni elmi biliklərin və elmi axtarışlarının əsasında fəaliyyət göstərməli və buna nail olmalıdır.

# Xülasə

- Müasr coğrafiya elmi-tədqiqatlarının sahibləri klassik elmi məktəbinin təklif etdikləri məbələrinə söykənərək dəyərli elmi işlərini yerinə yetirirlər. Bu olduqca çox dəyərli seçimdir. Bu dəyərli seçimdən coğrafiya elmi yaradıcılıq da yeni nəslin klassik bilik sahiblərinin effektli və düzgün istifadə etməyi bacarığını artıra bilər.

- Coğrafiya elminə münasibət bir mənalı olmamışdır. Məntiqi baxımdan elmi araşdırmalarının miqyası müxtəlif dövrlərdə kifayət qədər olsa da, uzun müddət coğrafiya elmi məktəb bir sistem kimi formalaşmamışdır.

- Coğrafi məntiqi təfəkkürlü ideyalarının yaranması və inkişafı Avropada yeni iqtisadi və siyasi sisteminin meydana gəlməsi ilə bağlıdır. Bu bağlılıq coğrafiya elmi biliklərinin praktika ilə inteqrasiyasının meydana gəməsinə imkanlar yaratmışdır.

- Coğrafiya elmi problemə münasibətdə məqsəd və onun doğru məna ifadəsinin ümumi məsələlərlə deyil, konstruktiv faktlarına üstünlük verilməsi durur. Bu məsələ, elmin praktika ilə əlaqələndirilməsi, onun davamlı olaraq inkişafını təmin edən yeni məzmunlu tədqiqat sahələrinin yaranmasına səbəb olmuşdur.

- Qərb ölkələrində elmi təlimə çevrilmiş coğrafi model anlayışları elmi-metodiki tədqiqat işlərində geniş miqyasda istifadə edilir. Bizim ölkəmizdə də bu sahədə maraq doğuran elmi-tədqiqat işlərində müəyyən səviyyədə Qərb modellərinə meyillərin də olması nəzərə çarpır.

**Praktiki düşünək:**

1. Elm sahiblərinin inkişaf etdikləri coğrafi biliklərdən tədqiqatınızda istifadə etmək fikiriniz varmı?
2. Klassik coğrafi tədqiqatlara münasibətdə seçimin nə ilə bağlıdır?
3. Coğrafiya elmin sahiblərinin əsərlərinin oxunmasına meylin varmı?

## 1.3. Coğrafi tədqiqatın idrak model davranışı

***"Model – nəzəriyyənin rəsmi bəyanı, adətən iki və ya daha çox dəyişən arasında ehtimal edilən əlaqənin riyazi ifadəsidir".***

**Karl Keys**

Coğrafi tədqiqat zamanı əsasən üç idrak modeldən istifadə edilir: idrak biliklər modeli; daxili məzmun modeli və ehtimal edilən riyazi əlaqə modeli. Bu bölmədə "idrak biliklər modeli" anlayışının necə dərk edilməsindən söhbət gedir.

Elmi nəzəriyyə sahibləri müxtəlif dəyişən ölçülərinin daxili funksiyalarının davranış modellərini təklif etmişlər[14]. Coğrafiya elmi üçün dəyişən idrak davranış modelinin funksiyalarının öyrənilməsi mühüm əhəmiyyət kəsb edə bilər. Dəyişən idrak davranış modelin funksiyası nədir? Fikrimizcə, dəyişən = müəyyən "məkan-zaman" davranış idrak modelinin reallığını özündə birləşdirən ölçüdür. Təbii ehtiyatlar bir dəyişəndir, onun cəmiyyət üçün fərqli dəyişən funksiyalarının dəyərləri var. Bunun kimi saysız nümunəni qeyd edə bilərik.

- **Öyrənmə məqsədi:** *Model = nəzəri idrak davranışın ehtimal ifadəsidir. Coğrafi biliklərinin ehtimal edilən davamlı əlaqəsinin riyazi ifadəsidir. Model - tədqiqatın rasional cəhdlərinin ən çox idrakın elmilik nöqteyi - nəzərdən funksional üstünlüklərin meyarları ilə əlaqəlidir.*

Bu əlaqələndirmə daha doğrusu yenə də məhz "elmi modellər"in konkret məzmununa üstünlük verilir. Buraya daxildir: elmi mövzuların aktuallığı, elmi nəticələrin həqiqiliyi və ya elmdən bəhs edən tədqiqatın mövzudan mövzuya dəyişən ölçüləri və s.

Maraq doğuran nəzəri idrak davranış modelin tələbi nədir? Tələb ondan ibarətdir ki, kompleks tədqiqat mövzusuna aid olmayan təfərrüatın kəsilib atılması prinsipidir. Coğrafiya elmi üçün rasional idrak modellərinin qurulmasının məqsədində bu prinsipin ehtimal qaydaları çox dəyərlidir.

[14] Лейвин Б. "Модели мира" и образ человека. М.,1981.
Моделирование и анология. М., 2009.

Məntiqi məzmunda məsələyə konstruktiv yanaşsaq, irəli sürülən model qruplarının reallığı hissələrə ayrıldığı üçün, müəyyən dərəcədə mücərrəd kimi qəbul edilir. Coğrafiya elmi tədqiqatlar zamanı bəzi hallarda bunu zəiflik kimi düşünülür.

Bununla yanaşı bir çox məqamlarda modelin zəifliyinin real tədqiqatın gücü kimi də qəbul edilir. Misal olaraq, tərtib edilmiş bir xəritə fikirləşin. Xəritə reallığın sadələşdirilmiş və mücərrəd təsviridir.

Hər hansı bir coğrafi obyekt kağız parçasında şərti işarələrlə ifadə olunur. Xəritənin vacib bir əlaməti itirmədən müəyyən reallığı özündə əks etdirmə dərəcəsi, tərtib edilən xəritənin hansı məqsədlə istifadə ediləcəyindən asılıdır. Coğrafi modellər də araşdırılan sualla bağlı davranışının aspektlərini təhlil etmək üçün güclü dərk edilməsinə baxmayaraq, o müəyyən dərəcədə sadə formalara da yol aça bilir. Sadə formalarının davranış ölçüsü onun hansı xüsusi modeldən istifadə ediləcəyindən asıllığının müəyyənliyində özünü göstərir.

Diqqətli olun,coğrafi obyektin davranışının önəmində xüsusi konturlarının təhlil etmək üçün idrak modellər güclü texnoloji diffuziyanın aləti hesab edilir.[15]

Funksional idrak modelinin tədbiqinin davranışında coğrafi struktur tsikllərinin optimal variantlarının qurulması, idarəedilməsi və təsnifat göstəricilərinin təyinin dialektik əlaqələrindən bilavasitə asılıdır. Amma ilkin struktur bazası olmadan, heç bir sahə üzrə idrak modellərinin elmliyinin əldə edilməsi mümkün deyil.[16] Digər tərəfdən, coğrafi struktur modelinin istifadəsi universal xarakter daşıyır və əgər o, davamlı inkişafının gerçəkliyində yetərli işləmə mühitinə uyğun olarsa, praktiki cəhətdən çox vaxt effektli təqdim imkanının fəaliyyətinin də artımına səbəb ola bilər.

> Adətən model ilə izah etmək istədiyiniz hər hansı bir tədqiqat obyekti - nin çox funksional elmlilik dərəcəsi - nin rasionallığından asılıdır.

Fərz edin ki, relyefin hündürlük qurşaqlarının ümumi coğrafi məsafəsini izah etmək istəyirsiniz. Bu məsafənin xarakterinə çoxlu faktorlar təsir edə bilər. Burada təbii resursların sayı daha çox və ya daha az ola bilər. Bu sayların öz növbəsində relyefin dəyişməsi = temperaturun, hidrorafik

[15] Морган Т.Л. Модели развития, основанного на диффузии технологий.Киев, 2010.
[16] Qurbanzadə A.A. Analitik coğrafiya. Bakı, 2018.

şəbəkənin, torpaq - bitki örtüyünün zonallığı və s. təbii qanunauyğunluqlarının dinamiksındakı dəyişkənliyinin, asıllığının yaranmasına səbəb olur. Digər faktorlara da nəzər salaq.

Temperaturun hündürlüklər üzrə fərqlərinin yaranması, buna müvafiq olaraq torpaq, bitki örtüyünün məsafədən asılı olaraq dəyişməsinin nəticəsində yeni fiziki-coğrafi keyfiyyətlərinin yaranmasına təsir edir. Bu seçiminin model konsepsiasında yaratdığı reallığının bizim üçün maraqlı olan coğrafi məsafə arasında olan əlaqələrinə elmi cəhətdən diqqət ayırmağa kömək edir.

- ***Qeyd:*** *Maraqlı cəhətlərdən biridə, elmdə araşdırılan hər hansı məsələnin model izah etməyə qadir deyilsə, başqa bir model onları daha yaxşı izah edərsə, əvvəlki model öz funksiyasını itirir.*

Coğrafi idrak modelinin metodologiyasına dair vahid yanaşma ideyaları kifayyət dərəcədə tədqiqt obyektinə çevrilməmişdir. Qeyd edilən yönümdə elmi ideyalarının kompeksliyinin miqyasında müəyyən çərçivələrinin ehtimalının daxilində olmasına baxmayaraq, onların arasındakı təhlillərinin müəyyən dərəcədə fərqlərinin müəyyənliyini də təyin etmək olar.

Modellərin yoxlamaq seçimininin müəyyən edən və istifadəsı üçün məlumatın toplanması *empirik coğrafiya* yerinə yetirir.

Məntiqi elmi yanaşma tərzinin nəticəsi ondan ibarətdir ki, coğrafi tədqiqatının idrak modellərinin varlığı elmi ideyalarının çərçivəsində elmi-metodiki bağlılıqlarının yoxlanılmasının qaydaları elmi işinin kompleksində aparılmasının zəruri edir.

Empirik coğrafi tədqiqatlar üçün çoxsaylı modellərinin mövcudlüğuna diqqət yetirin. Nəzərə alın ki, modellərin tədbiqi elmi işinizinin elmi-praktiki əhəmiyyətinə necə təsir edə bilər? (1.3.1.)




**d** = coğrafi mühitin keyfiyyət modeli
**r** = coğrafi informasiya modeli
**c** = coğrafi funksional asıllığın modeli
**u** = coğrafi iqtisadi-sosial modeli
**e** = dayanıqlı inkişaf modeli və s.

Dialektik əlaqə ———
Funksional əlaqə - - - - - -

### 1.3.1. Empirik coğrafi idrak modelləri (E)

Yüxarıda verilmiş empirik coğrafi idrak modellərin davranışlarının önəmə gətirilməsi elmi-tədqiqat üçün əhəmiyyət kəsb edir. Seçim üçün yuxarıda göstərilən modellərinin hər birindən nə dərəcədə istifadə etmək mümkündür? Tədqiqat sahibi modelin qurulması zamanı dəqiq, rasional davranışa, coğrafi bilik mənbəyinə malik olmalıdır. Təsadüfi deyil ki, eyni bir məzmun kəsb edən idrak model müxtəlif situasiyalarda, kontekstlərdə fərqli izahına rast gəlinir. Məsələ onunla ölçülür ki, müəyyən funksionallığının baxımından hər hansı bir model idrak baxımından fərqli məzmuna və davrannışa malik olur. Başqa sözlə desək, tədqiqat prosesində hər hansı bir ideyanın seçimi müəyyən səviyyədə modelin səmərəliyinin önəminə söykənir. Burada söhbət modelin[17] təşkili zamanı onun hərəkəti hansı istiqamətə yönəldilməsinin və elmliyinin çərçivəsinin asıllığından gedir.

• ***Məqsədli işarə:*** *Kitabın səhifələrindəki "coğrafiya elminin idrak modelinin müəyyən miqyaslı araşdırılmaına müəllif tərəfindən ilk dəfə olaraq baxılmasına*

[17] Tədqiqatçı J.Frankelə görə, model – hadisənin karikaturasıdır, yəni müəyyən bir fiziki prosesin, hadisənin şəklidir.

*nail olunmuşdur. Məlumdur ki, onun statusunun coğrafiyasına dair informasiysının tamlığının bu vaxdadək tədqiqat obyektinə çevrilməmişdir. Bunu nəzərə alaraq bu yarımbölmədə coğrafi elmi idrakın funksiyalarının gerçəklikləri ön planda verilməsinin məqsədəuyğun sanmışıq.*

Coğrafiya elmin tərəqqisi ilk növbədə onun "elmi idrak modeli"nin əsasında davamlı struktur modellərinin qurulması və elmi-praktiki təhlillərinin aparılmasından bilavasitə asılıdır. Ümumi tədqiqat konsepsiyanın davamlı praktiki tədbiqinin davranışında coğrafiya elminin məqsəd və vəzifəsinə uyğun olaraq araşdırılan mövzunun tələbində idrak modelinin kodlarına söykənir.

Coğrafi idrak modelinin həqiqətən izahı nədir? Elmi təhlildə bizi maraqlandıran səbəb və təsir anlayışının mövqeyi nə dərəcə rasionaldır?

Lakin bunları ayrı-ayrılıqda aydınlaşdırmaq əksər hallarda çətin olur. Son vaxtlar dünyada iqlim dəyişilmələri, ekoloji təhlükəsizlik və s. təbii proseslərinin təsiri narahatlıqlarının yaranmasına səbəb olmuşdur. Bunu izah etmək heçdə sadə məsələ deyil. Problemə səbəb kimi yanaşsaq ümumi məzmun ondan ibarətdir ki, məsələ ilə bağlı aparılan elmi araşdırmalarının tələbində idrak modelin necə qurulması və onun təhlilli ilə əlaqəlidir.

Məntqlə yanaşsaq, belə bir sual yarana bilər: səbəb və təsir arasında əlaqə varmı?

Ümumi desək = əgər **D** hadisəsi **Ğ** hadisəsindən əvvəl baş veribsə, **D** hadisəsinin **Ğ**-nin səbəbi olması mütləq deyil.

Empirik coğrafi biliyin toplanmasının seçimi üçün internet şəbəkəsində toplanan yetərincə məlumatlarından idrak modelinin təhlili zamanında istifadə edilməsi mümkündür. İlkin olaraq,burada coğrafi informasiya materiallarını məqsədli olaraq model vasitəsi ilə təhlil etmək olar (1.3.2.). Ekspertlərinin fikrinə görə, coğrafi təhlilinin yerinə yetirilməsində "məkan - zaman" sisteminin səbəb və təsirinin informasiyasına xüsusilə diqqətli olmaq vərdişinə sahib olmalısan. [18]

[18] Гурвич К.Л. Экспертные оценки. М.-Л. 2003.

Tədqiqatın coğrafi nəzəri istiqamətinin düzgün təyin etmək səbəbi

Tədqiatla metodiki aparatının təsirinin əlaqəsi səbəbi

Elmi mənbələrinin tədqiqat üçün seçimi

Tədqiqatın konstruktiv proqnoz "səbəb-təsir" əlaqələrinin təmini

Tədqiqatın son ümumi yekunlaşdırmasının "səbəb - təsir" əlaqələri

## 1.3.2. İdrak nəzəri modelinin "səbəb - təsir" əlaqələri

Modellər bir çox yolla istifadə oluna bilər. Ən çox istifadə olunanı isə idraklı sözlər, xəritələlər, qarafiklər və riyazi formulalardır. Bu istiqamətdə aparılan elmi işlər daha çox praktika ilə uzlaşır və effektli nəticələrinin yaradılmasnda iştirak edir.

Metodoloji cəhətdən idrak modelinin texnoloji variantlarının seçimi və nəticələrinə dair aparılan araşdırmalar məqsədli və praktiki olur. Buna görə də idrak modelinin yenilməsinə üstünlük verilir. Tədqiqatın hazırlanması üçün seçimin müəyyənliyi əsas şərtdir.

Model - tədqiq edilən coğrafi obyektin idrak və praktiki yolla qəbul olunmuş və dəqiq ifadə olunan formasıdır. Model-idarkın elə formasıdır ki, təqdim olunan mövzunun öyrənilməsi üçün texnoloji davranış yoludur. Tədqiq olunan obyektin davranışında yeni seçim əldə etməyə imkan verir.

Bu istiqamətdə diqqətli olmaq lazımdır. Məntiqi olaraq, tədqiqat obyektininin düzgün seçilməsi və metodiki aparatın elmlilk üzərində qurulması vacibdir. Onun effektli informasiyasının nisbətlərinin təyinində istifadə edilən variantlarının effektliyindən çox asılıdır.

İdrak modelin strategiyası haqqında bir neçə fikir söyləmək olar. Son dövrlərinin tələb və məqsədinə uyğun olaraq elmi düşüncə sahibləri, o cümlədən coğrafiya elminin tədqiqatçıları bəşəri praktiki mahiyyət daşıyan modellər tərtib etmişlər. Əsas ideya mənbələri ondan ibarətdir ki, təkilf edilən modellərinin yaranması, inkişafı üçün taktiki dayanıqlı və praktiki məqsədlərinə xidmət edən istiqamətlənmiş məsələlərinə daha çox üstünlük verilir. Səbəbi nədədir?

**Birincisi,** tədqiqatçı ilk növbədə təbiətdə və cəmiyyətdə qlobal məzmunlu hansı proseslər baş verir? Sualına cavab axtarmalıdır. Diqqət yetirməli olduğu cavabın optimal variantlarının seçimini etməlidir. Seçimin müsbət və mənfi cəhətlərinin halının təyin edilməsinə dair öz fikirinin dəyərini qabaqcadan bilməlidir. Təyin etdiyi dəyərində baş verə biləcək dəyişikliklərin yaranmasına “səbəb-təsir” modelinin qurulmasına başlamağını irəli sürməlidir. Modelin tədqiqat üçün elmi-metodiki cəhətdən nə kimi fayda verər? Sualına coğrafi dili ilə cavab axtarmağına imkanlarının nəzərə alınmasını dərk olunmalıdır. Bütün bu qaydalar elmi-tədqiqatının kompleks həllinin yollarından biridir..

**İkincisi,** nəzəri elmi dəyərlərinə uyğun gələn,praktiki nəticələrini özündə birləşdirən tədqiqat işlərinə üstünlük verilməlidir. Hansı tipli elmi-praktiki modelləri daha effektli ola bilər? Sualına cavab verən modelə müraciyət etmək lazımdır.

**Üçünçüsü** isə tədqiqatın mövzu davarnış seçiminin qəbul edilməsi. Tədqiqatçının mövzunun təhlil etmək bacarıqları, eləcə də görülən işin şərtləri nəzərə alındıqda modelin yaratığı kombinasiyalarının və mənimsənilməsinin göstərmək imkanlarının qazanılması.

Əgər hər bir araşdırıcı bu üç tərəflərindən müqayisəli üstünlüklərindən faydalanırsa, niyə o bacarıqsız hesab edilsin? Buradakı əsas məqam modelin dərk edilməsi yolunu düzgün seçmək və ümumi probleminin yaratdığı situasiyanın görməsidir (1.3.3.).




(**a**)-tədqiqat obyektinin seçimi; (**b**)-situasiyanı dərk etmək;
(**c**)-qərar vermək; (**e**)-modelin fəallığı; (**d**)-proqnoz modelin qurulması

***1.3.3. İdrak modelin = G = davranışı (variant)***

Tədqiqatçının davranışında idrak modelinin öyrənilməsi, qəbul qaydalarına münasib variantlarının seçimi, modelin qurulmasında hansı yollarla istifadə edilməsinin səbəb və təsirlərinin bir araya gətirilməsi mühüm şərtlərdir. Ümumi desək, idrak modellərinin faydasının hansı yolları vardır? Buna aydınlıq gətirməkdən ötrü aşağıdakı variantlarını göstərə bilərik.

- Bu baxımdan coğrafi idrak modeli - tədqiqatçı üçün bilik sahəsidir. Həm də fiziki və iqtisadi hadisələrinin dərk etmək məqsədində elmi yaradıcılığının sintezidir.

- Coğrafi hadisə və prosesinin model ifadəsinin dərk edilməsi, ilkin olaraq tədqiqatçının dünya görüşünün yeniləşməsinə, işində daha geniş məna ehtiva edən biliklərnin sintezi kimi qəbul edilir.

Müasir dövrdə məqsədli və sərbəst olaraq elmi əsaslarla idrak modelinin yaratmaq önəmində demək olar ki,bütün ölkələrinin (o cümlədən, Azərbaycan) maraq dairəsindədir. Problemin ilkin mənbəyində intellektual idarəetmə və kompleks ərazi təşkili strategiyasının həyata keçirilməsinin başa çatırılması və sonrakı mərhələlərdə isə konseptual qlobal strateji məqsədli diversifikasiyasına nail olmaq vəzifəsindən ibarətdir.

## Xülasə

▪ Coğrafiya elminin idrak modelində qərar verməyin proqnozu "tədqiqat orqanizmin"in keyfiyyət halıdır.

▪ Coğrafi obyektin və məzmunun öyrənilməsində qarşıya qoyulan məqsəd və nəticədən asılı olaraq modellər: strukturuna, texnoloji tipinə, funksional praktiki davranışına və s. görə bir-birindən fərqlənirlər.

▪ Modelin qurulma üsuluna və istifadəsi yollarına görə əsasən maddi və ideal modellərə ayırmaq olar.

▪ Maddi model= müəyyən tədqiqatcı tərəfindən irəli sürülür və obyektiv olaraq reallığı özündə əks etdirir. İdeal model isə maddi modelinin yaradılması məqsədində tədqiqçının düşüncəsinin üzərində qurulur.

▪ K.Marksın önəmli yanaşma tərzini qeyd etmək məqsədəuyğundur: "... ən pis memar da ən yaxşı bal arısından lap əvvəldən bununla fərqlənir ki, memar hələ mumdan şan yaratmaqdan əvvəl bunu öz beynində yaratmış olur".[19]

▪ Azərbaycanın gələcək inkişafının = diversifikasiya = idrak modelinin yaradılması strategiyası həyata keçirilir. Strategiyanın seçimi nəticəsində Azərbayacan yaxın dövr ərzində orta səviyyəli dövlətlər sırasına daxil olacaqdır.

▪ Bunu nəzərə alaraq coğrafiya elmi tədqiqatlarda bu problemin öyrənilməsinə daha çox diqqət yetirilməsini məqsədəuyğun sayırıq. Aparılan coğrafiya elmi tədqiqatların ideya mərkəzində, məqsədli olaraq idrak modellərinin ölkənin tələblərinə uyğun qurulması və idarə edilməsinın problematik mövzularına daha çox diqqət yetirməsi ölkənin tələblərindən irəli gəlir.

### Praktiki düşünək

1. Empirik coğrafiya elminin tələblərinə uyğun tədqiqat aparılsa, model göstəricilərini qəbul edirsinizmi?
2. İdrak modelin coğrafi funksiyaları haqqında düşünmək istəyirsiniz?
3. Coğrafi idrak modelinin qurulması və istifadəsi elmə və iqtisadi-sosial inkişafa təsirini təhlil edin.

[19] K.Marks. Kapital,1 c., s.184.

## 1.4. Tədqiqatçının yaradıcılıq təşəbbüskarlığı

***"Yaradıcılıq-elmin "enerji" mənbəyidir. Öz enerjisini məqsədyönlü tədqiqatlara sərf edənlər elm sahibləridir".***

**Yaradıcılıq** - elmi mənbələrinin ideya faktlarına əsaslanır. Kerçək olan varlığın məxsusi coğrafiya elmi ideyalarının "məkan və zaman" sisteminidə seçim edir.

Əvvəlki yarımbölmələrində tədqiqatçının maraq dairəsini gücləndirmək üçün bəzi suallar və onların öyrənilməsinə, istifadə edilməsinə dair seçimləri qeyd etmişdik. Bu yarımbölməni oxuyarkən, ola bilsin ki, bəzilərinizinin düşüncəsində oxşarlıqlarada rast gələ bilərziniz. İlk baxışda bu seçimlər oxşar olsa da, öyrənmə və təhlil edilməsinin prosesində tamamilə fərqli görünə bilər. Məntiqi baxımdan yanaşsaq, onların hər birinin binövrəsində tədqiqatın mövcud olduğu, yaradıcılıq üçün düzgün metodolji seçim etməklə bağlı narahat düşüncə tərzi hökm sürür (dayanır).

Coğrafiya elmi təşəbbüskarlığı ilə bağlı bir sıra yanaşmaları mövcuddur[20]. Mövcuddluğun metdoloji seçiminə aydınlıq gətirmək üçün bir sıra sualların meydana gəlməsinə səbəb olur:

- ❖ Yaradıcılıq ilə təşəbbüskarlığının arasında nə kimi əlaqə var?
- ❖ Necə etmək lazımdır ki, coğrafi elmi tədqiqatlar faydalı "məhsul"verə bilsin?
- ❖ Təşəbbüskarlığ zamanı hansı elmi yanaşmalarının qəbulunu edə bilərik?

Elmdə yaradıcılıq çox saylı təşəbbüslərinin yaranmasını və işlənməsinin qaydalarını özündə birləşdirir. İlkin olaraq mövzu ilə coğrafi informasiya mənbələrinin toplusunun yaradılmasına nail olmaq və bunların uzlaşdırlmasına doğru hərəkət etmək lazımdır. Coğrafi informasiya yaradıcılığının enerji mənbəyinin laboratoriyasıdır. Burada qəbul edilən coğrafi informasiya resurslarının hesablanması,mövzular üzrə paylanmsı və sonluğunun elmi nəticələri ilə bitməsidir. Alınan sonluqlar ardıcılıqla,mövzunun tələbinə uyğun olaraq təşəbbüskarlığının informasiya resursunun elmlilik variantları müəyyən olunur.

[20] Теория географических стилей (сб). М., 2004.

Coğrafi təşəbbüskarlığının infomasiya resursları dedikdə biz nəyi nəzərdə tuturuq? Sualın cavabı bir sıra məqamlara aydınlıq gətirir. Resurslar üç əsas suala çavab verir: təşəbbüskarlığın istifadəsi elmə nə verə bilər?; Neçə öyrənilir? Elm və praktika üçün faydası varmı? Bu sualların cavabı çoxşaxəli olsa belə,sadə və mürrəkkəb variantlarda cavab vermək mümkündür. İlkin önəm ondan ibarətdir ki, cavab veriləcək nəticənin məqamı-coğrafi infomasiya resurslarının elmi-tədbiqinin sonluğunda, geniş miqyasda faydasını görəcəksiniz.

Faydalığın önəmində: məntiqi baxımdan təşəbbüskarlıq ilə yaradıcılıq arasında fərq varmı? Məqsədli işlərinin aparılması zamanı nəyə çox diqqət yetirməlidir? Eksperiment təhlilə ehtiyac düyülurmu?

Davamlı araşdırmanın ilkin mənbələrinin konstruktiv təhlilləri üçün verilən suallarının cavabları çox vacibdir. Hər bir sualın cavabı elmi işinin məzmununa və eləcə də onun proqnoz istiqamətləri üçün faydalıdır. Bu yanaşma bir növ coğrafi seçimində eksperiment laboratoriyasının yerini tutur. Digər bir tərəfdən: elmdə faydalı "məhsul" almasına önəm verir; coğrafi tədqiqatın sonluğunun səmərəliyini təyin edir. Bu yanaşma çox vacibdir.

- **Haşiyə:** *Elmi "məhsul"un dəyərli məzmunu nə ilə ölçülür? Elmi laboratoriyanın eksperiment yolu ilə alınan təşəbbüskarlığının yaradıcılıq mənbələrinin nəticələri sonrakı təhlillərinin seçimlərinin əsasında elmi mənbəyə çevrilməsinə diqqət yetirin. Deməli, coğrafi tədqiqatının "məhsul"un faydalığına olan tələbatının məzmunu, metodiki resurs seçiminin səmərəliyinin praktikası ilə ölçülür.*

> Tədqiqçının istəkləri həmişə sonsuz, lakin resursları isə məhdud olmasıdır. Buda elmi dəyərlərinin "məhsullar"ın alternativlərinin arasından seçim etməyə məcbur edir.

Qısaca desək, elmin yaradıcılıq sferasında təşəbbüskarlığının mənbələrinin praktika ilə əlaqələndirilməsinə dair aparılan tədqiqatın yeniləşməsinininin yolları: coğrafiya elminin tədqiqatının əsas tərəfidir. Bu məqam elmin təhlillinin rasional çərçivəsini əhatə edir. Elmi işinin mövzu seçimində iştirak edir və elmi işin kompleks xarakterinin təmin etməsinə dair suallarına cavab verir. Bu suallar pozitiv və ya təsviridir?

* Yaradıcılıq sistem pis, yoxsa yaxşı nəticələrini hasil edir?
* Bunu necə davamlı edə bilərik?

Bu kimi normativ suallara cavab verməzdən əvvəl elmi yaradıcılığın funksiyalarının nə qədər önəmli olduğunun dərk edilməsinə münasibət bildirək.

Coğrafya elm sahibləri yaradıcılığının dəyərlərini tarixən seçim yolu ilə araşdırmalarına üstünlük verilmiş, yeni ideyalarla zənginləşmiş və bu günki səviyyəyə gəlib çatmışdır. Məhz məntiqi yaradıcılıqla coğrafiya elminin tədqiqatına uyğun sistemli seçimlərinin öyrənilməsinə sərf edən alimlər fundamental əsərlərini yarada bilmişlər. Məqsədli olaraq təşəbbüskarlığının nəticəsində coğrafiya elmi məktəblərinin yaranmasına səbəb olmuşdur.

Fikirimizcə, tədqiqatın xarakterinə uyğun gələn, coğrafiya elminin seçiminin izahının əsası problemli məsələdir. Bu sahədə coğrafi sintezinin müəyyən edilməsi və onun kompleks təhlillərinin aparılmasının izahında öyrənilən mövzular daha çox praktiki işlərlərlə tamamlanır. Riyazi və kartoqrafik mənbələrinə söykənən coğrafi elmi təşəbbüskarlığının sahəsində yaradıcı elmi işçinin qarşısında duran başlıca düşüncə tərzinə çevrilməlidir.

▪ ***Məntiqi düşüncə:*** *Elm tarixinin fəlsəfəsində coğrafiya elminin yaradıcılığının məqsədləri ilk növbədə təkamül yolu ilə formalaşmış, elm sahiblərinin əsərləri ilə zənginləşmiş və bu günki səviyyə qarşısında öz bəhrəsini vermişdir. Məhz bu məntiqi mühakimə = coğrafiya elmi tədqiqatı üçün akademik profilli mövzularının yaranmasına səbəb olmuş və davam edir.*

Elmin ehtiyacı yaradıcılığın zərurətindən yaranır. Coğrafiya elminin potensial imkanlarının istifadə edilməsi məqsədilə birbaşa və ya dolayı şəkildə elmdə ehtiyac seçimi meydana çıxır.

Coğrafiya elmı məktəbinin yaranması və elmi nəzəri-praktiki yönümlü tədqiqat sahələrinin önəmə gətirilməsi nə ilə bağlıdır? Əsas məqam coğrafi tədqiqatlarının yaradıcılıq sintezində coğrafi məkanın çərçivəsinə söykənən metodiki qaydalarının üstünlüyü ilə bağlı olmasıdır. Tədqiqatda fundamental seçiminə verilən qərarlarının coğrafi məkanla bağlılığının müasir dövrdə də buna olan ehtiyac davam edir.

Ehtiyac kəlməsinin burda ifadəedilməsinə diqqət yetirin.

Ehtiyaclar mütləq tələbatdan irəli gəlir. Lakin sadəcə ehtiyac sıralarının miqyasında tədqiqatın yeri və mövqeyi məlum edilməsi, sonrakı mərhələlərdə isə

ehtiyacların müəyyən edilməsində çətinliklər yaranır. İstəlinən halda tədqiqatçı öz ehtiyaclarını müəyyən ardıcılıqla sıralamalı və coğrafi seçimlərini etməlidir.

Sonra öz yaradıcılıq imkanlarına baxılmalıdır:

- yaradıcılıq məhdudiyyətlərinin nəzərə alındıqdan sonra tədqiqat aparan şəxs öz istəklərini təmin etmək üçün seçim qarşısında hansı elmi-metodiki variantının qəbul etmək imkanı ola bilər?
- elmi-metodoloji mahiyyətinin məqsədində hansı məsələlərinin həllinə üstünlük vermək olar?
- məhdud resurslar çərçivəsində öz ehtiyacının təmin etməkdən ötrü mövzunun tələbatına uyğun neçə qərar qəbul etmək mümkündür?

Bu suallarının cavabı tədqiqat aparan şəxsin bilik və təşəbbüskarlığının əhatə dairəsindən və onun mövzu seçimindən aslıdır. Sonra öz imkanlarına baxmalıdır. İlk növbədə aparılması zəruri olan elmi işinin metodiki işləmələrinin məhdudiyyətini nəzərə alınması əsas məqsədlərindən biridir. Öz məqsədinə çatmaq üçün mövzunun əhatə dairəsinin elmliyinə və onun imkanlarından istifadəsinə diqqəti yönəltməlidir. Unutmaq olmaz ki, aparılan elmi işinin məqsəd və vəzifələrindən asılı olmayaraq hər bir məqsədli yaradıcılıq prinsiplərininin təsir dairəsi elmlilik dərəcəsi ilə ölçülür.

Yaradıcılıqda seçim anlayışı = coğrafiya elminə söykənən çoxfunksional komplekslilik strukturunun önəmindən və tələbindən asılıdır (1.4.1.). Çoxfunksional coğrafi strukturlarının ərazi təşkili və aparatının elmi davranışlarının seçiminin müəyyənliyini təyin etməklə, tədbiqi istiqamətlərinin sırası ilə ölçülərinə çevrilməsi baş veirir. Siz bu anlamın sıralarının rasionallığını düşünərək, bunun nə dərəcədə faydalı olduğunu qəbul edə bilərsizmi?

Həm material tolamaqda, həmdə onun elmi-metodoloji reaksiyasına cavab verən suallara yaradıcılığın prizmasının vasitəsilə aydınlıq gətirmək daha yaxşı olmazmı? Elm sahiblərinin verdiyi uzunömürlü nəzəri və metodiki töhvələrindən yaradıcılıqla məhz bu situasiyanın coğrafiya elmi təhlillərinin üçün faydalığının gətirə bilməsinin dərkinin anlamağa səy göstərə bilərsinizmı?




**Xiqbi** (ABŞ) göstərir ki, coğrafiya elminin tədbiqi yaradıcılıq metodları elmin əsas ideya mənbəyidir.

***

Yaradıçılıq-tədqiqatın pro-yeksiyasıdır. Burada təccüb və maraq hissinə, axtarışlara olan həvəs qaydaları tədqiat-çıda üstünlük təşkil etməsinə səbəb olur.

**D.Moris**

### 1.4.1. Coğrafiya elminin yaradıcılığ seçimi

**f** = dialektik coğrafi biliklər seçimi; **r** = tədbiqi coğrafiya elmin metodikası; **ğ =** coğrafi məkan modeli**;** **e** = yaradıcı coğrafi innovasiya biliklərin seçimi; **n** = "coğrafi mühit-insan" məntiqin siyasi seçimi; **t** = "coğrafi mühit-insan" məntiqin iqtisadi seçimi; **ğ** = "coğrafi mühit-insan" məntiqin sosial seçimi; **k** = coğrafi biliklərinin kartoqrafik seçimi.

Müəyyən təlimlərinin davamlı sosial-iqtisadi ərazi təşkilinin effektliyinin idarə edilməsində yaradıcılıq təşəbbüskarlığının "məkan-zaman" seçimindən çox asılıdır. Bu sahədə coğrafiya elminin qarşısında bir sıra konstruktiv yol-larının müəyyən edilməsi ilə bağlıdır. Müəyyən elmi-metodiki mənbələrindən istifadə edilməsi, dəyərli mühitinin yaranması və onun ərazi təşklinin arasındakı əlaqə zəncirinin formalaşması ilə tamamlanmasında özünü göstərir.

## Xülasə

- Coğrafiya elminin praktika ilə uzlaşdırılması ilk növbədə varlı sənaye ölkələrində özünü göstərmişdir. Bu ölkələrdə dayanıqlı inkişafının yaranmasında və elmi biliyin praktikası ilə əlaqələndirilməsinin izahından irəli gəlmişdir.

- Coğrafiya elmində formalaşan və müasir dövrdə də öz məzmununu saxlayan "tədqiqat-praktika" formulası inkişaf etmiş ölkələrinin coğrafiya elmi məktəblərinin idealoji seçiminin məqsədi sayılır.

- Yaradıçılıq-tədqiqatın projeksiyasıdır. Burada təccüb və maraq hissinə, axtarışlara olan həvəs qaydaları tədqiatçıda üstünlük təşkil etməsinə səbəb olur. **(D.Moris)**

- Elmdə yaradıcılığının dəyərlərini tarixən seçim yolu ilə araşdırmalarına üstünlük verilmişdir. Yeni ideyalarla zənginləşmiş və bu günki səviyyəyə gəlib çatmışdır. Yaradıcı coğrafiya elminin tədqiqatına uyğun sistemli seçimlərinin öyrənilmsinə sərf edən alimlər fundamental əsərlərini yarada bilmişlər.

- Elmi araşdırma zamanı yaradıcılıq sferasında təşəbbüskarlığının mənbələrinin praktika ilə əlaqələndirilməsinə dair aparılan tədqiqatın yeniləşməsininin yolları: coğrafiya elminin tədqiqatının əsas tərəfidir. Bu məqam elmin təhlillinin rasional çərçivəsini əhatə edir.

**Praktiki düşünək:**

1. Hansı şərtlər daxilində yaradıcılığın imkanları sizin üçün rasional qərar verməyinə mane ola bilər?
2. Tədqiqatın effektli olmasına nail olmaq üçün yaradıcılığının prametrlərinə diqqət yetirin.
3. Coğrafi yaradıcılığın prinsiplərindən istifadə etməklə funksional strukturun ərazi təşklinin idarəetmə yollarını göstərin.
4. Coğrafiya elmi tədqiat üçün təşəbbüskarlığının qaydalarına münasibət bildirin. Siz hansı ideyanı əlavə edirsiniz?

## 1.5. "Tədqiqat & Praktika" terminin ideal məqsədləri

***"Tədqiqat & Praktika" coğrafi tədqiqatın hədəf mənbəyidir. Fundamental suallara cavab verir. Biliyin idealı hansı mövzulara baxılması və neçə təhlil ediləcəyini ehtiva edir".***

"Tədqiqat & Praktika" tədqiqat ilə praktika arasında terminoloji variantlarının davamlı olaraq həyata keçirilir. Dinamik ümumi terminlərə əsaslanır. T&P-nın iki dinamik terminoloji seçim funksiyası var = ilkin funksiya: bilik "məhsul"nu yaratmaq; ikinci funksiya isə yeni bilik yaratmaqla onu tədbiqi "məhsula" çevirmək.

Əvvəlki yarımbölmələrində soruşulan bəzi suallarına müəyyən səviyyədə cavab verildi. Bu yarımbölmə ilə tanış olduqdan sonra, ola bilsin ki, bəziləriniz coğrafiya elminin əhatə etdiyi mövzularından "Tədqiqat & Praktika" (T&P) terminindən qismən bir qədər uzaq olması haqqında düşünə bilərsiniz. İlk baxışdan yanaşmalarının fərqli olması,lakin ümumi düşüncə tərzində real coğrafi seçim etməklə bağlı tamamlanmamış izahları da (sualları) dayana bilər.

Kompleks xarakterli mövzularının öyrənməsinə və paraktikasına yönəldilən coğrafi tədqiqatlarına həmişə ehtiyac duyulur. Bu ehtiyac durumun seçimində "Tədqiqat & Praktika"nın aktiv və mütəşəkkil istifadəsinin elimliyinin üzərində qurulmasının tələbi durur.

"Tədqiqat & Praktika"nın formulasının önəmli izahının məqsədində innovativ və qlobal coğrafi mənzərəni müzakirə edəcəyik. Fərqli coğrafi resurslarının tədqiqat prosesinə cəlb etmək üçün tədqiqat və praktika terminlərini öyrənmək və tədbiq etmək məsləhət görülür. Elmi-metodiki məqsədi və gerçəkliyinin vasitəsi ilə öyrənilən terminlərinin ifadə edilməsi qarşıya məqsəd qoyula bilər.

Biz hər zaman indiki və gələcək tədqiqatlarla bağlı terminoloji əlaqələrininin dinamikasının mənbələrinə dair düşünmək tərzinə malik olmalıyıq. Bu məqamda yenə tədqiqat və praktika anlayışının mənimsənilməsində və önəmə gətirilməsində coğrafi resurslarının elmlilik dərəcəsinin təyini zamanı qəbul edilən terminlərinin praktiki effektliyi köməyinizə gələ bilər.

Coğrafiya elmində "Tədqiqat & Praktika"nın obyekti = "ərazi resursu" = terminin üzərində qurulur. Məqsədli olaraq bununla bağlı bir neçə suallar meydana çıxır:

* “Ərazi resurs” terminin önəmində hansı məqsəd və anlayışlar durur?
* “T&P” da resurs terminin qəbul edilmsi və onun əlaqələndirilməsini tədqiqat üçün vacib hesab etmək olarmı?
* “T&P”nın resurs təhlili zamanı elmi işinin başlanğıc və sonluğunda faydalığının səbəb və məqsədinin əsas istiqamətlərini təyinin edə bilərsinizmi? Bu məzmunlu suallara cavab vermək proqaram üzrə tədqiqat prossesinin davamlı inkişafı üçün çox önəmlidir.

“Tədqiqat & Praktika”ın kreativ yollarının seçilməsi coğrafiya elminin praktika ilə əlaqələndirilməsində çox mühüm əhəmiyyət kəsb edir. İdeal motivində kreativ yollarının üstünlüyü onunla ölçülür ki, təbii və iqtisadi resurslarının istifadəsi və məntiqi təhlilində davamlı tədqiqat mühitinin formalaşmasına imkanlar yaradır.Belə seçim coğrafiya elminin strateji və taktiki yönümlü real gerçəklikləri üçün effektli mövzülarının seçilməsi və işlənməsində mövqeyə malikdir.

“T&P”ın metodikasında bir mənalı olaraq = “kompleks tədqiqat” = termini çoxşaxəli və dinamikdir. “Komleks tədqiqat” sahəsi məqsədli, ümumi faktorlarının təhlillərindən yaranan sisteminin dayanıqlığının ifadəsidir. Bu yanaşma: elmi-tədqiqat aparatının əsas dusturudur.

- ***Öyrənmə məqsədi:*** *Ümumi olaraq coğrafi məqsədlərdə coğrafi-təbii və coğrafi-iqtisadi resurslarının ərazi təşkili üçün kompleks terminindən istifadə edilməsinə üstünlük verilir. “Kompleks” termini = elmi-metodiki çərçivədə resurslarının faydalı məhsula çevrilməsinin “reaksiyası”nın tamamlanmasını özündə birləşdirməsinin ifadəsidir. Deməli “kompleks tədqiqat” terminin çərçivəsində coxfunksional və eyni məzmunlu coğrafi qanunauyğunluğuna tabe olan struktur tsikllərin bir-biri ilə uzlaşması və tamamlanması kontekstində təhlillərinin aparılmasıdır.*

“Kompleks tədqiqat” termindən ən çox istehsal struktur sahələrinin ərazi təşkilinin həyata keçirilmısinin məqsədində istifadə edilir. Coğrafiya elm tədqiqat sahəsi kimi: coğrafi - təbii – iqtisadi kompleks tsiklinin təhlilinin və alınan nəticələrinin kəmiyyət və keyfiyyət dəyişkənliklərinin varlığını özündə birləşdirir. Bu da özlüyündə kompleksin elmlilik dərəcəsinə necə reaksiya vermə imkanlarıının taktiki gedişlərinin yeniliyini artırır (1.5.1.).

▪ **Qeyd:** ***Hər hansı bir iqtisadi struktur kompleks əmələ gətirmir. Elm-kapital - xammal tutumlu iqtisadi strukturlar kompleks yaradır. Kompleks = bizi düşünmə yolunu göstərir və düzgün qərar verməyə, yaradıcılığa kömək edir.***

Elmi məktəbinin yaradıcıları (ABŞ və Avropa coğrafları) ümumi halda belə bir ideya irəli sürmüşlər ki, "hər bir elm o zaman yaradıcılıq sferasına daxil olur ki,onun heç bir elm tərəfindən öyrənməyən predmeti və həmin predmetin inkişafını əks etdirən kompleks qanunları olsun". Belə bir predmet coğrafiya elmin kompleks tədqiqatları üçün "Tədqiqat & Praktika" termini ola bilər.




***1.5.1. "Tədqiqat & Praktika" terminin situasiyalı seçimi***

"Tədqiqat & Praktika" coğrafiya elmi yaradıcılığının zirvəsinin bazisi sayıla bilər. Məsələnin həlli yolunda "T&P"ın tədbiqinin geniş potensiala malik olması ilə fərqlənir. Mövzunun aktuallığı və onun qloballağı "Tədqiqat & Praktika" terminin nə dərəcədə mənimsənilməsindən asılıdır.

Siz bu yanaşmanın dəyərini düşünərəkən və onun "Tədqiqat & Praktika" terminin elmliyinə diqqət yetirin. Müasir coğrafiya elminin fundamental işləmələrinin varlığının mövcudluğunun buna əsasən cavablandırılmasına səy göstərin. Elmin məhz bu situasiyasının təhlillərinin əsasında yerinə yetirilməsinin və ölçülərinin seşiminin müstəqilliyinin təminatını yaradır.

Coğrafiya elmində "Tədqiqat & Praktika" terminin tədbiqinin nəticələri çoxfunksional xarakter daşıyır. Məntiqi durumunda reallaşan coğrafiyanın tədqiqat sahələri müxtəlif elmlərinin apardıqları kumulyativ təhlillərinin əlaqəsi ilə bağlıdır. Bu sahədə coğrafiya elm düşüncə sahiblərinin əsərlərindən və fikirlərindən istifadə olunması çox önəmlidir.

## Xülasə

"Tədqiqat & Praktika" terminin qəbul edilmsi coğrafiya elminin tədqiqat məsələlərindən biridir. Mövcud informasiya bolluğu mühitində istifadəsi bir çox məqamlara aydınlıq gətirir.

- Coğrafiya elmi tədqiqat sahələrinin qazandığı biliklərinin tamlığını yaradır və praktiki imkanlarını təyin edir.

- "Tədqiqat & Praktika" terminin vasitəsilə dəyərli elmi məlumatlarının əldə edilməsində iştirak edir. Tədqiqat prosesində elmi işinin fəaliyyətininin şəbəkəsini gücləndirir. Məqsəd aydınlığı, biliyin dəqiqliyi və ondan istifadə edilməsinin imkanlarını aktivləşdirir.

- Elmi işinin qəbul etmə isbatının məntiqliyini və faktların təhlilinin öyrənməyə və nəticə çıxartmaya kömək edir.

- Coğrafiya elmi bilik ehtiyatının yaradılması və mənimsənilməsin kəmiyyət və keyfiyyət ideal variantlarının seçimində "Tədqiqat & Praktika" terminin fəaliyyət dairəsinin təsiri inkaredilməzdir.

**Praktiki düşünək:**

1. Coğrafiya elminin inkişafı üçün "Tədqiqat & Praktika" terminin əlaqəli ifadələrinin haqqında rəyinizi bildirin.
2. "Tədqiqat & Praktika" terminindən istifadə edərkən daha hansı yanaşmalarına üstünlük verə bilər?
3. Elmi işinizdə tədqiqat ilə praktika arasında texnoloji uzlaşmalarına aid mənbələrini seçin və təhlil etməyə çalışın.
4. "Tədqiqat & Praktika" terminin tədbiqinin nəticələrinin çoxfunksionallığına dair təhlillərini aparın.

## 1.6. Tədqiqatın obyektiv-subyektiv motivləri

***"Səbirli olmaq, məqsəd uğrunda mübarizlik, insani kamillik oxuyub öyrənməklə bağlıdır".***

**Qədim Hind müdrik ifadələrindən**

Tədqiqatçı öz sənət dünyasını sevməlidir. Onun obyektiv-subyektiv motivlərinə hörmət etməlidir. Təlim prosesində problemin anlaması əsas şərtdir. Coğrafi biliyin obyektiv-subyektiv motivlərinə sahib olmaq, sərbəst fikir mübadiləsi çox şey öyrədir. Bax, bu əsl tədqiqat aparmaq vərdişi, bilik əldə etmək yoludur.

Məntiqi olaraq, öyrəninən hər hansı elmi sahənin məqsədində tədqiqatcı mövzunun dalınca qaçmamalıdır; mövzu tədqiqatçını axtarmalı, onun "dalınca qaçmalıdır". Hər hansı bir ideyaya qarşı həsas olmaqla yanaşı, ona tənqidi yanaşmalı və ona tapşırılan probleminin həllinin yollarını kor-koranə qəbul etməməlidir. Əvvəlcə mövzunun əsasını öyrənməli, elm sahiblərinin mövzu ilə əlaqədar obyektiv-subyektiv fikirlərini mənimsəməlidir.

Əgər qəbul edirsən ki, "bunu uda bilmirsən", o zaman "həzm" haqqında düşünməyə dəyməz. Məsələ onunla ölçülür ki, mövzunu və qarşına qoyduğun problemini gərək həzm etmək bacarığına malik olasan. Bax, budur problemin obyektiv və subyektiv meyarları.

İfadəli şəkildə A.Eynşteynin çox maraqlı yanaşması diqqəti cəlb edir: "Əgər cavan və sağlam bir yırtıcı heyvana qamcı gücünə hər gün həddindən artıq ət versən, tədricən o, yeməkdən tamamilə iyrənəcəkdir". Bu ehtimalın variantlarından biri də ondan ibarətdir ki, elmi-nəzəri və praktiki bilklərinin tədqiqatçıda özünə inamın, ağıllı riskin və yaradıcılıq cəsarətininin yoğrulmasına yönəldəsən.

Obyektiv-subyektiv anlamının məqsədi nə ilə əlaqəlidir? Sualın cavabına dair bir sıra məqamlara aydınlıq gətirək. Hər bir öyrənilən predmetin və tədqiqat obyektinin müəyyən dərəcədə obyektiv və subyektiv motivləri mövcuddur. Coğrafiya elmi mənbəyi üçün maraqlı olan diskusiya xarakterli yanaşmanı təklif edirəm (1.6.1.). Buraya daxildir:

$$\mathbf{Sa} = \left( \left\{ \begin{matrix} Ga_1 \\ Ga_2 \\ Ga_3 \\ Ga_4 \\ Ga_5 \end{matrix} \right\} \left\{ \begin{matrix} Ra_1 \\ Ra_2 \\ Ra_3 \\ Ra_4 \\ Ra_5 \end{matrix} \right\} \left\{ \begin{matrix} Da_1 \\ Da_2 \\ Da_3 \\ Da_4 \\ Da_5 \end{matrix} \right\} \right)$$

***1.6.1. Tədqiqatın ( Sa) obyektiv-subyektiv anlamı***

**Ga** = coğrafiya elmi düşüncə tərzinin obyektiv anlamı;
**Ra** = coğrafi elmi mənbəyin subyektiv anlamı;
**Da** = diskret xarakterli anlamı.

Coğrafiya elmi obyektiv-subyektiv motivlərinin daima dəyişməsinin səbəblərinin adi hal kimi qəbul edilməsinin məqbul hesab etmək olmaz. Elmin təbii mühitinin davamlığının tənzimlənməsinin prosesinə tədqiqat aparan şəxsin dünyagörüşünə uyğun dəyişilə bilər. Burada (**Ga**) anlamı çox vacib məsələdir.

Tədqiqatın ideya mənbəyinin davranışının variantları üzrə ($Ga_1$; $Ga_2$....$Ga_5$) obyektiv müxtəlif modelləri ilə izahı daima diqqət mərkəzinə çevirmək məqsədəuyğundur. Digər elmlərindən fərqləndirən cəhətlərdən biri onun öyrəndiyi predmetin və onun subyektiv (**Ra**) daxili məzmunudur. Daxili məzmunun önəmində “coğrafi bilik” idadəsi altında hadisə və proseslərinə dialektik yanaşma tərzinin üstünlük təşkil etməsidir. Coğrafiya elminin diskret **(Da**) xarakterli motivləri tədqiqatının daxili məzmununda yeni fikirlərinin aydın ifadəsi üçün əsas sayılır. “Coğrafi bilik” ifadəsinin məhz bu cəhətlərində elmdə fayda yarada bilir.

Məntiqi baxımında coğrafiya elmi araşdırmaları üçün mövzu dairəsinə uyğun olaraq tədqiqatçının psixoloji vərdişləri, “obyektiv-subyektiv” düşüncə tərzinin məzmununda, rasional fikirlərinin üstünlüyünə diqqət yetirmək tələb olunur. Buraya daxildir: biliyin nəzəri və praktiki həqiqiliyi, obyektivliyi, rasionallığı və s.

Başqa rakursda isə tədqiqat zamanı hansı probleminin önəmə gətirmək, hansı istiqaməti və nəyi bilmək lazımdır fikrinə diqqət yetirmək imkanına malik olmalısan. Bu yanaşma elmi işinin yerinə yetirilməsi üçün mühüm məsələdir. Başqa ifadə ilə desək, burada mövzunun məqsədindən,predmetindən və tədqiqat metodlarının nəzəri-praktikasının daxili məzmunundan söhbət gedir. Bu halda isə bilik anlayışının özü obyektiv gerçəklikdə "məhsuldar" mənbəyə çevrilir.

- ***Haşiyə:*** *"Məhsuldar" mənbənin ifadə məzmunu nədir? Bu mənbənin daxilində aparılan elmi işlərinin ən mühüm motivinin çərçivəsi = onun struktur formalarının dərk edilməsi və rasional sahələrinin müəyyən edilməsini, eləcə də elmi fəaliyyətlə məşğul olan tədqiqatçının ideya məhsulunun hansı metodlarla qazanmaq və duymaq zərurətindən irəli gəlir.*

Elmin "obyektiv-subyektiv" fəaliyyət dairəsinin dərk edilməsi mühüm məsələdir. Elm adamının gördüyü işinin müəyyənliyinin dərəcəsi heç də asan yol deyildir. Con Bernalın elmi fəaliyyətin spesifikasını müəyyənləşdirməyin çətinliklərindən bəhs edərək yazır ki, "elm adamının fərqləndirilməsi elmin nə olduğunu müəyyənləşdirməkdən daha rahatdır. Ona görə də, ən asan yol elmi alimlərin gördüyü iş kimi səciyyələndirmək və ona münasibət bildirməkdir" [21].

***Düşüncə tərzi:*** *Elmin tam olaraq mənimsənilməsi qeyri-mümkündür, çox çətin, məsuliyyətlidir. Bunu nəzərə alaraq, müəyyən bir elmi istiqamətli düşüncə tərzinə malik olmaq lazımdır. Digər elminin dəyərləri ilə müqayisəsinə diqqət yetirilməlidir. Təhlil edilən mövzunun yenilikli obyektinə üstünlük verilməsi və mənbələrdən istifadə edilməsinin mədəniyyətinə uyğunlaşmasına nail olmasıdır.*

Müasir Azərbaycan coğrafiya elmi tədqiqatının təməlində regional və lokal xarakterli biliklərin üzərində işlənən mövzular üstünlük təşkil edir. Bizi düşündürən odur ki, tədqiqat mövzununun metodikasında = dəyərli olan biliklərinə qarşı = reaksiyalar yetərincə deyildir. Elmə xidmət edən nəzəri – metodoloji mənbələrinin nəticələrində çatışmamazlıqlar da bununla bağlıdır. Çünki tədqiqatçı yalnız obyektiv gerçəkliyinin təhlillərinə meyl edir. Nəyə çox diqqət yetirmək lazımdır? Mövzu dairəsinin bilik tutumlu mövzularının aparılmasına, bütövlükdə düzxət boyunca dərk etmək prinsipinə uyğun tədqiqat işinin hərəkətinin qurulmasının təminatını yaratmaq və bu istiqamətdə təhlillərinin yerinə yetirilməsinin imkanlarına baxılmalıdır.

[21] Дж. Бернал. Наука в истории общества. М. 1986.

Gənc alimləri və magistrləri şəxsiyyət fonunda hazırlanmasına və tam inkişafına xidmət edən biliklərinin mənimsənilməsinə tələbinin yeniləşdirmək yolu ilə buna nail olmaq olar. Qeyd etmək məqsədəuyğundur ki, bu sahədə tədqiqatçı ilə birlikdə elmi rəhbərinin də xidməti çox mühüm şərtdir. Elmi rəhbər = coğrafiya elminin təbiətini mənimsəmək, innovativ elmi mənbələrinin bir araya gətirilməsində yardım etməli və onu bu istiamətə yönəltməlidir.

Elmin obyektiv və subyektiv motivinin tərkibinə həmdə yaradıcı şəxsin coğrafi biliyinin ruhana daxil olmasıdır. Ona özünün bir varlığı kimi baxmalıdır. Xüsusilə, yaradıcı coğrafi biliklər üzərində qurulan mövzular tədqiqatçıda inam yaradır. İnam üzərində qərar tutan araşdırmalarının nəticələrinin reallıqları sonradan elmi işinin fundamentallığı üçün zəmin yarada bilir. Bu zəmin elmin dialektik coğrafi reallığının ifadə edən dəyərlərini fərqləndirir və ya başqa kontekstdə yanaşsaq "davamlı konstruktiv biliklər"nin çərçivəsinə daxil edir.

Coğrafi konstruktiv biliklər mövzunun daxili məzmunu ilə yanaşı, ümumi nəzəri-metodoloji əlamətlərinin davamlı olaraq tədqiqat obyektinin "enerjisi"nə çevrilir. Bu enerji elmin daxili məzmununu əhatə etsə də, konstruktiv təhlil metodikasının ümumi cəhətlərinin və mövzunun coğrafi sərhəddinin əhatəsindəki varlığını da özündə birləşdirir.

Coğrafiya elmin obyektiv-subyektiv motivlərinin məqsədəində "təbiət-cəmiyyət"in varlığının və dinamikasının bir sistem kimi də öyrənməyini təqdim edir. Məntiqi yanaşaq, "təbiət-cəmiyyət"in elm sistemi əslində kompleks xarakterli olub, qloballığı ilə seçilir. Burada söhbət, potensial və aktual mövzu dəyrələrinin motivlərinin mövcudluğundan və eləcə də tədbiqinin reallığından gedir. Hər hası bir dəyərli bilik motivinin coğrafiya elminin maddi varlığında özünü tapırsa – o, artıq metodoloji tədqiqat prosesinə çevrilir.

# Xülasə

- Tədqiqatın obyektiv və subyektiv motivinə nisbi, zəruri hadisələri, yəni səbəb-nəticə dialektikasına uyğun təhlillərinin aparılmasının nisbətləri də daxildir.

- Təhlil zamanı coğrafi elmi varlığının potensial mühitinin ərazi təşkilinin variantlarının müəyyənliyini düymaq və məqsədli nəticələrə gəlmək imkanlarına malik olan mövzulara diqqət yetirilməlidir.

- Elmdə mövzuların seçilməsi obyektiv - subyektiv motivinə və eləcə də "nəzəri – praktiki-inkişaf"ın tələblərinə uyğun olmalıdır.

- Yaradıcılıq elminin təbiətində coğrafi modelləşdirmə və onun daxili potensialının informasiyasının mənimsənilməsi və optimal ötürülməsi üçün obyektiv və subyektiv motivlərinin potensialının artırılmasına imkanlar yaradır.

- Ümumi bilikdən praktiki biliklər sisteminə keçid ərazi strukturlarının "qüvvəsi"ni artırır. Yeni araşdırmalarının davamlı inkişafı üçün elmin sahələri üzrə təhlilinin aparılmasının obyektiv və subyektiv motivinin daha bir təzahürü kimi izah etmək olar.

- Coğrafi biliklər mövzunun nəzəri-metodoloji funksiyaları tədqiqat aparatının yaradıcılığının tərkibinə daxil olmalıdır.

- Elmin metodiki fəaliyyət miqyasında dərk edilməsi mühüm və həlledici faktordur.

**Praktiki düşünək:**

1. Obyektiv və subyektiv motivlərinin təlimi haqqında yeni nə düşünmək olar?
2. Elmi bilik əməli fəaliyyət prosesində özünü necə göstərə bilər?
3. Coğrafiya elmi düşüncə tərzinin diskret xarakter daşımasına aid misallar göstərin.

# İKİNCİ FƏSİL

## Tədqiqatın coğrafi məkan varlığı: tədbiqi aparatın arxasındakı reallıqlar

**Fəslin icmalı və tədqiqat məqsədləri:**

**2.1. Coğrafi məkan varlığının təbiəti**
Cəmiyyətin inkişafı coğrafi məkan varlığı ilə əlaqəlidir. Coğrafi məkan ifadəsi çoxşaxəli funksiyalara malik olub, fəlsəfi coğrafiyanın dünyagörüşünün tərkib hissəsidir.

**2.2. Coğrafi məkanın məna ifadələri**
Coğrafi məkanın məna ifadələrinin əsasını danamik "hərəkət"in fəaliyyət çərçivəsinin ritmik "davranış"larının önəmə gətirilməsidir.

**2.3. Coğrafi məkanın situasiyallı yanaşmalrı**
Ehtimal olunan situasiyalarının öyrənməsinə dair coğrafi məkanın təsnifat göstəricilərinə münasibət bilidirilir.

**2.4. Coğrafi məkanın hərəkəti haqqında biliklər**
Coğrafi məkan = ərazinin "təbii büdcəsi" kimi varlığının hərəkət qanunauyğunluqları öyrənilir və müzakirə baxışı ilə obyektiv məqsədli təhlilləri aparılır.

**2.5. Coğrafi məkanın çoxxətli ölçüləri**
Coğrafi məkanın çoxxətli ölçüləri qruplaşdırılmış və praktikasına dair ideyalar əsaslandırılır.

## 2.1. Coğrafi məkanın varlığının təbiəti

***"Təbii kompleksin varlığının davamlı dialektikası coğrafi məkanın təbiətidir".***

Coğrafiya məkan fəlsəfəsi-cəmiyyəin ritmik varlığının inkişafıdır. Təbii-iqtisadi resursunun enerşisinin dayanıqlı hala malik olması = coğrafi məkan varlığının dialektikası ilə əlaqəlidir.

Coğrafiya elminin xronologiyasına nəzər salsaq, görür ki, elmin formalaşması cəmiyyətin varlığı ilə yaşıddır. Cəmiyyətin davamlı inkişfının fəlsəfəsində coğrafi məkan ifadəsinin varlığı bir çox məqamlara aydınlıq gətirir. Bu ifadə varlığının təlabatından irəli gələrək bir sıra elmlərlər kimi, coğrafiya elminin dialektik düşüncə tərzinin uyğunlaşma prosesinin yaranmasına və sonrakı dövlərdə isə onun tədqiqat obyektinə çevrilməsinə səbəb olmuşdur.

Antik dövrdən başlayaraq cəmiyyətin tarixində müxtəlif istiqamətli elmlərinin yarannasına səbəb olan xüsusi fəlsəfi düşüncə tərzləri yaranmış və fəaliyyət göstərmişdir. Bu fəaliyyət hər bir elmin tədqiqat aparatına çevrilmişdir. Coğrafiya elminin tədqiqat aparatında isə "coğrafi məkan" fəlsəfəsinin düşüncə dərzi hesab olunur. "Coğrafiya məkan" fəlsəfəsi termininin qəbul edilməsi ilk növbədə onun tədqiqat obyektinin və predmetinin dialektikası ilə əlaqəlidir.

"Təsfirçi" düşüncə tərzinin elmi-metodiki konstruksiyası ilə əvəz olunmasında coğrafi məkanın düçüncə tərzinin mövqeyi əsas rol oynamışdır.

Coğrafi məkannın metodiki konstruksiyası onun çoxfunksional coğrafi sərhəddinin çərçivəsinin təsirinin "qüvvə"sinə uyğun gəlməsi ilə tamlığının yaradılmasıdır. Coğrafi sərhədlərinin seçiminin qəbul edilməsinin metodiki əsaslarının önəmə gətirilməsinin elmi tədqiqatlar üçün əsas öyrənmə vərdişlərindən sayılır. Mövzunun öyrənilməsinin və təhlillərinin metodiki qaydaları coğrafi məkanının çoxfunksional sərhədlərinin daxilində sistemli formasında baş verir. Bu səbəbdən də coğrafi məkan sisteminin apaşdırmasının ilkin mənbəyinin önəminin qaydaları elmi-metodologiyaya və konstruktivli təhlillərinə söykənir.

- ***Diqqət yetirək:*** *Coğrafi məkan sərhəddinin konteksti çox mühüm tədqiqat sahəsidir. Bu kontekstdə bunun elmi izahının dəyəri nə ilə ölçülür? Fikrimizcə, hər hansı coğrafi funksional ərazi-istehsal (və ya ərazi-təbii kompleksi)*

*kompleksi coğrafi məkanın sərhədlərinə uyğun formalaşır. Coğrafi məkanın sərhədlərinin təsirinin "qüvvə"si ərazi-istehsal (və ya ərazi-təbii) kompleksinin sərhədlərini təyin edir.*

Cəmiyyətin dayanıqlı inkişafının tələblərinə uyğun olaraq elmlər sistemində nəzəri konstruksiyalı təlimlərinin meydana gəlməsinə səbəb olmuşdur. Bu baxışlarının nəticələri coğrafiya elminin fəlsəfəsinin təlimində də aparıcı mövqenin üstünlükləri meydana gəlmiş, digər təbiət elmlərinin arasında fərqlənməsinə səbəb olmuşdur. Bu məqsədə xidmət edən bir neçə suallarının mövcudluğunu göstərək:

- ✓ Coğrafi məkanın izahında hansı metodiki qaydalarını qəbul etmək olar?
- ✓ Coğrafi məkanın funksional kəmiyyət və keyfiyyət dəyişilmələri nə dərəcədə təsir "qüvvə"sinə malikdir?
- ✓ Səbəb kimi: coğrafi məkanın sərhədləri komplekslə bağlılığı ilə məqsəd nədən ibarətdir?
- ✓ Məkan varlığı tədqiqatın "yük götürmə" səviyəsinin tamlığının yaranmasında nə kimi faydalılığı var?

Verilən suallara yaradıcılıqla yanaşsaq, coğrafi məkanın elmi tədqiqatının başlanğıc nöqtəsinin ritmik dəyişilməsinin sıralarının məntiqinin dərkində aşağıdakı formula ilə ölçülməsnə aydınlıq gətirə bilərik:




burada: G - coğrafi məkan D = məkan funksiyaları

r – coğrafi məkanın fuksional dəyişilmə "qüvvə"si

↔ coğrafi məkanın ritmik əlaqələri

Zaman çoxluğunun varlığının coğrafi məkanla bağlılığının əlaqələrinin haqqında düşünərkən, onun ilkin olaraq dinamik xarakterli olmasının ideyasını qəbul etməliyik. Bu onun üstünlük cəhətidir. Zaman çoxluğunun sistemenində coğrafi məkanın öyrənməsinin bir sıra məntiqi-elmi anlayışlarına aydınlıq gətirmək və buna uyğun fikirlərinin söylənməsinin imkanları yarana bilər.

▪ ***Yanaşma tərzi:*** *Tədqiqatda coğrafi məkanın varlığınının ideya məsədlərinin əsasını dərk etmədən elmi məqsədlərə catmaq qeyri-mümkündür. F.Engels araşdırmalarında cəmiyyətin inkişaf tempi üçün coğrafi məkan varlığına dair məqsədli ideyalar irəli sürmüşdür. F.Engelsə görə: "məkan və zaman" - hərəkət edən materiyanın obyektiv varlığının formalarıdır. A.Eynşteyn nisbilik nəzəriyyəsində əsaslandırır ki, "məkan və zaman" hərəkət edən materiyanın obyektiv varlıq formaları olub,materiyadan ayrılıqda və ondan asılı olmadan mövcud deyildir.*

"Coğrafi məkan"nin varlığının elmin dövriyyəsinə daxil edilməsi və metodiki təhlilinə çevrilməsinin coğrafiya elminin yaradıcılığının naliyyəti kimi hesab edilə bilər. Fiziki coğrafi hadisə və proseslərinin təsvirində yalnız təbii mühiti deyil, məhz məkanda fiziki, iqtisadi və sosial "yüklər" arasındakı funksional sahələrinin nizamlı əlaqəsinin tələb kimi qəbul etmək lazımıdır. Məsələnin izahı onunla ölçülür ki, tədqiqatcı tərəfindən metodiki yanaşmalarının çərçivəsində coğrafi məkan və onun sərhədlərinə münasibət bildirməsinin səbəbindən öz məqsədinə çata bilər.

Elmin yarandığı ilkin mərhələsindən başlayaraq, müasir dövrə qədər davamlı olaraq coğrafi məkan varlığına dair geniş miqyasda təhlilləri aparılmışdır.

Təhlil etdiyimiz "coğrafi məkan" və onun "varlığı" **anlayşlarının elmdə mühüm rol oynamasını nəzərə alaraq, onu dərindən öyrənmək və praktiki** imkanlarına diqqətinin artırmasını məsləhət bilirik.

Coğrafiya elminin ümumi metodologiyasının üzərində aparılan təhlillərinə görə, coğrafi məkana söykənən araşdırmalarının nəticələri davamlı olaraq konseptual məzmunda formalaşmışdır.

Fikrimizcə, bu formalaşma üç funksional: coğrafi, iqtisadi və virtual variantlarının daxilindəki "məhsul"nun fəaliyyətinin yekunlarına söykənir və tamamlanır:

- Birinci yekun: ilkin coğrafi funksiyası. Bunun məqsədi coğrafiya elminin kompleks təşkilinə uyğun elmi "məhsul"un yaratmaq məqsədini güdür.
- İkinci yekun funksiyası: coğrafi-iqtisadi bilik yaratmaqla yanaşı, elmi "məhsul"un inkişafının metodologiyasına dəstək verməkdir.
- Üçüncü funksional yekun:coğrafi məkanın virtual praktiki "məhsul"un təhlillərinə xidmət etməkdir.

İlkin mənbələrinə dair təhlilinin miqyasının məzmununa diqqət yetirsək, coğrafi məkanın təbiətində bir sıra məqamlarının meydana gəlməsini müşahidə edə bilirik. Coğrafi məkanın təbiətinin xarakterik cəhətlərindən biri tədqiqat prosesində yeni bilik sahibinə malik olmasıdır.

- ***Düşünək:*** *Yeni bilik sahəsinə çevrilməsinə dair mülahizələr problemlə məşğul olan zəka sahibləri tərəfindən coğrafi məkanın anlayışının elmi araşdırılmalarında demək olar ki, bir mənalı qəbul olunmamışdır.*

*U.M.Devis (Davis,1906. ABŞ) coğrafi məkanın tsiklinin modelini vermişdir. Onun fikrincə, coğrafi məkan = elmin əsas binovrəsidir. E.Ç.Çempl (Semple, 1911) "Coğrafi məkanın təsiri" adlı əsərində = insan: coğrafi məkanın "məhsulu"dur = kimi konsepsiyasını irəli sürmüşdür.*

*Ümumi təhlillərinin kontekstində yanaşsaq, fikrimizcə = coğrafi məkanın elmi "məhsul"un miqyasında aşağıdakı göstərilən funksional variantlarının miqyasını göstərə bilərik (2.1.1.).*




**N** = bilik yaratmaq funksiyası; **D** = tədqiqat obyekti ilə metodiki araşdırma funksiyası; **R** = coğrafi təbii və iqtisadi resurs məhsulun funksiyası; **G** = elmi tədqiqatın informasiya funksiyası; **F** = proqnoz "məhsul"un funksiyası; **L** = coğrafi məkan variantının texnoloji funksiyası

——— elmi məhsulun varlığının təbiəti
- - - - - elmi məhsulun texnoloji təbiəti

***2.1.1. Coğrafi məkanın (ĞM) elmi "məhsul"un funksiyaları***

Coğrafi məkan elmliyinin istiqamətli "məhsul"un öyrənilməsi geniş konsepsiyadır və onun tədqiqatının sərhədləri geniş məzmunla ölçülür. Problemin ideya mənbələrindən biri olmaqla ilk dəfə olaraq Qərbi Avropa və Şimali Amerika coğrafiya elmi məktəblərinin diqqət mərkəzində olmuş və təhlillərinə dair qaydaları təyin olunmuş və metodiki-praktiki konsepsiyaları əsaslandırılmışdır.

▪ ***Yaddaş:*** *coğrafi məkan varlığının düşüncə tərzi elm aləmndə dönüş nöqtələrindən biri olmuş, problemli məsələlərinin həlillinin davamlı olaraq aparılmasında, istifadəsində və elmi-metodiki tədqiqat proqnozlu məhsulunun arasında "körpü" olması ilə fərqlənmişdir.*

Bütövlükdə, coğrafi məkanın innovasiyasında tədbiqi araşdırmalar və tədqiqatlar axtarışı xarakterli elmi-texniki tərəqqinin başlanğıc dövründən aparılır.[22] Texnoloji yönümlü tədbiqi elmi-texniki tərəqqinin sahəsində innovasiya fəaliyyəti coğrafi məkan təbiətinin inkişaf etdirilməsinə doğru bir yol olduğuna dair araşdırmalarını qeyd edə bilərik[23].

Coğrafi elmi təhlillərinin uyğunluqlarının metodoloji sahəsi kimi "ABŞ – Böyük Britaniya – Kanada", "Fransa – Almaniya – Avstriya" elmi məktəblərinin mövqeyi və rolu inkaredilməzdir. Qeyd edilən məktəblərdə irəli sürülən elmi ideyalar o qədər önəmlidir ki, onlar arasında hansısa bir kəsişmə nöqtəsinin tapılmasının qaydalarının prinsipial olaraq mümkün deyildir.

Elmi məktəblərinin yaratmış olduqları coğrafi məkan konsepsiyalarının öyrənilməsi və tədbiqinin reallaşdırılmasına aid əsərlər bütün dövrlər üçün aktual mənbəyə çevrilmişdir.

---

[22] Ларин Н.И.Теория и практика. М., 2010.

[23] Географическая среда (сб). М., 2004.

## Xülasə

- "Coğrafi məkan" ifadəsinin varlığının dərk edilməsi təbii resurslarının elmi-tədqiqatının fəaliyyətinə cəlb edilməsilə bağlıdır.
- Metodiki təhlil ilə coğrafiya elmin yaradıcılıq tərzinin naliyyəti kimi coğrafi məkan varlığının mənimsənilməsi ilə əlaqədar olan tədqiqatların aparılması elmin inkişafında mühüm yer tutmuşdur.
- Tədqiqat proseslərinin təsvirində yalnız təbii mühiti deyil,məhz məkanda fiziki,iqtisadi və sosial "yüklər" arasındakı funksional sahələrinin əlaqəli kimi izahı tələb olunur.
- Təhlil etdiyimiz "coğrafi məkan" və onun "varlığı" anlayşları elmdə mühüm rol oynadığını nəzərə alaraq problemin elmi-praktiki dəyrələrini öyrənmək və innovativ istiqamətlərinə praktiki  diqqəti artırmaq lazımdır.
- Demək olar ki, coğrafi məkan varlığının təbiəti = tədqiqatın aparılmasında ən əsas parametrdir. Coğrafi məkanın təbiəti tədqiqatın gedişinə birbaşa və ya texnoloji yol ilə dolayı gerçəkliklə öz təsirini göstərir.
- Elminin ümumi metodologiyasına əsaslanan önəmləri göstərir ki, coğrafi məkana söykənən araşdırmalar davamlı olaraq konseptual məzmunda formalaşmasını və dinamikasını təmin edir.

**Praktiki düşünək**

1. "Coğrafi məkan" alnayışı timsalında daha hansı fikirləri qəbul edə bilərsiniz?
2. İdeallaşma yolu ilə yaradılan anlayışlar coğrafiya elmində tədqiqat  üçün nə kimi mövqe tuta  bilməsinə dair mənbələrini araşdırın.
3. Coğrafi məkan varlığı sistemində informasiya və proqnoz variantlarına dair elmi məlumatları neçə toplamaq olar?

## 2.2. Coğrafi məkanın məna ifadələri

***"Məqsədli məna ifadələrinin öyrənilməsi və praktikada istifadə edilməsi şəxsi biliyin inkişaf etdirilməsi yoludur."***

Tədqiqat prosesində coğrafi məkanın yalnız təsviri görünüşünü yox, bir də onun məna ifadələrinin bir-birindən fərqləndirilməsinin əsas şərtlərinə dair sərbəst fikir mübadiləsinin bacarığı lazımdır.

Elmi işlərinin aparılmasının təsnifatında məna ifadələrinin məzmunlu gerçəkliyinin və əhatə dairəsinin spektrinin mövqeyi maraq doğurur. Bu yanaşma mövqe coğrafi məkan konsepsiyasında daha geniş məzmunla ifadə olunur. Ümumi coğrafiya elminin qarşıya qoyduğu suallarının cavabları coğrafi məkan potensialının məna ifadələri ilə bağlıdır.

▪ ***Düşüncə tərzi***: *sadə və mürəkkəb coğrafi məkanın məna ifadələrinin elmin tədqiqata cəlb edilməsinin mübadiləsində iştirak edir. Bu məntiqlə aparılan elmi işlərinin metodologiyasına və onun əsası kimi coğrafi məkanın məna ifadələrinə diktə olunur. Tədqiqatçının tələbinə cavab verən ideyanın elmi yaradıcılığında istifadəsi və təhlili üçün faydalığını müəyyənləşdirir.*

Biz bura qədər coğrafi məkanın məna ifadəsinə cavab tapmalı olduğu suallarına nisbətən cavab verə bildik. İndi isə məkanın məna ifadəsinin nədən ibarət olmasının mexanizminə baxaq. Bunula əlaqədar bir neçə bizi düşündürən suallara diqqət yetirək:

▪ Elmi təhlillər üçün coğrafi məkanın məna ifadələrinin miqyasının faydalığı nə ilə ölçülür ?

▪ Tədqiqatda effektli məzmun yaratmaqda coğrafi məkanın məna ifadəsindən istifadə etmək lazımdırmı?

▪ Elmdə istifadə edilən məna ifadələrinin tədqiqat institutu kimi qəbul etmək mümkündürmü?

Tələb edilən mövzunun elmi-praktiki əhəmiyyətini cavablandıran probleminin önəmə gətirməsində coğrafi məkanın məna ifadələri birbaşa və ya dolayı yolla təyin olunur. Bu gün coğrafiya elmində "məkan-zaman" məna ifadələrinin xarakteri və dərəcəsi müzakirə obyektinə çevrilir. Nəzəriyyədə və praktikada coğrafi məkan resurslarının paylanması və səmərəliyinin kompleks işləmələrinə dair konfransalar, elmi məclislədə müzakirə olunur.[24]

[24] География: задачи науки (сб. науч.конф.). Киев., 2004.

Coğrafi məkanın imkanlarına söykənməklə, müstəqil tədqiqat işlərinin yerinə yetirmək məqsədi daha geniş kompleks miqyaslı olması ilə fərqlənir. Kompleks miqyaslı araşdırmalarının başlanğıc mərhələsində coğrafi məkanın elmi-metodiki sahələrini önəmə gətiməklə, məqsədə doğru daha effektli təhlil üçün imkanlar yaradır. Bununla yanaşı, həm də mözunun "məkan-zaman" ölçülərinin təyinində fərqli keyfiyyət məzmunlu formalarını stimullaşdırır.

Məqsədə doğru irəliyə baxışının reallaşdırmasının probleminin coğrafi məkanın məna ifadələrininin qəbul edilməsində özünü göstərir. Təhlil edilən coğrafi obyektin (sistemin) davamlı ərazi təşkilinin rasional xətlərinin konseptual forma və məzmunlu tamamlanmasında coğrafi məkanın məna ifadələrinin konturları ilə bağlı bəzi məsələlərinə münasibət bildirək.

Məntiqlə yanaşsaq, coğrafi məkan resurslarının faydalı variantlarından istifadə edilməsi xətlərinin tədqiqat mühitinə daxil etmək üçün hər bir mühitin yaranmasının səbəb-nəticənin yarada biləcək şəraitinin öyrənilməsini tələb olunur. Tələbin yekunlarına diqqətlə yanaşsaq, elmi tədqiqatın kompeksliyi haqqında düşünmək olar. Burada əsas məqsəd onunla ölçülür ki, təyin edilən resursunun keyfiyyət hala çevrilməsinin imkanlarının yararlı məhsula çevirmək bacarığını özündə göstərə bilsin.

Yuxarıdakı məqsədlərə cavab olaraq tədqiqatın gedişi zamanı coğrafi məkanın öyrənilməsi və təhlilləri üçün məna ifadələrinin elmi təsnifatının üstünlüklərini bir araya gətirməyini məqsədəuyğun saymışıq (2.2.1).

| | | |
|---|---|---|
| **{Ğ}** | ▪ | { $Ğ_1$ }... { $Ğ_2$ }... { $Ğ_3$ }... { $Ğ_n$ } |
| **{ F}** | ▪ | { $F_1$ }... { $F_2$ }... { $F_3$ }... { $F_n$ } |
| **{E }** | ▪ | { $E_1$ } ... { $E_2$ } ... { $E_3$ } ... { $E_n$ } |
| **{ J }** | ▪ | { $J_1$ } ... { $J_2$ } ... { $J_3$ }... { $J_n$ } |

**{Ğ}** ▪ elmi idrakın məkan məna ifadəsi
**{F}** ▪ elmi yaradıcılığın məkan məna ifadəsi
**{E}** ▪ məkan kredosun dərk edilməsi ifadəsi
**{J}** ▪ məkanın elmi- praktiki məna ifadəsi

**2.2.1. Coğrafi məkanın məna ifadələri (öyrədici variant)**

Elmin dünyagörüşündə coğrafi məkanın məna ifadələrinin çərçivəsinin ideyasının məntiqi istiqaməti çoxfunksional olub və bir sıra məna ifadə seçimlərini özündə əks etdirir. Məna baxımından coğrafiya elminin ritmik inkişafının əsasında məkan məntiqində bir sıra yanaşma ifadə tərzlərinin müstəfisində izah etmək olar: **{Ğ; F; E; J** və s.**}**. İlkin mənada coğrafi məkanın ifadə varlığının məntiqində elmi idrak {Ğ} durur. İdrakın müxtəlif forma yanaşmaları ilə birlikdə elmin "hərəkəti" yaradıcılıq {F} ideyalarına söykənir. Coğrafi məkan kredodusu {E}-insan varlığının dərk edilməsi və yaşamaq tərzinin (praktika {J}) ifadəsini özündə əks etdirir. Elmi-praktiki dəyərlərinin fonunda formalaşan bu ideyalar coğrafi məkan fəlsəfəsində və yeniləşməsində, o cümlədən tədbiqi coğrafiya elminin tədqiqatlarında inkar edilməzdir.

**Xülasə**

- Coğrafiya elmi-tədqiqatlarının aparılamsı məqsədində coğrafi məkan məna ifadəsinin təhlilinin üstünlüklərinə malikdir.

- Coğrafi məkan konsepsiyasında məna ifadələri geniş ideyalarını özündə əks etdirir. Coğrafiya elminin qarşıya qoyduğu suallarının cavabları ilk növbədə məkanın məna ifadələri ilə bağlıdır.

- Mövzunun elmi-praktiki problemini önəmə gətirilməsində coğrafi məkanın məna ifadələrinin öyrənilməsi həm nəzəriyyədə, həm də praktikada müzakirə predmetidir.

- Təyin edilən resursun keyfiyyət hala çevrilməsində coğrafi məkan potensialının imkanlarını nəzərə almaq məqsədəuyğundur.

**Praktiki düşünək:**

1. Tədqiqat prosesində məna ifadələrinin istifadə edilməsinin təsirini nədə görürsünüz?
2. Sizi daha hansı ideya mənbələri özünə cəlb edir? Bunu izah edin.
3. Coğrafi məkanın məna ifadələrinə daha hansı əlavələrini daxil etmək mümkündür.

## 2.3. Coğrafi məkanın situasiyalı yanaşmaları

***"Coğrafi məkanın situasiyalı məntiqinin dərk edilməsi tədqiqatçı üçün zəruri təhlil modelidir."***

Dərin bilik əldə etmək üçün coğrafi məkanın elmi-tədqiqatının imkanlarının müəyyən etmək, reallaşdırmaq məqsədləri coğrafiya elminin metodikiasını zənginləşdirir.

Tədqiqatın elmlilik resurs potensialının əldə edilməsi və ya mövcud resurslarla daha çox fəaliyyət göstərməkdə coğrafi məkanın ehtimal məntiqinin situasiyalı yanaşmalarına söykənmək və buna uyğun elmi işinin qurulmasına nail olmalısan. Coğrafiya elmində ən mühüm müzakirə edilməsinin qarşısında duran ideyalarından biri də məhz bu məsələlədir.

▪ ***Diqqət yetirin***: *Coğrafi məkanın ehtimalı məntiqinin stuasiyasının təsnifatı çoxşaxəlidir. Təhlilin önəmində coğrafi məkanın geosiyasi, geoiqtisadi mövqe zəruriyyətinin öyrənilməsi və dərk edilməsinin reallıqları haqqında geniş miqyasda diskusiyalarının yaranmasına səbəb olmuşdur. Əsas məsələ ondan ibarətdir ki, "Praktikada Coğrafiya"la əlaqədar coğrafi məkanın stuasiyallı işləmələrindən neçə və hansı istiqamətdə istifadə edilməsi qarşıya məqsəd qoyulur.*

Ümumi diskusiyaya istinad edərək bir sıra suallarının meydana gələməsinə səbəb olur:

- Praktikada coğrafiya təlimində stuasiyallı yanaşmasının anlayışının coğrafi məkan arasında əlaqə zəncirinin məntiqində hansı ehtimal səviyyə mövcuddur?
- Coğrafi məkan konsepsiyasından istifadə edərək bu faktın izahını vermək olarmı?
- Ötkəm stuasiyallı anlayışlarının təhlillərinin tədbiqi elminin antologiyasında yeri və mövqeyinin elm sahibləri üçün nə dərəcdə əhəmiyyətli olar.

Praktikada coğrafiya elmi tədqiqat mənbələrinin nəticələri və eləcə də apardığımız təhlillərinə görə = coğrafi məkanın stuasiyallı yanaşması ehtimalı = elmi nöqteyi-nəzərdən geniş məzmunlu olub, çoxşaxəli təhlillərini özündə birləşdirir. Situasiyallı yanaşmalarına aydınlıq gətirməklə bərabər, onun praktiki imkanlarının genişləndirilməsində fəallıq göstərir.

Elmi işinin məsədlərindən biri kimi, coğrafi məkanın varlığının tədqiqat obyektinə çevirməkdir. Bu vaxt təyin edilən obyekt tədqiqatın məqsəd və vəzifələrinin və o cümlədən, elmi yeniliklərinin alınmasında coğrafi məkan məntiqi fəallaşır və gerçəkliklərinin yaranmasına səbəb olur. Aparıcı obyekti kimi coğrafi məkanın ehtimal məntiqi elmi-tədqiqat işinin metodoloji və praktiki çərçivəsinə çevirilə bilər.

Bu yanaşma tərzi coğrafi tədqiqat prosesini aktivləşdirir, elmlərarası əlaqə mövqeyini coğrafi məkan daxilində optimallığını müəyyən edə bilər. Yaradıcılıq imkanlarının artırılmasına və öyrənilməsinə dair məlumatlarının gerçəkləşdirilməsinə şərait yaradır. Digər bir tərəfdən isə təbiət və cəmiyyət elmlərinin ararasında "körpü" mövqe nümayiş etdirir.

Tədqiqat zamanı ↔ "real obyektləri"nin davamlı olaraq coğrafi məkanın öyrənilməsində qarşıya bir neçə metodiki məsələlərinin həllinin mədsədini qoyur.

Coğrafiya məkan ↔ tədqiqatın potensial resurs varlığının praktikasında aparıcı möveyə malikdir.

Coğrafi məkan ↔ sosial davamlı inkişafının öyrənilməsində bazis funksiyasının yerinə yetirir, onun fənlərarası əlaqəsini və dinamikasını

Coğrafi məkanın praktiki və tədbiqi funksiyalarının kompleks öyrənilməsi, onun metodologiyasına dair materiallarının toplanması və istifadə edilməsinin yollarının təyininə nail olmaq imkanını artırır.

### *2.3.1. Coğrafi məkanın məntiqi situasiyallı yanaşmaları*

Coğrafi məkan ehtimalı tədqiqat üçün əhəmiyyəti birdə ondan ibarətdir ki, təbii kompleksinin potensiallından neçə istifadə edilməsində üstünlüyünü özündə birləşdirir. Coğrafi məkanın obyektlərinin davamlılığını təmin edir, tədbiqi xarakterli strukturının ərazi təşkilinin formalarını müəyyən edir.

## Xülasə

- Coğrafiya elmi tədqiqatında coğrafi məkanın stuasiyallı ehtimalı öz məzmununa görə, həm də əhatə dairəsinə görə çoxşaxəlidir.

- Elmi nöqteyi-nəzərdən coğrafi məkan ehtimalına diqqət yetirsək, onun məntiqli situasiyallı yanaşmalraının təhlilləri praktika ilə uzlaşır. Bu çox vacib bir məsələdir.

- Coğrafi məkanın ehtimal məntiqinə söykənmək  və buna uyğun elmi işinin modelinin yaradılması tədqiqatın elmi yeniliyi üçün faydalı mühitin yaranmasına səbəb ola bilər. Elmi təhlillər üçün effektli sayılan bu məsələ müzakirə  obyektinə çevrilməlidir.

- Elmi işinin yetirilməsində "Praktikada Coğrafiya"la əlaqədar coğrafi məkanın stuasiyallı qaydalarına hansı istiqamətdə istifadə edilməsinə dair mənbələrini önəmə gətirilməsi əsas yanaşmaların tərkibinə daxildir.

- Coğrafi məkanın stuasiyallı yanaşması, elmi tədqiqatın aparıcı sahəsidir. Onun praktiki imkanlarından istifadə edilməsi ilk növbədə araşdırılan mövzunun nə dərəcədə elmlilik olduğunu müəyyən edilməsin əsaslandırır. Təhlil edilən problemin nə dərəcədə mənimsənilməsinə aydınlıq gətirir.

**Praktiki düşünək:**

1. Alternativ konsepsiyalarından istifadə edərək coğrafi məkanın situasiyalı ehtimal məntiqi faktını izah edin.
2. Coğrafi məkanın potensialı və stuasiyallı haqqında  elmi biliyinizi yoxlayın.

## 2.4. Coğrafi məkanın hərəkəti haqqında biliklər

*"Coğrafi məkan daima hərəktdədir. Onun hərəkət varlığı üzvi aləmin, o cümlədən insanın məskunlaşmasının ölçülərini yaradır."*

Coğrafi məkanın varlığının hərəkəti haqqında dolğun məlumatı olmayan hər bir tədqiqatçı ümumi məntiqi nəticə əldə edilməsində çətinliklərlə uzləşə bilər. Bunun üçün o, elmi mədsədlər üçün "məkan-zaman"nın hərəkət bağlığının coğrafi səbəblərini müəyyən etməyi bacarmalıdır.

Coğrafi məkan məntitiqinin ifadəsində insan həyat tərzinin nizamlanması və bioloji varlığının fəlsəfəsi önəmlidir. İnsan həyat tərzinin dinamikasında, yaşamaq uğrunda hərəkətin meydana gəlməsinin fəlsəfəsi elm aləmində bir mənalı qəbul olunmur. Xüsusən, bu məna insanın coğrafi məkanın varlığının "məhsuludur" ifadəsindən asıllığına dair diskusiya tipli məsələlərdən ibarət olmasıdır.

Coğrafi məkanın dərk edilməsindəki xronoloji yanaşma meyilləri "coğrafi məkan-insan" varlığının məntiqi təhlillərində daha çox yer almışdır. Fikrimizcə, bu yanaşma sonrakı dövrlərdə coğrafiya elminin mənalandırılmasının miqyasında, eləcə də elmi istiqamətli dəyərli ideyalarının yaranmasına və konstruktiv təhlillərinə səbəb olmuşdur.

Kanada coğrafiya elmi məktəbinin nümayəndəsi J.May (May) tərəfindən coğrafi məkan aspektində təhlillərinin apararkən belə bir nəticəyə gəlmişdir ki, coğrafiyanın tədqiqat obyekti real coğrafi məkan əlaqələrnin sistemi ilə bağlıdır.[25]

J.Meyin irəli surdüyü coğrafi məkanın elmi funksiyaları bir sıra tədqiqatçılar tərəfindən ilk dövrlərdə qəbul olunmamışdır. Coğrafiya elminin metodoloji imkanlarının nəzərə alınmasından sonrakı mərhələlərində J.Meyin fikirləri müzakirə obyektinə çevrilmişdir. Müzakirələrdə coğrafi məkan ifadəsinin elmi-metodiki anlamına dair təhlil edilən (Gregory,1980) tədqiqat obyektinin nəzəri

[25] May J.A. 1970. Kants concept of geography: and its relation to recent geographical thonght. Department of Geography, University of Toronto, Research Publication 4, Toronto.

praqmatik düşüncə təzi kimi qəbul edilməsinə üstünlük verilməsini özündə əks etdirən təhlilləri diqqəti cəlb edir.

Coğrafiya elmi mənbələrinin metodologiyasının əsasında coğrafi məkan ifadəsinə müəyyən təsnifat xarakterli ideyalarının irəli sürülməsi maraq doğurur. Coğrafiya elmində aparılan tədqiqatlarının ümumi fonunda təbii kompleksinin yaratdığı dinamik hərəkət qanunları davamlı olaraq dəyişilir və coğrafi məkanın hərəkəti haqqında anlayışlarının yaranmasına səbəb olur.

▪ ***Öncə diqqət yetir:*** *Fikrimizcə, coğrafi məkanın hərəkəti dedikdə = təbii kompleksinin evolyusion varlıq tempinin "məhsulu" kimi qəbul edilməsi məqsədəuyğundur. Bu məhsul bizi əhatə edən təbii varlığın bir hissəsidir. Coğrafi məkan = çoxcəhətli parametrlərinin davamlı hərəkətinin praktikasında daha çox özünü göstərir.*

Coğrafi məkan hərəkəti = insanın həyat tərzinin,ətraf mühitinin amillərnin əlaqəli vəhdətindən asılı olaraq daimi dinamikdir. Bu dinamika: üzvi aləmin, bizi əhatə edən kainatın təkamülü ilə bağlıdır (2.4.1.).

**2.4.1. <u>Coğrafi məkanın hərəkət əlaqəsi</u>**

↓

Üzvi aləmin hərəkət əlaqəsi

↕

Qeyri- üzvi aləmin hərəkət əlaqəsi

↕

Kosmik aləmin hərəkət əlaqəsi

↕

İnsanın həyat tərzinin əlaqəsi

↕

İqtisadi-sosial sfera əlaqəsi

Coğrafi məkanın hərəkəti və insanın həyat tərzinin variantlarının önəmində çoxfunksional sferalarının ritmik əlaqələrini özündə birləşdirir. Problemə dair elmi məlumatlarının dəyərləri ondan ibarətdir ki, coğrafi mühitin varlığı sonrakı mərhələlərdə isə aktiv coğrafiya elminin əsas tədqiqat oyektinə çevrilməşi ilə nəticələnir.

XVII əsrin sonu - XVIII əvvələrindəb başlayaraq coğrafiya elmi tədqiqatçılarının düşüncə tərzində[26] yeni bir istiqamət özünü göstərməkdə idi. Bu ilk növbədə coğrafi məkan modelinin tədqiqat obyektinə çevrilməsi ilə bağlı konsepsiyalarının önəmə gətirilməsidir. Təklif edilən konsepsiyalarda coğrafi məkan modelinin yol xəritəsində onun nəzəri – elmi-praqmatik dəyərlərinin praktikası ilə əlaqələndirilməsinə üstünlük verilmişdir.

Məlumdur ki, insan həyatının tempi və ritmi "coğrafi məkan tsiklinin" kodu ilə nizamlanır və davamlı olaraq yeni məzmuna çevrilir. Odur ki, insan bütün tarix boyu müəyyən məqsədə çatmaq üçün coğrafi məkan tsiklinin tarazlığının pozulmamasına və buna qarşı həsaslıqla yanaşmışdır. Digər bir tərəfdən isə, insanın yaşadığı coğrafi mühtin gərginliklərinə qarşı uyğunlaşmasına və eləcə də Yer kürəsinin enlik qurşaqlarının davamlı reaksiyası = insan fərdinin mövcud və təkamülə çatmasına uyğun olaraq müəyyən model üzrə hərəktlətləri ilə fərqlənmişdir.

Tropik meşələrinin yuxarı yaruslarında müasir afrikalılarının əjdadları məskunlaşmışdır. Tropiklər tədricən azaldıqca, öz yerlərini savannalara (ispan dilində - tropik sahələrdəki geniş düzənlər - deməkdir) verdi və insanların həyat tərzinin müxtəlif dəyişkənliklərinə məruz (təbii, iqtisadi, sosial və s.) qalmasına səbəb olmuşdur.

Coğrafi məkanın hərəkəti ilə bağlı biliklərimiz çoxşaxəlidir. Baş verən təbii hadisələr, insannın daimi olaraq hərəkət qanunları digər faktorlarla yanaşı, coğrafi məkanda baş verən dəyişikliklərlə də bağlıdır. Dünyada baş verən böhranlar (siyasi, iqtisadi, ekoloji və s.) coğrafi məkanın problemi ətrafında da yaşanır. Müasir dövrdə, qloballaşma prosesi "coğrafi məkan çərçivəsində" hökm sürməkdədir.[27]

Yeni və daha mükəmməl texnologiyaları, ilk öncə ətraf mühitinin gərginlikləri davamlı olaraq genişlənməsinə səbəb olmuşdur. Bu proses varlı-dövlət sahiblərinə faydalar gətirsə də, eyni zamanda ətrah mühitinin qeyri-sabitliyi risklərinə də yol açır.[28]

---

[26] Виртуальная реальность и проблемы ее орисания (геог. сб.). Киев. 2007.
[27] Бродель Ф. Пространство и история.1994. с.117.
[28] Классен Х. Проблемы, парадоксы и перспективы эволюционизма. М., 2000. с.124.

## Xülasə

- Coğrafi məkan modelinin praqmatik "dərk etmə-tədqiqat – nəticə" məntiqindən istifadə edilən real düşüncə tərzinin praktikası bütün dövrlər üçün aktuallıq kəsb etmişdir.

- Coğrafi məkanın hərəkətini = evolyusion mühitinin "məhsulu" kimi dərk edilməsi məqsədəuyğundur. Bu məhsul bizi əhatə edən təbii –coğrafi mühitinin təkamülüdür və onun bir hissəsidir.

- Tədqiqat prosesinin dərk edilməsi modelinin əsas funksiyasının tərkibində coğrafiya məkan hərəkətinin yaratdığı "resurs-istehsal-emal" çoxxətli inkişafının yolu ilə aparılan təhlillərinin davamlı olaraq hər bir ölkənin strateji məqsədi olmuşdur.

- Coğrafiya elmi yaradıcılıq kretasının ideya istiqamətinə çevrilməsi, praktika ilə uzlaşdırılmış coğrafi məkan hərəkət seçiminin elmi-metodiki təhlillərinin kompleksliyinin istiqamətləri = elmin fundamental sferasına daxil olmuşdur.

- Coğrafi məkanın hərəkəti ilə bağlı çoxsaylı elmi-tədqiqat işləri yerinə yetirilmişdir. Əsas səbəb kimi Yer kürəsində baş verən təbii, iqtisadi və sosial böhranlarının yaranması və inkişafıdır.

**Praktiki düşünək:**

1. "Coğrafi məkanın çoxxətli hərəkəti" sisteminin yaranması fikirnə nə əlavə edə bilərsən?
2. Apardığınız mövzuya uyğun hansı coğrafi məkan ölçülülərinə dair təhlilinin üstünlüklərini təyin edin.
3. Coğrafi məkanın hərəkətinin iqtisadi-strateji istiqamətlərinin təhlilində hansı məqamlarını təhlil etmək istərdiniz

## 2.4. Coğrafi məkanın çoxxətli ölçüləri

***Coğrafi məkan - tədqiqatın çoxxətli ölçüsüdür. Elmi işin rabitə əlaqə mövcuddluğunun gerçəkliyidir."***

Tədqiqatın elmlilik noqteyi-nəzərindən dəyərləndirilməsində coğrafi məkanın çoxxətli funksiyalarının tədqiqatçı tərəfindən anlaması,əsaslandırılması mühüm şərtdir. Tədqiqatçı olmaq üçün coğrafi məkanın çoxxətli dialektikasını dərk etməli və yaradıcılığı boyu ona əməl etməlidir.

Coğrafi məkanın öyrənilməsi və yaradıcı keyfiyyəti onun çoxşaxəli ölçülərinin səmərəli istifadə edilməsi ilə əlaqəlidir. Metodiki məzmun çərçivəsində coğrafi məkan konsepsiyasında aşağıdakı ölçülərinin: fiziki məkan, iqtisadi məkan, sosial məkan və eləcə də siyasi məkan differensial təsnifatına ayırmaq olar (2.5.1).




**2.5.1. Coğrafi məkan ölçüsünün konsepsiyası (struktur variantı).**

Fiziki məkan ölçüləri - təbii kompleksin davamlı coğrafi mühitini yaradır, onun "hərəkətin"nin dialektik miqyasını (coğrafi məsafə ölçüsünü) tənzimləyir.

Fiziki məkan sferasının dialektik miqyasında antroposferin (insan fəaliyyəti ilə formalaşan coğrafi məkan) coğrafi mühitinin "hərəkəti"nin tarazlığının formalaşmasının nəticəsində çoxxətli ölçülərinin yaranmasına səbəb olur.

Fiziki məkan ölçülərinin öyrənilməsi ilk növbədə insanın məskunlaşma və yaşamaq mühütinin varlığını, genotiplərdəki genlərinin formalaşmasını təmin edir, digər sferalarla (atmosfer, geosfer və s.) zəncirvari əlaqələrinin yaratmaq ehtimallığının aktiv mövqeyində iştirak edir.

▪ **Söz ardı -mövzudan kənar maraq doğurur:** *Biokimyaçılara görə (ABŞ) coğrafi mühit şəraitində insan və şimpanze genotiplərindəki genlərin (nəsil daşıyıcıları) sayının 0-9-u ümumidir. Müəyyən olunmuşdur ki, sıfır qan qrupu insanda, bir də yalınız şimpanzedə aşkar olunmuşdur.*

İqtisadi məkan ölçülərinin öyrənilməsi problemi coğrafi-iqtisadi araşdırmalarının aparıcı sıralarından biridir. Coğrafi iqtisadi məkan strukturu çoxşaxəli olub, ilkin olaraq dayanıqlı istehsal tsikllinin ərazi təşkili əlaqələrinin sıralarıdır. Beləki, bu sıralar coğrafi iqtisadi məkan kompleksində keyfiyyət modelli variantlarının yaradılmasında və praktikasında iştirak edir.

Sosial məkan ölçüləri - insanın həyat tərzinin,o cümlədən ətraf mühitinə uyğunlaşmasının reallıq dərəcələrinin özündə birləşməsidir. Misal üçün, coğrafi enliklərinin potensial varlığının nəticəsində təbii kompleksinin "məhsuldarlığı"nın imkanlarınından necə istifadə edilməsindən asılı olaraq şoxxətli inkişafının dəyişilmələri baş verir.

Məntiqi gerçəklikdə siyasi məkan ölçüsü isə hər bir ölkənin dayanıqlı inkişafının strategiyasında mühüm mövqeyə malikdir. İqtisadi və strateji (xüsusən hərbi) əlaqələrinin tamlığının şaxələndirilməsində = ölkəninin (regionun) geosiyasi, geoiqtisadi coğrafi məkan daxilində mövqeyinin gerçəklik formalarından asılıdır.

Effekt tələb edilən çoxxətli məzmununda coğrafi məkanın struktur sahələrinin ərazi təşkilinin dayanıqlılığını özündə əks etdirir. Hər bir coğrafi məkanın önəmli kateqoriyası, müəyyən dərəcədə məqsədli – dayanıqlı funksiyasının ölçülərinin mövcudluğu var (2.5.2.).




*2.5.2. Coğrafi məkanın çoxxətli dayanıqlı xəritəsi*

Coğrafi məkanın dərk ediilməsinin durumunda tədqiqat zamanı hansısa bir funksiya ölçüsünün dəyişilməsi, digər ölçülərinin dəyişilməsinə doğru hərəkətinin miqyasında ona uyğun dəyişilir. Baş verən dəyişilmələrinin müəyyən bir ideyanının daşıyıcısının elmi-metodiki anlayışlarının çərçivəsində özünü göstərir.

Coğrafi mühitin daşıyıcı dəyişilmələrinin realizasiyası kimi tədqiqatın üstünlüyününə yardımçı olan yanaşmalara diqqət yetirmək zəruridir. Coğrafi məkanın çoxxətli ölçüsünün çərçivəsində iqtisadi, siyasi fəaliyyəti üçün potensial mühitinin olduğunu qəbul etsək, zəruriyyətin imkanlarınıın səmərəsində yaranan effektliyə diqqəti artırmaq olar.

Coğrafiya elmin yüksəliş dövründən (XIX əsrin ortaları) başlayaraq, tədqiqatlarının məzmununda coğrafi məkanın çoxxətli ölçülərinin elmin dövriyyəsinə daxil edilməsinin meyillərinə dair əsərlərinin yaranması diqqəti cəlb edir.[29]

[29] География и реальность. ( сб.) М., 2006.
Qurbanzadə A.A. Analitik coğrafiya. Bakı. 2018.

**Məqsədə doğru**

- Coğrafi məkanın "qırılma" nöqtələrinin dayanıqlı təyininə elmi nöqteyi-nəzərdən yanaşılmasına diqqət yetirilməlidir.

- Coğrafi məkan – elmin real "reaksiyası"nın dayanıqlı ölçüsünü müəyyən edilməsi və elm sahibinin əsas yaradıcılıq tələbidir. Bu məqsədlə tədqiqatın gedişində coğrafi seçiminin düzgünlüyü, onun elmlilik hala gətirilməsində real reaksiyadan istifadə etmək mümkündür.

- Yalnız konkret elmi-metodiki faktlara söykənən və məzmunlu coğrafi məkan konsepsiyasının tədqiqi praktika ilə uzlaşa bilər. Tədqiqat zamanı təyin edilən faktların düzgün müəyyənliyinin əsası kimi qəbul etmək olar. Deməli, "fakt" məzmunu son dərəcə aktual dərəcəli bir məsələdir. Coğrafi məkan təhlilində "fakt" çoxxətli araşdırılmasının əsasında yerinə yetirilən tədqiqatın nəzəri və praktiki "yükü" daha səmərə verə bilər.

- İnsan fəaliyyəti sferasında coğrafi məkanın varlığı mütləqdir; daimi olaraq onun həyat tərzinə təsir edir. Başqa sözlə ifadə etsək, coğrafi məkan insan həyat dərzi arasında dialektik vəhdət yaradır. İnsan fəaliyyətinin tərəqqi və tənəzzül konseptlərinə münasibətdə coğrafi məkanın çoxxətli mövcudluğundan asılıdır; insanın fəaliyyətinin dayanıqlığına yönələn "hərəkət", "tərəqqi" konseptidir.

- Məqsədə doğru coğrafi məkan mühitinin daşıyıcı komponentlərinin dəyişilmələri bir sıra üstünlüklərlə yanaşı, tədqiqatın yaradıcılıq sferasının məzmununda çətinliklərinin yaranmasına da təsir edir.

- Coğrafi məkannın çoxxətli ölçüsünün çərçivəsində iqtisadi, siyasi fəaliyyəti üçün potensial mühitinin olduğunu qəbul etsək, zəruriyyətin imkanlarınıın səmərəsində yaranan effektliyə doğru məqsədli olaraq diqqəti artırmaq olar.

***Praktiki düşünək:***

1. Coğrafi məkan ölçülərinin təyini haqqında nə düşünürsünüz?
2. Coğrafi məkanın "çoxxətli" ifadəsinin məzmununda hansı cəhətləri sizdə maraq doğurur?
3. Coxxətli funksioanal təhlilinin elmdə yeri və mövqeyi faktının qəbulunda təkliflərinizi soyləyin və təhlil edin.

# ÜÇÜNCÜ FƏSİL

## Coğrafiya elmi tədqiqatın koordinasiyası

**Fəslin icmalı və tədqiqat məqsədləri:**

**3.1. Elmi tədqiqatın məhsuldarlığı**
Tədqiqatın məhsuldarlığı nədir? Sualın ətrafındakı mülahizələrini diqqət mərkəzinə gətirilir. "Tədqiqatın məhsulu" miqyasında elmi araşdırmalarda tədqiqatçının davranış qaydalarına dair tövsiyyələri təqdim edilir.

**3.2.Tədqiqatın koordinasiya şəbəkəsi**
Müasir dövrdə coğrafi koordinasiya şəbəkəsinin nə qədər dəyərli olduğunu və bu sahədə yeni tədqiqatlarının həyacanverici olduğunu göstərən faktlara münasibət bildirilir.

**3.3.İdarə edilən coğrafi proqnozlar**
Yarım bölmədə idarə edilən coğrafi proqnozların əhatə dairəsinə, müasir təhlilinin metodikasına üstünlük verilmişdir. İlk növbədə coğrafi seçim koordinasiyasının metodologiyasına dair məlumatlar nəzərdən keçirilmişdir.

**3.4. Coğrafi elmi biliyin "qüvvə"si haqqında**
Coğrafi tədqiqatın yerinə yetirilməsində biliyin "qüvvə"si ifadəsinə söykənən probleminin müzakirə obyekti kimi nəzərdən keçirilmişdir. Elm biliyin yaradıcılıq praktikasının tələbələrinə uyğun suallara cavab verilmişdir.

## 3.1. Elmi tədqiqatın məhsuldarlığı

***"Elmi tədqiqatın dəyərli qavranış qaydalarından biri də onun nə dərəcədə məhsuldar olmasından asılıdır".***

Elmi tədqiqatın məhsuldarlığının ifadəsinə: a) məntiqli və praktiki təhlilinin yaratdığı seçim ölçüləri; b) tədqiqqat vərdişinə sahib olmaq; c) müstəqil ideya irəli sürmək qabiliyyətinə malik olması; g) animasiyalardan səmərəli istifadə edilməsi və s. daxildir.

Elmi tədqiqatçının fərqli bacarılıqları, bilik bazası və öyrənilməsi üslublarının tədbiqində mövzunun nə dərəcədə məhsuldarlığına malik olmasına fikir verməlidir. Bu çox vacib və məqsədə doğru bir məsələdir.

Müəyyən tələblər üçün neçə təqdim olunmasından asılı olmayaraq, dialektik və analitik təhlillərinin üzərində qurulan elmi işlərinin yekunu məhsuldar hala çevrilir və qəbul edilir.[30] Bu istiamətdə elmi işləmələrinin nəticələrində, tədqiqatın perspektivli təhlillərində özünü göstərir. Müəyyən olunmuşdur ki, bu yanaşma tərzi elmi işləmələrinin analitik təhlillərində, koordinasiya olunmuş mövzullarının təklif edilən yekun araşdırmalarında geniş miqyasda istifadə edilməsinə şərait yarada bilir. Buunla da qarşıya qoyulan "Praktikada Coğrafiya" koordinasiyasının çərçivəsində yerinə yetirilən kompelks xarakterli tədqiqatın məhsuldarlığını artırır, ona olan tələbatlarına doğru köklənir.

Məqsədə doğru köklənən mövzunun ideyasının toplularının effektli təhlillərinin yerinə yetirilməsinnin önəmində onun keyfiyyət praktikasının əsasını əhatə edir. Praktikada düz xəttin tapılmasının daha effektli olması üçün mövzunun tələbatına uyğun gələn coğrafi tədqiqatın metodoloji seçimlərinə üstünlük verilməlidir.

Məntiqi baxımdan köklənən məsələyə dair bir neçə suallar meydana çıxır:

- tələblər baxımında tədqiqat prosesində hansı praktiki koordinasiyanın variantlarına üstünlük vermək haqqda düşünmək daha çox dəyərli ola bilər?

---

[30] Qurbanzadə A.A. Dialektik coğrafiya. Bakı. 2017.

• real coğrafi-praktiki situasiyada hansı kompleks xarakterli mövzu üzərində işləmək, effektli məhsuldar metodiki koordinasiya olunmuş variantının arqumentindən necə istifadə etmək mümkündür?

Fərdi öyrənmə planından istifadə oluna biləcək yüklənmiş mənbələrinin xüsusi çəkisinə diqqət yetirməklə aparılan tədqiqatın elmi məhsuldarlığının effektli halına çevrilir. Bu fərdi öyrənmə planın qarşıya qoyulan məqsədinə çatmaq üçün addım-addım həyata keçirməklə, seçim resurslarının koordinasiya edilməsinin əsasında elmi işinin məhsuldarlığının təminatını haqqında müəyyən düz xəttlə etmək mümkündür.

▪ ***Seçim haqqında:*** *Burada əsas məqsəd koordinasiya olunmuş mövzunun ideya istiqamətinin düzgün seçimi, termin və konsepsiyaları başa düşüb-düşmədiyini yoxlamaq suallarını tərtib etmək, müəyyən elmi məhsulunun əldə edilməsi vasitəsi kimi təhlillərlə çıxış edilməsidir.*

Analitik elmi məzmunlu xəritə və qrafiklərin qurulması, oxunması qaydaları tədqiqat işinin daha düz xəttlə idarə edilməsi üçün imkanlar yaradır. Alınan ideya məhsullar xəritə, qrafik, model və s. animasiyalarından necə istifadə edilməsindən çox asılıdır. Çox vaxt təhlil edilərkən bunlarla işləməkdə və bunları başa düşməkdə çətinliklərlə üzləşləmələrinə rast gəlinir. Misal üçün, qrafikin animasiya versiyası təhlildəki statistik versiyanı şərh etməyə çətinlik çəkən gənc tədqiqatçıya köməklik edir. Elmi işin daha dəyərli olması üçün, yaxşı olar ki, animasiyalara tədqiqatın məhsuldarlığını təyin edən praktiki dərəcəli məsələlərini də daxil edilsin. Bizim təcrübəmiz, bu növ onlayın tədqiqat materiallarının elmi işlərinin aparılmasında faydalı olduğunu göstərir.

Məntiqi baxımından yanaşsaq, hər bir elmlə məşğul olanın tədqiqat katalitikliyi[31] olmalıdır. Tədqiqatın katalitikliyinin prinsipi çoxsahəlidir. Bu prinsip ona görə seçimlidir ki, elmi işçi apardığı və təhlil etdiyi mövzunun nəticələrinin məhsuldarlığınının artırılmasına daha çox diqqət tələb etsin. Apardığı elmi işinin sahibi olmalıdır. Sistemli qurulan fəsil və yarım bölmələr elmlilik səviyyədə qurulmalıdır. Sistemli elmi-metodiki müzakirələr dayanıqlı mühit yaradır, zəkanın məhsuldarlığını tədbiqi sahəyə yönəldir, real olaraq “zaman-məkan”nın analitikası ilə elmi işinin tamamlanmasına yardım göstərir.

[31] Tədqiqat katalitikliyi = “öz tədqiqat cihazını qur” prinsipinə əsaslanır.

Tədqiqatın katalitik önəmi həm də coğrafi informasiyanın yaradıcılıqla əlqəsinin seçim ehtimalının praktikası ilə koordinasiya edir. Əsas məsələnin məntiqi onunla ölçülür ki, coğrafi katalitik təhlilinin dərketmə bacarığı tədqiqatçıda inam yaradır, aparılan məqsədli təhlillərinin məntiqi üçün effektlilik mühitinin yaranmasında fəallıq göstərir. Bu önəm miqyasında aparılan mövzunun məqsəd və nəticəsinin koordinasiya informasiyasının qəbul edilməsi üçün yaradıcılıq vərdişlərinə necə reaksiya verəcəyindən asılıdır.

Vərdişin ehtimallığı ilk növbədə "coğrafi yaradıcılıq" təfəkkürünün getdikcə yeniləşməsinə, yeni məzmuna çevrilməsi ilə əlaqəlidir. Tədbiqi intuisiyalarla əhatə olunmuş məqsədli mühakimələrinə söykənən ideyalarının sonrakı mərhələsindəki konstruktiv tipli mövzularının seçilməsində "körpü" rolunu oynayır. Bununla yanaşı, tədqiqatçı üçün elmin nəzəri-metodoloji dövriyyəsinə daxil olmaq vərdiş sindromunun sonradan onun elmi tədqiqat işinin enerjisinin mənbəyinə çevrilməsinə səbəb olur.

A.X.Mirzəcanzadənin belə bir kəlamı var: " ...nə qədər yaradıcılıq enerjisi sərf etsən, bir o qədər enerji artar...İnsan fəaliyyəti mərkəzəqacmaq və mərkəzdənqacma qüvvəsinin təsirinə bənzəyir (alır və verir)". [32]

ABŞ-ın fizika alimi B.Bayckop maraqlı bir hesablama aparmışıdr. O, belə bir nəticəyə gəlmişdir ki, Arximed dövrdən müasir dövrə qədər aparılmış fundamental elmi tədqiqatlarının məhsulunun dəyəri $\approx$ 30 mlrd. \$-dır. Bu kəmiyyət göstəricinin ABŞ-ın sənayesinin 12 gündə istehsal etdiyi məhsulunun dəyərindən azdır[33].

Coğrafi sistem təhlil ideyası, enerji-istehsal tsikllər nəzəriyyəsi, təbii kompleksin dinamik coğrafiyası və s.məhsullarına dair aparılan tədqiqatlar əsrlər boyu elmi mənbələrinin praktikasında istifadə olunur. Coğrafiya elmin tələblərinə uyğun riyazi konsepsiyalarını əhatə edən müxtəlif məsələlər təklif olunur. Tədqiqatçının özünəinamını və müvəffəqiyyətini artırmağa istiqamətlənmiş yeni konstruktiv metodlarının tədbiqi sahələrinin artırılmasına səbəb olan ideyalar meydana gəlir.

• ***Önəmli məsələ:*** *Bir həqiqətdir ki, yaradıcı bilik çoxmeyarlılıq məsələlərnin dərk edilməsinin prosesində yaranmış praktiki məhsulla əvəz olunur. Heç*

[32] Mirzəcanzadə A.X. İxtisasa giriş. Bakı.1990. s.113.

[33] Мышление и творчество ( сб). М., 2002.

*şübhəsiz ki, burada tədqiqatçının elm aləmində baş verən yenilik daşıyan mənbələrindən məqsədyönlü və səmərəli istifadə edilməsində, onun dərketmə qabiliyyətinin enerjisinin potensialı mühüm rol oynayır.*

Önəmli məsələnin ölçüsü ondan ibarətdir ki, elm sahibinin qəbul etdiyi məqsədyönlü ideyalarının qüvvəsinin müəyyən qaydalarla nizamlanmasının və qruplaşdırmasının vərdişləri olmalıdır. Elmi-tədqiqat işinin məhsuldarlığın məhz ölçü vərdişlərinin əlaqəsinin davamlılığından daha çox asılıdır. Fikrimizcə, bu asıllığının davamlılığına daxil etmək olar: coğrafi faktoruna söykənən elmi işlərinin aparılması; tədqiqatçılıq peşəsinə məhəbbət; bununla bağlı olan öz biliyinin artırılması və tədqiqat sahəsinin metodologiyasına hakim olmaq vərdişlərinə nail olmaq.

▪ **Haşiyə:** *Tədqiqatçının bilik ehtiyatının artırılmasına göstərdiyi səyləri, sonrakı mərhələdə isə aparılan elmi işinin məhsulunun optimallığının səviyyəsinə də təsir göstərə bilər. Elmi məhsulunun ehtimal istiqamətləri nə qədər yüksək və çoxşaxəli olarsa, tədqiqatçının potensial imkanları da o qədər yüksələr. Aktual məsələlərinin elmi-metodiki təhlillərinə doğru irəliyə bilər. Aparılan hər bir mövzunun nəticələrinin elmlilliyinin reallıqlarının yuxarıda göstərdiyimiz məsələləri ilə bağlıdır.*

Elm sahibi özünün yaradıcılığının potensiallığının daxili imkanlarını səfərbər etməklə elmi məhsula nail ola bilər. Bunu həyata keçirmək üçün elmi işçinin azad düşüncə sahibi olmasından çox asılıdr. Hötenin kəlamına görə, “... azadlıq o kəslərə layiqdir ki, o hər gün onların uğrunda mübarizə aparır”. Əlavə olaraq qeyd etmək olar ki, azad elm sahibinin xəzinəsi onun ləyaqətli elmi-tədqiqat işləridir. Bunada əlavə olaraq, elmi yaradıcılıqda ən yüksək azadlıq = özünün elmi potensialının fundamental tədqiqat işlərinin xeyrinə = apardığı mübarizəsidir. Uğurlu ideyalala yaşamaq iddiasında olması ləyaqətidir. Azad və nikbin olmaq ideyasına sadiqlilik prinsipinin vərdişlərini əməlində göstərməsidir.

## Xülasə

- Elmi məhsulun zamanın tələbinə uyğun olaraq daima yenləşdirilməsi bir zərurətdir. Həmdə bu yeniləşmə coğrafiya elmi tədqiqatlarının metodiki əsaslarla uyğunluğunda və təhlil edilməsində yaradıcılıq sferasına xidmət etməlidir.

- Düzgün seçilmiş hər bir elmi işinin məqsədi və predmeti fasiləsiz olaraq yeni elmi məhsullarının alınmasının metodikasının önəmləri həyatı ehtiyacdan irəli gəlir.

- Coğrafi hadisə və proseslərdə tədqiqatın "məhsul enrjisi"nin formalaşması və inkişafı gerçəkləşir, tamamlanır. Elmi işin məharəti ondan ibarətdir ki, mövzuya uyğun eyni üsulla təhlillərinin tələbi özünü göstərə bilsin. Həyata keçirilən tədqiqat məhsulunun gücü elə bundadır.

- Elm sahibi özünün yaradıcılıq imkanlarının daxilində mövzuya uyğun elmi məhsula nail olmaq imkanına malikdir. Bunun üçün, ilk növbədə, azad fikirli elmi-tədqiqat işlərinə sahib olmalısan.

- Elmi məhsulun dəyəri nə qədər yüksək olarsa, aparılan tədqiqatın elmliyi də bir o qədər effektli ola bilər. Bununla bağlı aparılan elmi işinin praktiki göstəriciləri də davamlı məzmuna çevrilməsində faydalıqların yaranmasına imkanlar formalaşar.

- İlkin mənbə kimi elmi-tədqiqat işinin düzgün koordinasiyasından, mövzunun elmlilik seçimindən çıxış etməsindən asılıdır.

**Praktiki düşünək:**

1. Elmi işinizdə tədqiqatın hansı məhsullarını, müzakirə edilən tapşırıqlarını informasiya mənbəyinizə yükləməyini təklif edərsiniz?
2. Praktiki məqsəddə "hər şey"in olduğu kimi qəbul etmək faydalıdırmı?
3. Öyrənmə planı rejimində tədqiqat məhsulun tələblərinə cavab verən öyrədici xüsusiyyətlərindən hansılarına rəy verə bilərsiniz?

## 3.2. Tədqiqatın koordinasiya şəbəkəsi

***"Hər şey yoldan başlayır. Ancaq yolun başlanğıcında mütləq məramın olmalıdır: bu yolla hara gedirsən və məqsədin nədir".***
**Şərqin müdrik kəlamı**

Hər bir tədqiqatın əsas koordinasiyasının şəbəkəsində elmi-metodiki bilginin kodları mövcuddur. Bilgi kodlarının vasitəsi ilə tədqiqatın şəbəkəsinin və onun optimal variantlarının seçiminə imkan yaranır.

Coğrafi tədqiqat koordinasiya şəbəkəsinin reallıqları və onun elmi optimal səviyyəli araşdırılmalarına olan təlabat bütün dövrlərdə aktual problemlərindən biri olmuşdur. Paradoksal görünən, lakin metodiki cəhətdən düzgün məzmuna malik olan aparılan təhlillərinin şəbəkəsində lokal bilgidən qlobal bilgiyə doğru tədqiqatlarının yerinə yetirilməsi davam etmişdir. Elmin çoxşahəli mənbələrindən kompleks və yaradıcı istiqamətli mövzularının üzərində təhlillərinin aparılmasının qaydaları və elmlilik səviyyəsinin artırılması coğrafi tədqiqatlarının çoxşaxəli bazisi kimi qəbul olunmuşdur[34].

▪ ***Yaddaş:*** *Klassik elm sahiblərinin apardıqları mövzuya qarşı mətanatlı olmuş, elmi mövqe seçməyində və yaradıcılığında müdriklilik vərdişlərinə sadiq olmuşlar.*

Qəbul olunmuş çoxşaxəli qərarlar əsasında coğrafi koordinasiya şəbəkəsinin bilgi kodlarının elmin dövriyyəsinə daxil edilməsinə malik olan əsərlər bütün dövrlər ücün yaradıcı və müqayisəli mənbərinin sıralarını zənginləşdirmişdir. Buna səbəb kimi tədqiqat koordinasiyanın şəbəkəsi, elmin inkişafı üçün onun rolu və onun tədqiqat mövqeyinin təlimlərinə dair tədqiqatçıların arasında fikirlərin demək olar ki, heç də həmişə üst-üstə düşməmişdir.[35] Elmi tədqiqatının gücü elə bundadır.

---

[34] Reet J.R. Radical Geograpy. London.1987. p.82.
[35] Новые идеи в географии. М.,1976. с 204.

Elmi koordinasiya şəbəkəsini önəmə gətirən tədqiqatçı tərəfindən qəbul etdiyi mövzusuna və qarşıya qoyduğu məqsədinə uyğun dialektik qruplaşdırmasının metodiki modelini qurmalıdır. Bu məqsədlə həm də bir sıra suallara cavab tapmalıdır:

* qruplaşdırma məqamında hansı şəbəkə mənbələri daha çox elmli və aktualdır?
* şəbəkə təhlillinin ideyası mövzu materialları ilə neçə reaksiya olunur?
* dialektik metodiki model ilə hansı praktiki nəticələrinə nail olmaq məqsədini güdə bilər? və s.

▪ ***Diqqət yetirək:*** *Kamil ağılla tədqiqat şəbəkəsinin mənbələrindən istifadə edilməsinin nəticəsində araşdırılan keyfiyyət "hərəkəti"nin dərketməsi; bu yolla hara gedirsən və məqsədin nədir sualına cavab vermək imkanlarını əldə etmək mümkün ola bilər.*

Çox vaxt yenicə başlayan elmi işçidən mümkün olmayan keyfiyyət şəbəkəsinin mənbələrinin təhlillərini tələb edirik. "Yaxşı elmi işçidir", "zəkalıdır" və s. ifadələrlə elmə qarşı maraq yaradırıqsa, bəzi hallarda isə bayağı yolla tərifləməklə sonrakı vaxtlarda onlarda zəiflik, inamsızlıq əlamtlərinin yaranmasına da səbəb olur.

Elmi işə rəhbərlik edən şəxs yeni yaradıcılığa qədəm qoyan gənclərdə tədqiqata qarşı "sərbəstlik", "güclülük" əlamətlərini qazandırmağı bacarmalıdır. Əks halda, tədricən elm işçinin yaradıcılığının fəaliyyəti tədricən sönməyə doğru meyl edə bilər.

▪ ***Haşiyə:*** *Elmi mənbələrdən istifadə edilməsi insanda anadan gəlmə vərdiş deyil. Adətən bu tədricən baş verir. Dərk edilən informasiyanın aparılan tədqiqatının xarakterinə, yaradıcılıq sferasının təbiətinə çevrilməlidir. Bu o, deməkdir ki,elmin yaradıcılıq sferasında sürətli informasiyanının tələbinə cavab verən tədqiqatlarla məşğul olmaq vərdişinə sahib olmalısan.*

Məntiqlə yanaşsaq, aparılan elmi tədqiqatınının təsir dairəsi kifayət qədər geniş olsa da və bəzən əhəmiyyətli dərəcədə elmlər arasındakı fərqli cəhətləri ilə özünü göstərir. Misal üçün, ölkəmizdə coğrafiya elmi isqamətli fundamental tədqiqatlar yerinə yetirilir. Bir sıra elm adamları isə öz işlərində xarici elmi

mənbələrindən istifadə etməyi üstünlük sayır. Bu hal məqbul və ya qeyri-məqbul hal kimi saymaq olarmı? Sualına məqbul və ya qeyri-məqbul cavab vermək nə qədər düzgündür?

Məsələnin mahiyyətinə diqqət yetirək. Ölkəmizdə coğrafiya elminin inkişafına dair aktual şəbəkə formalaşmaqdadır. Bir sıra tədqiqat sahibləri elmin innovasiya problemlərinə üstünlük verməklə (əfsus olsun ki, bu hal azlıq təşkil edir. (A.Q.)) qlobal nəşrlərə yaxınlaşa bilirlər. Lakin əksəriyyət hallarda (çox hissəsi) lokal (və ya təkrar) xarakerli dissertasiya mövzularına, statistik təhlillərinə (bu lazımdır, lakin ifrat dərəcədə yox) daha çox üstünlük verilir. Məlumdur ki, bu tipli xarakterli mövzularının dəyərləri = aparıcı coğrafiya elm mərkəzlərində yerinə yetirilən mövzularının (tədqiqatlarının) = tələblərindən, keyfiyyətli məzmunundan çox aşağı səviyyədədir və demək olar kı, tələblərə uyğun gəlmir.

Mövzu və tədqiqat metodikası seçilərkən, təhlil edilməsi və eləcə də onun elmi imitasiyasını ön plana çəkməklə, yeni ideya və praktiki əhəmiyyət kəsb edən problematik seçimlərinə diqqət yetirilməsinin halı çox vacibdir. Bu özlüyündə elmi dəyərli bir məsələdir. Belə olmasa tədqiqatının elmi şəbəkəsi: coğrafiya elmi tədqiqat koordinasiyasının önəmliyi üçün effeklilik yaratmaq iqtidarında ola bilməz.

▪ ***Önəmli məsələ:*** *Azərbaycan coğrafiya elmi tədqiqatının məqsədində= onun tədbiqi üçün elmtutumlu tədqiqat şəbəkəsinin formalaşmasını=tələb edir. Buna nail olmaq ideyasının önəmində kompleks və yaradıcı tədqiqatlarına rəğbət meyilləri, xüsusi instinktiv səviyyəsinə doğru "hərəkət" meyilləri ustünlük təşkil etməlidir. Gələcəkdə elmin qorunması, davamlı praktiki əhəmiyyət daşıyan mövzu və metodlarının müəyyənliyi bu üstünlüyün başlıca "anatomiyasıdır".*

Bu önəmli məsələnin məqsədində bir sıra koordinasiya bilgilərinin mənbələri var. İlkin mənbə kimi coğrafiya elminin tətbiqinin yerinə yetirilməsinin məqsədi üçün tədqiqat aparan şəxsin kreativ coğrafi bilik sahibinə malik olması başlıca şərtdir. Digər bir tərəfdən isə ölkənin innovativ sferasının praktikasında coğrafi tədqiqatının elmliyinin artırılmasında və ideya istiqamətinin təhlil etməsinin bacarığına malik olan potensial kadrlarının olmasına ehtiyac duyulur. Coğrafi tədqiqatın koordinasiyası və proqnozlaşdırılmış tədbirlərinin həyata keçirilməsi siyasətu bununla bağlıdır.

Qeyd etdiyimiz kimi, proqlozlaşdırılmış tədqiqatlarının aparılması ölkənin iqtisadi - sosial ərazi təşkilində baş verən müxtəlif istiqamətli struktur dəyişikliklərinin daha dəqiq müəyyən edilməsinə imkan verir. Coğrafi tədqiqat obyektlərinin optimallığının diaqnostikasında baş verən ərazi təşkilinin elmi əsaslarla aparılmasının strateji hədəflərindən birinə çevrilməlidir. Bu çox vacibdir. Ərazi təşkilinin proqnozunda və effektli coğrafiya elmi metodlarından istifadə edilməsinə dair mövzularının seçilməsi və buna uyğun elmi işinin optimal variantlarının seçimində iştirakı təmin olunur.

Müəyyən bir məsələnin təhlili zamanı zəka sahibinə malik olan elm adamına təbiətin ona verdiyi kreativ mənbələrinin yaradıcılıq imkanlarından həmişə istifadə etmək bacarığına mümkün qədər həssaslıqla yanaşmalıdır.

Təhlil məqamlarının pisixologiyasında belə bir yanaşma hökmranlıq edir: aparılan tədqiqat zamanı elmi mənblərinin yaratdığı rəğbət hissi sonrakı mərhələdə isə onun rasional meylinin artmasına səbəb olur. Maraqlı hal ondan ibarətdir ki, elmi təhlilin yaratdığı "uğur-tələb" düstürü ilə yanaşmaq düzgün deyil. Məntiqi cəhətdən uğurun kəmiyyətcə əsaslandırılması mümkün deyil. Sənin elmlilik uğurun az ola bilər, tələbin isə bundan bir necə yüksək olarsa, o zaman apardığın elmi işinin keyfiyyət parametrlərinin bir o qədər əsaslanmış olar. Məlum məsələdir ki, elm sahibi nə qədər özünün apardığı elmi işinə çox hörmət edirsə, məqsədlərinə doğru inam hissinin daha da artırır və bir o qədər də müstəqil uğur qazanmaq imkanına nail ola bilər.

▪ ***Bu haqqda düşün:*** *Uğurlu olmaq istəsən = lovğalıq etmədən= sayıq, diqqətli ol. Enerji ehtiyatını daima qorumağına dair özündə inam yaradır. Elmdə lovğalıq ən böyük bəladır. Belə ki, elmi lovğalıq = yaradıcılığın zirvəsinə çatmağa mane olur və zidiyyətlər yaradır. Son məqamda yaradıcılıqda inamsızlıq, özünə qarşı valehlik sindromunu artırır.*

Bəzi hallarda belə bir fikirə rast gəlinir ki, "artıq hər şey deyilibdir" ifadəsini heç də bir mənalı məqbul hesab etmək olmaz. Müasir texnologiya – informasiya mənbəyinin yaratdığı elmi yaradıcılığının məntiqində çoxsaylı mövzular və metodologiyaları öz sahibini gözləyir. Elmi araşdırmanın ən əvvəli, nədə ki, sonu yoxdur. Elm = sonsuzluq varlığının dükənməz xəzinəsidir.

## Xülasə

- Coğrafiya elmin koordinasiya şəbəkəsi = kompleks tədqiqatının ümumi qlobal və bəşəri mövzular əsasında aparılamsını tələb edir.

- Coğrafiya elmin tədqiqat şəbəkisinin variantlarının effektli seçimi onun metodoloji keyfiyyətinin davamlı olaraq tədbiqində özünü göstərir. Buda struktur sahələrinin ərazi təşkilinin strateji hədəflərinə qarşı reaksiyasının nəticələrində biruzə verir.

- Bu çox vacibdir. Mövzu və tədqiqat metodikası seçilərkən, elmi imitasiyasına xüsusi diqqət yetirmək, problematik seçiminin elmi dəyərlərini önəmə gətirmək məqsədə uyğundur. Belə olmasa tədqiqat şəbəkəsi: coğrafiya elminin tədqiqinin koordinasiyasının önəmi üçün effektlilik yaratmaq iqtidarında ola bilməz.

- Ərazi təşkilinin proqnozunda və effektli coğrafiya elmi metodlarından istifadə edilməsi tədqiqatın tədbiqi sahəsinin genişləndirilməsində iştirakı təmin olunur.

- Elmdə uğurun az ola bilər. Səbirli olmaq, daima axtarışda olmaq vərdişinə güvən. Əyər sən buna nail ola bilsən, elmi işin uğulu və dəyərli sayıla bilər.

- Elm sahibi aparmalı olduğu tədqiqat işinə hörmətlə yanaşmalı,onu sevməli və sadiq qalmalıdır. Bu onda məqsədlərinə doğru inam hissinin artırılmasına köməklik edir və bir o qədər də müstəqil uğur qazanmaq imkanlarının artmasına yardım ola bilər.

- Coğrafi tədqiqatın koordinasiya şəbəkəsinin yaradılması həm strateji və həm də siyasi məsələdir. Ölkənin iqtisadi-sosial ərazi təşkilində baş verən müxtəlif istiqamətli struktur dəyişikliklərinin daha dəqiq müəyyən edilməsində iştirak edir və dayanıqlı mühit yaradır. Dayanıqlı mühiti tədqiqat çərçivəsinə salmaq və təhlilinin metodikasına əsaslanmaq vacib bir məsələdir. Buna daha çox diqqət yetirmək lazımdır.

### Praktiki düşünək:

1. Coğrafi tədqiqatın koordinasiya əhatə dairəsini öyrənmək məqsədində hansı ideyanı nümunə göstərə bilərsiniz?
2. Koordiuasiya bilgi kodlarına münasibətiniz?
3. Təhlil zamanı instinktiv “hərəkət”meyillərinə diqqət yetirin. Verdiyiniz qərarda tədqiqatda hansı dəyişkənliyinə səbəb ola bilərmi? Dəyişkənliyinin səbəb və nəticələrini müəyyən edin.

## 3.3. İdarə edilən coğrafi proqnozları

> ***"Proqnoz - tədqiqatı lazımı istiqamətə yönəltmək, bilik əldə etmək imkan verən intellekt əhəmiyyətə malikdir."***

> Coğrafi proqnoz-aparılan tədqiqatın əsas parametirlərindən biridir. Bu yanaşma elmi tədqiqatının gələcək intellektliyini təyin edir. Fikirin və məqsədin keyfiyyətcə elmə ötürülə bilməsinin yeganə yoludur.

Cox vaxt apardığımız elmi işinin dəyərini biləndən sonra özümüzdə cəlbedici heyranlıq duyuruq. Onun elm üçün əhəmiyyətinin barəsi haqqında sözlərlə ifadə etməkdə çətinlik çəkirik. Təhlil etdiyimiz materallarının daha elmli olmasına rəğbən onun proqnozuna yönəldilən məzmunlu yanaşmanın yenidən izah etməyinə ehtiyac duyulur.

Coğrafiya elmi obyektinin və predmetinin proqnozunun təhlilinin qərarın qəbul edilməsinə aid çox sayllı araşdırmalarının mənbələri kifayyət qədərdir:

- Proqnoz anlayış və mühakimə
- Analitik düşünmə bacarığı
- Təhlilin texnologiyası
- Əksetdici metodun qəbulu
- Biliyin tədbiqi və proznozu

Bu təlimatlara uyğun araşdırılan proqnozlarının öyrənməsinin təcrübəsindən irəli gəlir. Yuxarıda göstərilən mənbələr coğrafi tədqiqatının əsas proqnozlarının parametrləridir. Qəbul edilən önəmli qərarından asılı olaraq yerinə yetirilməsi səmərə verməyə qadir olan elmi metodiki və nəzəri biliklərə malik araşdırmalar coğrafi proqnozlarının vasitəsi ilə həyata keçirilir.

▪ ***Nəsihətli ifadə:*** *Nəsihətli atalar sözu vardır: "həmişə dön, geri bax. Gör nə alındı; pisdirsə onu təkrar etmə, yox, - yaxışıdırsa nəzərdə saxla. Bu zaman sonrakı addımlar əvvəlkilərindən səmərəli və davamlı olacaqdır".*

Atalar sözündə göstərilən nəsihətli ifadəni nəzərə alsaq, proqnoz üçün belə bir nəsihətli fikiri söyləmək imkanına malik ola bilərik: Birincisi, gənc elm sahibi öz əsərinə aid proqnoz imkanlarını müəyyən edərkən daimi olaraq problemli araşırmalarının rasional ideyalarına diqqət yetirməlidir. İkincisi isə, davamlı və proqnoz xarakterli araşdırılmalarının təkrarına yox,əgər elmi xarakterə malikdirsə, onun idarə edilən proqnoz tərəflərinin effektli və praktiki məsələlərini nəzərdə saxlamalı, tədbiqinə sahib çıxmalıdır.

Çoxxarakterli proqnozlu məsələlərinin həllində çətinliklərinin nəzərə alsaq, məqsədli üsullarla yanaşı, ikinci dərəcəli üsullardan da istifadə etməyin mühüm effektliyi də mövcuddur. Bütün bu cür idarə edilən proqnoz prinsiplərinin əsasında təhlillərinə üstünlük verilməsinin məqsədində bunları nəzərə almaq tələb olunur.

İdarə edilən proqnozlar sistemində iqtisadi - sosial ehtimal strukturlarının davamlı elmliliyinin xarakterlərinin nəzərə alınmasının nəticəsində funksional sistemli təhlilinin şərtlərinin sıralarına daxil edilir.[36] Təhlilin praktiki məzmununa uyğun olaraq, idarə edilən kompleks iqtisadi-sosial struktur mexanizmlərinin öyrənilməsi və onun ərazi təşkilindəki miqyasının zamanında elmə ehtiyacının daima nəzərdə tutulmalıdır. Gənc elm sahibinin proqnoz haqqında düşünərkən, daxililən "mən" özünü dərk etmə səlahiyyətlərinə yiyələnir. İdarə edilən tədqiqi mövzunun (problemin) elmliyinin nədən ibarət olduğunu önəmə gətirməklə yaradıcılıq qabiliyyətinin yeniləşdirilməsinin imkanlarını genişləndirə bilər.

Tədqiqatçının öz imkanlarının tənzimlənməsi, psixoloji durumuna uyğun hərəkət etməsi müxtəlif proqnozlarının araşdırılmasında özünü göstərir. A.B.Miqdal belə bir fikir irəli sürmüşdür: "elmi yaradıcılıq axtarışları ilə əlaqədar əsas psixoloji meyillərinə aid etmək olar = özünütəsdiq, hər şeyə maraq göstərmək,özünü ifadə etmək".[37]

[36] Qurbanzadə A.A. Analitik coğrafiya. Bakı. 2018. s. 52-55.
[37] Мигдал А.Б. О психологии научного творчества. "Наука и жизнь" 2004, № 2.

Məntiqi cəhətdən bəzi hallarda aşağı səviyyəli coğrafi proqnozlarından belə elmtutumlu sistemli sahələrinin öyrənilməsinə müəyyən dərəcədə nail olmaq mümkündür. Proqnoz sistemin (xüsusi ilə coğrafi – iqtisadi - sosial sistemə) nail olmadan məqsədli proqramlara, layihələrinin həyata keçirilməsi və ona kapital qoyuluşunun məqsədində strateji cəhətdən real deyil.

▪ **Coğrafi seçim**: Elmi tədqiqatın məqsədi ərazi-istehsal kompleksinin davamlı inkişafını təmin edən təbii və coğrafi - iqtisadi resurslarının proqnozlaşdırılmasına dair konstruktiv metodlarından istifadəsindən ibarətdir. Buna nail olmaq üçün elm sahibi coğrafi yaradıcılıq imkanlarının intellektual səviyyəsini zənginləşdirmək və biliyin maddi varlığa çevrilməsinin imkanlarının artırılmasının yollarının müəyyən edilməsini qarşıya qoyulan məqsədindən çox asılıdır.

**Haşiyə:** *ABŞ alimlərinin hesablamaların əsasən havanın üç gün qabaqdan dəqiq proqnozu ildə 60 mlrd.$ iqtisadi səmərə verir.*

***Xülasə***

- Coğrafi proqnoz təlimi - kompleks xarakterli elmi işinin ifadə tərzidir. Təhlil edilən materiallarının elmli olmasına işarə edir.
- Coğrafi proqnozlar vasitəsi ilə elmi-nəzəri biliklərini aktivləşdirir.
- İdarə edilən proqnozlar seçimi iqtisadi-sosial strukturlrının optimal variantlarının özünütəşkil sxemində fəallıq göstərir.

**Praktiki düşünək:**

1. İdarə edilən proqnozlarını hansı məqsədləri üçün istifadə etmək olar?
2. Hər hansı bir proqnoz qərarı verdikdə və ya coğrafi seçim etdikdə, buna görə imtina etdiyiniz ən önəmli alternativ vararaiant?
3. İdarəedilən proqnoz sistemində “elmtutumlu” ifadəsinnə münasibət bil dirmək imkanınız varmı? Əgər vardısa onu coğrafiya elmi üçün seçim qaydalarını müəyyən edin.

## 3.4. Coğrafi elmi biliyin "qüvvə"si

***"Elmi biliyinin "qüvvə"si ehtiraslı elmi tədqiqatın zənginliyi və müxtəlifliy ilə bağlıdır."***

Gənc elmi işçinin güçü nədədir? Ən başlıcası - elmi rəhbərinin irəli sürdüyü göstərisilərindən başqa, coğrafiya elmi mənbələrinin innovasiya yönümlü materiallarına hakim olmaq vərdişnə uyğunlaşmalı və elmi dildə danışmağı bacarmalıdır.

Elmi bilik "qüvvə"sinin yaratdığı varlığını heç bir sərvətlə müqayisə etmək mümkün deyildir. Elmi biliyin maddi sərvətə çevrilməsi prosesinin davamlı olması bir sıra mənbələrlə ölçülür. İlk növbədə, yaradıcı insanın fəaliyyətində elmi biliyin daha güclü və starteji məzmuna çevrilməsidir. Bununla yanaşı həm də tədbiqli xarakter qüvvəsinə sahib olmasıdır. İnsanın talantı onun elmliyinin xarakterik qüvvəsinə uyğun üzə şıxır. Məsələnin mahiyyəti onunla ölçülür ki, elmi biliyin fəaliyyət çərçivəsi maddi sərvətə çevrilməyə qadir deyilsə, o zaman aparılan tədqiqatın nə əhəmiyyəti (mənası) nə dərəcədə rasional ola bilər?

Elm sahibinin talantı özünün, apardığı elmi sahələrinin "qüvvəsi"ni üzə çixarmaq, əldə etdiyi elmi biliyinin sərvətlərindən bacarıqla istifadə etməsidir. Aldığı nəticələrinin həssaslıqla təhlil etməsinə qadir olması ilə digərlərindən fərqlənir. Bu onun talantlı olmaq bacarığını üzə çıxardır. Digər bir tərəfdən, əgər talant sahibi bütün yaradıcılıq boyu yenilik uğrunda səfərbər olmaq meylindən uzaqlaşdıqca, sonrakı dövrlərdə o tezliklə elmsizliyə çevrilə bilər.

Elmi "qüvvə"nin nəticəsində ABŞ-da, təxminən 150 mln. insan-ümumi əhalinin demək olar ki, yarısı yüz minlərlə müxtəlif işlərdə çalışır. Hər il bunlar təxminən 18 trilyon $ dəyərində mal istehsal edir və xidmət təklif edir.

Coğrafi elmi biliyin "qüvvə"si nədədir? İlk növbədə coğrafiya elmi biliyinin gerçəkliyinə kompleks yanaşmaq, bunu öyrənmək marağının hissi olmalıdır. Bir dəqiqə fasilə verməklə elmi işinizdəki adi bir günü itirə bilərsininz. Bu tədqiqatçı üçün çox önəmli vaxt ölçüsüdür. Söhbət aparılan elmi işində zamanın

tələbindən irəli gələn aktual və bilik "qüvvə"sini özündə birləşdirən mövzunun əhatə dairəsinə uyğun marağının artırmasından gedir.

- **Məqsədli düşüncə:** *Məhz belə bir ehtiyacdan irəli gəlir ki, coğrafiya elmi biliyinin öz daxili məzmununa hörmət edən və onun tədqiqat keyfiyyətini artırılmasının qabiliyyətinə malik olan hər bir elm sahibini tədqiqatçı hesab etmək olar. Digər tərəfdən isə tədqiqatçının coğrafiya elminin yaradıcılığında onun təhsilli olması, özünündərki və eləcə yaranan problemə ötkəm reaksiyası ilə bağlıdır.*

Elmin düşüncə tərzində belə bir kəlam vardır = tədqiqat və elmi biliklərinin realizasiyası = bir-biri ilə bağlıdır. Bu bağlılıq müxtəlif tədqiqat mövzularının yerinə yetirilməsinə, təhlillərinin aparılmasına yardım edir. Məlum məsələdir ki, qloballaşan cəmiyyətinin iqtisadi və siyasi tələblərinə cavab verən elmi biliklərinin optimal səviyyənin ahəngi ilə bağlılıqla əlaqəlidir. Coğrfiya elmi biliyinin (tədqiqatının) güc qüvvəsi bununla ölçülür. Bu tipli elmi tədqiqat işlərinin məqsəd və nəticələri dayanıqlığı ilə fərqlənir.

Akademik coğrafi tədqiqatlarının sıralarında respublikamızın universitetlərinin coğrafiya ixtisaslı kafedralarında aparılan elm işlərinin keyfiyyət dərəcəsinin xüsusi çəkisinin artırılmasının tələbi meydana çıxır. Bu tələbin müqabilində, coğrafiya elmi tədqiqat kafedralarının (elmi məktəb) fəaliyyət göstəricilərinin artırılması məqsədəuyğundur. Belə bir coğrafiya məqsədli elmi məktəblərinin fəaliyyəti demək olar ki, ölkəmizin universitetlərində yox dərəcəsindədir.

Misal üçün qeyd etmək olar ki, inkişaf etmiş ölkələrdə fundamental elmi tədqiqatlarının aparılması əsasən universitetlər tərəfindən həyata keçirilir. Bu baxımdan, ABŞ-ın təcrübəsi xüsusi diqqətəlayiqdir. Burada "Ayova", "Vaşinqton" və s. universitetlərinin coğrafiya yönümlü kafedralarında fundamental istiqmətli tədqiqatlarının xüsusu çəkisi böyükdür. Bu ali məktəblərdə ən müasir tələblərə cavab verən tədqiqat işlərlə yanaşı, yüksək ixtisaslı və elmi-texniki potensiala malik kafedralarda fundamental məzmunlu coğrafi tədqiqat mövzuları yerinə yetirilir. Bu səbəbdən də coğrafiya elmin "qüvvə"sinə arxalanan ölkələrinin ümumi dayanıqlı inkişafında dəyərləri üstünlük təşkil etməsi ilə fərqlənir.

- ***Haşiyə:*** *Bilicilərinin tövsiyyəsinə görə, elmi biliyinin maddi qüvvəsi artdıqca bunu kreativ və düzgün yönəltmə səviyyəsinə malik olan kafedralarında*

*hazırlanır. ABŞ-da aparılan və yerinə yetirilən, strateji əhəmiyyət daşıyan bütün fundamental elmi tədqiqatlarının 60%-dən çoxu universitet kaderalarının və elmi məktəblərinin payına düşür.*

Coğrafiya elmi biliyinin "qüvvə"si tədqiqatın mövzucunun əsas hissəsidir. Bu qüvvə mövzu və metodiki yeniliyinin təhlillərini tələb edir. Yeniliyin gerçəkliyini də hər kəs eyni səviyyədə qəbul etmir. Ona görə də hər bir gənc tədqiqatcının yaradıcılığı üçün elmi rəhbərinin tərəfindən fərdi yanaşmaq qabiliyyətinin reallığından çox asılıdır. Elmin tədqiqatın mahiyyətinin və funksiyalarının düzgün mənimsənilməsində və eləcə də elmi rəhbərinin coğrafiya elmi dünyagörüşünün varlığından bilavasitə asılıdır. Müxtəlif xarakterli elmi tədqiqat sahələrinin metodikasına yiyələnmək və onların tədbiqinə nail olmaq imkanının mənimsənilməsində elmi rəhbərinin xeyirxah münasibətindən irəli gəlir. A.Mirzəcanzadənin belə bir kəlamını yada salmaq məqsədəuyğundur: "İstedadlılara kömək etmək lazımdır, istedadsızlar özlərinə yol tapacaqdır".

Fəal elm sahibi öz yaradıcılığının hökümdarı olmalıdır. Məsələ onunla ölçülür ki, yaradıcı elm sahibinin zəkasında elmlilik enerjisinin hökümdarlığının ruhu üstündür. Ona görədə, o, bu ruhsuz yaşaya bilməz. Klassik və müasir yaradıcı şəxsiyyətlərinin tədqiqat işlərinin əsasını elmin rühüna xas olan əsərlər yaratmaq qabiliyyətinə malik olduduqları üçün bütün dövrlərdə aktual mənbəyə çevrilməsinə səbəb olmuşdur.

Hər bir elmi biliyinin dəyərli "qüvə"nin özünə məxsus yanaşma və ya başqa sözlə desək, enerji mənbəyi və dərketmə metidikası var. Tədqiatçı bu enerji "qüvvə"ni bilik mənbəyinə çevirmək yollarının metodikasını müəyyən etməli və ona uyğun hərəkətdə mövzunun məqsədini, vəzifələrini axtarmaqdır.

Yuxarıda göstərilən münasibətin dərkində coğrafiya elmi tədqiqat işlərinində də mühüm mövqeyi və fundamentallığının xarakterini nəzərə alınmalıdır. Səbəb kimi, coğrafi elmi biliyinin rasional və geniş maraq dairəsinə malik olan nəzəri-metodiki təhlilləri ilə bağlıdır. Bu məsələnin fonunda həm də mənavi baxımından yaradıcılıq tələb edən metodiki - psixoloji və davamlı bir sistem kimi qəbul edilməsi durur. Buraya aşağıdakı sistemli elmi-metodiki kodlarını daxil etmək olar:

- texnoloji araşdırmalarının məqsədində elmi biliyinin kodları (elmi və metodiki səviyyəsi, tədqiqatın bilavasitə özünə məxsus metodları, yaradıcılıq planı və sistemli təhlil formaları və s.);

▪ sosial-psixoloji elmi biliyinin kodları (elmi biliyə hörmət, özünə tələkarlıq, mədəni-psioxolji davranış, apardığı araşdırmalarına qarşı münasibət, lovlalığdan uzaqda olması, istedadına hörmət etməli və s.);

▪ elmi-praktiki mövzularının seçilməsində biliyin həssaslılığının kodları (mövzunun aktual və intellektual imkanları, elmin ali hisslərinə münasibətində iradə, mövzunun sadədən mürəkkəbə doğru ardıcılıqla, elmi biliyə söykənməklə təhlillərinin aparılması və s.);

▪ yaradıcılıq tərbiyyəsinin kodları (başqasına hörmət etməli, həmişə iltifatlı və güzəştə getməyi bacarmalı, iş - vaxt bölgüsünə əməl etməli, elm aləmində tərəddütlü olmamalı və s.). Belə bir kəlam var: "bu günü əlində tutsan-sabahkı günlərdən az asılı olacaqsan".

Yaradıcı insanın xilqəti ondan ibarətdir ki, o, zamanı ram etməyi, özünə uyğunlaşdırması üçün apardığı elmi işinin nəticələrindən mənəvi qida almağı bacarmalıdır. Bu günü apardığın elmi işinin biliyinin güc "qüvvə"sini özünə tabe etməsi üçün, davamlı olaraq istifadə edilən mənbələrinin elmliyinə diqqət yetir və onu yaradıcılığının mənəvi qida varlığına çevir. Bu elmi-tədqiqat işinin mühüm tərkib hissəsidir və vərdiş etməyi bacar.

Başqa ifadə ilə desək, elmi biliyin "qüvvə"sinə çatmaq üçün psixoqogika[38] mədəniyyəti ilə şəxsi ləyaqəti arasında vəhdətinin sahibi olmasına çalışmalısan. Bununla yanaşı, mətanətli, dərhal düzgün elmin ideyalarının qavraması və buna uyğun təhlillərinin aparılması üçün mövqe seçməyi, hər hansı mənbələrinə reaksiya vermə bacarığına malik olmalısan. Tədqiqatçı mövzu üzrə apardığı elmi biliyinin "qüvvə"sindən səmərəli və kompleks xarakterli təhlillərinin yerinə yetirilməsinə yuxarıdakı izahlarına həssaslıqla yanaşmalıdır.

▪ ***Haşiyə:*** *Müasir coğrafiya elmi biliyinin "qüvvə"si = hansısa bir məqsədə doğru elmi-metodiki və çoxşaxəli bir yanaşmadır. Bu yanaşma coğrafiyanın ümumi ideya baxımından son dərəcə inandırıcılıq qabiliyyətini özündə birləşdirir. Məhz bu anlamda tarixən coğrafiya elmi biliyinin fəlsəfəsinin formalaşmasına səbəb olmuş və fundamentallıq dərəcəsinə çatmışdır.*

Coğrafiya elmi tədqiatının "güç" fəlsəfəsinin konkret məqsədi və yönümlüyü var. Məqsədli yönümlüyün fundamentallığının dərəcisinin praktikasının "işləməsi" üçün coğrafiya elmi ideyaları ilə davamlı olaraq "yüklənməsidir". Fun-

[38] Psixoqogika-öz-özünü ələ alma haqqında təlimdir.

damentallığının tələbinə ğun olaraq elmlərarası inteqrasiya prosesləri aktivləşmiş, bunun səbəbindən də coğrafiya elminin araşdırdığı problemlərinin (XIX əsrdən) məntiqində qütbləşmənin yaranmasına səbəb olmuşdur.

Milli coğrafi iqtisadi-siyasi inkişafının dayanıqlığında mühüm mövqe nümayış etdirən qütbləşmənin yaranması məsələlərinin inkar edilməsinə dair irəli sürülən fikirlərinin mövcud olması da nəzəri cəlb edir. Qütbləşən elmlər arasında baş verən "inhisar"çılıq siyasətinin mövqeyi ondan ibarətdir ki, "hər şey ona məxsusdur" ifadəsinin hökmranlığıdır. Bu o, deməkdir ki, "modernləşmiş elmi inhisar elmlər" birmənalı olaraq coğrafiya elmi yaradıcılıq imkanlarını bir mənalı qəbul etməməsi ilə əlaqələndirilir. Pradiqmal coğrafi modelinin yeniləşməsinin zəruriliyinin miqyasında baş verən elmliliyin prosesində coğrafi bilik "qüvvə"si konseptinin varlığının coğrafiya praktikasında özünü göstərməsidir.

Fundamentallığının çərçivəsində coğrafi bilik "qüvvə"sinin gerçəklikliyi ondan ibarətdir ki, coğrafiya elmi tədqiqatının qütbləşməsində fəallıq göstərir, elmi-metodiki mövzularının seçilməsinin və təhlillərinin aparlmasının davamlı olaraq tələb edilən konstruksiyasının yaradılmasında iştirak edir (3.4.1).

Biliyin "qüvvə"si bizə texnoloji seçimlər haqqında düşünmək üçün imkan yaradır. Geniş, ölçülü struktura əsaslanan elm üçün ən önəmli tədqiqat mühitdə praktiki məsələlərinin necə əldə edilə bilməsidir. Coğrafiya elminin "qüvvə"si elmi-metodiki proqramının yaradılmasının məntiqli olub-olmadığını və kompleks xarakterli araşdırmalarını göstərmək üçündür. Mühüm göstəricilərdən biri də, tədqiqat metodları arasında seçim edərkən bilik "qüvvə"si hansı amilləri nəzərə aldıqlarını izah etməyə qadirdir.

Biliyin "qüvvə"si özünü ən çox iqtisadi inkişafda göstərir. Texnoloji inkişafın, maddi istehsalının, biliyin əldə olunmasının dəyəri olaraq kompleks xarakterli strukturlarının yaradılmasına xidmətlər göstərir.

Biz biliyin "qüvvə"sinə arxanalaq, daha effektli və yeni yollar aşkar edə bilərik. Biliyin əldə edilməsi istehsalın xarakterini dəyişdirir və məhsul buraxılışı qalxır və insanın rifah səviyyəsi yüksəlir.




### *3.4.1. Coğrafi bilik "qüvvə"nin fundamentallığının konstruksiyası*

Yuxarıdakı fikirlərə aydınlıq gətirmək üçün ABŞ-Britaniya coğrafiya elmi məktəbinin R&D (Tədqiqat & İnkişaf) modelinin məqsədlərinə aid aparıldığı təlimlərinin məlum əhəmiyyətini qeyd edək. Elmi məktəbinin nümayəndələri (Ann-Arbor, B.Berri, D.Smit və b.) göstərirlər ki, tədqiqata söykənən coğrafiya elmi biliyinin təqdimatının binövrəsininə aid edilən işlərinin qəbul edilməsi çox faydalıdır.

Problemlə məşğul olan elm sahiblərinin əsərlərində aparılan təhlillərinin nəticələri göstərir ki, coğrafiya elmi biliyinə söykənən inkişafın dialektik modellərinin yaradılması çox effektli mühit yaratmaqla yanaşı, həm də praktiki cəhətdən rasional məzmunlu ideya mənbələrini də özündə birləşdirir.

R&D-nin coğrafi modelləri strateji mahiyyət daşıyır. Onun coğrafi praktiki önəmləri isə varlı ölkələrinin dayanıqlığının təminatında iştirak edir. Bu səbəbdən də coğrafiya elminin daxili strukturunun tələbinə uyğun modellərinin yaradılmasının əsasının fonunda formalaşan R&D təsir dairəsinin rolu və mövqeyi inkar edilməzdir. Digər elmi tədqiqatlarla (faktorlarla) birlikdə ABŞ, Böyük Britaniya və s. varlı ölkələrinin inkişaf etməsində coğrafiya elmi istiqamətli R&D modelinin fəaliyyətinin nəticəsi kimi də əsaslandırmaq olar.

## Xülasə

- Fundamental məsələlərin həlli yolunda coğrafiya elmi qarşısında bir sıra problemlər durur. Problemin davamlı həlli yolunun təqdimatın da tədqiqatın yarada biləcəyi "qüvvəsi"ni üzə çixarmaq, əldə etdiyi elmi biliyinin resurs imkanlarından istifadə etməsidir.

- Elmin "qüvvəsi"nə həssaslıqla yanaşmaq lazımdır. Həssaslıq-bir mənalı olaraq tədqiqatın tamlığının tərkibinin ≈ 35-40 %-ni təşkil edir. Bu hal elmi işin əsas arqumentidir.

- Yenilik məqsədinə doğru "hərəkətin" miqyasının təyini coğrafiya elminin arqumentinin bir hissəsidir. Təhlil edilməsinə qadir olan mövzularının seçimi coğrafiya elmi istiqamətinin "qüvvəsi"nə söykənməlidir. Bu hal mövzu seçimi üçün çox faydalıdır.

- ABŞ-da, təxminən 150 mln. insan-ümumi əhalinin demək olar ki, yarısı yüz minlərlə müxtəlif işlərdə çalışır. Hər il bunlar təxminən 18 trilyon $ dəyərində mal istehsal edir və xidmət təklif edirməsı ilə digərlərindən fərqlənir. Bu həmin dövlətin elmin "qüvvəsi"dən kompleks istifadəsi ilə əlaqəlidir. ABŞ-ın strateji hədəflərindən biri də fundamental tədqiqatlarla məşğul olan elm sahiblərinin ölkənin iqtisadi-siyasi məqsədlərinə cəlb edilməsidir. Bu ölkənin elm mərkəzlərində belə bir qayda hökm sürür: "Əgər elm sahibi bütün yaradıcılıq boyu yenilik uğrunda səfərbər olmaq meylindən uzaqlaşdıqca, sonrakı dövrlərdə o tezliklə elmsizliyə çevrilə bilər".

▪ Qütbləşən elmlərinin arasında baş verən “inhisar”çılıq siyasətinin mövqeyi uzun bir dövr ərzində coğrafiya elminin inkişafına mane olmuşdur. Bu o, deməkdir ki, “inhisar”çılıq birmənalı olaraq coğrafiya elmi yaradıcılıq imkanlarını məhdudlaşdırmışdır.

▪ Pradiqmal coğrafiya elminin yaradıcılıq imkanları artıqca,metodiki aparatının yeniləşməsinin səbəbindən coğrafi bilik “qüvvə”si konseptinin varlığının yeni məzmuna çevrilməsinə səbəb olmuş və davamlı inkişaf prosesində özünü göstərməsidir.

**Praktiki düşünək:**

1. Coğrafi elmi biliyin “qüvvə”si varlığının nəzəri önəmli baxışlarının müqayisəli tərəflərinin izahına diqqət yetirək.
2. Tədqiqatın resurs imkanlarının “qüvvə”si nəticə ehtibarı ilə hansı təhlilinin variantları daha effekt yarada bilər?
3. Coğrafi elmi biliyin məhsuldarlığı ilə onun “qüvvə”si arasındakı texnoloji əlaqələrini siz necə dərk edirsiniz?

# DÖRDÜNCÜ FƏSİL

## Coğrafi elmi tədqiqatın elastiklik seçimi

**Fəslin icmalı və tədqiqat məqsədləri:**

**4.1.Tədqiqatın elastiklik seçiminin ifadə olunması**
Coğrafi tədqiqatlarda dayanıqlı (həssaslı) ölçülərinin təyinində ifadə olunan elastikliyin üstünlüklərinin önəmli olmasına dair mülahizələr irəli sürülmüşdür.

**4.2. Dayanıqlı ( həssaslıq) elastiklik dəyişkənliyi haqqında**
Tədqiqat üçün elastiklik tələbi əsasən faiz dəyişkənliyinin əsaslandırılmış faiz dəyişkənliyinə olan nisbəti kimi qəbul olunur.

**4.3. Elastiklik miqyasının ”duymaq” seçimi**
Tədqiqat zamanı elastiklik miqyasının keyfiyyət parametrlərinin” duymaq” seçiminin təmin edilməsinə dair informasiyanın toplanmasına çağırış edilmişdir.

**4.4. Elastiklik tələb baxımının daxili məzmunu**
Qeyri-mükəmməl informasiyanın mövcudluğu halında edilən seçimlər effektli olmaya bilər. İnformasiya asimmetrik olanda problem xüsusilə önəmli olur. Bu məsələlər haqqında seçim edilmişdir.

**4.5. Elastiklik seçimində irəliyə baxış**
Asimmetrik fəaliyyət zamanı əməliyyatın tərəflərindən birinin təhlillə əlaqəli və digər tərəfdə olmayan məlumatlara sahib olmasının irəliyə baxışlarına aydınlıq gətirilmişdir.

## 4.1. Tədqiqatın elastiklik seçiminin ifadə olunması

***"Coğrafi elmində elastiklik – bir dəyişənin digərində baş verən dəyişikliklərə nə dərəcədə dayanıqlı (həssaslı) olduğunun seçimi kimi ifadə olunmasıdır."***

Elastiklik seçimi - coğrafiya elmi tədqiqatları üçün çox faydalıdır. Bu faydalıq tədqiqatın praktiki nəticələrinin dayanıqlı ölçülərinin təyinində özünü göstərmək imkanına qadirdir.

Elastiklik-coğrafiya elminin metodologiyasında onun istifadə edilməsinin və tədqiqat problemləri, demək olar ki, öyrənilməmişdir. Bu nəzərə alaraq, bu yarımbölmədə elmi təhlilinin dəyrəli bir təlim olduğunun və praktiki yanaşmanın əhəmiyyətinin elmliliyi üçün elastiklik seçimlərinin edilməsinə səy göstərilmişdir.

Nəzərə alsaq ki, elastiklik = bir göstəricinin dəyişilməsinin digərində baş verən dəyişikliklərə nə dərəcədə dayanıqlı reaksiyasının olduğu çərçivəsinin ölçüsünün funksiyasını təyin edir = ifadə tərzi coğrafiya elmi tədqiqatı üçün faydalığının haqqında düşünməyə dəyər.

▪ ***Haşiyə:*** *coğrafiyada baş verən dəyişkənlik və onun əmələ gətirdiyi dayanıqlı reaksiyalar elmin əsas düşüncə tərzinin və reallıqlarının üzərində "hökmranlıq" edir. Məsələ ondan ibarətdir ki, coğrafi komponentlərinin daimi olaraq dəyişkənliklə bağlıdır, onların ölçülərinin dəyişkənlik nöqtələrinin arasındakı ehtimallıq dərəcəsindən asılıdır.*

Elastiklik iki göstəricinin həcmindəki faiz dəyşikliklərinin nisbəti kimi hesablanır.

Biz elastiklik seçiminin müəyyənliyinin öyrənilməsinə dair mülahizələrə aydınlıq gətirmək məqsədində, bir-birinə təsir edə bilən iqtisadi göstəricilərindən istifadə ediləsini misal gətirə bilərik. Misal üçün bu aşağıda göstərilən istehsal sahələri üçün bəzi suallara cavab tapmaqda köməklik edə bilər:

▪ əgər buğda istehsalının qiymətini aşağı salsaq, əlavə olaraq nə qədər məhsul satmaq mümkündür?

▪ əgər bu məhsulun qiymətini qaldırsaq, bu digər bir məhsulun satışına necə təsir edəcək?

▪ əgər məhsulun bazar qiyməti aşağı düşərsə, bu bazardakı firmların təklif həcminə necə təsir edəcək?

Elastiklik dərəcəsindən asılı olaraq göstəricilər arasındakı əlaqə elastik (>1), vahid elastik (=1) və qeyri-elastik (<1) ola bilər. Elastiklik əlaqədə bir göstərici digərinin dəyişməsinə çox həssasdır. Məsələn, məhsulun qiymətinin 10% enməsi həmin məhsula olan tələbi 20% artırır. Qeyri-elastik əlaqədə bir göstərici digərinin dəyişməsinə az həssasdır. Məsələn, məhsulun qiymətinin 10% qalxması ona olan tələbi 5% endirir. Vahid elastiklikdə isə bir göstərici neçə faiz dəyişirsə digəridə eyni dərəcədə dəyişir. Məsələn, məhsulun qiymətinin 10% enməsi ona olan tələbi 10% artırır.

Bu gün iqtisadi inkişafda aparılan tədqiqatlarının əksəriyyətinin davranışını ölçən kəmiyyət göstəricilərinin toplanmasına və təhlilinin qaydalarını nəzərdə tutur.

Aparılan elmi işlərinin coğrafi iqtisadi təhlillinin praktikasında elastiklik şəbəkəsinin öyrənmək baxımından effektliyinin yetərincə çox əhəmiyyətlik dərəcəsinə malik olması ilə fərqlənir.

Tədqiqat prosesində elastikliyin həssaslığına və ya elastikliyinə dair dəyişkənliyinin məlumatlarının toplanmasına nəzər salaq. Bu məqsədlə bir neçə sualları meydana çıxır:

> Elastiklik hər bir nöqtədə eyni deyildir. Məsələn, aşağı nöqtə səviyyəsində qiymət dəyişikliyi daha elastikdir, amma yüksək nöqtə səviyyəsində bu hal əksinə olur.

▪ *təhlil zamanı dəyişkənliyinin öyrənilməsinin nə kimi elmi dəyərlərinin inkişaf tempinə təsir edə bilərmi?*

▪ *tələb olnuna* mövzunun metodikasına neçə reaksiya verər?

Bu kimi sullar və cavablarındakı nəticələrinin reallıqları aparılan elastiklik yanaşmalarının metodiki təlabatının təyinatı üçün faydalı sayılmasına dair məlumatlarının müəyyənliyinin əhəmiyyətini nəzərə almaq lazımdır.

Coğrafiya elminin tədqiqat strukturunun təbiətindən gələn fundamental xarakterli mövzularının elastiklik seçiminin əsasında öyrənilən məsələyə xususi

diqqət yetirilməlidir. Səbəb kimi: coğrafi şəraitinin daima dəyişkənlik həssaslığı ilə cəmiyyətin daima təmasda olması və onun neçə seçimi üzərində qurulması coğrafiya elminin digər elmlərindən fərqləndirən cəhətlərindən biridir.

Təyin edilən mövzunun elmi-metodiki dəyərlərinin və onun yüksək səviyyədə elastiklik seçimi ilə ərsəyə gətirmək, elmdə yaranan boşluqları yeni ideyallarla zənginləşdirməkdən bilavasitə asılıdır. Tədqiqatın aparılmasında elastiklik dərəcəsinin seçimin yaradıcı meyarı məhz bununla ölçülür. Elastiklik seçim coğrafi tədqiqatın meyarı ona görə adlanır ki, elmi mənbələrinin öyrənməsində baş verən dəyişikliklərinin effektli formada özündə birləşdirir və praktikı məsələlərinə yetərincə reaksiya verməsidir.[39]

Elastikli seçim – bu çox məsuliyyətli, elmi-metodiki məntiqli bir ifadədir. Bu elə məntiqi məna daşıyır ki, bu ifadənin dərk edilməsinin məqsədində və öyrənilməsində kompleksli ideyalara üstünlük vermək və ona həssaslıqla yanaşmaq tələbini özündə birləşdirilməsidir.

▪ ***Məntiqli izahat:*** *Elastiklik seçim ifadəsinin qəbul edilməsi=tədqiqatçının ilk növbədə, narahat düçüncə tərzidir. Mövzunun "ruhunun qüdrətinə" uyğun gələn məqsədli dəyişkənlik suallarına cavab verməsidir. Digər bir tərəfdən isə, tədqiqatçı tərəfindən bəşəri elmi ideyalarının dəyişkənlik metodoloji motivlərinin önəmə gətirilməsinin ciddi cəhddir.*

Coğrafiya elmində aparılan fundamental əsərlərinin varlığı etibarı ilə zəngin biliyə və məntiqi təhlillərinin bacarığına malik elm sahiblərinin səylərini qeyd edə bilərik. Elm sahiblərinin yaratmış olduqları ideyalarında məntiqi-metodiki yaradıcı dəyişkənliklərinin rasional üstünlükləri müasir dövrdə də öz əhəmiyyətini saxlamışdır. Elm sahiblərinin təyin etdikləri gələcək inkişafa uyğun, zamanından asılıllığının nəzərə almağının əsaslarına söykənərək dəyərli ideyalar irəli sürmüşlər. Məlumdur ki, hər bir təlim sadədən başlayaraq daha önəmli elmi mənbələrinə doğru hərəkət edir. Bu hərəkət sonrakı zaman kəsiyində bəşəri ideyanın mənbəyinə çevrilir və elastikliyin təbiətinin gerçəkləşdirilməsinə aydınlıq gətirir. Nəticədə isə elastiklik seçimi öz coğrafi sərhədlərinin genişlədirir və dəyişkənliyin reaksiyasından belə kənara çıxır.

▪ ***Həqiqətə doğru****: Elə tədqiqatçıya rast gəlinir ki, əsas məqsədi elmi biliklərinə nail olmaq deyil. Yalnız "elmi adı" almasına daha çox maraq göstərir.*

[39] Qurbanzadə A.A. Analitik coğrafiya. Bakı. 2018.

*Elmdə baş verən dəyişkənliklər: elastiklik - tədqiqatlarının aparılmasında onlar üçün maraqlı deyildir. Belə şəxslərin tədqiqat işləri elmdən çox-çox uzaq məsafədə dayanır.*

Məntiqi yanaşma tələb edir ki, elastiklik seçiminin mühüm baxışlarının önəmə gətirilməsi elmi tərəqqiyə, dayanıqlı coğrafi-iqtisadi inkişafa yönəldilən araşdırmalarına üstünlük verilsin. Bu sahəyə diqqəti artırmaq və yeni məzmunlu mövzularının seçilməsi və tamamlanmasında gənc tədqiqatçılara qayğı göstərmək lazımdır. Problemin dərk edilməsi, öyrənilən mövzu üzrə təhlillər zamanı dəyişilən, yeniləşən elmi mənbələrində və qaydalarında özünü göstərməlidir. Fikrimizcə, buraya aşağıdakı qaydalarının nəzərə alınmasını daxil etmək olar:

- tədqiqatın qarşısına qoyulmuş elastiklik ideyalarının çatışmayan varinatlarına diqqəti yönəltmək;
- onun müsbət - mənfi cəhətlərinin müəyyən edilməsinə səy göstərmək;
- eləcə də öz işinə inamına qarşı həssaslığının reaksiyasının olması;
- bu tipli elmi tədqiqatları haqqında şox saylı (xüsusən Qərb ölkələrində) yazılan, praktikada istifadə edilən əsərlərindən yaradıcılıqla istifadə edilməsi və s.

Coğrafiya elmin "Tədqiqat & Praktika" istiqamətindəki rolu və onun "anatomiyası"nın elastiklik ifadəsinin ölçüsü çoxşaxəlidir. Elastikliyin "anatomiyası" dedikdə, müxtəlif tədqiqat sahələri, dəyərli elmi işçi qruplarının və onların qarşılıqlı əlaqələrinin dəyişkənliyinin kompleksliyi və onun praktiki variantlarının reallıqlarının nəzərdə tutulmasıdır.

Ölkəmizdə coğrafiya elmi tədqiqatlarının tematikasında elastiklik seçimi ilə bağlı elmi işlərinin yerinə yetirilməsinə diqqətin artırılmasını məqsədəuyğun sayırıq.

Azərbaycanın indiki inkişaf mərhələsində coğrafiya elmi tədqiqatlarının tematikasında fundamental elastiklik seçiminə söykənən təbii və sosial - iqtisadi dəyişkənlik imkanlarını da nəzərə almaq vəzifəsini qarşıya məqsəd qoyur.

*Məsələ onunla ölçülür ki, elmin funksiyalarının öyrənilməsi ancaq ayrı-ayrı sahələrinin təhlillərinə dair məhdud səviyyədə yanaşmaq düzgün olmaz.*

Elmin həm də innovativ coğrafi-iqtisadi-sosial dəyərlərinin öyrənilməsinin prosesinə cəlb edilməsinin missiyasının elmliliyi də nəzərə alınmalıdır. Bu yanaşma mexanizminin dəyərində coğrafiya sahəsindəki metodologiyasının tələb

- təklifinin elastiklikli seçiminin də nə qədər çox nəzərə alınarsa, bir o qədər yerinə etirilən elmi işinin məzmununda xarakterli ideyalar öz yerini tutmaq imkanına malik ola bilər.

**Xülasə**

- Elastiklik: coğrafiya elminin praktiki xarakterini özündə birlşdirən metodiki və dəyərli tədqiqat sahəsidir.

- Coğrafiya elmi tədqiqat zamanı onun metodiki variantlarının ifadə edilməsi və təhlilin elmi işinin praktika ilə əlaqələdirilməsidə effektlilik mühitini yarada bilər.

- Nəzərə alsaq ki, elastiklik = bir göstəricinin dəyişilməsinin digərində baş verən dəyişikliklərə nə dərəcədə dayanıqlı reaksiyasının olduğu çərçivəsinin ölçüsünün funksiyasını təyin edir = ifadə tərzi coğrafiya elmi tədqiqatı üçün faydalığının haqqında düşünməyə dəyər.

- Yerinə yetirilən əsərin varlığı zəngin biliyə və məntiqi bacarığına malik elm sahiblərinin yaratdıqlarının məntiqi-metodiki işlərindən istifadə etməklə, elastiklik ifadəsinin hərtərəfli həllinə aydınlığının gətirilməsinə nail olmaq mümkündür. Məsələ onunla ifadə olunur ki, klassik elm sahiblərinin əsərlərindən istifadə etməklə, kompleksli zamandan asılılığına söykənən elmi-metodiki əsərlərinin yaranmasına səbəb ola bilər.

**Praktiki düşünək:**

1. Bir neçə fərqli metoddan istifadə etməklə elastiklik haqqında hansı suallara cavab tapmaq olar?
2. Hansı səbəbdən elmin funksiyalarının öyrənilməsi ancaq ayrı-ayrı sahələlərinin təhlillərinə məhdud səviyyədə yanaşmaq düzgün olmaz? Bunun elastiklik təhlillərlə nə kimi əlaqəsi var?

## 4.2. Dayanıqlı (həssaslıq) elastiklik dəyişkənliyi haqqında

***"Elastiklik-elmi tədqiqat prosesində dəyişkənliyinin tələbinə reaksiya verən ümumi konsepsiyadır."***

Coğrafiya elmi tədqiqatının məqsədində elastikliyinin dəyişkənliyi bir sıra ideyalarının praktikasına aydınlıq gətirmək tələbində çox faydalıdır. Bu tələb təqdim edilmiş elmi işinin tamlığının başa çatdırılmasında və onun izahında səmərli vasitədir.

Coğrafiya elmi tədqiqat seçiminin tərkibində dayanıqlı (həssaslıq) elastiklik dəyişkənliyinin önəmə gətirilməsinin faydalılığı çox geniş miqyaslı təlimdir. Bunu nəzərə alaraq, təqdim edilən mövzunun məqsədində və yeniliyində baş verən dəyişikliyə qarşı bir çox məqamlarına aydınlıq gətirilməsi mümkündür. Məqsədə doğru irəliyə baxdıca: coğrafi struktur dəyişilmələrinin dayanıqlı elastiklik seçiminin metodiki işləmlərinin yeni məzmuna çevrilməsi elmi işinin dəyərini artırır. Məqsəd və zərurət baxışlarının dialektikasının məntiqinə söykənən coğrafi tədqiqat işləmələrinin elastiklik fonunda öyrənilməsi və tədbiqinin xarakterinə uyğun alınan nəticələr elmlilik səviyyəsi ilə ölçülür.

▪ ***Haşiyə:*** *Məntiqi təhlil göstərir ki, coğrafi dialektik elastiklik tədqiqat metodikası yalnız dəyişkənlik prosesi ilə məhdudlaşmır.Onun tələbi həmçinin elmdən praktikaya doğru yönəldilən konsepsiyanın dayanıqlığını, fəaliyyətlə bağlı olan və bilavasitə ona xidmət edən biliklərinin dairəsini də özündə birləşdirir.*

Elmi-tədqiqat işində coğrafi biliklərin tamlığının fonunda onun keyfiyyətcə innovativ strukturunun yaranması və inkişafı mühüm məsələdir. Bu ilk növbədə öyrənilən obyektin kompleks məsələlərinin daxil edilməsinin zəruriyyəti ilə əlaqəlidir. Buna nail olmaq elmi işinin keyfiyyətinin artırılmasında mühüm əhəmiyyət kəsb edə bilər. Lakin müəyyən abstraksiya halında struktur yanaşmasının metodikasında texnologloji qaydalarına üstünlük verilməsinə diqqət yetirilməlidir. Məntiqlə yanaşsaq, texnoloji coğrafi praktikanın dialektik elastiklik tələbinin prizmasından baxılarsa, o zaman aparılan tədqiqatının vəhdət halında elmi işinin faydalığı ilə nəticələnə bilər.

Dayanıqlı yanaşma tərzi göstərir ki, elmliyinin texnoloji-innovativ tələbatının fərqli metodlarından istifadə etməklə, coğrafi elastikliyin dərəcəsinin hesablamasının qaydalarını müəyyən etmək mümkündür. Hər bir ölkənin dayanıqlı inkişafının ekastiklik seçimində innovativ coğrafi-iqtisadi praktikasının istiqamətlərinin metodikası məhz bu tələbatdan yaranır.

Elmi mənbələrinin təhlilləri göstərir ki, hesablamalarda iqtisadi dəyər əlaqəsinin dərk edilməsinin haqqında yetərincə məlumatlar var. Sadə bir misalı göstərək. Bu məqsədlə başlanğıc iqtisadi dəyərinin baza olaraq qəbul edib tələb miqdarındakı faiz dəyişkənliyinin hesablamaq üçün aşağıdakı düsturdan istifadə olunur.[40]

TMD = $Q_2$ -- $Q_1$ : $Q_1$ × 100% buradan:
TND- tələb miqdarındakı % dəyişkənliyi;
$Q_1$ – dəyərin başlanğıc bazası; $Q_2$-dəyərin yüksəkliyi.

Bu dəyişkənliyi faiz dəyişkənliyinə çevirmək üçün faiz hesablanmasının nəyin bazasında aparılmasına tədqiqat sahibinin qərar verməsi əsas şərtlərindən biridir. Təhlillərin miqyasına görə, əksər hallarda tələb miqdarının başlanğıc dəyərini ( $Q_1$) baza olaraq istifadə edilməsinin məqsədəuyğun sayılır.

Tələb miqdarındakı və qiymətdəki dəyişikliklərі faizə çevrildikdən sonra elastikliyin hesablanması sadə bölmə ilə həyata keçirilir:

TQE == TMD : QD buradan:
TQE-tələbin qiymət elastikliyi;
TMD-tələb miqdarındakı faiz dəyişkənliyi;
QD -qiymətdəki faiz dəyişkənliyi.

Təhlillər göstərir ki, əgər tələb elastikdirsə, tələb miqdarındakı faiz dəyişikliyinin qiymətdəki faiz dəyişikliyinə nisbətinin mütləq dəyəri 1-dən böyük kəmiyyətə malik olacaqdır. Tələb qeyri - elastik olarsa, nisbət 0 ilə 1-arasında mütləq dəyər olacaq.

Dayanıqlı elastiklik tələbinin innovativ yaradıcı bir önəmli olmaqla ölkənin kompleks iqtisadi-sosial və strateji inkişafının mərhələsinin bir hissəsidir.

[40] Qreqori Mənkyu. Ekonomiksin Əsasları. Bakı. 2010. s.105.

Mərhələnin sonunda isə bu tipli inkişafının fonunda elmin tətbiqinin formalaşması üçün yeni keyfiyyətli xüsusi fəaliyyətinin sahəsinə çevrilir.

▪ ***Söz ardı***:*Məntiqi yanaşma ilə qeyd etsək, məqsədli aparılan tədqiqat işlərinin gerçəkliyinin elastiklik tələbatına uyğun obyektiv qanunauyğunluğunun strategiyasının həyata keçirilməsinin elmi-metodiki yoludur.*

Elastiklik = tədqiq edilən bir çox coğrafi əlaqələrinin (təbii, iqtisadi, sosial və s.) seçiminin etmək üçün istifadə edilən çox mühüm təhlillərinə aydınlıq gətirilməsi deməkdir. Misal üçün, əgər bir **D** dəyişəni başqa bir **Ğ** dəyişənində olan dəyişkənliyə cavab olaraq dəyişirsə, **D**-nin **Ğ**-yə nəzərən elastikliyi, **D**-dəki faiz dəyişikliyinin **Ğ**-dəki faiz dəyişikliyinə bölünməsinə bərabərdir.

Elmi elastiklik medodologiyasına dair aparılan tədqiqatlarının nəticələri coğrafiya və iqtisadiyyat elmlərinin funksional formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir (edir). Ərazi-istehsal kompleksinin təşkili və idarə edilməsinin məqsədində istifadə edilən elastiklik yanaşmalarının praktiki olaraq tədbiqi reallaşmalıdır. Məsələ ilə bağlı geniş miqyasda coğrafiya elmi araşdırılmalarına ehtiyac duyulur.

Coğrafiya elminin rasional idrak ideyalarından sayılan və müasir dövrdə də öz aktuallığını saxlayan elastiklik modellərinin araşdırmalarının gerçəkliyində yeni tipli elmi-tədiqat işlərinin yerinə yetirilməsi vacib problemlərindən biridir. Buna daha çox diqqət yetirməyini məqsədəuyğun sayırıq. Çünki, bunun əsas ideyasının məqsədində iqtisadi-sosial və strateji istiqamətlərinin müəyyənliyi durur.

Ümumi məntiqi baxımdan coğrafiya elmi tədqiqatlarının aparılmasının önəmində müəyyən bir konsepsiya çərçivəsində tədqiqat apamaq qeyri-mümkündür. Əks təqdirdə, nəzəri baxışlardan kənar öyrənilən hər hansı bir coğrafi tədqiqat obyektin ərazi təşkilinin təhlili konkret elmi nəticələrinin reallaşdırmasının effektli rasional dəyər daşıya bilməz. Problemə kompleks yanaşsaq, rasional coğrafiya elminin tədqiqat fəlsəfəsinin məzmunun dialektikası və ərazi təşkili idealogiyasının müstəqilliyinin əldə edilməsi ilə elm sahibinin əsas vəzifəsidir.

# İrəliyə baxış

- Bu yarım bölmənin məqsədi tədqiqqat üçün dayanıqlı (həssaslı) ölçüsünün tələbinin önəmli olduğunu bildirmək idi. Sadəcə bir tədqiqat obyektdəki dəyişiklik digərinin dəyişilməsinə səbəb olmasına aydınlıq gətirildi.
- Buna baxmayaraq, bu dəyişikliyin əhəmiyyətli olub-olmadığını və ya müəyyən bir nəticənin uğurlu olub-olmayacağını tamlıqla deyə bilmərik. Coğrafiya elmi üçün maraqlı cəhət ondan ibarətdir ki, tədqiqat zamanı istifadə edilə bilən elastiklik sesiminin qəbul edilməsidir.
- Tədqiqat sahəsinin daha dərindən öyrənmək məqsədində bu termin öz funksiyasını irəliyə baxışda yerinə yetirmək qabiliyyətini göstərəcəkdir.
- Təbidir ki, ifadə olunan yanaşmalar hər bir gənc alimin müəyyən səviyyədə yaradıcılığına, qüvvəsinə təsir etmək imkanına malik ola bilər. Bu bir həqiqətdir.
- Müəyyən olunmuşdur ki, coğrafi bilikərinin fonunda onun keyfiyyətcə innovativ sahələrinin yaranması və davamlı inkişafı elmi işinin yerinə yetirilməsi üçün mühüm məsələdir. Texnoloji coğrafi prkatikanın elastiklik dərəcəsinə baxılarsa, o zaman yerinə yetirilən mövzunun vəhdət halında effektliyi yarana bilər.
- Müasir dövrdə öz aktuallığını saxlayan elastiklik modellərinin önəmə gətirilməsi elmi-tədqiqat üçün vacib məsələlərindən biridir. Məsələ ilə bağlı coğrfiya elmi istiqamətli araşdırmalar tələb edir.

**Praktiki düşünək:**

1. Hansı öyrənən sahə tam elastiklik tələbinə malik ola bilər?
2. Tələbin elastikliyinin həssaslığı nə dərəcədə elmi tədqiqatının aparılmasında maraq doğurur?
3. Məhsula olan tələb ondakı qiymət dəyişikliyə neçə reaksiya verir? Misallar göstərin.
4. Qiymət dəyişəndə təklif qaydalarına həssaslığının təsirinin seçimlərini müəyyən edin.

## 4.3. Elastiklik miqyasının "duymaq" seçimi

***"Coğrafi tədqiqatın elastiklik miqyasini "duymaq" tələb-təklif modelinin tərkib hissəsidir. Doğru qərarlar qəbul edilməsində də köməklik göstərir."***

Coğrafiya elmində aparılan tədqiqatlarının hazırlanmasında və sonlluğunun tamamlanmasında elastiklik miqyasının "düymaq" davranışı çox önəmlidir. Bu önəm elmi işinin kəmiyyət və keyfiyyət qaydalarının toplanması və təhlililini nəzərdə tutur.

Coğrafiya elmi tədqiqat işinin tamlığının "duymaq" seçiminin = onun digər elmlərlə müqayisəsindəki mövqeyinin və təsirinin müəyyən edilməsi zərurindən irəli gəlir. Məsələ elmi təhlillərinin ölçülürinin mövqeyində tədqiqata dair bütün mülahizələrinin coğrafiyaya məxsusi predmetinin və obyektinin çərçivəsində (daxilində) aparılması ilə əlaqəlidir.

Coğrafiya elmində elastiklik miqyasını "duymaq" = məqsədyönlü və kompleks xarakterli tədqiqatlarının elmlilik səviyyəsini yüksəldir. Dərk edilən ideyanın yaradıcılıq nəticəsini praktika ilə uzlaşdırır.

Əslində burada söhbət dərk olunmuş coğrafiya elmi tədqiqatının elastiklik fəaliyyət dairəsindən gedir. Bu istiqamətinin fərqləndirilməsinin, elmi yaradıcılığın özü iki blokda nəzərdən keçirilə bilər. Elmi rəhbər tərəfindən təyin edilmiş mövzu və tədqiqat obyektinin təhlilinin çərçivəsində elastiklik miqyasının müəyyən nəticələrini alan, amma hansıca nəticənin əvvəlcədən məlum, hansının isə yeni olduğuna dair mənbələrinin təyin edilməlidir. Bununla bərabər tədqiqatın ideya rəhbəri elastiklilik miqyasının tələbini öncədən bilir və elmi-metodiki təhlillərini də buna uyğun işini planlaşdırır. İlkin olaraq aparılan elmi işin haqqında biliyin toplanması və qruplaşması lazımdır. Təhlilinin mövzu tematikasının elastiklik miqyasının "duymaq" tələbinə neçə reaksiya verəcək? Sualına cavab tapmaq məsələsidir. Bu mövzunun tematikasının tələb-təklifinin elastiklik duymaq tərəfinin miqyası üçün çox vacibdir.

Tədqiqatda aktual mövzu və obyektin seçilməsi ilə bərabər elastiklik durumunun seçilməsinin qaydalarının müəyyən edilməsi elmi işininin demək olar ki, ≈25-30%-dir. Elm sahibi inanmalıdır ki, elastiklik miqyasının təbiətində rasionalizm mövcuddur. Bunla yanaşı o, inanmlıdır ki, elastiklik miqyasının təbiəti daima hərəkətdədir. Tədqiqatçının təhlil etmə qabiliyyəti, biliyin və yaradıcılıq imkanlarından asılı olaraq mövzunun əhatə dairəsinin təyinin edilməsinə dair düşüncə sahibi olmalıdır. Belə bir təyində elastiklik təhlilininin yeniliyinin haqqında bilik sahibi olmalıdır. Həm nəzəri, həm də eksperimetal mövqe üzərində yerinə yetirilən elmi işlərinin mahiyyətinin və texnikasının öyrənilməsi zamanı bunları nəzərə almağını məsləhət bilirik.

Çox zaman bizdə belə bir düşüncə formalaşır ki, muasir elmi yeniliklərə tez adaptasiya olunmağına ehtiyac tələb edir. Əgər biz 4-5 il istədiyimiz hansısa fikiri əsas kimi qəbul etsək, ətrafda baş verən təbii-iqtisadi-sosial proseslərinə, dəyişikliklərə nəzərə almasaq heç vaxt düzgün gərarlar verə bilmərik. Bu onu göstərir ki, tədqiqat sahəsində elastiklik fikirlərini öyrənmək ilkin şərt kimi tezliklə izah etmək və şərtlərin düzgün qərarvermə prosesləri hansılardır? Bunu izah etməyə çalışın.

▪ ***Düzgün gərar nədir?*** *Düzgün və konkret şərtlər daxilində elmi cəhətdən qoyulan suallara cavab vermək üçün coğrafiya elmi tədqiqatının kompleksinin əsasında aparılması məqsədində verilən qərarların metodiki-praktiki elastikilik miqyasının seçimindən asılıdır.*

Məqsədli olaraq tədqiqatın gedişininin seçiminə uyğun elastiklik qərarlara, mövzunun coğrafi mühit amillərinin qarşılılıqlı ilə necə əlaqələndirlməsinə diqqəti artırmaq və təsir etmək imkanın variantlarının müəyyən edilməsindən çox asılıdır. Deməli bizim, verdiyimiz qərarlarının doğruluğun səviyyəsi ilk baxışda bu sadə görünür. Lakin zaman ölçüsünə görə dəyişən elastiklik qərarlar keyfiyyət nöqtələrinin hərəkətinə (gedişinə) uyğunlaşır və tamamlanır.

▪ ***Qaydalar aşkarlığı:*** *Neft ixrac edən ölkələr ilkin mərhələdə istehsalı azaldıb xam neftin qiymətinin qalxmasına nail olanda bir neçə kiçik əvəzedici o dəqiqə ortaya çıxır. Tələb nisbi olaraq qeyri-elastik hala çevrilir, qiymətlər əhəmiyyətli dərəcədə qalxır. Son dövrlərdə yüksək neft qiymətlərində müəyyən dərəcədə tənzimlənmələrinin baş verməsinə səbəb olur.*

*Filips əyrisinə əsasən, işsizlik aşağı olduqda inflyasiya yüksək və işsizlik yüksək olduqda isə infliyasiya aşağı hala çevrilir. Bu ölkələrin işsizlik və*

*inflyasıyanın müxtəlif kombinasiyaları arasında seçim yaranır. Filips əyrisində hansı nöqtəni seçməkdə elastilk "duyumu" kömək edə bilir.*

Yaşadığımız planetdə baş verən iqlim dəyişilmələrinin yadınıza salın... istənilən iqlim dəyişilmələrinin varlığının müsbət və ya mənfi halları üçün gərək konkret Yer kürəsinin coğrafi vəziyyətinin hansı hərəkətdə olduğunu düşünə biləsən. Məlumdur ki, varlığın müsbət və ya mənfi hallarının iqlim dəyişilmələrinin (temperaturun) Yer kürrəsindəki vəziyyətinə görə dəyişir. Coğrafi elastiklikliyinin seçimi də belə bir miqyasdadır. Düzgün qərar temperaturun gedişinin ümumi vəziyyətinə görə təyin edilməsi coğrafi elastikliyinin seçim tərəfidir. Əgər kainatda temperaturunun gedişində dəyişilmələr baş verirsə deməli, bu dəyişmələrinin elastik seçiminin durumunda də fəaliyyət göstərir. Təhlil zamanı bunu nəzərə alınmasını məsləhət görülür.

Coğrafi tədqiqat üçün verilən tələbinin "duyumu" daha elastikli olmalıdır, əks təqdirdə aparılan elmi işinin nəticələrinin məzmunu birtərəfli istiqamətdə ola bilər. İstənilən elmi işinin yaradıcılıq sferasında tələbin "duymaq" prinsipi ən mühüm elastiklik seçim hesab edilə bilər. Proqnoz verməkdən əvvəl coğrafi araşdırmaları zamanı qəbul edildiyi elastik seçimlərinə ətraflı və düzgün yanaşmağından çox asılıdr.

Tədqiqat zamanı baş verən ideya və praktiki dəyişikliklərə adaptasiya olmağın qabiliyyəti elmi işçinin fəaliyyəti üçün əsas üstünlük hesab edilir. Tədbiqi coğrafiya informasiyanın zamanı yaradılan struktur sahələrinin ərazi ilə uzlaşması və onun dayanıqlığının təminatında elastiklik miqyasını "düymaq" davranışı çox önəmli və eləcə də müstəqil tədqiqat sahəsidir.

Coğrafiya elmində istifadə edilən elastiklik miqyasının düşüncə kredosu - kreativ potensialının, coğrafi biliyinin imkanlarının artırılmasına xidmət edir. Coğrafi mühitin modelləşdirilməsi və onun daxili potensialının daha optimal şəkildə səfərbər olunması prosesinin formalaşmasında və inkişafında elastikliyin "düyməsı" qaydalarının təsir qüvvəsini nəzərə almaq lazımdır. Müasir dövrdə ərazi resursun modelləşdirilməsi,iqtisadi inkişafa ötürülməsi aktual bir sahəyə çevrilmişdir. Bu, əlbəttə, yeni keyfiyyətli və dayanıqlı gerçəklik olmaqla yanaşı, həm də elastiklik miqyasını"düymaq"və təhlil edilməsinin qaydaları aparılan elmi işinin faydalığı üçün də yeni mühit yaradır. Piter Drakerin fikri

ilə desək: "Ümumi bilikdən ixtisaslaşmış biliklər kompleksinə keçid biliyi yeni cəmiyyət qurmaq iqtidarında olan qüvvəyə keçirir"[41].

Coğrafi elastiklik seçiminin dərk edilməsi elmlə əlaqəli bütün reallıqlarının (hadisələrin) daha təfərrüatlı və hərtərəfli təhlillərinə ciddi tələbat doğurur. Bu tələbat isə coğrafiyanın digər sahələrinin arasındakı öyrənmələrinin mövqeyinin təyin olunmasının səfərbərliyini qarşıya məqsəd qoyur. Lakin bu məsələlərinin coğrafiya elmi mənbələrində tamamilə diqqət yetirilmir və ya təhlillərinə münasibət bildirilmir.

Məxsusi olaraq tədqiqat zamanı elastiklik elmi düşüncə tərzinin fəaliyyətinin önəmə gətirilməklə daha effektli və praktiki cəhətən strateji məqsədlərə nail olmaq olar. Ona görə də, elmi düşüncə tərzinin daha aşağı səviyyələrinə xas olan əlamətlərinin empirik biliyə aid edilməsi kimi hallarına tez-tez rast gəlinir.

> Coğrafi biliklərinin tədbiq edilməsində və təhlillərinin aparılmasında müxtəlif termin dəyərlərindən istifadə edilməsi daha münasibdir. Nəzəri-metodoloji sahədə tədbiqinin qeyri-mümkünlüyü səbəbindən hər hansı coğrafi tədqiqatının tamlığını təyin edə bilmədikdə, termin minimumuna müraciət etmək lazımdır.

Coğrafi biliklərinin ardıcılıq çərçivəsində öyrənilməsi və yaradıcılıqla önəmə gətirilməsi tədqiqatçının qarşısında duran vəzifələrindən biri kimi = elastiklik miqyasını "duymaq"dır.

Tədqiqatçı bu sahədə həm empirik, həm də nəzəri biliklərə sahib olması əsas şərtdir. Bunun üçün ilk növbədə elmi mənbələrini səmərəli formada mənimsəmək və düzgün qərar vermək imkanına malik olmalıdır. Bu tədqiqat üçün əsas faktordur. Elastiklik davranışlarının iki tərəfi ilə tanış olmaq lazımdır: qısamüddətli dövr və uzunmüddətli dövrlər üçün. Bu iki yanaşmanın bir-biri ilə qarşılıqlı əlaqəsi və onların bir-biri ilə ziddiyyət təşkil edib-etməməsi məsələsi ilə bağlı münasibətlərinə elmi işində aydınlıq gətirilməlidir.

41 П. Дракер. Посткапиталистическое общество // Новая постиндустриальная волна на Западе. Антология. М., 1999. с.138.

# Xülasə

- Coğrafi tədqiqat üçün "məkan-zaman" təlimində elastiklik "duyumu" daha çevik və dayanıqlı mühitə malikdir.
- Aparılan elmi işinin nəticələrininin məzmunu birtərəfli istiqamətdə ola bilər, lakin elmi işinin yaradıcılığının dinamikasının "duymaq" prinsipi ən mühüm elastiklik seçim hesab edilir.
- Proqnoz verməkdən əvvəl coğrafi tədqiqatının qəbul etdiyi elastik seçimlərinə ətraflı və düzgün yanaşmaqdan çox asılıdr. Bu elmi-tədqiqat üçün çox vacib bir yanaşmasıdır.
- Elmi rəhbər tərəfindən müəyyən edilmiş elmi-tədqiqat işinin planında elastiklilik tələbi öncədən irəli sürülməlidir. Mövzu seçimində elastiklik "duymaq" tələbini tədqiqat işinin planında hansı istiqamətə üstünlük verilməsini qabaqcadan təyin edilməsinə diqqət yetirməsini məqsədəuyğun sayırıq.
- Həm nəzəri, həm də praktiki mövqe cəhətdən elastiklik texnikasını öyrənilməsi elm sahibi üçün dəyərli sayıla bilər.
- Tədqiqatın gedişi zamanı elastiklik seçimi qaydaları metodiki-praktiki cəhətdən faydalı olmasına dair qərarlar verilməli və mövzu ilə uyğunlaşmalıdır.

**Praktiki düşünək:**

1. Tədqiqatınızda elmi elastikliyinin "duymaq"ın məntiqini qəbul edirsinizmi?
2. Elmi işinizdə elastiklik miqyası "duymaq" haqqında nə kimi təklif irəli sürə biərsiniz?
3. Təhlil zamanı elastik qaydalarına və onun elmliliyinə diqqət yetirin.

## 4.4. Elastiklik tələb baxımının daxili məzmunu

***"Bu gün aparılan tədqiqatların böyük əksəriyyəti davranışı ölçən kəmiyyətlərinin toplanmasını və təhlilini nəzərdə tutur."***

**Şaron M.Oster**

Coğrafi biliyin qərar qəbul etmək baxımından faydalığını nəzərə alsaq, tədqiqatın daxili məzmununun tələbində baş verən elastiklik dəyişilmələr də bir o qədər faydalıdır.

Müasir dövrün coğrafiya elmi tədqiqatlarının (xüsusən Azərbaycanda) əksəriyyətində mövzunun daxili məzmunun təhlillərində kəmiyyət ölşülərinin toplanması üzərində qurulmasına səy göstərilir. Lakin çox vaxt,tədqiqat prosesində kəmiyyət ölçülərinin dəyişkənliyinnin istiqamətlərini bilmək kifayət etmir.Məqsəd baxımından doğru qərarlar qəbul edilərkən = bilinməsi vacib olan əsas məsələrlərindən biri də mövzunun daxili məzmununa reaksiya verən elastiklik tələblərinin önəmə gətirilməsidən ibarət olmasıdır. Buna aydınlıq gətirmək üçün bir sıra suallarının meydana gəlməsinə səbəb olur.

- Əgər elastiklik tələbi baxımında mövzunun struktur davranışının obyektinə çevrilərsə, onun daxili məzmununda hansı keyfiyyət dəyişkənliyi baş verə bilər?
- Elastiklik tələbi baxımından aparılan tədqiqatın potensial imkanları mövzunun daxili məzmun ilə hansı əlaqələr yarada bilər ?
- Bu kimi oxşar sullarının verilməsi və cavab alınmasının tələbləri coğrafi tədqiqatının daxili məzmununda dəyişkənlik nə səviyyədə ola bilər? və s.

Elastiklik baxımından coğrafi tədqiqatın aparılması ilk növbədə onun daxili ideya tələbinə uyğun öyrənilmələrinə üstünlük verilməlidir. Sonrakı mərhələdə isə öyrənilməsi vacib olan düzgün və elmlilik mənbələrinin coğrafi seçimlərini önəmə gətirilməsi mühüm məsələlərindən sayılır. Qarşıya qoyulan probleminin məqsəd və vəzifələrinin ölçülərinin təyini və mənisənilməsi ("duyumluğu") üçün elmi-metodiki qaydalarının açar rolunun ifadə edilməsi ilə bağlıdır. Problemin tam mənimsənilməsində mövzunun (tədqiqatın) daxili məzmunun tələb etdiyi elastiklik seçiminin müəyyən edib və təhlil etmək məsələsi ötkəm kimi çox faydalıdır. Məsələnin digər bir tərəfi isə ondan ibarətdir ki, malahizə və elmi

yanaşmanın mexanizminin coğrafiya elminin öz predmetinin daxilindəki metodikasının tələb-təklifinə üstünlük verməklə məqsədə nail olmaq imkanın əldə edilməsinə şərait yaratmasıdır.

Elastikik tələb baxımından tədqiqatın daxili məzmunun potensial imkanlarının istifadə edilməsi yaradıcılığın tərkib hissəsidir. İstifadə zamanı coğrafiya elminin öyrəndiyi və tədbiq obyektinin çərçivəsinin hansı bilikllərlə zənginləşdirmək məqsədi öyrənilən məsələlinin həlli üçün mühüm şərtidir. Məlumdur ki, heç də bütün biliklər elmi tədqiqatlara xidmət etmir. Deməli, coğrafi bilik yalınız obyektiv gerçəkliyinə rasionallıq gətirirsə, o, zaman onu bilik kimi qəbul etmək olar. Məqsədə uyğun olaraq bir sıra konstruktivlilik məzmunda elmi mənbələrinə münasibət bildirək.

Coğrafiya elminin daxili məzmununda elastiklik bilik nə dərəcədə həssaslığının nəzərə alınması vacibdir? Nəzərə alınan elastiklik bilik nə ilə ölçülür? Bu kimi suallarına cavab axtarmaqla təqdim edilən mövzunun araşdırılmasının məqsədinə aydınlıq gətirmək mümkündür.

Coğrafi elastiklik bilik iki təsnifatının başlanğıcından “qidalanır”. Birincisi, maddi varlığının (coğrafi məkan varlığı) ümumiləşdirilmiş dərki və ikincisi isə dərk edilmiş ideyanının coğrafi-praktikası. Məhz bu iki başlanğıc tərk edilmə tərzi coğrafi elastiklik biliyinin bir tərəfdən ideya mənbələrini,digər tərəfdən isə ideyanın coğrafi-praktiki “məhsulu”nun keyfiyyətinin parametlərinin təyin etmək qabiliyyətini gücləndirirməsinə malik olmasıdır.

Elmi-tədqiqatının kompleks məzmununda coğrafi biliyin ekastiklik coğrafipraktikasına dair mülahizələrinə geniş miqyasda yanaşmağına üstünlük verilməlidir. Belə olmadıqda isə aparılan elmi işinin məzmununda daimi olaraq problemələrlə üzləşə bilər. Fikrimizcə, elastiklik praktiki - coğrafiyanın elmi idrak mənbəyi ilə əlaqəlidir və bu əlaqələr coğrafi biliyininin özündə, yəni mənbəyində axtarmaq lazımdır. Elmin elastiklik bilik = maddi varlığının “enerji mənbəyi”dir, “dialektik hərəkət”in davamlılığının daxili məzmunudur. Bu səbəbdən də elastiklik bilik elmi işinin konstriktivliyinə konkret istiqamət verir və məqsədönümlü edir.

Coğrafiya elmində nəzəri-praktiki elastiklik biliklərinin kompleks təsir dairəsinin müəyyənliyi və yeni məzmun verilməsinin məsələlərinə aydınlıq gətirilməsidir. Burada ilk növbədə mövzunun seçimi zamanı onun daxili məzmununa dair materiallarının toplanmasına diqqətinin artırılmasıdır. Məqsədli olaraq

materiallarının seçimi tədqiqat işinin formalaşmasının əsas istiqamətlərindən sayılır.

Elm biliklərinin sistemli kontekstində onun elmilik şərtlərinə tam cavab verib-vermədiyini təyini çox çətindir. Məntiqi önəm onunla ölçülür ki, coğrafiya elmi tədqiqatının çərçivəsində yeni elmi biliklərinin müəyyənliyi haqqındakı təlimlərinə söykənmək vacibdir. Təliminin inkişaf etdirilməsi və riyazi–coğrafi, yaradıcı modellərdən istifadə edilməsi və s. məsələlərinin həllinin istiqamətlərinin hüdudları elm sahibinin prosesə neçə reaksiya verməsindən çox asılıdır.

Məqsəd onunla izah olunur ki, yaradıcılıqda konkret, elmi dəyərə malik olan tədqiqatlarının aparılmasına daha çox konstruktiv yanaşmalarına üstünlük verilməlidir. Bu üstünlüklər miqyasında elastiklik coğrafi tələbinin xarakterli cəhətlərinə və elmlilik dərəcəsinə xüsusi yanaşmalarının və çağrışlarının önəmə gətirilməli və ona münasibət bildirilməsinə səy göstərilməlidir.

▪ **Haşiyə:** Ümumi sistemli coğrafi elastiklik tələbinin qarşıya qoyduğu məsələlər qabaqcadan söyləməyə imkan verir ki,dəyişkənliyinin və düşüncə gücünün uyğunluğunu nəzərə alan elm sahibləri məqsədli tədqiqatlar aparmağa qadirdirlər. Bu elmi iş üçün əsas məsələdir.

Coğrafiya elmi prinsiplərinin elastikliyinin öyrənilməsi istiqamətində aparılan araşdırmalarının tərkibində ilkin olaraq problemə dair nəzəri baxışlarının tələbatı ilə bağlıdır.

Nəzəri coğrafiya elminin qarşısında duran vəzifələrindən biri eksperimental faktlara söykənən elastikliyinin daxili məzmunun problemlərinin tədqiqat obyektinə çevrilməsindən asıllığının təyin edilməsi və buna uyğun olaraq elmi nəticələrinə gəlməsidir. Müasir coğrafiya elminin inkişafının məntiqində elastikliyin daxili məzmunun ideyasının məqsədləri aktual bir müzakirə obyektinə çevrilmişdir.[42]

[42] A.A. Qurbanzadə. Dialektik coğrafiya. Bakı, 2017.

# Xülasə

- Müasir Azərbaycan coğrafi elminin fundamental praktiki xarakterli tədqiqat işlərinə xüsusi diqqət yetirilməlidir. Lakin diqqətdən kənarda qalan problemlərinin olması da nəzəri cəlb edir (xüsusən coğrafi elastilklik problemi).
- Konstruktiv baxımından yanaşsaq = elastiklik tələbi ümumi coğrafiya elminin daxili məzmunu üçün yetərli və problemin həlli yollarınn keyfiyyət dərəcələrinin təyin edilməsinin məqsədində çox effektli mühitinin yaranmasında özünü göstərə bilər.
- Çox vaxt tədqiqatın aparatında əsas problemlər arxa planda qaldığı halda, statistik və s. materiallar, təkrar mövzularının yenidən işlənmələri önə çıxarılır. Təsadüfi deyildir ki, elmi mövzularının seçiminin böyük bir qisminin lokal məzmunlu coğrafi məsələlərinə həsr olunmuş tədqiqalarının məzmunu da bununla bağlıdır.
- Məqsəd onunla izah olunur ki, coğrafi tədqiqatlar zamanı elmi dəyərə malik olan elastiklik məzmun daşıyan mövzularının seçiminə və metodikasına konstruktivlik baxımlarına üstünlük verilməlidir. Bu üstünlüklərinin qəbul edilməsi və praktika ilə əlaqələndirilməsində coğrafi elastiklik xarakterli metodiki aparatının yaradılmasına münasibət bildirilməsinə səy göstə rilməlidir.
- Elmi-tədqiqatının kompleks idarəedilməsi, alınan nəticələrinin məzmununda coğrafi-praktikasına dair mülahizələrinə geniş miqyasda yanaşmağının önəmində təhlillərinin aparılması yenilik kimi qəbul etmək olar. Belə olmadıqda isə aparılan elmi işinin məzmununda daima problemələrlə üzləşə bilmək ehtimalı yarana bilər.
- Elastikik tələb baxımından coğrafi tədqiqatının potensial imkanlarının artırılmasının prosesində elastiklik yanaşma tərzi mühüm mövqeyə malikdir. İstifadə zamanı coğrafiya elminin öyrəndiyi və tədbiqinin çərçivəsinin praktiki biliklərlə zənginləşdirməsinin qaydalarının da müəyyənliyi mühüm şərtdir.

**Praktiki düşünək:**

1. Elastiklik tələb baxımına aid coğrafi mənbələrini axtarın və onu təhlil etmək yollarını öyrənin.
2. Elmin elastiklik varlığının “enerji mənbəyi” haqqında düşün və nəticə çıxart. “Dialektik hərəkət”in davamlılığının daxili məzmununda elastiklik yanaşmaya diqqət yetir.

## 4.5. Elastiklik seçimində irəliyə baxış

**"Təxəyyüldən istifadə etməyib, yalınız əldə edilmiş biliyə əsaslananlar quru alimlərdir."**
**A.Yajthed**

Tədqiqatın nəticələrinin əldə etmə prosesinin texnologiyası praktika, yerdə qalanlar isə funksiyonal təlimlərinin elastiklik seçim çərçivəsinə daxildir.

Bu yarım bölmədə elastiklik seçiminə aid bəzi məqamlarına irəliyə baxışına aydınlıq gətirilir. Ümumi formada coğrafiya elmi üçün əldə edilmiş mənbələrinin əhəmiyyətinə çağrış edilir. Buna uyğun olaraq bir sıra tədqiqatlarımda bəzi məsələlərinə müxtəlif səviyyələrində münasibət bildirmişik. Təkrar olmasın deyə, elastik seçimin mövzu ilə bağlı bir sıra məqamlara proqnoz formada aydınlıq gətirmələrinə dair suallarının verilməsini məqsəduyğun saymışıq:

- Elastiklik seçiminin önəmli irəliyə baxış nöqtələrinin sıraları nədən ibarətdir?
- Elastiklik seçimin coğrafiya elmi üçün nə dərəcədə irəliyə baxışda faydalıdır ?
- Məntiqi baxımdan yanaşsaq elastiklik seçiminin praktika ilə əlaqəsinin rasionallığı nə dərəcədə tədqiqat üçün bilik mənbəyidir və s.

Məsələnin həllinin cavabında elastiklik seçimi zamanı gələcəyə baxışının rasionallığının dərəcəsinin təyini mövzunun aktuallığı ilə bağlıdır. Əgər mövzunun məzmunu və ideya istiqaməti innovasiya yönümlüdürsə, o, zaman alınan nəticələrinin elmi-metodiki tərəfləri daha çox aktual hesab edilir. Əsas məqsəd yeni məzmunlu nəzəri-praktiki istiqamətlərinə doğru aparılan təhlillərinin irəliyə baxışlarda fundamentallığının izləri görünə bilsin. Bu baxışlara həm nəzəri, həm də praktiki dərketmə təlimlərinin reallıqlarının özündə birləşdirməsidir. Dərketmə halda hərtərəfli və dolğun fikirlərinin yaranması və elastikliyinin dəyişilməsinə qarşı reaksiyası və onun ifadə edilməsi və s. məsələlərinin metodikası effektli potensial mühütinin yaranması ilə tamamlanmalıdır.

***Maraq dairəsi:*** *Elastiklik coğrafiya elminin irəliyə baxışının məntiqinin ifadəsində başlıca maraq doğuran təkliflərinin mənbəyinin əsasında dayanıqlı metodiki araşdırmalara üstünlük verilməsidir.*

İlkin mərhələnin ideyası = elastiklik elmi dəyərlərə malik, nəzəri-metodoloji qaydalarını özündə birləşdirən əsərlərinin yaranmasının zəruriyyətinin meydana çıxmasıdır. Digər tərəfdən isə, effektli istifadə edilən adi empirik fikir sayəsinə nail olmaq tələbinə cavab verən mövzularının seçilməsi ilə bağlıdır. Bir şərtlə ki, tədqiqatçı intellekt[43] biliyə, keyfiyyət xarakterli düşünmə və elastiklik seçiminin yeni ideyalarının bolluğuna sahib olmalıdır.

Effektli coğrafi elmi yaradıcılığının fonunda modelləşmə, funksional-sistem, riyazi - kibernetika, informasiya təlimlərinə müraciət edilməsinin seçimində də aktual tədqiqatın tərkibi kimi qəbul olunmuşdur.[44]

▪ ***Mövzudan kənar:*** *Qeyd etmək istərdim ki, yaradıcılıq çərçivəsinin önəmlərindən biri də özünün hər şeyi bilməklə öyünməkdir. Streslər nəzəri baxışlarının müəllifi H.Selye "Həddindən artıq əllaməlik", "yəni özünü hər şeyi bilən" kimi göstərmək təhlukəlidir. N.Selye bu cəhətdən, adətdən çəkinməyi elmi işçilərinia məsləhət bilir.*

Elmdə baş verən elastiklik dəyişikliklərinin nizamlı halda dərk etməliyik, bizi əhatə edən ahəngdarlığının qorunmasına diqqəti artırmalıyıq. Bu səbəbdən də,elm sahibi apardığı mövzunun elastiklik-coğrafi təhlillərinin mədəniyyətini mənsəməli, kompleksli və elmtutumlu tədqiqat sahələrinə üstünlük verməyini bacarmalıdır. Bu məsələdə özünüdərkinin anlayışının qəbul edilməsi, öyrəndiyi elmin məqsədi = önəmli ideyalarının axtarmasından ibarət olmasıdır. Özünüdərk etmə elmi yaradıcılığının tərəqqisi və davamlı inkişafının istiqamətləri məhz burdan başlanır.[45] Özünüdərketmə ilk növbədə həcmcə kicik ideyalarının üzrə başlamağını məsləhət görülür. Belə bir kəlamı yada salmaq məsləhətdir: "Kiçik su damcıları, xırdaca qum zərəcikləri = Okeanlar və Materikləri" = yaratmışdır. Buna bənzər "dama-dama göl olar" ifadəsini də yadda saxlamağını məsləhət kimi qəbul edin.

---

[43] İntellekt (lat.dərketmə, dərrakə, anlama ) elmi dəyrələrinin mənimsənilməsi, dəyişməyə istiqamətlənmiş funksional dialektikasının məcmusunu ifadə edir. İntellekt - tədqiqatçının düşüncə tərzinin keyfiyyət göstəricisidir.

[44] Райх Д.Р. Методы географического исследования. Минск. 2012, с.137.

Müasir coğrafiya elminin inkişafı üçün elastiklik seçiminin imkanlarından istifadə etməklə, ölkəmizin gənc coğrafların elmli tədqiqatlarının artırılmasının məqsədinə diqqət yetirməsi tələb olunur. Elmi işinin kompleks xarakterli, innovativ dəyişilmələrinə cavab verən mövzulara, metodlara üstünlük verməklə irəliyi doğru hərəkət etmək mümkündür. Əks halda gələcək nəsillər bizi bağışlamaz. Ümumiyyətlə, elm və yaradıcılıq meyarları ilə birləşən elmin sahiblərinə üstünlük verməklə gələcək nəsillərinin formalaşmasında mühüm mövqe yarada bilərik. Bu qovuşma elmin elastiklik-coğrafi mədəniyyətidir, gələcəyə yönəldilən baxışlarının hərəkətidir.

- ***Baxış nöqtəsi:*** *Uzun bir dövrdür ki, gənc elm sahiblərinin əhatəsində fəaliyyət göstərirəm. Mənə haqq veirir deyəm ki, müasir gənclərinin elmi yaradıcılığının təməlində ideal potensial mühitinin gerçəklikləri durur. Bundan istifadə etməklə ölkəmizdə "coğrafiya elmi məktəbi"nin yaradılmasını arzu edirəm.Hazırki dövrdə və gələcəkdə buna = coğrafiya elmi məktəbinə = ehtiyac duyulur.*

Potensial tədqiqat mühitinin hərəkətinin elastiklik seçiminin daha da aktivləşdirlməsinin məqsədində yüksək səviyyəli elmi problemləri ilə məşğul olan elita təbəqəsinin imkanlarından istifadə edilməsinin vəzifəsi durur. Elita təbəqəsi coğrafiya elminin inkişafına xidmət edən fundamental = təbii coğrafi; coğrafi sosial-iqtisadi və s.= ideyalarının üzərində qurulan problemlərinin dialektikasınının elastiklik seçimini önəmə gətirilməsinə diqqət yetirməlidir.[46]

- **Haşiyə:** *Maraq doğuran bir məsələ də mövcuddur. Coğrafiya elmin sahiblərini üç əlamətlərinə görə təsnifat aparmaq olar. Birinci, elmi işlərinə aid olan məsələlərinin dərindən, elmlilik səviyyəsində düşünəndən sonra öz məqsədinə nail olmaq imkanını əldə edən coğraflar. İkincisi təsnifat üzrə: məsələnin qıssa zaman çərçivəsində dərk edir və ümumi nəticələrini ifadə edən coğraflar. Üçüncüsü isə, yalınız statistik məlumatlarını toplayıb, onun üzərində təhlillərini aparan coğraflar. Bu cür bölgüdə bir və iki əlamətlərinə sahib olan coğrafi tədqiqatçılarda idrakın qabarıq yaradıcılıq imkanlarının elastiklik ölcü miqyasınının olması xarakterikdir. Başqa ifadə ilə desək, bunlar yeni ideya işləyib hazırlayanlar, elmin yaradıcıları (təşkilatçıları) kimi qəbul edirəm.*

---

[46] Qurbanzadə A.A. Dialektik coğrafiya. Bakı, 2017.

# Xülasə

- Tədqiqatın məqsədinə uyğun olaraq, elastiklik seçiminin elmlilik dəyəri, onun nəzəri-praktiki istiqamətlərinin müəyyən edilməsi və gələcək istiqamətlərinin təyinindən ibarət olmasıdır. Bunu nəzərə alaraq, gələcək tədqiqatlarının elmliyi üçün variantlarının seçimləri aydınlaşdırılmalı və əsaslandırılmalıdır.

- Elastiklik seçiminin dərkedilməsi tədqiqatçının qarşısında bir sıra problemlərinin həllinin yolları durur. İlkin olaraq mözunun təhlili zamanı baş verən dəyişikliklərə yeni prizmadan baxmağı qarşısına məqsəd qoymalıdır.

- Dərketmə halında çoxşaxəli modellərinin tərtibi və elastiklik sisteminin ifadə edilməsi və s. məsələlərinin metodikası effektli potensial mühütinin yaranmasında fəaliyyət göstərir, elmi işinin tamamlanmasında yardımçı olur.

- Kompleks xarakterli mövzularının seçilməsi,nəzəri məsələlərinin öyrənilməsi və eləcə də praktiki cəhətdən istifadə edilməsində coğrafi elstikliyinin seçim variantları elmi tədqiqatın gələcəyə baxışında rolu və mövqeyi inkaredilməzdir.

**Praktiki düşünək:**

1. Elastiklik seçimində irəliyə baxışının modelinin yollarını müəyyən etməyə çalış.
2. Elastik seçiminin proqnozu haqqında yeni ideya işləyib hazırlaya bilərsənmi?
3. Funksional-informasiya təlimlərinə əsasən elastiklik seçiminin gələcək baxışlarına dair mülahizələrinə münasibət bildir.

# BEŞİNCİ FƏSİL

# Elmi araşdırmada ideyanın ötürülməsinin önəmliyi

**Fəslin icmalı və tədqiqat məqsədləri:**

**5.1. İdeyanın ötürülməsinin qaydaları haqqında**
Coğafi biliyin varlığı, zəruri müəyyənliyinin asimmetrik təhlilinə üstünlük verilir. Elmi problemlərinin həlli yolunda müəyyən bilik səviyyəsinə, coğrafi təfəkkürün dəyərlərinə dair mülahizələrinə aydınlıq gətirilir.

**5.2. Coğrafi ideyanın ötürülmə sıraları**
Coğrafi təhlillərinə uyğun gələn ideyalarının ötürülmə sıralanması üsullarına baxılmasına diqqət yetirlir və tələbləri əsaslandırılır.

**5.3.Asimmetrik statistik ötürmənin təhlili qaydaları**
Asimmetrik statistik təhlil zamanı elmi-praktiki nəticələrinin yanaşma tərzinin faydalığına məqsədli araşdırmalarının önəmliyi haqqındakı mülahizələrinə diqqət yetirilir.

**5.4. Qeyri-müəyyənlik: ideyanın ötürülmə seçimi**
Elmi-tədqiqat praktikasının əsası kimi, qeyri-müəyyənlik və ideyanın ötürülməsinin üsullarının önəmliyinə dair seçimləri verilmişdir. Dayanıqlı inkişaf statusunda tədqiqat zamanı ideyanın yaratdığı rasionallığına dair təkliflərini əsaslandırmağa səy göstərilmişdir.

## 5.1. İdeyanın ötürülməsinin qaydaları haqqında

*"Biliyin elm olmasının daxili zərurəti onun təbiətindən irəli gəlir."*

***Hegel***

Gözlənilən coğrafi müəyyənliyinin və saxlanılması qaydalarının elmi dəyərinin təyin edilməsinin önəmində aparılan elmi işində ideyanın ötürülməsinin qaydalarının mühim mövqeyi mövcuddur

Coğrafiya elmi araşdırmalarının çərçivəsində rasional ideyalarının mənimsənilməsi və ötürülməsi üsullarının müəyyən edilməsi ilə əlaqəlidir. Müəyyənllik ondan ibarətdir ki, hər bir tədqiqat sahəsinin özünə məxsus ideya asimmetrik üsulllarının qəbul edilməsi və onun ötürülməsi ilə bilavasitə bağlıdır.

Elmi ideyanın məqsədli metodoloji və effektliyinin istiqamətinə əsaslanaraq onun ötürülmə mənbəyinə yönəldilən qaydalarına da diqqətinin artırılmasının tələbi meydana çıxır. Aparlan elmi işinin ötürülməsinin məqsədində ilk növbədə qəbul edilən mövzunun daxili qüvvəsinin yeniləşdirməsidir. Onun metodiki təhlilinin qaydalarını daha məlumatlı, yeni biliklərlə qüvvəsinin çevrilməsinin imkanlarının artırmağına şərait yaradır. Kompleks xarakterli elmi ideyanın maddi varlığa çevrilməsinin səbəb və nəticələrinin ilkin mənbələri aparılan tədqiqat sahəsinin daha metodiki əsaslarına söykənir və elmliliyə aparılan yolunun güclü olmasına səbəb olur.

Bir məqamın mahiyyəti ondan ibarətdir ki, coğrafi araşdırmada elmi ideyanın güçü artıqca təhlil edilən mövzunun təsir dairəsi və öyrənilməsi qaydalarında metodiki kamillik səviyyəsi də buna uyğun dəyişilmələrinə səbəb olur. Məhz belə bir ehtiyacdan irəli gəlir ki, coğrafiya elmi ideyanın kompleksliliк istiqamətli araşdırmalarının tələbinə uyğun elmi biliklərinin də nisbi müstəqil şəkildə inkişafı onun təbiətindən irəli gəlir.

Məlumdur ki, elmin öyrənilməsində sonsuz sayda "ötürülmə" qaydaları, üsullar, fərziyyələr mövcuddur. Təklif etdiyimiz bu "ötürülmə" qaydaları = sadədən tutmuş, mürəkkəb proseslərə qədər dialektik coğrafi qanunlarına tabedir.[47] Elm

[47] A.A.Qurbanzadə. Dialektik coğrafiya. Bakı, 2017.

sahibinin əqli və fiziki qabiliyyəti, apardığı probleminin məznunu və rasional ideyalarının istiqamətlərinin ötürülməsi ilə ölçülür.

Coğrafiya elmi tədqiqatlarda,mövzu dairəsindən asılı olmayaraq, elmi araşdırılmanın əsas istiqaməti onun elmlilik önəmində ideyanın "ötürülmə"nin miqyası ilə müəyyən səviyyəyə çata bilir. Məsələnin başqa istiqaməti ilə əvəz edildikdə aparılan tədqiqat işinin öz funksiyasının məhdudlaşmasına səbəb olur. Qəbul edilən fikirlərinin hər birinin özünəməxsus metodiki işlənməsinin funksiyaları mövcuddur. Elə etmək lazımdır ki, qəbul edilən fikirlərinin ölçülərinin qaydaları araşdırılan mövzunun elmi-metodikı təhlilinin və qaşıya qoyulan məqsədinin "boy-buxuna" uyğun gələ bilsin.

▪ ***Haşiyə:*** *Coğrafi araşdırmada ideyanın "ötürülməsi" zamanı şablon hallarına yol verməmək əsas məsələdir. Sadə məsələnin həlli zamanı şablon fikirlərinin əvəzinə, elmə söykənən, məntiqi mühakimə yoluna ayrılan təhlillərni seçmək lazımdır. Bu zaman elmi işinin zəif tərəfləri çox zaman böyük qüvvəyə çevrilə bilər.*

Coğrafiya elmi ideyanın "ötürülməsi"nin qaydalarında informasiya ideyasının arasında nə kimi əlaqə asılılığının olmasına dair mənbələrinin mövcudluğu nə dərəcədədir? Sualın cavabı maraq doğurur.

Ümumi coğrafi nəzəri biliyin informasiyadan asıllığının səviyyəsinin təyini başlanğıc nöqtələrindən başlayaraq mövzunun xarakterinə görə müəyyənləşir. Bu müəyyənlik həmçinin elmi-metodiki araşdırmanın səciyyələndirən ən mühüm əlamətlər kimi də qəbul olunur. Lakin informasiyadan coğrafi biliyə, coğrafi bilikdən isə informasiya elmi biliyinə gedilən yolunun bir çox məqamlarınındakı fərqli cəhətlərinin də imkanları yarana bilir. Tədqiqat zamanı qarşıya qoyulan məqsədin missiyasının vəzifəsi komplekslilik tələbinin bilik səviyyəsinin yüksəldilməsindən ibarət olmasıdır. Bu məqsəd ilk növbədə coğrafiya elmin inkişafının önəmində tədqiqatçının məhdud intellektual potensiallığının səfərbər olunması sayəsində mümkün ola bilər. Burada tədqiqat sahəsinin üzərinə düşən əsas vəzifələrindən biri = yaradıcılıq potensialının məhsuldarlığına səmərə verə bilən ideyalarının seçimindən ibarət olmasıdır.

▪ ***Fakt qarşısında:*** *Bu böyük vəzifənin həllində (1999-cu ildə) YUNESKO-nun Budapeştdə təşkil etdiyi Elm üzrə ümumdünya konfransında qəbul olunmuş "Elm və elmi biliklərdən istifadəyə dair" Deklarasiyada deyilir: "Biz hamımız eyni planetdə yaşayırıq və biosferin hissələriyik... Dünyanın bütün elm adamları*

*və millətləri elmin bütün sahələrində əldə edilmiş biliklərdən məsuliyyətlə istifadə etmək əzmində olduqlarını bildirirlər. Elm insanların ehtiyaclarına xidmət etməli və heç vaxt onun ziyanına yönəlməməlidir".*

XX əsrin tələbində coğrafi elmi biliyinin hərəkətverici qüvvəsinin çərçivəsi elmi-texniki tərəqqi idisə, müasir mərhələdə isə coğrafiya elmi tədqiqatlarının kompleks ərazi təşkilinin optimal variantlarının dialektik praktikasının üstünlükləri hesab edilir. Kompleks ərazi təşkilinin funksiyası = çoxcəhətli olub, strateji proqramlarının həyata keçirilməsi prosesinin dayaq nöqtəsidir. Starateji istiqamətə çevrilən coğrafi tədqiqat işlərinin elmliyi məhz bununla ölçülür.

Bunu nəzərə alaraq, strateji funksiyalarının ötürülməsinin qaydalarının müəyyən edilməsi, coğrafi tədqiqatının informasiya mənbələrinin mövzunun məzmununa və məqsədinə uyğun seçiminin metodikasının müəyyənliyinin aşkar edilməsinin yolları mühüm əhəmiyyət kəsb edir. Sonda isə tədqiqatçının qarşısında duran vəzifə təhlil edilən mövzu ilə əlaqədar metodiki tələblərininin yüksək dərəcədə mobilizasiyasının imkanlarına aydınlıq gətirməlidir. Ona görə də, elm sahibi coğrafi tədqiqat sahələrinin elmi-intellektual mənbələrinin toplanmasına və onun məqsədəuyğunun qaydalarına yönəldilməsinə nail olmasına və gerçəkləşməsinə səylərini göstərməlidir.

Məlum məsələdir ki, aparılan elmi-tədqiqat işlərinin realizasiyası elə də sadə bir məsələ deyil. Bu proses, əvvəla, çox böyük kapital qoyuluşu, uzunmüddətli potensial elmi kadrlarının hazırlanmasını tələb edir. Şübhə yoxdur ki, elmə marağı olmayan kadrlarının fəaliyyəti ilə yüksək səviyyəli tədqiqatlarının aparılması mümkün deyil. Elm sahibi = "ideyanın ötürülməsi"nin məqsədinə yiyələnməli, irəli sürdüyü probleminin metodiki qayadalarına sahib olmalıdır. Apardığı elmi işinin kompleks ərazi təşkili ilə əlaqədar olaraq səmərəliyinin yollarının seçilməsinə səy göstərməlidir. Son nəticədə isə,məntiqi coğrafi elminin rasional mənbələrinin ötürülməsinin metodikasının keyfiyyət göstəricisindən məqsədəuyğun istifadə edilməsinin baçarığının sahibi olmalıdır.

## Xülasə

- Məntiqi olaraq coğrafi ideyanın "ötürülməsi"nin praktikasının önəmə gətirilməsinin yanaşmalarının mühüm elmi və praktiki cəhətləri var.

- Elmi işinin məhdudlaşdırılması kimi görünən istəlinən mövzuda ideyanın ötürülməsi önəmindən yaradıcılıqla istifadə edilməsi mümkündür. Coğrafi ideyanın təhlilinin qaydaları mözunun strukturunun ərazi təşkli üçün kompleks tədqiqatının mühitini yaradır.

- İdeyanın ötürülməsinin səbəb qaydalarına münasibət bildirmək,proqnozun dayanıqlı taktiki yolunundan istifadə etmək mümkünlüyünü meydana çıxır.

- Yeni texnologiyalar da ideyanın ötürülməsində aktivlik göstərir. Tədqiqat işinin gücləndirmək və səbəb qaydasını aydınlaşdırmaq üçün, spesifik coğrafi ideyanın ötürülməsinin qaydalarının önəmi yaradıcılıq imkanlarını artırır.

- Tədqiqat prosesində coğrafi funksiyalarının ötürülməsinin qaydalarının müəyyən edilməsi elmi işinin ploensial imkanlarını artırır. Təhlilin informasiya qaydalarının mövzunun məqsədinə doğru dəyişikliklərinin yaranmasına səbəb olur.

- İdeyalarının ötürülməsinin metodikasının aşkar edilməsinin yolları mühüm əhəmiyyət kəsb edir. Sonda isə tədqiqatçının qarşısında duran vəzifə təhlil edilən mövzu ilə əlaqədar nəticələrinə gəlmək mümkünlüyü artır.

**Praktiki düşünək:**

1. Tədqiqat prosesində aparılan mövzu ilə əlaqədar olaraq ideyanın davamlı "ötürülməsi"nin daha hansı mənbərini önəmə gətirilməsinə dair mənbələrini araşdırın.
2. Coğrafiya elmi tədqiqatının praktiakasının qaydalarına uyğun olaraq ideyanın "ötürülməsi" məqsədində daha hansı kriteriyaları təqdim etmək imkanınız varmı? Əsaslandıra bilərsiniz?
3. Coğrafi ideyanın (biliyinin) təbiətində ötürmə qaydalarına münasibət bildirmək və buna arzu edirsiniz?

## 5.2. Coğrafi ideyanın ötürülmə sıraları

***"Elmin hüdudları üfüqü xatırladır: nə qədər çox yaxınlaşırsansa, o qədər uzağa çəkilir."***

***P.Buast***

Hər bir tədqiqat sahəsi müəyyən sistem informasiya ideyalarına malik olmalıdır. Tədqiqat prosesində buna riayət etmək tələb olunur. Ona görə ki, aparılan elmi işinin nəticələrinin daha konstriktiv və daha məqsədyönlü edir.

Coğrafi ideyanın müxtəlifliyi onun sistemli təhlili üçün keyfiyyət parametrinin müəyyən edilməsində iştirak etməsidir. Problematik məsələlərinin həlli üçün zəruri qaydalarından biri də = tədqiqat zamanı ideyanın ötürülmə sıralarının təyinin qaydalarının və istifadə edilməsinin yollarının hesaba alınmasıdır. Məsələnin elmi-metodiki mahiyyətinin ölçüsü ondan ibarətdir ki,yerinə yetirilən tədqiqatın mövzu ilə əlaqdar olaraq müvafiq ideyanın ötürülməsinin sıralarının mövcud formalarına aydınlığının gətirilməsidir. Elmi işinə uyğun gəlməyən bir ideya, başqa formada heç vaxt metodiki cəhətdən ifadə oluna bilməz.

**Haşiyə:** *Müxtəlif ideyalar və fikirlər müxtəlif formalarda ötürülə bilər, lakin hər bir elmi işinin öz daxili məzmunu və metodiki təhlilinin qaydaları var. Bunu nəzərə alaraq ideyanın bir sıra sistemlərinin öyrənilməsində: coğrafi tsikllərinin, funksional strukturun ərazi təşkilinin problemin dərki, proqnoz vermə qabiliyyəti və s. ötürülmə sıraları üsullarının dəyərlərinə baxmaq lazım gəlir.*

Coğrafiya elmi tədqiqatlarının fəlsəfəsində L.Zadə məntiqinin reallıqlarına söykənməsi daha çox praktiki effektinin yaradılmasına imkanlar yarada bilər. Xüsusən, coğrafi mühitinin yaratığı təbii-iqtisadi kompleksliyinin təsirinin qüvvəsi hər bir tədqiqatın dayanıqlı və şaxələnmiş struktur sahələrinin optimallığının səviyyəsinin təyinində L.Zadə məntiqi faydalıdır. Şaxələnmiş istehsal modellərinin qurulması və onların gerçəkliyi qeyri - səlis məntiq nəzəriyyəsində daha çox sərbəstlik nümayiş etdirir.

L.Zadə qeyri-səlis məntiq (uyuşmazlıq) ideyasının ötürülməsinin sıralarının qaydalarını ilk dəfə olaraq elmə gətirmişdir. Elmə gətirilmiş qaydalarına görə, ideya sıralarının çox mürəkkəb funksiallı sistemlərinin ötürülməsinin yüksək

dəqiqliklə ölçülməsi qeyri-mümkündür. Həddən artıq ümumi, qeyri-müəyyən xarakterə malik olan çoxfunksional sistemlərinin dəqiq metodlarla və ya mühakimələrlə, nə izah etmək, nə də əsaslandırdırmaq olmaz. Müasir dövrdə həm elmdə, həm də istehsal sahələrində qeyri-səlis məntiq nəzəriyyəsindən geniş miqyasda istifadə edilməsinin səbəbi məhz bununla izah olunur.

Qeyri-səlis məntiqli coğrafi sistemli mülahizələrinin yekunlaşması,onun elmlilik təhlilləri zamanı geniş miqyaslı imkanlarının yaranmasına səbəb ola bilir. Aparılan tədqiqat işlərində ideyanın ötürülmə sıralarının effektlilik yaratmağının imkanlarının dəqiqləşməsində qeyri-səlis məntiqin imkanları çoxfunkaional xarakterə malik olması ilə fərqlənir. Bununla yanaşı, onun elmlilik səviyyəsinin artırılmasında rasonallığının çoxxətli sıralarının da aktivləşməsinə təsir edir. Fikrimzcə, hər bir tədqiqatçının öz idrakına uyğunaşmış qeyri-səlis "coğrafi ideya sıraları" mövcuddur. Bu əsas şərtddir. Buna qadir olan hər bir tədqiqatçı daha elmli, daha məqsədyönlü ötürülənən ideyalarının əsasında əsərlərinin yaradılmasına qadir ola bilər.

▪ ***Məntiqi düşünmə:*** *Məlumdur ki, bir çox ideya mənbələrinin qovşağında aparılan tədqiqatlar çoxfunksionallığı ilə fərqlənir. Bu fərqlər tədqiqat ölçülərinə uyğun gəlməklə yanaşı, bir sıra hallarda isə=tədqiqatın metodiki ölçülərinin sıralarına = uyğun gəlməyə bilər. Metodiki ölçüyə uyğun gəlməyən tədqiqat işi, heç vaxt məntiqi və praktiki nəticəyə sahib ola bilməz.*

Çox vaxt coğrafi bilik əldə etmək üçün ölçüyə tabe olmayan ideya və fikirlərlə rastlaşan suallarının yaranması ilə üzləşə bilərik:

- bu halda həmin bilik ölçüsü = nə səviyyədə tədiqatın elmi-metodiki mədəniyyətinə uyğun gələ bilmək imkanına malik ola bilər?
- keyfiyyətcə nə dərəcədə doğrudur və ya doğru deyil?
- biliyin ötürülməsinin mühakiməsinin dinamikasına diqqət yetirmək vacib saymaq olarmı?
- məqsədə doğru konstruktiv yanaşmanın üstünlüyünün nə dərəcədə faydalılığının balansının təyin edilməsi tədqiqat üçün əhəmiyyət kəsb edə bilər?

Bu kimi suallarının mühakiməsinin çərçivəsində cavab verməklə müxtəlif variantlı metodiki qaydalarına yetirilməsinin önəminə xüsusi diqqətinin olduğu vacibdir. Sıralarının cavablarının önəmə gətirilməsinin aydınlığına dair bəzi yanaşmalarına münasibət bildirək.

Məntiqlə yanaşsaq, bir sıra sistemli ehtimallı ideyalarının tədbiqinin sıralarının kompleks təhlillərində elmi-metodiki işlərinin (mövzunun) həcmində xüsusi ölçülərə cavab verən ideya "hökmdarlıq" edir. Bunu duymaq, tədqiqata ötürmək çox dəyrəli yaradıcılığının birmənalı mənbədir. Unutmaq olmaz ki, ideyalar arasında bəzi hallarda zidiyyətli, qarşılıqlı və məntiqsiz əlaqələrinin fərqli cəhətlərinə də rast gəlinir.

Fikrimizcə, uğursuz elmi işlərinin yaranması tədqiqatcıda "ruhdan düşmə" sindromu yarana bilər. Çox vaxt uğursuz hesab edilən elmi işin,sonrakı dövrdə tədqiatçının özünə inamının nəticəsində dəyərli elmi tədqiqat sahəsinə çevrilməsinə səbəb ola bilir. Səbəb kimi, elmli mənbələrinin ötürülməsinin əsasında yarana bilən ideyadan düzgün istifadə edilməsidir. Məqsədli tərəf ondan ibarətdir ki, kompleks xarakterli təhlillərinin aparılmasına və fənlərarası əlaqələrinə söykənən önəmli məsələlərinə üstünlük verilməsinin hesabına inkişaf etdirilməsidir.

- ***Tədiqat üçün:*** *Yeni ideyalarının ötürülməsi tədqiqata sərbəst şəkildə daxil ola bilir və onun tamamlanmasında iştirak edir. Təhlil edilən ideya resurslarının istifadəsinin məzmunu tədbiqi xarakter daşımalıdır. Keyfiyyətcə funksional strukturlarının hərəkətinin gücünün aktivləşməsinə xidmət etməlidir.*

Fikrimizcə, ideyanın davranış qaydalarının rəqabət meyilli elmi problemlərinin həllinin yollarının təhlili üçün iki vacib təsirinin miqyası var. Birincisi, bu davranış coğrafi elmi resursunun tədqiqatın aparılması üçün müəyyən edilməsi; ikincisi isə təhlil zamanı elmi resursunun effektli ötürülməsinin təminatı.

Yuxarıdakı ehtimallarını nəzərə alaraq ideyanın ötürülmə sirası (F= dayanıqlı davranış) kimi baxıla bilməsi üçün aşağıdakı məntiqi hərəkətinin uyğunluğuna variantlarının seçilməsini (5.2.) önəmə gətirilir.

Ərazi-istehsal kompleksinin tsiklli ehtimalında mövzu ilə onun tədqiqat obyektinin arasındakı ideya sıralarının yaradılması obyektiv tamlığının formalaşması üçün stimul təşkil edir. Tamlığı əmələ gətirən coğrafi resursunun istifadə edilməsinin ideyası tsiklli inkişafına söykənir. Buda özlüyündə elmi işin praktiki göstəricilərinin əsasıdır.

Fikrimizcə, tsiklli sistem halında elmi işinin aparılması ilkin mənbə kimi, təklif edilən dayanıqlı ötürmə sıralarınının metodikasının məqsədinə uyğun qərar qəbul edilməlidir.




**5.2. İdeyanın ötürülmə sıraları (F= variantı)**

$F_0$ = Elmtutumlu və dayanıqlı mövzunun seçimi
$F_0^1$ = "Mövzu - tədqiqat obyekti"in dayanıqlı ideya əlaqəsi
$F_0^2$ = Resursun ideya təyini
$F_0^3$ = İdeyanın kompleks təhlilə ötürülməsi
$F_0^4$ = Dayanıqlı ideyanın ötürülməsi və s.

Dayanıqlı inkişafının ötürmə sıraları strateji, iqtisadi və sosial sistemli xarakterli olub, daima yeniləşməsi ilə seçilir

Coğrafiya elmi ideyanın ötürülmə seçiminin ehtimalı və onun obyektiv aləminin dərk edilməsinin varlığı ilə dinamikdir. Elmin metod və nəzəri baxışlarının ötürülməsinin dayanıqlı yanaşmalarının nəticələrinin sonrakı mərhələsi ərazi-istehsal kompleksinin yaranmasına potensial mühit yaradır və praktikasının həllində özünü göstərir.

- ***Məntiqli yanaşma**: Coğrafi ideyanın ötürülmə sıraları = özlüyündə müstəqil tədqiqat sahəsidir. Bu metodoloji anlayışdır. İdeyanın ötürümə sıralarını, həm də coğrafiya elminin tədqiqat obyekti kimi qəbul etmək imkanı da yaranır.*

XIX əsrdə təbiət və cəmiyyət elmlərində (o cümlədən coğrafiya elmində) ərazi-istehsal kompleks biliyiyinin, tədqiqatın metodoloji ideyanın uyğunluğunda faydalı məzmuna çevrilməsinə səbəb olmuşdur. Ərazi-istehsal kompleksinin yaranmasında iştirak edən (Kolosovski, İzard və b.) tədqiqatçılarının elmi təhlillərinin nəticəsində ümumi coğrafiya elminin inkişafı üçün dəyərli ideyaların ötürülmə variantlarından istifadə etməklə, coğrafi-praktiki istiqamətli əsərlərinin yaranmasına səbəb olmuşdur. Sonrakı dövrlərdə yaranan elmi və metodiki əsərlərinin əksəriyyəti yuxarıda göstərdiyimiz istiqamətlərinin üzərində qurulmuşdur.

# Xülasə

- İdeyanın ötürülməsinin sıraları coğrafiya elmi tədqiqatının metodiki və praktiki yolunun istiqamətləndirilmiş çox mühüm və müəyyənliyini özündə birləşdirən elmlilik seçimləri ilə bağlıdır.

- Effektiv təhlil zamanı ideyanın ötürülməsinin sıralarının müəyyənliyi mövzunun dayanıqlığının təminatını yaradır və onun önəmli coğrafi – praktiki seçimlərinin faydalığının artırılmasında iştirak edir.

- İdeyanın ötürülmə sıralarını ilk növbədə fərziyə kimi görünə bilər. Hətta bəzi coğrafi seçimlərdə bir az qeyri-müəyyənlik də ortaya çıxa bilər. Ancaq bu seçimlərin mükəmməl informasiyasının əsasında aparıldığını qəbul etdikdə ideyanın ötürülmə seçimləri dayanıqlı inkişafının əsas parametrlərindən biridir. Bu artıq fərziyə kimi görülmür.

- Coğrafi tədqiqatda ideyanın ötürmə sıralarını qəbul etməklə ərazi-istehsal kompleksinin yaradılmasının ilkin mənbəyidir. Bu o deməkdir ki, coğrafi strukturlarının öyrənilməsi və elmi təhlili kompleks xarakterlidir. Coğrafi seçiminin dayanıqlığının modelidir. Bu modelinin elmi-nəzəri təhlili elm sahiblərinin əsərlərində özünü göstərir.

- Təhlillər göstərir ki, ideyanın ötürmə sıraları: iqtisadi və sosial sistemli mövzularının daima yeniləşməsi üçün önəmli bir seçiminin yoludur. Cəmiyyətin ümumi tərəqqisi üçün məqsədli, proqnozlu tədqiqatının metodikasının coğrafi seçimidir.

**Praktiki düşünək:**

1. İdeyanın ötürülməsinə münasibətinizi bildirin. Onun coğrafiya elmində yaratdığı elmi seçimlərinə dair mənbələrinin məzmunu ilə yaxından tanış olun. Bu çox vacib bir məsələdir.
2. Coğrafiya elmi tədqiqat zamanı ideyanın ötürülmə sıralarına aid hansı istiqamətlərinə üstünlük veririrsiz? Təklif etdiyiniz məsələ ilə bağlı düşün və özünüzün düşüncə tərzinə uyğunlaşmağa çalış.
3. İdeyanın ötürülmə sıralarının elmi və praktiki təhlillərindən istifadə zamanı, variantlar üzrə aparılan tədqiatlarının sistemlərinə münasibət bildirməyin vacibdir. Bu zaman səndə yenilik hissinin meyilləri artar və müstəqil işləmə vərdişlərinin yaranmasına səbəb ola bilər.
4. Mövzu seçimində diqqətli ol. Çalış mövzu elmlilik xarakterli olsun. Belə olanda təhlil zamanı ideyanın ötürülməsi daha effektli və praktiki dəyərlərə malik ola bilər.

## 5.3. Asimmetrik statistik ötürmənin təhlili qaydaları

***"Tədqiqatçı üçün əsas sual onun tapdığı nəticələrin "təsadüfən" meydana gəlməsini, yoxsa onların həqiqətən nəsə məna kəsb etməsini aydınlaşdırmaqdan ötrü statistik əhəmiyyətlik konsepsiyasını mənimsəməlidir."***

**Ray.C.Feyr**

Asimmetrik statistik təhlil: elmi məqsədə çatmaq üçün kəmiyyətinin keyfiyyətə çevrilməsinin sıralarının ölçüsüdür. Fikrə uyğun gəlməyən statistik təhlillərinin qaydalarının qəbul edilmiş məqsədlərinin elmi-praktikası üçün heç vaxt səmərə verə bilməz.

Statistik[48] məlumatlarla öz fikrini izah edənlər çox vaxt bu və ya digər məsələnin önəmə gətirilməsində səhflərə yol verirlər. Ən çox iqtisadi sahələrdə, proqnozlarının, o cümlədən asimmetrik[49] təhlillərinin məqsədində özünü göstərir. Statistik təhlil məharətli tədqiqatçının apardığı məqsədyönlü araşdırmalarda fayda, bacarıqsız elm adamının təhlillərində isə ziyan verə bilər. Fikrimizcə, məntiqi statistik təhlil zamanı əldə edilən nəticələrinin elmi-praktiki faydalığınının müəyyəyənliyində asimmetrik yanaşma tərzi çox maraq (doğurur) dairəsinə malikdir.

▪ ***Haşiyə:*** *Coğrafi araşdırmaları üçün mühakimənin yürütmək məqsədində elmi işinin tələbinə uyğun statistik əhəmiyyətli irəli sürdüyü məntiqi informasiyaya yiyələnməsi vacibdir.*

Bir qayda olaraq, hipotezin[50] nəticəsinin əldə edilmə ehtimalının dəqiq statistik üsullarının nəzərə alınaraq hesablanır. Bu məsələyə baxmağın ümumi qaydası asimmetrik statistik yoxlanılmasının qaydasının əsasında alınan mənbələrinin ötürülməsinin nə dərəcədə mövzunun təsir dairəsinə effektli olmasından irəli gəlir.

Burada nə etdiyinizə diqqət yetirin. Hesablamağa çalışdığınız hər hansı təsi-

[48] Belə deyrlər ki, üç növ yalan mövcuddur: adi yalan, yamanlıq üçün yalan və statistika.
[49] Asimmetrik - əməliyyatın tərəfindən birinin əməliyyatla əlaqəli digər tərəfdə olmayan məlumatlara sahib olması.
[50] Təsirin olmaması fərziyyəsi boş hipotez adlanır.

rin mövcud olmadığını (sıfırdır) iddia etməklə başlamaq lazımdır. Maraq dairəsinə uyğun statistik təsirinin müəyyən təxmininin əldə etmək üçün verilən kəmiyyətlərinin toplaması və hesablaması tələb olunur. Əldə etdiyiniz müəyyən təxminin nəzərə alaraq həqiqi təsirinin sıfır olması ehtimalının hesablaması mümkündür.

Asimmetrik statistik fonunda təhlillərinin davam etsəniz, alınan keyfiyyət dəyərlərinin dəqiqliyin necə hesablandığına dair biliklərinizi artırmaq imkanı genişlənə bilər. Məsələyə dair asimmerik statistik tədqiqatınız üçün əhəmiyyətlidirmi? Cavab məlumdur. Həqiqi təsirin ideya istiqamətinə uyğun asimmetrik statistik proqramının qəbul edilməsinin qaydasını məqbul hesab edilə bilməsidir. Əslində, bu istiqamətdə iki məsələyə ehtiyac duyulur: proqramı qəbul edək və qəbul etməyək? Burada aparılan elmi işinin rasional məqsədi üçün statistik seçimnin yaratdığı hərəkət mexanizmini önəmə gətirmək vacib məsələdir. Bu vəziyyətdə statistik göstəricilərinin kompleksli emal edilməsinə ehtiyac duyulur.

Tədqiqatçı məsələyə qarşı öz iradəsinin (ideyasının) üstünlüklərini nəzərə alaraq, apardığı tədqiqatının məsəd və vəzifələrinin önəmi üçün qarşısında belə bir suala cavab verməlidir: asimmetrik statistik məlumatlar ötürülən ideyanın elmi işinin keyfiyyətinə təsir etmək imkanına nə dərəcədə malikdir? Bunu nəzərə alaraq aşağıdakı sxem üzrə sualının cavabını axtarmaq olar (5.3.).




***5.3. Asimmetrik statistik ideyanın ötürməsi (variant)***

Coğrafiya elmi sahələrinin öyrənilməsində statistik göstəricilərinin ötürülməsinin önəmi ondan ibarətdir ki, hər hansı vahidlərinin keyfiyyətcə davamlı inkişafının təmin edən müəyyən statistik elmi araşdırmalarına enerji verir, onu məhsuldar edir.

Təhlil edilən asimmetrik vahidlər və obyektlərin coğrafiyasının xarakterinin və ya fərqləndirici cəhətlərinin analitik statistik məntiqinin reallıqlarına söykənir. Statistik reallıqlarının üzərində aparılan elmi işlərinin səmərəliyi ilk növbədə dolğun məzmuna malik olan məqsədli mənbələrinin ötürülməsinin üzərində əsaslandırılmasının nəticələrinin məzmunu tədqiqatın keyfiyyətli parametrlərindən sayılır[51].

- ***Məntiqli düşünmə:*** *Asimmetrik statistik təhlilinin funksional strukturu iki mühüm: kəmiyyət və keyfiyyət təsnifatınının dialektikasında özünü göstərir. Kəmiyyət ifadəsinin təsnifatı çərçivəsində tədqiqata uyğun olaraq rəqəmlərdə ifadə edilən varintlarının (məsələn, hündürlük qurşaqlar üzrə temperaturun rəqəmlərlə dəyişilməsinin təhlili; istehsal strukturun xronologiyası və s.) asimmetrik səviyyə göstəricilərinə aydınlıq gətirilir. Keyfiyyət isə tədqiqatın xarakterinə uyğun olaraq asimmetrik statistik göstəricilərin coğrafi obyektinin effektliyi təyin olunur, onun ərazi təşkilinə təsir edən dinamikasını özündə əks etdirir.*

Coğrafiya elminin kompleks təhlilinin metodikasında bir sıra yanaşma,nəzəri biliklərinin tədbiqinin parametrlərinin variantlarının yaradıcılığının dövriyyəsinə daxil edilmişdir. Buraya daxildir təbii kompleksinin dialektik və davamlı inkişaf problemi; coğrafiya elminin nəzəri-metodiki qaydaları ilə konvergensiyası[52] və s. Konvergensiya = coğrafi asimmetrik statistik təhlilinin arasında kəmiyyət və keyfiyyətcə əlaqələrinin yaxınlaşmasında dinamiklilik yaradır və bir növ onun dinamikasının ”enerji” mənbəyidir. Dinamik enerji mənbəyindən hansı qaydalrala istifadə etmək olar? Sualına konvergensiya yanaşma metodikası cavab verə bilər. Bu ideyanın qəbul edilməsi tədqiqat işinin elmi-metodiki təhlili üçün yeni bir seçiminin əldə edilməsinrn məqsədlərindən biridir. Bunu nəzərə almağını məsləhət bilirik.

Coğrafiya elmi tədqiqatının konvergensiya önəminin əsasında ideyanın ötü-

---

[51] A.A.Qurbanzadə. Analitik coğrafiya. Bakı. 2018.

[52] Konvergensiya( ing., corporate bonds)=yaxınlaşma, statistik göstəricilərin dəyişilməsi, bir-birə yaxınlaşması və s. ifadəsidir.

rülməsi və rasional məzmuna çevrilməsində riyazi statistik qaydalarının mövqeyi və təsirinin gücü inkaredilməzdir. Təsir gücünün yaratdığı ərazi-istehsal kompleksinin dayanıqlığında daha effektli nəticələrinə malik olması ilə fərqlənir. Xüsusi ilə fiziki coğrafi, kartoqrafik, coğrafi iqtisadi təhlillərinin və s. komplekslərinin öyrəniləsində riyazi statistik ideyalarının ötürülməsi qaydaları geniş miqyas almasına səbəb olmuşdur.

▪ ***Önəmli qeyd****:Riyazi statistika elminin formalaşmasında ingilis elmi məktəbinin rolu və mövqeyi nəzəri cəlb edir. Karl Pirson riyazi statistika problemlərinə dair 400-dən artıq elm əsərlər çap etdirmişdir. Onun korrealyasiyanın nəzəri əsaslarına, alqoritma qərar qəbul etmə və s. elmi-metodoloji tədqiqatlarının əhəmiyyəti müasir dövrdə də geniş istifadə edilməsi daha önəmlidir.*

## Xülasə

- Asimmetrk statistik təhlil = aparılan elmi işinin kəmiyyət və keyfiyət parametrlərini müəyyən edir. Kəmiyyət ifadəsini özündə əks etdirən ideyanın ötürülməsi və tədbiqi keyfiyyət dəyərinin funksionallığını özündə əks etdirir.
- Keyfiyyət isə tədqiqatın xarakterinə uyğun olaraq asimmetrik statistik göstəricilərinin effektliyi təyin olunur, onun ərazi təşkilinə təsir edən dinamikasına "enerji" ötürür.
- Konvergensiya = coğrafi asimmetrik statistik təhlilinin arasında kəmiyyət və keyfiyyətcə əlaqələrinin yaxınlaşmasında əsas göstəricilərindən biridir. İlk növbədə dinamika yaradır. Tədqiqat prosesində ideyanın ötürülməsinin müvafiq statistik göstəricilərinin elmi əsaslarla təminatında iştirak edir.
- Coğrafiya elmində sistemli olaraq asimmetrik statistik təhlillərinin aparılmasında və o cümlədən, elmi-metodiki işlərinin praktiki həllində təklif edilən ideyalarının ötürülməsinin əhəmiyyətini nəzərə almaq lazımdır.
- Statistik reallıqlar üzərində aparılan elmi işlərinin səmərəliyi ilk növbədə dolğun məzmuna malik olmasını nəzərə alaraq, məqsədli ideyalarının ötürülməsinin üzərində əsaslandırılmasını məqsədəuyğundur.

**Praktiki düşünək:**

1. Assimetrik statistik təhlil zamanı sizi maraqlandıran cəhətlərindən istifadə etmək nə dərəcədə imkanınız ola bilər?
2. Asimmetrik statistik mənbələrinə ideyanın ötürülməsinə münasibətiniz? Müsbət və mənfi? Aydınlıq gətirin.

## 5.4. Qeyri-müəyyənlik: ideyanın ötürülmə seçimi

*"Qeyri-müəyyənlikdə ideyanın ötürülməsi arqumenti, tədqiqatın məntiqi funksiyasıdır."*

Qeyri-müəyyənlik və ideyanın ötürülməsinin seçiminin təyini tədqiqatın davamlı və xarakterik xüsusiyyətidir. Elmi əsaslarla düzgün məntiqi seçiminin zamanı ideyanın mənimsənilməsinin elmi-praktikasının əsas göstəricisidir.

Əvvəlki bölmələrdə coğrafiya elmi tədqiqatının əsas sahələrinin davamlı seçiminin nəticələrinin haqqında qıssa da olsa da müəyyən şərtlər daxilində münasibət bildirmişik. Bu şərtlərinin qəbul edilmiş coğrafi seçimlərinin çərçivəsindəki qeyri-müəyyənliyinin təsnifatı elmi-metodiki cəhətdən çox dəyərlidir. Elmi-metodiki mövzunun reallaşdırılmasında aparılan təhlilinin əsasında ideyanın ötürülməsininin qaydalarına uyğunlaşdırılması elmi işinin faydalığının gerçəkliyində mühüm möyqeyə malikdir.

Oxşar olaraq, tədqiqat sahəsi nə qədər ideyanın ötürülməsinin haqqındakı seçimin asılılığının müsbət və ya mənfi cəhətlərinin qaydalarının təyin edilməsinin imkanlarını əldə edə bilirik. Bununla yanaşı, əlbətdə bir çox hallarda coğrafi seçiminin qaydalarına münasibətdə qeyri-müəyyənlik halınının fərziyyə kimi də dərkinin qəbul edilməsinə dair fikirlər də mövcuddur.[53]

Siz öz tədqiqatınızda qeyri-müəyyən formaları,qaydalarının seçimini edə bilərsiniz. Əgər elmi işinizinin məqsəd və vəzifəsinin tələblərinin seçimində ideyanın ötürülmə qaydalarını mənimsəməsinə səy göstərə bilsən, o zaman qeyri-müəyyənliyinin önəminə sahib olmaq imkanını əldə edə bilərsiniz. Hətta bu seçimlər üçün çox vaxt qeyri-müəyyənlik qaydalarda ortaya çıxa biləcək ideyalarının praktika ilə əlaqələnirməsinə nail olmaq imkanına malik ola bilərsən. Ancaq bu seçimlərin informasiyasının təhlil edə bilsəniz, gələcək elmi işinizinin metodoloji aparatının nəticəsi yeni məzmuna çevrilə bilər.

- ***Öyrənmə məqsədi:*** *Bəzən tədqiqata dair informasiyanın toplanması zamanı olduğca məhdud məlumatlarının əsasında elmi-praktiki səviyyəli qərarlar verilir. Tədqiqat mövzusunun qəbul edilməsində qabaqcadan onun nəticələrinin alınmasının qaydalarının haqqında məlumatlarının yetərincə anlamaq bir o*

[53] Курбанзаде А.А. Анализ системы географических наук с розиции струкных уровней // сб. III Все.-союз. теор. географ. Киев. 1998.

*qədər də asan deyil. Əgər siz apardığınız tədqiqata dair geniş informasiyaya seçiminə sahibsinizsə, buna uyğun nəticəinin seçimini edirsinizsə, bunun hansının daha effektli olduğunu qabaqcadan dərk etməlisiniz. Belə bir yanaşma tərzi=ideyanın təhlilinin xarakterini, təsirinin miqyasının həlli yollarını əsaslandırmağa imkanlarının genişləndirilməsinə səbəb olur.*

Qeyri-müəyənlik halında ideyanın ötürülməsi ilk növbədə tədqiqatçı ehtiyac duyduğu aktual informasiyalarının yalnız bir neçəsinin əsasında qərarlar qəbul edə bilər. Bu halda işin davamlı inkişafına uyğun olaraq metodiki qaydalarından istifadə edilməsinin gerçəkliyini önəmə gətirilməsinin məqsədəuyğun sayılmalıdır.

Tədqiqatda qeyri-müəyyənlik fonunda gözlənilən nəticənin dəyər və gözlənilən fayda anlayışlarının ölçülərinin tsiklli davranışların diqqət yetirməli və buna uyğun dinamik əlaqəli olduğuna dair müəyyən bir fikrə gəlməlidir. Bu yanaşma tədqiatçı üçün çox önəmlidir.

Qeyri-müəyyənlik və ideyanın ötürülmə davranışlarının qaydalarında SWOT[54] təhlilinin çoxfunksiyalarının təşkilində özünü göstərir. Bu metod hər bir tədqiqat obyektinin qeyri-müəyyənlik və ideyanın fonunda seçim edilməsində, ya da probleminin müəyyən edilməsində istifadə edilir. Bu təhlilinin metodikasının məzmunu ilə onun əhatə dairəsinin arasındakı təyin edilən seçiminin mövqeyinin mənası cəhətindən tədqiqatlarının aparılmasında fəallıq göstərir. Müəyyən səviyyədə mövzunun tamlığının öyrənilməsinin imkanına aydınlıq gətirmək məqsədində bu göstəricilərinin yekun nöqtələrində yarana bilən hədəflərinin duyulması və ona münasibət bildirilməsi prakriki cəhətdən çox önəmlidir.Təhlil edilən ideyanın ötürülməsinin güçlü (Strengh) tərəflərinin mahiyyətinin dərk edilməsi və onun praktikası ölkənin strateji maraqları ilə üst-üstə düşməsi mühüm əhəmiyyət kəsb edir. Buraya daxil etmək olar: ötürülən ideyanın elmlilik kodları; qarşıya qoyulan məqsədin elmi-praktiki cəhətləri və onun proqnozları və s. Bu məsələ elmi tədqiqatının məqsədləri üçün çox vacibdir.

Coğrafi tədqiqatının qeyri-müəyyənlik səviyyəsində ideyanın ötürülməsinin SWOT təhlilində təbii kompleksinin, ərazi-istehsal strukturunun güclü və zəif tərəflərini müəyyən etməklə yanaşı, imkan və təhlükələrinə dair təklif edilən elmin yarada bilən praktikası üçün çox aktuallıq kəsb edir. Elmi işin coğrafi

[54] SWOT (ing. dilində) = S: Strenght – (güclü və üstün); W: Weakness – ( zəif ); O: Opportunity (fürsət); T: Threat (təhdid) təhlil forması kimi qəbul edilir.

keyfiyyət və kəmiyyət parametrlərinin xəritələşdirilməsində, onun daxili və xarici mühitinin potensial imkanlarının araşdırılmasının miqyasında ardıcıl olaraq dinamiklik yaradır.

Ümumiyyətlə, kompleks elmi-coğrafi tədqiqatının aparılmasında SWOT təhlilinin geniş informasiya mənbələrindən biri kimi mövzunun araşdırılması üçün effektlilik yarada bilən metodiki vasitədir. Bundan neçə və hansı məqsədlərinin təhlili üçün istifadə edilməsi, yaradıcı şəxsin elmlilik səviyyəsindən və gələcəyə dialektik baxışından asılıdır.

▪ ***Qeyd***: *İlk dəfə olaraq, bizim tərəfindən SWOT təhlilinin kompleks ərazi təşkilinin dayanılığını və təhlilinin qaydalarını coğrafiya elminə gətirilmişdir.*

SWOT təhlilinin coğrafi tədqiqat prosesində elmi-metodiki və tədbiqi sferasının mahiyyəti ondan ibarətdir ki, bunun vasitəsi ilə təqdim edilən elmi işinin güclü və zəif tərəflərinin müəyyən etmək, xarici çevrədən qaynaqlanan imkan və təhlükələrinin müəyyən edilməsində istifadə edilir. SWOT təhlili coğrafi tədqiqatlarının metodologiyasında istifadə edilməsi həm elmi, həm də praktiki cəhətdən düzgün yerinə yetirilməsi vacibdir və buna əməl olunmalıdır.

SWOT təhlilinin əsasında coğrafiya elmi informasiyanın yaratmaq və ideyanın ötürülməsinin əsasında müxtəlif səviyyəli mövzularının işləmçəsində istifadə edilməsi imkanları daha genişdir və həm də elmi cəhətdən faydalıdır. Qeyd etmək olar ki, müasir dövrün coğrafi elminin inkişafı üçün SWOT təhlilinin əsasında əsərlərinin yaranmasına tələbat artır.

▪ ***Davranış qaydası:*** *Qeyri-müəyənlik də aparılan təhlillərinin qaydası coğrafi tədqiqatlarının hər tərəfli metodoloji qaydalarına əsaslanır. Onun inkişafı üçün stimul yaradır və praktikasını təmin edir. Elmi-coğrafi tədqiqatlarda və məntiqi təhlillərinin aparılmasının praktikasında önəmlidir. Bunun metodiki imkanları çox genişdir və eləcə də daha effeklidir.*

İdeyanın ötürülməsinin praktikasında klasterial metodunun çoxşaxəli istiamətlərinin metodikası diqqəti cəlb edir. Burada təhlillərinin aparılmasının faktoruna qarşı tələbatlar daha çoxdur. Məntiqi təhlilin məzmununda çoxşaxəli faktor **{X}** əsasında coğrafi strukturunun inkişafının dinamikası **{D}** və ərazi təşkilinin **{G}** formalarının faktorları müəyyənləşir. Nəticə etibari ilə məqsədli olaraq əra-

zi-istehsal sahələrinin tədqiqat aparatının optimal variantlarının müəyyən ehtimallığı üçün klaster metodunun mövqeyini inkar edə bilmərik. Bu məqsədlə variant kimi aşağıdakı formulanı verə bilərik:

$$X \rightarrow D \ \& \ G$$

Coğrafiya elminin tədbiqi sahəsi sayılan təbii komplekslərinin "məhsuldarlığı"nın nəticəsi baxımından çoxşaxəli formula daha optimal məzmununa çevrilir. Müasir dövrdə tədqiqatın nəzəri-metodologiyasının praktikasında bu önəmin xarakteri dəyişilmiş, yeni məzmunlu elmi tədiqatçılar üçün rasional çağrışlar irəli sürülmüşdür. Buraya daxildir:

- cəmiyyətin dayanıqlı inkişafının statusu;
- istehsal strukturunun rasional ərazi təşkilinin innovativ sxemlərinin yaradılması;
- informasiya sisteminin praktiki əsaslarla təhlili;
- resurslarının kompleks və tsiklli istifadə edilməsi və s.

Azərbaycanın gələcək inkişafının coğrafiyasına dair "Strateji Yol Xəritəsi"[55]nin həyata keçirilməsinə başlanmışdır. Yol xəritəsinin əsas strateji məqsədi qloballaşma mühitinin tələblərinə cavab verən və ölkənin iqtisadi-sosial inkişafının rəqabətqabiliyyətinin artırılması, yeni tipli modellərinin qurulması və onun gələcək durumu üçün elmi-praktiki texnologiyalarının tədbiqinə yönəldilən siyasətindən ibarətdir.

Son dövrlərdə qlobal mühitə uyğunlaşma siyasəti aktivləşmiş, iqtisadi inkişafın modelnin səviyyəsində keyfiyyət və kəmiyyət dəyişkənliyinin yeni formaya çevrilməsinə yönəldilən tədqiqatlarına diqqətinin artırılmasına səbəb olmuşdur. Bu səbəbdən də yaxın gələcəkdə Azərbaycanın Qərb modelinə uyğun inkişaf etməsinə, istehsal sahələrinin diversifikasiyasının iqtisadi siyasətinin coğrafiyasının yaranmasına səbəb olacaqdır.

Klassik model formalarının nəzəri baxışlarının mənbəyi qeyri-müəyyənlik ideyalarının ötürülməsinin fərqli münasibətlərinin üzərində qurulmasına dair meyllər üstünlük təşkil etməsinə əsaslanırdı. Sonrkı dövrlədə isə bu problemə

[55]Azərbaycan Respublikası Prezdentinin 2016-cı il 16 mart tarixli Sərancamı ilə təsdiq edilmişdir.

münasibət dəyişərək, cəmiyyətin davamlı model formalarının fəlsəfəsinin xarakterində yeni məzmununa çevrilmişdir.

Model formasının fəlsəfəsində S.M.Lipretin tədqiqatlarının mühüm mövqeyi nəzəri cəlb edir.[56] Lipretin düşüncə tərzində modelləşmə ölkənin iqtisadi-siyasi və sosial nəticələrinin pozitiv dəyişkənlikləri üçün reallıqlarının tərkib hissəsidir. Fikrimizcə, model forması = ideyanın ötürülməsinin elmi-metodiki toplusunda coğrafiya elminin varlığının praktikasını özündə birləşdirməsidir.

## Xülasə

- Qeyri-müəyyənlinin obyektində ideyanın ötürülməsi həm siyasi, iqtisadi-sosial və həm də coğrafiya elmi tədqiqat sahələrini özündə ehtiva edir.

- Aparılan araşdırmalara kompleks yanaşsaq, məntiqi nəticə onunla ölçülür ki, ideyanın ötürülməsinin ifadəsi: cəmiyyətin dayanıqlı inkişafının ideya istiqamətinin "hərəkətə" gətirilməsi kimi dərk edilməlidir.

- Coğrafiya elminin tədbiqi sahəsi sayılan təbii komplekslərinin "məhsuldarlığı" dərk edilən ideyanın çoxşaxəli optimal məzmunu ilə əlaqəlidir. Müasir dövrdə tədqiqatın nəzəri-metodologiyasının praktikasında bu önəmin xarakteri dəyişilmiş, yeni məzmunlu elmi tədiqatçılar üçün rasional çağrışlarının irəli sürülməsi ilə fərqlərinin yaranmasına səbəb olur.

- Qeyri-müəyyənlikdə ideyanın ötürülməsinin qaydasında texnoloji seçimlərinin rolu və mövqeyi inkar edilməzdir. Texnoloji seçim tədqiqatın məhsuldarlığını artırır və onu tamamlayır.

**Praktiki düşünək:**

1. Elmi ideyalarının ötürülməsinin meyilləri barəsində yeni fikirlər haqqında düşünün.
2. Bir çox texnologiyalarının tədbiqi qeyri-müəyyənlik ideyalarının ötürülüməsi, ilk növbədə coğrafi tədqiqatının optimal variantları üçün məqbul sayılır. Niyə?

---

[56] Lipret S.M. Some Social Requisites of Political Science Review 53, no.1,1959, pp. 69-105.

# ALTINCI FƏSİL

## Kreativ işləmə kodunun mənbələri haqqında

**Fəslin icmalı və tədqiqat məqsədləri:**

**6.1. Kreativ işləmə kodunun seçimi**
Ümumi inkişafın yeni sahəsi sayılan kreativ işləmə kodunun aparılan tədqiqatlarının effektliyinə dair mülahizələrə yeni prizmadan seçim edilmişdir.

**6.2. Kreativ işləmə kodun təklif qaydaları**
İnkişafın müasir mərhələsində bir çox araşdırrmalarda kreativ işləmə kodunun təklif qaydaları ilə bağlı mülahizələrinə üstünlük verilir.

**6.3. Kreativ işləmə kodun davamlılığının tendensiyası**
Müəyyən zaman kəsiyində "Tədqiqat & Kreativ" işləmə kontekstinin tendensiyasına dair təhlilləri aparılmışdır.

**6.4. Kreativ elmi təhlilinin qaydası**
Kreativ təhlil qaydası haqqında iqtisadi-sosial və siyasi inkişafının elmi mənbələrində irəli sürülən qaydalarına dair təkliflər verilmişdir.

**6.5. "Elmi kreativ dili" haqqında**
Tədqiqatın gedişində"elmi kreativ dili"nin coğrafi qanunlarının istifadə edilməsi haqqında məlumtlar verilir.

**6.6. Kreativ ideyanın texnoloji tərəqqisinə baxış**
Elmi mənbəlrdə kreativ ideyanın texnoloji tərəqqinin genetik anlayışına dair fikirlərə aydınlıq gətirilir. Tədqiqat prosesi üçün onun mövqeyi və əhəmiyyətinə aid mənbələrinin əsaslarına diqqət yetirilir.

## 6.1. Kreativ işləmə kodunun seçimi

***"Talantlı insan elmsiz keçinə bilər, lakin alim talantsız keçinə bilməz."***

**T.Kapanella**

Kreativ işləmə – məqsədli inkişaf strategiyasının dayanıqlı köklənməsinin ifadəsini özündə birləşdirir.

Təklif etdiyimiz bölmədə coğrafi biliklərin "kreativ işləmə kodu"nın (KİK) metodikasının seçiminin haqqındakı biliklərinə aydınlıq gətirilməsindən ibarətdir. Biliklərinin mənimsənilməsinin kontekstində, ümumi kreativ kodlarının müəyyən edilməsi və yanaşmalarına aid mənbələrinə üstünlük verilmişdir. Müzakirədə müəyyən kreativ resurslarının işləyib-işləməməsinin ən yaxşı variantlarından necə istifadə edilməsinin bəzi metodoloji məsələlərinə diqqət yetirilmişdir.

- ***Haşiyə:*** *Kreativ coğrafi elmi bilik resurslarına dair məlumatlarının toplanması və realiza edilməsi XVIII əsrin axırı və XIX əsrin əvvəllərindən başlayaraq aparılan elmi işlərinin əsas məqsəd və vəzifələrindən biri olmuşdur. Bu ilk növbədə inkişaf etmiş ölkələrinin coğrafiya elmi məktəblərində formalaşmış və elmi biliklərinin əsasında öz tədbiqini tapmışdır.*

II Dünya müharibəsindən sonra qloballaşan geopolitiki tədqiqatlarının əsasında iqtisadi-sosial problemlərinə olan diqqətinin artmasına dair əsərlərinin meydana gəlməsinə və diqqət mərkəzinə cevrilməsinə səbəb olmuşdur. Bu dövrlərinin strateji inkişafının yeni sahəsi = kreativ inkişaf = yüksələn xəttlə davam etməsi elm sahiblərinənin əsərlərində müzakirə obyekti olmuşdur. Xüsusi ilə elmi işlərinin proqnozlaşması, coğrafi informasiya və s. problemlərinin həyata keçirilməsində tədqiqatcılar üçün metodiki sıcrayış istiqamətinin əsas önəminə çevrilmişdir.

- ***Məntiqi yanaşma:*** *elmin kreativ kodlarına aid olan idealogiyasında əsas məqsəd və onun doğru məna ifadəsinin ümumi məsələlərlə deyil, konstruktiv faktlarına, əlaqəli təhlillərinə üstünlük verilməsidir. Kreativ coğrafiya elminin inkişafına və onun metodoloji istiqamətlərinə doğru tədqiqat işlərinin yerinə yetirilməsi elm sahiblərinin diqqət mərkəzində olması bu səbəbdən çox önəmli olmuşdur.*

Coğrafiya elminin metodoloji istiqamətinin yeni sahəsi sayılan kreativ seçiminin işləmə kodunun təyini və gerçəkliyi strateji məqsədinə xidmət edir və onun tədbiqinin ərazi kompleksinin dayanıqlığını önəmə gətirir. Bunu nəzərə alaraq, sadəcə olaraq aparılan elmi işinin kreativ kodlarından asılılığına bir neçə suallara sorğusu meydana çıxır:

- ✓ niyə bəzi tədqiqat sahələrində (ölkələrdə) kretiv kodlarının tədbiqi yüksək, digərlərində isə aşağıdır?
- ✓ əgər elm sahibləri tədqiqatın kompleks xarakteri üçün kreativ işləmə kodunun seçiminin dərkini qəbul edirsə, o, zaman dayanıqlı tərəqqiyə nail olmaq mümkünlüyünü nə ilə izah edərsiniz?
- ✓ kreativ inkişafın aşağı səviyyətə olan tədqiqatlarla texnologiyaların yaradılması üçün ölkənin strategiyasını hazırlamaq imkanları nə qədər yüksələ bilər?

Məntiqi baxımından bu tipli suallarının cavablandırılması və konstruktiv müzakirə obyekt kimi seçilməsi heçdə sadə bir məsələ deyildir. Burada hansı sual elmi işləri üçün daha münasib olması ilə bağlıdır. Bu bağlılıq bir sıra elmlilik konturlarına əsaslanan, kreativ resurs potensialından maksimum istifadə edilə bilən mövzularının seçimindən çox aslıdır. Digər bir tərəfdən isə coğrafi tədbiqinin konturlarına söykənən konstruktiv metodlarının seçimi bununla əlaqəlidir.

▪ ***Metodiki yanaşma**: "Kreativ işləmə kodun"un metodikasında tədqiqatın optimallıq səviyyəsi, təhlilinin texnologiyası, kompleks yönümlü strukturun yaranması, məntiqi nəticələrinin aparatı və s. diqqət mərkəzində olmalıdır. Kreativ metodiki aparatın=yeni, son dərəcə strateji və dəyərli "insanın məntiqi resurs"un imkanlarını və dialektik əlaqələrini özündə birləşdirilməsi ilə fərqlənir.*

Kreativ işləmə kodunun elmi-tədbiqinin texnologiyası ilk növbədə innovativ məqsədli makroiqtisadi sahələrində kompleksli istifadəsində üstünlük qazanır. Bu sahələr elmtutumlu olduğu üçün inkişaf etmiş ölkələrinin strategiyasında əsas kompleksli məqsəd kimi istifadə edilir.[57]

**Düşünmə dairəsi:** Fikrimizcə, kreativ işləmə kodun metodiki aparatı = innovativ, son dərəcə strateji və dəyərli "düşünən beyn"in elmi məhsulu kimi qəbul etmək ifadəsini özündə birləşdir.

---

[57] Qurbanzadə A.A. Dialektik coğrafiya. Bakı, 2017.

Coğrafiya elminin öyrənilən sahələrinin müxtəlif olmasına baxmayaraq kreativ işləmə kodunun seçiminin çərçivəsində eyniliklərinin məqsədləri müşahidə olunur. Deməк olar ki, coğrafi resurs potensialının öyrənilməsində kreativ işləmə kodunun seçiminin qıtlığı var. Elmin inkişafı və onun təhsil sistemində coğrafi biliyin kreativ imkanlarının arasında qeyri-müəyyənliklərinin olmasının haqqında da diqqəti çəkir.

Təhlil edilən mövzuya uyğun olaraq dayanıqlı iqtisadi-sosial inkişafın tamlığının yaradan kreativ işləmə kodlarının metodikasının üstünlükləri çoxməzmunludur. Dayanıqlı sferanın maddi kibernetik sisteminin əmələ gəlməsinin dinamikası üçün aşağıdakı formula ilə ilə kreativ seçimin kodlarına dair məlumatı göstərə bilərik.

$$\mathbf{G}_y = \{\mathbf{G}_{ay}\} \leftrightarrow \{\mathbf{G}_{fy}\} \leftrightarrow \{G_{ky}\}$$ burada:

$G_y$ - dayanıqlı inkişaf sferası;
$\{\mathbf{G}_{ay}\}$= kreativ seçim kodları;
$\{\mathbf{G}_{fy}\}$ = kapital yığımı;
$\{G_{ky}\}$= xammal seçimi.
$\mathbf{G}_{ay}$; $\mathbf{G}_{fy}$ və $G_{ky}$ =dayanıqlı sferanın fəallığının göstəriciləridir.

Bu fəallığın göstəriciləri = coğrafi iqtisadi strukturlarının və eləcə təbii komplekslərinin formalaşmasında, ümumi dialektikasında və informasiyalarının ötürülməsində iştirak edir.

Təhlilinə əsasən $\{\mathbf{G}_{ay}, \mathbf{G}_{fy}, G_{ky}\}$ coğrafi iqtisadi-sosial sferasının dayanıqlığının təminatı kimi, differensial çöxfunksional tsikllərinin ərazi təşkilində fəallığının göstəriciləri daha effektlilik yarada bilir. Buraya daxildir: kreativ resursdan başlanan ərazi-istehsal komplekslərinin formalaşmasının bərabərliyi; ilk növbədə kapital, xammal resurs təminatının təsiri ilə tamamlanır. Resursun keyfiyyət və kəmiyyət potensialı, praktiki olaraq,məqsədli ritmik modellərinin qurulması ilə öz yaradıcı funksiyasının səviyyəsinin məna ifadəsini genişləndirir.

● ***Diqqət yetirək:*** *İnkişaf üçün kapital yığımının tələbində kreativ işləmə kodlarının mövqeyi inkar edilməzdir. Bu hal inkişaf etməkdə olan (yoxsul ölkələr) regionlar üçün çox çətin başa gəlir. İlk növbədə bu özünü təhsil sistemində daha çox diqqəti cəlb edir. Onlar bəzən "çıxılmaz təhsil dairəsi"nə daxil olurlar. Məlumdur ki, investisiya olmadan kapital ehtiyatı böyümür, gəlir aşağı*

*səviy yədə qalır və s. Nəticədə isə, "Çıxılmaz təhsil dairəsi" öz-özünü davam etdirmək çevrəsinə çevrilir.*

Viyam Esterli (ABŞ) özünün "Böyümə üçün fürsətlər" kitabında taktiki olaraq kreativ işləmə seçiminin inkişaf etməkdə olan ölkələr üçün tam bir hal olduğunu iddia edir.

Kreativ işləmə kodunun seçiminin dəyərləndirən ölkələrinin kompleks iqtisadi artımının yüksək olmasının səbəbindən dayanıqlı inkişafının səviyyəsinin keyfiyyətli göstəriciləri yüksək olur. Qeyd etmək olar ki, keyfiyyət göstəricilərinin tamlığı ilk növbədə iqtisadi artımının fonunda aparılan elmi tədqiqatlarının (dəyərlərinin) praktika ilə bağlı olmasıdır. Bu bağlılıq elmi əsaslarla şaxələnmiş ərazi-istehsal kompleksinin təşkli üçün əsaslanmış iqtisadi mənbədir.

## Xülasə

- İqtisadi və sosial inkişafının təhlilinin miqyasında kreativ işləmə kodunun təyini ümumi halda olduqca fərqlidir.
- Kreativ seçim ilk növbədə elm tutumlu məhsul istehsalında dəyərlidir. Müəyyən olunmuşdur ki,1 kq elmtutumlu məhsulun dəyəri ≈ 65-70 ton neftin qiymətinə bərabərdir.
- BMT Minilliyin İnkişaf Məqsədlərində kreativ seçiminin müəyyənliyi haqqında tövsiyyələr irəli sürülmüşdür. Buraya daxildir: elmi biliyin resurs imkanları, elm tuıtumlu istehsal sahələrinin yaradılması, dayanıqlı inkişaf bərabərliyi və s..
- Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrinin iqtisadi və siyasi sisteminin dayanıqlı inkişafı kreativ resurslarının potensial imkanlarının üzərində qurulmuşdur. Bunu nəzərə alaraq, tədqiqat zamanı bu istiqamət üzərində təhlillərinin aparılması mövzunun keyfiyyətinin artırmağının imkanına malik olur.
- Məntiqi olaraq, coğrafi araşdırmalarının nisbətlərində kreativ yönümlü məsələlərinin təhlil edilməsinə dair az saylı elmi işlər var. Bunun qarşısının alınması üçün elm tutumlu və raqabətədavamlı seçiminin genişləndirilməsinin məqsədinə nail olmağını məqsədəuyğun sayılır.

- Kreativ işləmə kodunun işləmə seçiminin məqsədində iqtisadi-starateji istiqamətli kompleks strukturunun yaradılmasının reallıqları durur. Elmtutumlu iqtisadi sturuktununun kompleks ərazi təşkili və onun yaratdığı potensial mühit varlı ölkələrinin coğrafi tədqiqat işlərinin əsas göstəricilərindən biridir. Tədqiqat zamanı bu məna ifadəni dərk etməli və buna uyğun təhlillərini aparmasını məsləhət görürəm.

- Hər bir ölkələrin potensialının səviyyəsinin təyinində kreativ kodlarının nəzərə alınması mühüm şərtdir. Bu ilk növbədə iqtisadi-strateji sahələrinin yaradılması, şaxələnmiş ərazi-istehsal kompleksinin təşkili üçün əsas elmi-metodiki mənbədir.

- Kreativ resursdan başlanan kəmiyyət və keyfiyyət potensialı, praktiki olaraq ritmik, dayanıqlı struktur modellərinin qurulmasında və onun elmliliyində öz ifadəsini tapır.

- Kreativ işləmə koduna söykənən elmi-metodiki əsərlər davamlı olaraq elm sahibləri tərəfindən diqqət mərkəzinə çevrilir.

**Praktiki düşünək:**

1. Kreativ işləmə kodunnun iqtisadi artımla əlaqəsinin qrafikini qura bilərzinizmin?
2. Kreativ yanaşma tərzi vasitəsi ilə iqtisadi artımla əlaqəsini nə ilə izah etmək olar?
3. Elmtutumlu iqtisadi-sosial sahələrinin modelini qurmaq üçün coğrafi və iqtisadi faktorlarını təyin edin.
4. Kreativ işləmə kodunun strategiyası haqqında ətraflı düşün.

## 6.2. Kreativ işləmə kodunun təklif qaydaları

***"Kreativ işləmə kodun yaratdığı reallığının önündə tədiqiqatın ümumi məqsədini hərəkətə gətirir."***

Kreativ işləmə kodunun təklif qaydalarının düşüncə tərzi =tədqiqatla birgə hərəkət edir, ümumi məqsəd güdür və başlanğıc nöqtələrinin dərkini özündə birləşdirir.

Tədqiqatın yaradıcılığının təhlilinə doğru gedən yolun təyini heç də sadə bir seçim deyil. A.X.Mirzəcanzadənin dediyi kimi: "Elmi tədqiqat işi xüsusi haldan başlayır və lazım olsa, bu xüsusi hallardan daha ümumi hadisələrə keçir"[58].

Elmi işinin məzmununa uyğun olaraq kreativ işləmə kodunun qaydalarının mənimsənilməsi, əsaslandırmış metodlarının köməyi ilə araşdırılması və yeni biliklərinin əldə edilməsinin ilkin məqsədidir. Aparılan elmi işinin davamlı işləmə funksionallığının təyinin qaydaları tədqiqatçıda yeni yaradıcılıq meyillinin (kreativ meyilli) artırılmasında fəallıq göstərir.

Struktur sahələrinin kompleks araşdırılması üçün kreativ işləmə kodlarının yaradıcı elm sahibləri üçün "açar" ehtimalında özünü göstərir. Xüsusi ilə doktorantura pilləsində coğrafiya elmi araşdırmalarında kreativ işləmə qaydalarının istifadə edilməsi daha çox iqtisadi və siyasi sahələrinin aktual təhlilinin qüvvəsinə çevrilir. Aktuallığın miqyası üzrə əsasən işləmə funksional kodunun qaydalarının nə dərəcədə mənimsənilməsi və təhlillərinin aparılmasından çox asılıdır (6.2).




***6.3. Kreativ kodunun funksional [ $R_0$] işləmə qaydaları***

[58] A.X.Mirzəcanzadə. İxtisasa giriş. Bakı, 1990. s.183.

$R^1_0$ = tədqiqatın coğrafi elmi intellekti;
$R_0^2$= tədqiqatın kreativ "coğrafi dili";
$R_0^3$ = işləmə metodikası;
$R_0^4$ = resurs səfərbərliyi.
$R_0^5$ =qəbul etmə (coğrafi diffuziya).
$R_0^6$ = coğrafi elmi tədqiqatın "məhsulu"

Müəyyən bir məsələnin həlli yolunda kreativ coğrafi elmi metodlarına əsaslanması və onun təqdim edilən mövzu ilə əlaqələndirilməsinə xüsusi diqqət tələb edir. Dissertasiya və digər yekun elmi işlərinin kompleks yaradıcılıqla yerinə yetirilməsində digər metodiki qayadalrla yanaşı,coğrafi yeniliyinə "nəfəs" verən kreativ işləmə qaydalarının təsir dairəsinin mövqeyi və rolu inkaredilməzdir.

Təhlil edilən mövzunun nəzdində kreativ məhsul seçiminin yarada bilmələrinin ətrafında da bir sıra sualları meydana çıxır. Hansı yolla buna nail olmaq mümkündür? Vaxti ilə ( ≈ XIX əsrin əvvəlində) Yaponiyada hər nəfərə düşən insan kapitalı bu günün inkişaf etməkdə olan ölkələrinin bir çoxundan xeyli aşağı göstəricilərinə malik olmuşdur. Lakin bu gün Yaponiya elmi cəhətdən varlı ölkələrinin arasında hər nəfərə görə düşən insan kapitalı sahədə çox üstünlüyə malikdir. Hər nəfərə görə düşən aşağı insan kapital səviyyəsinə malik olan ölkələr arasında, bəziləri = Çin kimi son 20-25 illərdə sürətlə inkişaf etdiyi halda = digər ölkələr isə bu sahədə geridə qalır.

İnkişafın müasir mərhələsində bir çox araşırmalarda kreativ işləmə kodunun təklifləri üzrə məhsuldar investisiya olan təşviqləri ilə bağlı mülahizələrə üstünlük verilir. Məsələn, hazırda ABŞ-ın siyasi və iqtisadi inkişafının dairəsinin əsasında digər sahələrlə yanaşı, kreativ seçiminin praktiki və optimallığında fərqlənən tərəqqisinin strategiyası ilə ölçülür.

▪ ***Seçim:*** *tədqiqatın qaydasına uyğun hərəkət etməsi = həm ilk növbədə elmi-praktiki dəyərlərə söykənən = kreativ seçimin optimallığı ideyalara üstünlük verməsi ilə yanaşı,həm də mövzunun yarada biləcək elmliyinin faydalığını nəzərə almaq lazımdır. Bu seçim mövzunun tamamilə mənimsənilməsinə doğru daha yüksək faktını ifadə edir. Bu seçimə xususi diqqət yetirin.*

Kreativ seçimin təklif qaydalarının səbəblərindən asılı olmayaraq, məhsuldar kreativ resurslarından kompleks istifadə edilməsinə, onun praktiki yönümünə diqqəti artırmağını məslət bilik. Bu istiqamətli araşdırılan mövzunun məqsədinə və onun praktikasına əsaslanır. Coğrafi təhlilinin yeniləşməsi və dəyərləndirilməsi yuxarıda qeyd etdiyimiz qanunauyğunluqla əlaqələndirilir.

Kreativ məhsulunun optimallığına uyğun araşdırmalarının aparılmasını təmin edən hansı məsələlərə daiqqət yetirmək olar? Bu suala cavab olaraq: tədqiqatcının coğrafi bilik sahibinə malik olması və kreativ düşüncəsinin elmi tədqiqat işlərinə tədbiqinin olması.

***Önəmli məsələ:*** *Bu günün aparıcı coğrafi tədqiqatlarının seçimində kreativ təhlilinin metodikasının üstünlüklüklərinə qayğını artırmağı və onun təşkili problemlərinin reallığa çevrilməsinin qaydaları durmalıdır. Əks halda aparılan tədqiqat işlərininin planında məqsəduyğun olmayan (təhlükəli), elmin nufuzunu aşağı salan mövzularının təsir dairəsi genişlənə bilər.*

Bu elmi tədqiqatın effektliyi üçün çox mühüm təhlükələrinin yaranmasına səbəb ola bilər. Nəticədə isə elmi işçinin yaradıcılıq gücünü zəiflədər. A.X.Mirzəcanzadənin fikrinə görə "Elmdə seçmə çox vacibdir. Alim, faktlar düzgün gəlmədikdə ən sevimli nəzəriyyəni belə məmuniyyətlə dəyişməyi, hədda rədd etməyi bacarmalıdır".

Yuxarıda göstərdiyimiz kimi, kreativ resursun tələbinə cavab verən savadlılıq dərəcəsinin optimal variantlarına sahib olmağına döğru hərəkət lazımdır. Variantın əsas məqsədi təhsil və təliminin yüksək səviyyəyə doğru yönəltmək hesabına elm işində inam yaratmağı ön plana çəkilməsi mühüm məsələdir. Bununla əlaqədar, mövzunun tələblərinə uyğunlaşmalı, onun mümkün variantlarının araşdırılmasının məqsədli təhsil, həm bilik sahibi olmaq, həmdə elmi tədqiqatın yaratdığı faydalılığından istifadə edilməsinin imkanına malik olur. Kreativ resurslarının elmi yüksəlişinin inamına görə, bir çox elmi mərkəzlərində təhsilin texnologiyasının yüksək xətlə yüksəlməsi dövlət (ABŞ, Yaponiya, Almaniya və s.) xərcləmələrinin ən mühüm kateqoriyasına çevrilib. Kreativlik səviyyəsinin artım tempinə uyğun olaraq ÜDM-nə texnologiyanın təsirinin dərəcəsidə də bununla ölçülür.

Maliyyə kapitalı kimi,kreativ (insan kapitalı) kapitalı da ölkənin iqtisadi-siyasi dayanıqlığının təminatında ən yüksək və ən təhlükəsizlik gəlir mənbəyini axtarır. Bu dialektik mənimsəmək məqsədi ilə inkişaf etməkdə olan ölkələrindən minlərlə tələbə hər il kollec və universitetlərindən (ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya və s.) məzun olur. Məzun olduğdan sonra,bu tələbələr (həm də bizim ölkədə) çətin seçimlərlə üzləşirlər. Məsələn, ABŞ-da qalıb yüksək əməkhaqqı qazanmaq, yoxsa öz ölkəsinə qayıdıb daha aşağı əməkhaqqı təklif edilən işi qəbul etmək. Hansını qəbul edək? Bu suala cavab kimi çoxu

ABŞ-da qalır və s. Əsas məqsəddə isə bu tip ölkələr beyin axının cazibə qüvvəsinə çevrilir.

## Xülasə

- Araşdırılan probleminin məqsədinə uyğun olaraq bir sıra metodiki yanaşmalarla yanaş, kreativ işləmə kodunun qaydalarına, təhlillərinə aydınlıq gətirməklə ümumi nəticələrə nail olmaq imkanı yaranır.

- Kreativ işləmənin köməkliyi ilə yeni rasional biliklərinin qazanmaq imkanı artır, yeni yaradıcılıq meyillərinin davamlığının artmasına səbəb olur. Xüsusi ilə kompleks xarakterli tədqiqat işlərində özünü göstərir.

- Kreativ işləmə funksiyonal kodunun mənimsənilməsi qaydaları coğrafi tədqiqatlar üçün ona görə faydalıdır ki, problemli araşırmalarda təklif edilən metodiki variantlarda dayanıqlı mühit yaradır və bu da məsələ ilə bağlı mülahizələrlə üst-üstə düşür.

- Coğrafiya elmində kreativ kodunun seçimi çox mühüm ideya mənbəyidir. İdeya mənbəyinin əsasında kompleks xarakterli elmi işlərinin yerinə yetirilməsi kreativ seçiminin mövcudluğu ilə bağlıdır. Bu bağlılıq sonrakı mərhələdə mövzunun məqsədini və metodiki qaydalarını aktivləşdirir. Praktiki istiqamətini reallaşdırır.

**Praktiki düşünək:**

1. Elmi yaradıcılıqda kreativ işləmə kodunun seçimi nə üçün sadə bir yanaşma deyil? Bu haqda düşünün və təhlil edin. Bu vacibdir.
2. Kreativ "məhsul" ifadəsinə münasibət bildirin. Elmdə bunun mövqeyini təyin etmək imkanının uyğun variantları seçin.

## 6.3. Kreativ işləmə kodun davamlılığının tendensiyası

***"Hər bir tədqiqatçı müəyyən "sərvətələr sisteminə" malik olmalıdır və buna riayət olunması həmin tədqiqatın daha mənalı və daha məqsədyönlü edir."***

**A.X. Mirzəcanzadə**

Kreativ işləmə tendensiyası = məqsədli kompleks praktiki elmi işinin metodiki təlimlərinin və nəticələrinin davamlılığına əsaslanır. Bu əsas konstruktiv mövqe tutması ilə fərqlənir.

XIX əsrin əvvələrindən başlayaraq müxtəlif elmi sahələrinin (xüsusən, riyaziyyat, fizika, biologiya və s.) mənbələrində kreativ yönümlü metodikasına dair kompleks tədqiqat işlərinə rast gəlinir. Bu işlər elmin yeni istiqamətli və yeni metodiki aparatınının yaranmasına səbəb olmuşdur.[59] Aparılmış elmi işlərinin miqyasna daxil olmuş kreativ təhlillərinin məqsədləri sonrakı dövrlərdə coğrafiya elmində müəyyən dərəcədə istifadə olunmuşdur. Elmi dəyərlərinin müasirləşməsinə uyğun olaraq, son onilliklər ərzində coğrafiya elmi-tədqiqat işlərində bu məsələ tədricən öz yerini tapmış və imkanlarının yaratdığı elmi əsərlərində daha da innovativ xarakterinə çevrilmişdir.

İnnovativ yanaşma kontekstin "Tədqiqat & Tədbiq"in kreativ yönümlü işləmələrinin tendensiyasının imkanları coğrafi tədqiqat sahibləri üçün də elmi mənbəyinə çevrilməsinə səbəb olmuşdur. Son illərdə tədqiqat varintlarının mənbələrində dayanıqlı inkişafının tempində baş verən dəyişikliklərinin səbəbindən kreativ yönümlü coğrafi "Tədqiqat & Tədbiq" fəaliyyətinin strategiyası önəmli bir sahəyə çevrilmişdir.[60]

Dünyanın qabaqcıl coğrafiya elmi mərkəzlərində kreativ işləmə (dərk etmə) metodikasına əsaslandırılmasında müəyyən elmi işlərinin aparılmasına baxmayaraq, ümumi məzmunun çərçivəsində yanaşsaq, bu probleminn tamlığını əhatə edən elmi işlərinin sayı bir o qədər də çox deyildir.

Müasir dövrün tələbinə uyğun olaraq Azərbaycan coğrafiya elminin kompleks araşdırılmalarında kreativ işləmə metodikasının tədbiqi çox səmərə verə

[59] Де Боно Эдвард. Рождение новой идеи. М., 1976.
[60] A.A. Qurbanzadə. Dialektik coğrafiya. Bakı. 2017.

bilər. Öz potensial mövqe durumun yarada biləcək kompleks məqsədlərinin yerinə yetirilməsində kreativ işləmə kodunun varlığından istifadə edilməsi gələcək elmi işlərinin yerinə yetirilməsi üçün çox mühüm əhəmiyyət kəsb etmək imkanına malikdir. Bununla yanaşı ölkəninin yeni quruculuğunda istifadə edilən dövlət proqramlarının yerinə yetirilən bir zamanda coğrafiya elminin tədqiqat potensialından effektli istifadə edilməsi zərurəti yaranmışdır. Məqsədli proqramlarının qəbulu zamanı istifadə edilə biləcək probleminin daxili mənbəyində coğrafi kreativ tədqiqat işlərinin nəzərə almasının mühüm yeri və mövqeyi əsas şərtlərindən sayılır.

Kompleks istiqamətli aparılan elmi tədqiqatın iqtisadi-sosial və siyasi məqsədində kreativ resurs potensialının tədbiqindən asılıdır.

Fikrimizcə, tətbiq olunduğu sahəsindən asılı olmayaraq kreativ işləmə metodikasının reallıqları və tədbiqi xarakteri elmi düşüncə tərzinin varlığının bir hissəsi kimi qəbul edilməlidir. Bu sahənin inkişafı ilk növbədə universitetlərdə yaradılan coğrafiya kafedralarının, hazırlanan elmi və yaradıcı kadrlarının potensialından neçə istifadə edilməsindən bilavasitə asılıdır.

Kreadiv informasiya metodikası coğrafiya elmində istifadə edilməsinə dair geniş mənada araşdırmalarımız göstərir ki, bu sahədə demək olar ki, öyrənilməsinə maraq dairəsi kifayyət qədər deyildir.[61] Apardığımız təhlillərinin tələblərinin qarşıya qoyduğu kreativ işləmə metodikası coğrafiya elmindəki yeri və tətbiqinin reallıqlarına uyğun olaraq önəmə gətirilməsinə dair təkliflərinin irəli sürülməsidir. Qeyd etmək lazımdır ki, təkliflərinin yerinə yetirilməsinin nəticəsində coğrafiya elminin tədqiqat sahələrinin daha da geniş miqyas alması üçün çox dəyərli ola bilər. Ümumiyyətlə, problemə dair elmi əsərlərinin yazılması bir qədər kənarda qalmışdır.

Azərbaycan coğrafiya elmi məktəbinin müqayisəli formada tamamlanmaması, vahid koordinasiya şəbəkəsinin olmamsının səbəbindən aparılan tədbiqi xarakterli tədqiqatlarının yeni elmi (kreativ-A.Q.) işlərinin çərçivəsinə çevrilə bilmir.

• ***Yaddaşa baxış:*** *Elm sahibi bilməlidir ki, tədqiqatda rasionalizm mövcuddur. Davamlı olaraq yeniləşir. İş prosesində dəqiqləşmiş elmi ideyalarına üs-*

[61] Qurbanzadə A.A. Regionalogiya. Bakı, 2013.

*tünlük verilməlidir. Məlumdur ki, elmin dəyərlərinə tam yiyələmək və onun izahına sahib olması çox da asan deyil. Buna baxmayaraq, elmdə baş verən hadisələri və qanunauyğunluqlarını əvvəlcədən dərk etməli və münasibət bildirməyi elm sahibi bacarmalıdır.*

Kreativ işləmənin metodikasının önəmində coğrafiya elminin məqsədli tədbiqi sahəsində yeniliklərinin yaranmasına səbəb ola bilər. Problemə istiqamətlənmiş mövzularının seçilməsində, yeni düşüncə tərzinin aktivləşməsinin elmi tədqiqat işlərinin fundamentallığının artırılmasında iştirak etməlidir. Əsas imkanlarının çərçivəsindən biri də mövzu probleminə konstruktiv işləmə, resurs səfərbərliyi, qəbul etmə (coğrafi diffuziya) və s. məsələlərinin önəmə gətirilməsi ilə bağlıdır. Konstruktivlik (təhlinin coğrafi "dili", coğrafi elmi "məhsulu" və s.) coğrafi tədqiqatlarının keyfiyyət və praktikası arasındakı əlaqələrinə diqqət yetirmək imkanı da yarana bilər.

Analitik coğrafi məzmun[62] daşıyan kreativ işləmə metodikası müəyyən zaman kəsiyində, "Tədqiqat & İnkişaf" kontekstində kreativ ideyalarinın meydana çıxmasında özünü göstərir. Yüxarıda göstərdiyimiz yanaşmalar elmi-metodiki və praktiki istiqamətində aparılan coğrafiya elmi işlərdə tədbiqinin ardıcıl olaraq yeniləşməsi ilə əlaqələndirilməsi məsələlərinə səbəb ola bilər. Tədqiqat sahəsinin effektliyinin artırılmasının səbəbində kreativ işləməsinin tendensiyasının çoxşaxəli məqsədlərinə doğru hərəkətinin mühüm mövqeyinə çevrilir.

***Yanaşma tərzi:*** *Elmi-idrak metodikasına əsaslan kreativ işləmələrinin tendensiyasının mexinizmində təhlil edilən çoxşaxəli mövzu axtarışının plan və proqramlarının tərtibinə, onun struktur kompleksli təhlillərinin aparılmasına köməklik edir.*

Fikrimizcə, mövzu üzərində işlərkən onun kreativ tədqiqatının elmi-metodiki və praktiki istiqamətinin kompleksliyinə diqqət yetirməlidir. Bu vacibdir. Məntiqi yaradıcılıqla yanaşsaq, aparılan elmi işlərinin məzmun və elmi nəticələrinin nə dərəcədə yerinə yetirilməsinin qabaqcadan hiss etmək qabiliyyəti və dərk etmə imkanları iddiaçının kompleks xarakterli təhlillərində üzə çıxır.

Problemin həlli yolunda aparılmış tədqiqat işinin mövzunun yerinə yetirilməsində kreativ resursunun potensialından nə dərəcədə istfadə etdilməsinindən bilavasitə asılıdır. Bununla bərabər kreativ işləmə metodikasından hərtərəfli

---

[62] Qurbanzadə A.A. Analitik coğrafiya. Bakı, 2018.

istifadə ediləsini də tamlıqla tələb etmək olmaz. Bu məsələnin həlli ilk növbədə tədqiqatçının şəxsi yaradıcılıq imkanlarından bilavasitə asılıdır.

## Xülasə: irəliyə baxış

- Coğrafiya elmi, digər elmlər kimi, kretiv düşüncə tədqiqatlarına ehtiyac duyur. Bəşəri dəyərlərini özündə əks etdirən elmi əsərlərinə, yerinə yetirilən tədqiqat mövzularına və metodikasına üstünlük verilməsini tələb edir.

- Nəzəri və ya eksperiment yolu ilə aparılan elmi tədqiqatının nəticələrinin dəyərləndirilməsi tədqiqatçıda kreativ düşüncə tərzini, elmi estetik zövqünü aktivləşdirir.

- Elmi işin fəaliyyətinin yalnız bir metodiki yanaşmanın təsdiqinə yönəldilən tədqiqat sahəsini zəifləyir və məzmunun nəticəsi metodiki təhlillərindən uzaqlaşır.

- Kreativ düşüncə tərzi ilə aparılan elmi işlərinnin son nöqtələri dərk edilir və praktiki yönümünün yolunu göstərir. Dərk edilən kreativ kodlar ümumi məqsədlərini güdür və coğrafi tədqiqat üçün rasional "məhsul" veirir.

- Kreativ işləmə kodunun davamlığının xassəsi onun kompleksliyindədir. Bu elmi yaradıcılıq üçün əsas mənbələrdən biridir. Məntiqi idealogiya ilə həyata keçirilən elmi işlərinin hərtərəfli halıdır. Məzmun və elmi nəticələrinin nə dərəcədə yerinə yetirilməsinin qabaqcadan hiss etmə qabiliyyəti və dərk etmə imkanları kreativ işləmələrinin varlığında özünü göstərir.Bu varlıq ərazi-istehal kompleksinin yaranmasında və dayanıqlığında iştirak edir.

**Praktiki düşünək:**

1. Kreativ işləmə kodunun elmi məqsədini müəyyən etmək haqqında düşün.
2. Elmi işin aparılmasının çərçivəsində hansı metodiki idealı seçməsi mümkündür?
3. Kreativ işləmə kodunun başlanğıc nöqtələrinin tapılmasına səy göstər.

## 6.4. Kreativ elmi təhlilinin qaydası

***"Kreativ təhlil qaydasını nəzərə almaqla elmdə naliyyət qazanmağının ilkin imkanıdır."***

Coğrafiya elmi tədqiqatın yeni biliklərlə zənginləşdirilməsində kreativ elmi təhlilinin metodikasının təsirinin çərçivəsinin imkanlarının nəzərə alınması tələb olunan qaydalarından biridir.

Kreativ elmi təhlilinin ümumi qaydası mövcuddurmu? Fundamental elmi tədqiqatlar = müəyyən, dar çərçivədə bir qrup kreativ elmi düşüncə sahiblərinin yaradıcılığına xasdır. Fundamental tədqiqatlar aparan elm sahiblərinin özünəməxsus kreativ düşüncə tərzinə və "elmi məhsul vermə qaydası"nı özündə birləşdirir. Ona görə də yuxarıda verilən sualının tam, bir mənalı cavabı yoxdur. Çünki, hər bir elm sahəsinin özünə məxsus öyrənilməsinin və yanaşmasının metodikası varsa, bir o qədər də önəmli elmi təhlillərinin qaydaları və kreativ düşüncə tərzləri geniş miqyas ala bilir.

▪ ***Kreativ baxış.*** *Dəqiq və texniki fənlərlərlə yanaşı, coğrafiya elminin düşüncə sahiblərinin əsərlərində xüsusi olaraq tədqiqat normalarını, kreativ motivlərinin öyrənilməsinə xüsusi əhəmiyyət verirlər. Elmin inkişafının bütün dövrlərində yaradılan nəzəri-metodiki problemlərindən hamılıqla dərk edilməsi mümkün deyildir. Yalnız parlaq zəka sahibləri bu məsələdə bütün dövrlərdə ön cərgədə olmuş və olmaqdadır.*

Coğrafi informasiyanın epoxasında dinamik işləmə sxeminin qaydalarının iqtisadi-sosial və siyasi elmi mənbələrinin müxtəlif ideyalarının mövcudluğu haqqındakı mülahizələrindəki reallıqları diqqəti cəlb edir.[63] Məntiqi olaraq dinamik elmi təhlillərinin qaydasının sxemində "Təklif və Tələb"in coğrafi və iqtisadi biliklərinin praktikasının metodologiyası üçün funksional bağlılıqlarının təyinatlı formalarının təsiri çox mühüm hallarının yaranmasına səbəb olur.

Fikrimizcə, bunun mahiyyəti ondan ibarətdir ki, elmi kreativlik qaydalarının mənimsənilməsi və ərazi təşkilinin nisbətində metodiki əlaqələrinin çərçivəsinin praktikaya doğru meyillərinin meydana gəlməsi bununla əlaqəlidir.

[63] Форрестер Дж. Мировая динамика. М., 2003.

Bu çərçivə meyillərinə aşağıdakı **kreativ qaydalarının funksiyonal** təyinatlı təsnifatlarını daxil etmək olar:

Kreativ resursun pasionallığının təyini

Kapital resursun coğrafi effektli təyini

Texnoloji resursun elmtutmluğu

Texnoloji tərəqqinin inkişafa tədbiqi

Funksional kreativ qaydasının elmi-metodiki və strateji əhəmiyyətinə aydınlıq gətirmək məqsədində konstruktiv hal kimi bir sıra sullarının əmələ gəlməsinə səbəb olur:

- Kreativ coğrafi və iqtisadi problemlərinin reallaşdırmaq məqsədlərinin metodikasını necə istiqamətləndirmək olar?
- Nə səbəbə görə Minillik sammitin materiallarında kreativ resurslarından kompleks istifadə edilməsinə dair məsələlərinə önəm verilmişdir?
- Önəmin ideyasında kreativ elmi təhlil qaydasının dünya ölkələrində istifadə edilməsinin real imkanlarına dair proqramlarının ideyasının seçimi nə ilə ölçülür?
- Paradoks olaraq inkişaf etmiş sənaye ölkələrində funksional kreativ probleminin həlli yollarına dair optimal variantlarının tədbiqinnin hansı məqsədlə icrası ön plana çəkilir?

Kreativ resurslara söykənən inkişaf etmiş ölkələrinin coğrafi-iqtisadi sisteminin gerçəkliyində ən yeni innovasiya-texnologiya modelinin dinamik imitasiyasının praktikasında üstünlük təşkil edir. Məntiqi olaraq sənaye ölkələrinin gəlir mənbəyinin miqyasında kreativ resurslarının dayanıqlı inkişafının strategiyasının əsasını əhatə edir. İnformasiya - texnologiya səviyyəsindəki kreativ kapitalının mənimsənilməsinin variantlarının reallıqları daha üstündür.

İnkişaf etmiş sənaye ölkələrində dünya əhalisinin 15%-i məskunlaşmışdır. Lakin dünya resurslarının ≈85%-i bu ölkələrinin iqtisadi inkişafına xidmət edir.

Kreativ iqtisadi inkişafın "məhsuldar" kodunun effektliyi ölkənin çoxşaxəli inkişafının formalaşması üçün əsas bazisi sayılır. İnkişaf etmiş sənaye ölkələrinin dayanıqlı inkişaf tempində kreativ iqtisadi inkişafının xüsusi çəkisi orta hesabla 70%-dən çoxdur ( ABŞ-da =78%, Yaponiyada - 75% və s.).

İqtisadi inkişafın coğrafiyasının aparatında kreatif seçim hər bir ölkənin struktur kompleksinin keyfiyyət parametrinin əsas göstəricisidir. Dünya Bankının hesablamalarına (100 ölkənin milli resurslarının istifadə göstəricilərinə) əsasən təbii kapital orta hesabla 2.0-4.0% dəyişilidiyi halda, bu kəmiyyət göstəricilər sistemində insan kapitalı isə 40- 80% arasında dəyışilir. Bununla yanaşı İEÖ sistemində milli inkişafının xüsusi çəkisində təbii kapital orta hesabla 10%, insan kapitalın 70% təşkil edirsə, İEOÖ sistemində aqrar-sənaye məhsullarının hesabına təbii kapital ≈ 75-80% həcminə bərabərdir.

Kreativ strateji resurs seçiminin qaydası elmin tədqiqata doğru gedən yolun başlanğıc nöqtələridir. Lakin onun öyrənilməsinin qaydasını tədqiqatçı anlamalı; ondan praktiki və strateji məqəsdlər üçün istifadə edilməsinə səy göstərməlidir. Bu məqsədlə kreativ strateji resurs seçimini özündə birləşdirən sxeminin istifadə edilməsinin qaydasını təklif edirik (6.4.).




"Azərbaycan Strateji Yol Xəritəsi"nin konsepsiyasında kreativ inkişafının strategiyasının formalaşması və gələcəkdə yaradılacaq istehsal komplekslərinin təhlillərinin formalaşmasına dair tələbləri irəli sürülmüşdür. Problem ondan ibarətdir ki, ölkənin kreativ resurslarından effektli qaydada istifadə edilməsinin strategiyasının qloballaşma mühitinə uyğunlaşmalı və davamlı olaraq inkişaf etməlidir.

Əsas məqsəd = kreativ resurslarının istifadə edilməsi ilə yanaşı, ərazi-istehsal kompleksinin[64] yaradılması, struktur tipli modellərinin qurulması, tarazlaşdırılmış və rəqabətədavamlı ixrac məhsullarının potensiallığının artırılmasından ibarətdir. Bu sahədə kreativ istehsal modelinin elmi təhlilinin də mühüm əhəmiyyətini də nəzərə almaq lazımdır.

Kreativ coğrafiya modelin qurulmasının mənbəyində elmi resurslarının keyfiyyət müəyyənliyinin təyin edilməsi ilə bağlıdır. Bu isə hər bir təyin edilmiş iqtisadi-sosial və funksional coğrafi struktur effektliyinin yaradılması ilə əlaqədardır. Ümumi yanaşma qaydasının fonunda kreativ coğrafiya elminin metodiki aparatından neçə istifadə edilməsinin məqsədində aparılan elmi işinin xarakterinə uyğun olmasının nəzərə almaqdır (6.4.1.).

$$\mathbf{F} = \left\{ \begin{array}{llll} \mathbf{F_0} = \{F_0^1\}, & \{F_0^2\}, & \{F_0^3\} \ldots & \{F_0^n\} \\ \mathbf{F_0^1} = \{F_0^4\}, & \{F_0^5\}, & \{F_0^6\} \ldots & \{F_0^n\} \\ \mathbf{F_0^2} = \{F_0^7\}, & \{F_0^8\}, & \{F_0^9\} \ldots & \{F_0^n\} \end{array} \right\}$$

$\mathbf{F_0}$ = ərazi resursun kreativ mənimsənilməsi qaydası
$\mathbf{F_0^1}$ = kreativ tutumlu məhsul istehsalının qaydası
$\mathbf{F_0^2}$= funksional kreativ texnoloji müəyyənliyinin qaydası

***6.4.1. Kreativ coğrafiya elmi təhlilinın (F) qaydası***

Aparılan tədqiqat işinin qaydasına uyğun olaraq önəmli modelinin əsasını elm tutumlu paradiqmalarının üzərində qurulmalıdır. Bir cox hallarda isə modelin inkişaf konsepsiyasında ənənəvi ilkin mənbələrindən imtina etməsi zəruriyyətini tələb edir. Nəticə etibarı ilə bu zərurət aparılan tədqiqatın kompleksli struktur formalarının yaradılması, həyata keşirilməsi və idarə edilməsinin həlledici rolundan aslılı olaraq dəyişilə bilər.

Kreativ elmi təhlilinin qaydasının təsir dairəsi dinamik olmalıdır. Funksional strukturlarının kompleksliyi və ərazi təşkili, ümumi strateji məqsədlərinin həyata keçirilməsində tədbiqinin əhəmiyyəti daha önəmlidir. Problemin həlli və önəmi "Azərbaycanın strateji Yol Xəritəsi"də göstərilən metodiki işləmələrinə dair problemlərini buna misal ola bilər. "Strateji Yol Xəritəsi"nin həyata keçirilməsinin siyasətində kreativ qaydalarının tədbiqində özünü göstərir. Ölkənin makroiqtisadi inkişaf sxeminin qlobal mühitə transformasiyası, daha effektli

[64] Bakı aqlomerasiyasının tərkibində: Ələt sənaye kompleksi formalaşır.

məzmuna çevrilməsində yüxarıda göstərdiyimiz yanaşmalarına söykənməsindən çox asılıdır.

Azərbaycanın coğrafi cəhətdən virtual genişlənməsi həm Qafqaz regionunda, eləcə də materik ölkələrində strateji potensialının reallaşmasının üstünlükləri mövcuddur. Məsələ ondan ibarətdir ki, dayanıqlı inkişafının baxımından respublikanın gələcək strategiyasına uyğun olaraq elmtutumlu və kapitala meyilli strukturlarının yaradılmasının siyasəti üstünlük təşkil edəcəkdir. Məqsədyönlü formada şaxələnmiş struktur formalarının yaradılması və modernləşməsi bu məqsədə xidmət edəcəkdir.

Yaxın gələcəyinin strategiyasının əsasında neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq, qeyri-neft sektorunun potensial tempini qoruyub saxlamaq və onun ixrac imkanlarını şaxələnmiş strukturlarının hesabına genişləndirməkdən ibarətdir. “Azərbaycanın Yol Xəritəsi”nın İnkişaf Konsepsiyasında kreativ elmi təhlillərinin aparılmasının qaydasına uyğunlaşdırılmışdır. Gələcək potensial imkanlarından kompleks istifadə edilməsi və texnoloji proseslərinin tədbiqi nəticəsində rəqabətədavamlı və elmtutumlu məhsul istehsalında müəyyənlik üstünlüklərinin gerçəkliklərinə kompleks yanaşmalarda nəzərdə tutulmuşdur.

Kreativ inkişaf modellər və onlarda baş verən siyasi-iqtisadi informasiyalar ölkənin diversifikasiya sisteminin aktivləşməsində fəallıq göstərir. Buna görə də kreativ inkişaf modellərdə olan qeyri-müəyyənlik hallarının başqa modellərindən köklü surətdə fərqlənir və əsasən ölkənin iqtisadi-sosial strukturlarının kompleks idarə edilməsindən asılı olaraq yeniləşir.

Kreativ coğrafiya elmi informasiyasının əsasında ərazi-struktur sahələrinin təşkili və idarə edilməsinin optimal modellərinin müəyyənləşdirilməsinin təsnifatında ABŞ, Yaponiya və Qərbi Avropa ölkələrində XX əsrin axırı XXI əsrin əvvəllərindən başlayarq aparılan tədqiqat işlərinin nəticələrinin praktikasının halına çevrilmişdir.

Ona görə də kreativ inkişafının proqnoz göstəricilərini ancaq müəyyən ehtimalda iqtisadi-siyasi və coğrafi funksiyalarının faktiki göstəriciləri ilə üst-üstə düşmək şərtində formalaşmasına dair aparılan tədqiqatlarının məzmununda özünü göstərməlidir. Bu məsələ tədqiqat işinin aparılması üçün əsas ideya mənbəyidir.

# Xülasə

- Kreativ elmi tədqiqatlar = fundamental xarakterli olub, ölkənin iqtisadi, siyasi və sosial həyat tərzində aparıcı mövqe tutur. Bu tipli tədqiqatlar coğrafiya elminin davamlı inkişafının metodologiyasının "hərəkətverici qüvvəsi"dir.

- Məna ifadəsində hər bir elm sahibinin özünəməxsus kreativ düşüncə tərzi və "elmi məhsul verme qaydası"na sahib olmasından çox asılıdır. Ona görə də tədqiqatının qarşıya qoyduğu problemin həlli yolunun istiqaməti və cavabı kreativ qaydanın mənimsənilməsindən keçir.

- Coğrafiya elm sahəsinin özünə məxsus kreativ qaydasının öyrənməsinin və yanaşmasının metodikası varsa, bir o qədər də, önəmli elmi təhlilinin qaydaları və kreativ düşüncə tərzinin mövcudluğunun olması ilə əlaqəlidir.

- Kreativ inkişaflı modellər və onlarda baş verən dəyişikliklər diversifikasiya mühitində fəallıq göstərir. Buna görə də kreativ inkişaf modellərində olan qeyri-müəyyənlik hallarının başqa modellərdən köklü surətdə fərqlənir və iqtisadi və strateji yönəmli strukturlarının kompleks idarə edilməsindən asılı olaraq yeniləşir.

**Praktiki düşünək:**

1. Kreativ elmi təhlilinin qaydasının təsir dairəsi dinamik olmasına münasibət bildirmək məqsədin varmı?
2. Kreativ iqtisadi inkişafın "məhsuldar" kodunun effektliyini hesablamasının qaydalarını öyrənməyə çalış.
3. Çoxşaxəli inkişafının təyinatı üçün kreativ qaydalarına dair modellərini qura bilərsinizmi?

## 6.5. “Elmi kreativ dili” haqqında

***“Məntiqli və praktiki nəticəyə çatmaq üçün, tədqiqtaçı onu “öz dilində” təhlil etmək bacarığına sahib olmalıdır.”***

Qarşıya qoyulan problemin “elmi kreativ dili”nin coğrafi qanunlarının əsasında öyrənilməsi, tədqiqatçıda elmin yarada bilən rasional variantlarının tapılmasında marağını artıra bilər.

Ümumi istiqamətli tədqiqatlarının aparılmasının metodikasından asılı olmayaraq, öyrənilən coğrafi obyektin “səbəb və nəticə”, “nəticə və praktika” əlaqələrinin təhlilində müəyyən tədqiqatın öz aparatının çərçivəsi olmalıdır. Bunu başqa ifadə ilə əvəz edikdə: tədqiqatın elmi-praktiki tamamlanmasında, “elmi kreativ dili”nə söykənən çərçivə aparatının olması mühüm qaydalarından biridir. Cərçivə aparatı tədqiqatçı üçün ona görə faydalıdır ki, yerinə yetirə biləcək mövzunun yeniliyi və məqsədli təkliflərininin “kreativ tədqiqat & işləmələr”in, “kreativ dili”in öyrənmə metodikasının məqsədlərinə cavab verməlidir. Bu cavabının sonunda isə tədqiqatcı birmənalı, ciddi məntiqi yaradıcılıq ruhuna uyğun hərəkət edə bilər.

***Fikir aydınlığı:*** *Məntiqi yaradıcılıq tərbiyyəsinə söykənən elmi işci son mərhələnin yerinə yetirə biləcəyi mövzunun çərçivəsində “kreativ dili”in elmi dəyərinin nəticələrinə sahib olmaq imkanını qazana bilir. Bu elmi işin ideyası üçün çox vacib bir yanaşmadır. Coğrafiya elmində konstruktiv praktiki metodlarının seçilməsi və öyrənilməsi, fəal elmi əlaqələrinin yaradılmasında “kreativ dili”in məntiqinin üstünlüyünü ön plana çəkilməsinə diqqət yetirilməlidir. Bu fakt fikir aydınlığı üçün əsas məsələdir.*

Fikir aydınlığına münasibət bildirmək üçün tədqiqatçı mövzu ilə əlaqəli bir neçə suallarla qarşısına məqsəd qoymalıdır:

- məntiqi “kreativ dili”in elmi dəyərinin metodiki üstünlüyü nə ilə ölçülür?
- bu ölçülərinin coğrafi tədqiqatının yerinə yetirlməsində mövqe məqamının nümayiş etdirmə qabiliyyəti varmı?
- mövqe məqamlarının öyrənilməsinin və tədbiqinin aparılan mövzunun proqramına faydalığı ola bilərmi?

Bu kimi sullarınnın miqdarı yetərincədir. Məsələyə aydınlıq gətirmək və öyrənilməsi üçün varinatlarının seçimlərinin təyinində özünü göstərir (6.5.).

Mətnin elmi məntiqi dilinin terminlərinin məzmunu mövzunun öyrənilməsinin metodikasına uyğun olmasına xüsusi yanaşmanı tələb edir. Təqdim edilən tədqiqat obyektinin "kreativ dili"nin əlaqələndirilməsinin metodikası = qarşıya qoyulan qaydalarına (tələblərə, suallara və s.) bir yanaşma (prinsip) olaraq cavablandırılması mühüm şərt hesab olunur. Tədqiqatın qaydalarına uyğun müəyyən ölçüdə öyrənilməsi prosesinə cavab verən və elmi işinin məzmununa xas olan "kreativ coğrafi elmi dil"nin yaradıcılığının kredosu olmalıdır.

Coğrafi elmi dil ilə məşğul olmaq kreativ işləmə texnikasının fəaliyyətini genişləndirir. Elmi işinin taktikasının seçimləri, çoxfunksional strukturlarının ərazi təşkilinin formaları meydana gəlir. Bu səbəbdən də elmi işinin nəzəri-metodoloji konstruksiyasının qurulmasında, tamamlanmasının və iştirakının mənbələrini yaratmaq olarmı?




***6.5 "Elmi kreativ dilin təhlil"in {N}seçimi (variant)***

$N_{x+1}$ = məntiqi elmi "kreativ dili" təhlilinin seçimi
$N_{x+2}$ = elmdə "kreativ dili"ilə təhlil bacarığı
$N_{x+3}$ = mövzunun elmlilik - taktikası seçimi
$N_{x+4}$ = təlimdə sistematik araşdırma seçimi
$N_{x+5}$ = "elmi kreativ dili"in differensiallığı və s.

***Diqqət yetir:*** *Mətnin elmi məntiqi dilinin terminlərinin məzmununa və mövzunun seçim metodikasına uyğun olmasına diqqət yetirin. Təqdim edilən tədqiqat obyektinin "kreativ dili"nin əlaqələndirilməsinin metodikası qarşıya qoyulan tələblərə, suallara bir qayda olaraq cavab verməlidir. Bu qaydalara uyğun*

*müəyyən ölçüdə və məzmunda tədqiqat prosesinə xas olan kreativ coğrafi elmi yanaşmasının kredosu olmalıdır.*

Coğrafi elmi dil ilə məşğul olmaq kreativ işləmə texnikasının fəaliyyət sahəsinin sistematik araşdırmanın seçimi ilə uyğunluq təşkil etməlidir. Aparılan elmi işinin nəzəri-metodoloji konstruksiyasının qurulmasında, ərazi təşkilində, kompleks tamamlanmasında kreativ işləmənin təsir qüvvəsinin tələminin reallıqları nə dərəcədə effektlidir? Elmliyinə diqqət yetirilməsi zamanı hansı imkanlara diqqət yetirilməlidir? Bu kimi suallarının ətrafında mülahizələrizi bildirməyinizi məsləhət görürəm.

Suallara cavab vermək müəyyən dərəcədə elmi işinizin aparılmasında çətinliklər yarada bilər. Buna tədricən, düşünülmüş vərdiş hala çevirməklə nail olmaq lazımdır. Müəyyən qədər spesifik xüsusiyyətləri ilə seçilən kreativ elmi dil ilə yaradıcılıqla məşğul olmağının nəticələri üçün tədqiqatçının dünya görüşündən çox asılıdır. Başqa ifadə ilə desək=burada maraq yaratmaq strategiyasını inkişaf etdirmək üçün = elm sahibinin kritik refleksiyası, yəni özünü dərk etməsinin dialektikasına üstünlük verilməsi ilə yanaşı, qarşıya qoyduğu problemlə daima təmasda olmalı və gündəlik məşğul olmasını tələb edir.

Ümumiyyətlə, qarşımda duran məsələlərindən biri də gənc tədqiqatçılarla görüş ərəfəsində ilk növbədə kompleks məzmun daşıyan, elmtutumlu problemlərinə söykənən mövzularlar üzərində düşünməyini və tədqiqat aparılmasına dair söhbətlərinə üstünlük verirəm. Problemə yiyələnmək, məsələyə yaradıcılıq təfəkkürlə yanaşmasına, buna uyğun hərəkət etməyini gənc elm sahiblərinin qarşısında tələb kimi məqsəd qoyuram. İlk növbədə təhsilin elmliyi, kreativ düşünmə qabiliyyəti, ona vərdişin həssaslığı, yaradıcılığının texnikasına yiyələnmək və s. məsələlərinin əhəmiiyətlərinin haqqındakı söhbətlərini önəmə gətirirəm. Bu tipli söhbətlər elmi yaradıcılıq üçün həm faydalı,həm də əsərin yazalıması üçün bialvasitə mənbədir. Sönbət zamanı tədqiqatçıda elmə qarşı vərdiş bacarığını artırır və əldə edilən nəticələrinə həssaslıqla yanaşılmasına istiqamət verir.

**Söhbətin seçimi**: Söhbət koqnitiv (*başa düşmək,dərk etmək,öyrənmək deməkdir*) vərdişlərdən gedir. Mühüm elmi-metodiki nəzəri biliklərinin dəyərlərini özündə birləşdirən koqnitiv vərdişlərinin nəticələrinin müəyyənliyi, conrakı mərhələdə isə kreativ elmi bilik mənbəyinə çevrilir.

Tədqiqatda kreativ fikirlərinin formalaşmasında və istifadə edilməsində müəyyən çərçivədə azad fikili və düşüncə sahibi olmaq o qədər də vacib deyil.

Bacib odur ki, təqdim edilən elmi işinin mövzusu, tədqiqat obyekti, mətnin strukturunda kreativ fikirlərlə təmasda olmalı, elmlik və praktiki mahiyyət daşımasıdır. Əksər halda aparılan tədqiqat işinin elmlilik dərəcəsinin dairəsi tədricən daralar və öz keyfiyyət funksiyalarını itirə bilər.

**Sualları araşdır:** *Elmi tədqiqat işinin tamlığınının müəyyən edilməsində (variant kimi) coğrafi sərhədlərinə aydınlıq gətirilməsinə diqqət yetirilməsi çox önəmlidirmi?* Mövzu ilə əlaqədar olaraq kreativ ideya mənbələrinin sərhədlərinin müəyyənliyi, problemin aktuallığı, proqnoz istiqamətləri və s. məsələlərinin elmi işinin sərhədlərini = dialektik istiqamətini əhatə edirmi? Bu kimi suallarına aid cavablarının tapılması elmi işin tamamlanması və tədqiqat xarakterli nəticələrinin alınması üçün çox vacibdir.

Elmi işin tənqidinə dair fikirlərunin öyrənilməsi, ona həssaslıqla yanaşılması və s. məsələlərinin həlli yolunda alınan təklif və göstərişlər coğrafi kreativlilik elminin sərhədlərinin daha da konkretləşməsinə və konstruktiv mahiyyət daşımasına köməklik edə bilər. Kreativ yanaşma zamanı tətbiq olunan metodlarının elmliyinə və onun praktikasına məqsədyönlu yanaşmaq prinsiplərinin elmi tədqiqatının bütün mərhələlərində nəzərə alınmalıdr. Bununla yanaşı, tələbin elmi-metodiki cəhətdən aktivləşdirilməsinə, əməliyyatlarının yeniləşdirilməsinə xidmət etməlidir.

## İrəliyə baxış

- "Elmi kreativ dili" prizmasından aparılan tədqiqat işində istifadə edilən resurslarının potensialın əsasında kompleks struktur sahələrinin optimal variantlarının praktikasını həyata geçirmək mümkündür.

- Bu yarım bölmədə verilən qaydalara diqqəti cəmləşdirsək, bir sıra coğrafiya elminin məqsədli sahələrinin inkişafı üçün xidmət imkanı yarana bilər.

- "Kreativ elmi dili" yanaşma ideyasına uyğun olaraq coğrafiya elmi tədqiqatına xidmət edən çox saylı modellər sektorunu qurmaq mümkündür.

**Praktiki düşünək:**

1. "Elmi kreativ dili" ifadəsindəki paradoksu izah etmək imkanın varmı?
2. "Elmi kreativ dili" ifadəsinin üstünlüyü haqqında düşün.

## 6.6. Kreativ ideyanın texnoloji tərəqqisinə baxış

***"Elm üçün kreativ ideya yalnız tərəqqi deyil, bu mahiyyət etibarilə həm də texnoloji elmi tərəqqinin qəbul edilməsidir."***

> Kreativ ideyanın texnoloji tərəqqisinin qəbul edilməsi = təqdim edilən elmi işinin mövzusunun nəzəri-metodoloji və texnoloji tərəqqi strukturunun innovativlilik dəyişkənliyinin gerçəkliyidir.

Kreativ ideyanın tərəqqisi ilkin mənbədə elmi texnologiyanın tədbiqi və onun yarada bilidiyi elmtutumlu sahələrinin optimal variantlarının seçimi kimi qəbul edilməsidir. Məqsədli kreativ ideya = bir sıra kombinasiyalarının yaradılmasına kömək edə biləcək texnologiyanın yeniləşməsində iştirak etməsində özünü göstərir. Əsas fərq bundan ibarətdir. Texnologiyanın praktikasında tədqiqatçı üçün ilkin kreativ elmi biliyinin mənbəyində əlaqəli ərazi-struktur sistemlərinin yaradılmasından ibarətdir. Əlaqə sistemlərinin qeydə alınmasının səbəb və nəticəsi ilə yanaşı, elmi metodiki texnoloji tərəqqisinin də yeni məzmuna çevrilməsinə də həssaslıqla yanaşılması lazımdır. Məsələnin əhəmiyyətli variantlarından birincisi də bununla bağlıdır. Yaradıcılığının təbiətinin əsasını təşkil edən texnoloji tərəqqinin variantlarının imkanlarının elmi işinizdə nəzərə alınması bununla çox əlaqəlidir.

Əlaqələrin texnologiyası elmdə nə kimi dəyərli dönüş yarada bilir? Əlaqəli kreativ texnoloji tərəqqisinin ideyası aparılan mövzusunun məqsəd və vəzifəsinin xarakterini dəyişdirir, elm sahibinin yaradıcılıq imkanlarını artırır, verilən planın ritmini "hərəkətə" gətirməklə yanaşı, özünün emosional ifadə tərzini də müəyyən edir. Bu çox vacib məsələdir.Son gedişdə isə kreativ ideyanın tərəqqisinin əsasında aparılan elmi-metodiki işlərinin çoxfunksional sahələrinin texnoloji variantlarının formalaşmasında, ərazi təşkilində özünü göstərir (6.6.1).

Aktivləşmiş kreativ ideyalarının fonunda aparılan araşdırmalar daha çox universal qaydada həyata keçirilir. Bu yanaşma bir çox məsələlərinin kompleks inkişafında və onun rasional təhlillərinin üstünlükləri üçün faydalıdır. Alınan faydalılıq çox çevik olub istənilən vaxt əlavələrinin artırılmasına imkan verir və eləcə də kreativ işləmənin metodikasını gerçəklişdirir (nizama salır). Elmi işinin kompleksliyində kreativ qərarların qəbulu zamanı tərəqqi amili özünü biruzə

verir. Məsələn, elmə əsaslanan siyasi, iqtisadi, texnoloji, coğrafi, sosial-psixoloji və s. kreativ tənzimləmə funksiyalarının qəbul edilməsində daha çox özünü göstərir.




Bu istiqamətli elmi-metodiki aparatının yaradılması coğrafiya elmi ilə kreativ tərəqqi arasındakı yaradıcı imkanlarının genişləndirilməsinə səbəb olur və həm də onu yeni məzmuna çevirir.

Coğrafiya elmi ilə ilkin olaraq kreativ tərəqqi arasında sistemli dialektik əlaqə mövcuddur. Əlaqə sistemlərindən tədqiqat prosesinin qaydalarından istifadə edilməsi kreativ məhsul istehsalının davamlı olaraq yeniləşməsində və ərazi-struktur kompleksinin təşkilində aktuallıq kəsb edir. Aktuallığının meyarında ilkin olaraq elmi informasiya və kreativ məhsulun coğrafiyasının arasındakı nizamlanmasının əlaqəsinin miqyası = ərazi–struktur kompleksinin həssaslığının ayrılmaz hissəsi hesab edilir.[65]

[65] A.A.Qurbanzadə. XXI əsr dayanıqlı inkişafının aqrar-sənaye klaster faktoru. Bakı. 2015.

Müasir coğrafi informasiyanın fəlsəfəsində aşağıdakı variantlarında kreativ ideyanın texnoloji elmliyinin arasındakı ritimlilik əlaqələrini göstərə bilərik (6.6.2.):




***6.6.2.Keativ ideyanın texnoloji ritmlilik əlaqələri***

**{R}** = kreativ ideyanın "cazibə qüvvəsi"nin ritmilik səviyyəsi;
**{E}** = coğrafi məkan informasiyası ilə kreativ informasiya arasındakı əlaqə;
**{D}** = texnoloji tərəqi faktoru= "bilik coğrafiya"nın balanslaşması;
**{C}** = kreativ ideyanın tərəqqisi ərazi-istehsal kompleksinin "güc qüvvəsinə" çevrilməsi.

▪ ***Ətraflı araşdır:*** *Ümumi elmi təfəkkürün məqamı ondan ibarətdir ki, kreativ ideya tərəqqisinin ifadəsində coğrafi strukturunun innovativ prosesləri ilə aktiv mövqeyə malik olur. Aktiv mövqeyə malik olan coğrafi strukturunun funksiyasının əsaslandırlmasının təlimləri, kreativ ideyalarla bağlıdır.*

Elmi işinin kreativ ideya tərəqqisi ilə virtual coğrafi baxımında önəmli məsələ kimi dəyərləndirmək olarmı? Bu məsələ ilə bəzi ölkələrinin informasiya mənbələrinə müraciət etmək olar. Elmi informasiya İnstitutunun ( ABŞ) dövrü olaraq keyfiyyət göstəricilərinə (o cümlədən virtual olaraq kreativ düşüncə əlaqə ilə) elmi məqalələrinə verilən iqtibaslarının sayı ilə əlaqədar təhlilləri aparalır. Nəticədə,ölkələr üzrə elmi işlərinin nə kimi dəyərli olduğu halları haqqındakı məlumatlarının müəyyənliyi üzə çıxır.Məsələn, ABŞ-da (1993-2003-cü illər arasında) elmi məqalələrinin sayı 2.6 mln., Böyük Britaniyada -712 min, Yaponiyada -686 min., Rusiyada isə cəmi 277 məqalə ən nufuzlu

jurlanllarda çap olunmuşdur.Lakin ABŞ-da çap olunan məqalələrinə iqtibasların sayı: 31 min; Böyük Britaniya -7 min; Yaponiya -5 min olduğu halda, Rusiyada bu göstərici isə 800-ə bərabərdir.

Elmi İnformasiya İnstitutu başqa bir araşdırma da aparmışdır. Hər nəfərə düşən illik gəlir ilə müqayisədə məqalə və iqtibasların nisbəti aşağıdakı kimidir. Hər nəfərə illik gəlirin ən çox olduğu ölkələrdə bir qayda olaraq elmi dərəcələr də yüksəkdir. Məsələn, İsveçrə, Kanada, İsveç, İsrail kimi ölkələr də elmin göstəricilərinə nisbətində ABŞ, Yaponiyadan geri qalmırlar. Bu ölkələrdə kreativ ideya tərəqqisinin üzərində yaradılan elmi məktəblərində aparılan tədiqatlarının üzərində qurulması ilə əlaqəlidir.

▪ ***Haşiyə:*** *Önəmli odur ki, hər bir elmin funksional yaradıcılıq istiqaməti ilə yanaşı özünü ifadə etmə və dərk etmə forması vardır. Coğrafiya elminin "ehtiyac"nın olmasının səbəbindən irəli gələrək kreativ tərəqqi prizmasına və onun metodikasına bizim ölkədə çox az diqqət yetirilir.*

Bir qayda olaraq elmin "ehtiyacı"ndan irəli gələn, düşünən elm sahibləri öyrənilən hər hansı məsələyə kreativ ideyanın texnoloji tərəqqisinə üstünlük verməsini düşünməlidir. Şahmat oyununda məqsəd = rəqibin şahını mat etməkdir. Lakin bu oyunda şahı "əsir almaq" üçün əsas məqsəd taktiki variantlarla sahənin strategiyasını təhlil etməklə faydalı gedişə nail olmaqdan ibarətdir.

Tədqiqat prosesində müəyyən kreativ ideyanın davamlığının, praktiki nəticələrinin alınmasına doğru meyillərinin meydana gələməsini şahmat oyunu ilə müqayisə eymək olar (6.6.3).

$$\mathbf{Kdt} = \begin{bmatrix} a+b+c....\ d_n \\ a_1+b_1+c_1...d_n \\ a_2+b_2+c_2...sd_n \end{bmatrix} \text{ burada:}$$

$a + b + c \ldots.\ d_n$ - Kreativ ideyanın tərəqqi mənbəyi
$a_1 + b_1 + c_1 \ldots d_n$ - Kreativ ideya tərəqqisinin metodiki seçimi
$a_2 + b_2 + c_2 \ldots d_n$ - Kreativ işləmə ideyanın məqsədi

***6.6.3. Kreativ ideyanın tərəqqi seçiminin (Kdt) variantları***

Elmi mənbələrinin kreativ ideyanın tərəqqisinə söykənən əsərlər tamlığına və metodiki işləmələrinə görə fərqlənir; nəzəri biliklərinin texnoloji təhlillərinin miqyasında aparılan elmi tədqiqatlarının "hərəkət"də "praktiki enerji mənbəyi"nə çevrilir.

İdeyanın tərəqqinin texnoloji ümumi təsvivi ilk növbədə mövzunun xarkterindən asılı olaraq izahı dəyişilə bilər. Məsələn, tədqiqat prosesində əgər terminlər bir-biri ilə uzlaşırsa, onun tamamlanmasında iştirak edirsə, belə bir kompleks təqdim edilən mövzunun differensiallaşması metodikası üçün də tətbiq edilə bilər. İkinci dərəcəli bölmələr əsas mövzunun ətrafında paylandığı üçün, çox vaxt bu yanaşmaya sistematik işləmələri kimi də qəbul olunur[66].

Kreativ elmin "hərəkət"nin fonunda "praktiki enerji mənbəyi"nə çevrilməsi aparılan elmi-tədqiqat işinin texnoloji tərəqqisi ilə bağlıdır. Bağlılıq kreativ ideya aparatının ərazi təşkilinin texnoloji modelinin quyrulmasında və praktiki əməliyyatlarının aparılmasında da iştirak edir. Kreativ ideyanın praktiki həllində resurs tsikllərinin funksional seçimlərinin üstünlükləri nəzəri cəlb edir. Bu tipli seçimlər (və ya metodlar) kreativ düşüncə tərzinin reallaşması üçün faydalıdır.

Texnoloji tərəqqinin öyrənilməsini zəruri edən mühüm məqamlardan biri də onun çoxfunksional məqsədli praktiki mahiyyət daşımasıdır. Texnoloji tərəqqinin kreativ genezisi, qərarlaşması və davamlılığı coğrafi tədqiqat prosesində özünü göstərə bilir. Bu bir həqiqətdir ki, "kreativ texnoloji tərəqqi" ifadəsi təkcə coğrafi, iqtisadi sferada deyil, bütünlükdə cəmiyyətin varlığı üçün stimul yaradır. Cəmiyyətin bütün sferalarında adekvat dəyişikliklər yaradır.

---

[66] Мигдал У.Л. Ритмы,пространство и время. Л., 2004. с.39.

**Xülasə**

- Ümumi məzmunda ifadə etsək kreativ ideyanın tərəqqisi-coğrafiya elmi tədqiqatlarının yerinə yetirilməsi üçün çox faydalı və konstruktiv ola bilər.

- Kreativ ideyanın tərəqqisi ölkənin dayanıqlığını təmin edir; çoxşaxəli ərazi-istehsal kompleksinin yaradılmasında iştirak edir.

- Kreativ ideya metodiki aparatının yaradılması coğrafiya elmi tədqiqatının önəmli bir hissəsidir. Elmi tədqiqat prosesində istifadə edilən kreativ texnoloji seçimlərinin praktikası çoxşaxəli olub, mövzunun məqsəd və yeniliyinin fonunda "praktiki enerji mənbəyi"nə çevrilməsinə səbəb olur. Elmi araşdırma üçün bu məsələ yeni məzmunlu ideya mənbələri ilə bağlıdır.

- Kreativ ideya aparatının yaradılması tədqiqat işinin ən mühüm həssaslıq imkanıdır. Bundan istifadə etməklə coğrafi texnoloji modellərinin qurulması və praktiki cəhətdən istifadə edilməsi ölkənin ümumi inkişafı üçün strateji əhəmiyyətini artıra bilər.

- Kreativ ideyanın praktiki həllində resurs tsikllərinin funksional seçimlərinin üstünlüklərinin reallıqlarını nəzərə alınmasını məsləhət bilirik.

**Praktiki düşünək:**

1. Nə üçün kretiv ideyanın qəbul edilməsi yalınız tərəqqi ilə bağlıdır?
2. Kreativ qəbul etmə kodları haqqında nə əlavə etmək imkanı haqqında düşünün. Ondan istifadə edilməsinin yollarını müəyyən edin.

# YEDDİNCİ FƏSİL

# Tədbiqi elmi işləmənin texnologiyası

**Fəslin icmalı və tədqiqat məqsədləri:**

**7.1. Tədbiqi elmi işləmənin imkanları**
Coğrafiya elmi-metodiki səviyyəsində tədbiqi işləməsinə dair mülahizələr irəli sürülmüşdür.

**7.2. Tədbiqi elmi işləmə texnologiyası haqqında**
Coğrafiya elmi tədqiqatının daxili məzmununa əsasən işləmə texnoloji müəyyənlik sisteminə uyğun təklif və məqamlarına dair təkliflər irəli sürülmüşdür.

**7.3. Elmi işləmənin ehtimallığı və qərar qəbuletmə**
Coğrafiya elmin məqsədinin tələblərinin miqyasında ehtimallıqla birlikdə, qərar qəbuletmənin nə dərəcədə elmlilik olmasına dair fikir mübadiləsinə üstünlük verilmişdir.

**7.4. Mövzu seçimi və elmi işləmə texnologiyası haqqında bir neçə söz**
Coğrafiya elmində mövzu seçimi və işləmə texnologiyası ilə birgə fəaliyyət aparatı arasındakı təlimlərinə dair mülahizələrinin əsaslandırılmasına səy göstərilir.

## 7.1. Tədbiqi elmi işləmənin imkanları

***"Əsas şərt = çoxlu problemdən ən sadələrini seçməkdir ki, onların həlli konsepsiyasının ümumiləşdirilməsinə imkan versin."***

**D.Gilbert**

Tədbiqi elmi işləmələrinin imkanları iki mühüm seçimlə üzləşir: (1) tədbiqi elmin dərk edilməsinin texnologiyası; (2) aparıldığı tədbiqi tədqiqat sahəsinin medologiyasına düzgün qərar vermək imkanları.

Tədbiqi işləmənin texnologiyanın mənimsənilməsi coğrafiya elminin ümumi təliminin başlıca varislərindən biridir. Elmi düşüncəsində coğrafi biliklərinin ümumiləşdilmiş qaydalarının mənimsənilməsi ilə yanaşı, klassik və müasir elm sahiblərinin tədbiqi ideyalarına hörmətlə yanaşılmasının mədəniyyətinin olmasıda vacibdir. Söhbət elm sahiblərinin apardıqları konstruktivlik prinsiplərindən necə istifadə edilməsindən və coğrafi işləmənin nəzəri-metodoloji texnologiyasının vərdişlərinə yönəldilən qaydalarınının mənimsənilməsindən və onlara sahib olmasından gedir.

Buna nail olmaq üçün ilk növbədə öyrənilən problemin dərk edilməsi,onun konsepsiyasının elmi-metodiki dəyərlərinin hansı səviyyədə öyrənilmisinin tələbinin müəyyən edilməsinə nail olmasıdır. Bundan sonra aparılan təhlillərinin tələb və imkanına uyğun olaraq tədbiqi işləmənin texnologiyasına aid variantlarının yaranması baş verə bilər.

Tədbiqi elmi işləmələrinin varinatlarının düzgün seçilməsinin əsasında aparılan tədqiqat işinin tamamlanmasının demək olar ki, ≈ 50%-dir. Digər bir tərəf isə tədbiqi elminin dəyərlərinə qarşı kompleks məzmunulu (xarakterli) elmi mənbələrinə qərar vermə və eləcə də yeri müəyyən olmalıdır.

▪ ***İradə tərzi**: Nə vaxt ki = özündə sərbəst davranmaq qabiliyyətinə nail olmaq iradəsini hiss edirsən, heç nə ilə məhdudluğunu saxlaya bilmirsən, o zaman tədbiqi elmi işləmənin texnologiyasının həssaslığının önəmi yarana bilər. Özündə qüvvə tapıb elmi yaradıcılığının hər şeydən üstün tutan elm sahibinə çevrilə biərsən. Elm sahibi öz iradəsinə tabe olmalıdır.*

A.Eyneşteynin bir kəlamını yada salmaqla öz fikrimizə aydınlıq gətirmək olar: "Hamı bilir ki, bu şey ola bilməz, lakin bu şeyin ola bilməzliyini" bilmə-

yən bir nəfər tapılır və o, da həmin şeyi kəşf edir".

Coğrafiya elmin inkişafı illər keçdikcə, tədbiqi elmi araşdırmaların texnoloji metodikasının dəyişilmə prosesi yaranmış, yerinə yetirilən mövzuların konstruktiv sahələrinin sərbəstliyi artmış və yenililəşmişdir. Bu tipli yeniləşmə coğrafi mədəniyyəti ilə aparılan elmi tədqiqat işlərinin əksəriyyətində işləmə texnologiyasının imkanlarınının davamlı olaraq yeniləşmiş və çox funksional elminin xarakterinə çevrilmişdir.

## Gələcəyə baxış

- Tədbiqi elmi tədqiqatının imkanları coğrafiya elmi üçün dəyərli bir sahədir. Elm sahibi tədbiqi işləmə texnologiyasının üzərində hökmran olmalıdır. Bu halda apardığı elmi işinin nəticələrinin dərk etməyini qabaqcadan düymalıdr. Neçə ki=bir neçə gediş qabağa baxmağa çalışan şahmatçı kimi = bacarığına malik olmalıdır. Məsələnin bir tərəfi də onunla ölçülür ki, bütün elmi nəticələrinin əvvəlcədən dərk etmək, həm də onları təhlil obyektinə çevirmək qeyri-mümkün olmasını da nəzərə almağını da düşünmək lazımdır.
- Coğrafiya elmi tədqiqatında tədbiqi işləmə çərçivəsinin təyin etsək, minimal səviyyədə "nə vaxt" – "nə üçün" sualına cavabı kimi tədbiqi qərar qəbul etmək minimumu ifadəsinə nail olmaq olar.
- Coğrafiya elmin metodikasına cavab verən texnolji işləmə metodikasının qəbul edilməsi mövcuddursa və fəaliyyət göstərirsə, deməli tədbiqi işləmə prosesində iştirak edir.[67] Bu proses zamanı tədqiqatçı coğrafi obyektin təyinində "işləmə texnologiya" anlayışına həssaslıqla yanaşması və müqayisəli şəkildə problemə diqqət yetirməsi elmi işinin proqnizu üçün məqbul sayılır.
- Elmdə tədqiqat obyektinin təyini zamanı tədbiqi işləmə imkanları üçün ardıcıllıq əsas məsələdir. Buraya çoxsaylı informasiya mənbələrinə "hansı məqsədlə", "hansı nəticə" ilə sualına cavab verilməlidir.

**Praktiki düşünək:**

1. Tədbiqi coğrafi elmi işləmənin vərdişinə hansı yollarla sahib olmaq olar?
2. Elmi tədqiqat zamanı tədbiqi texnoloji variantlarını seçin və praktiki təhlillərini aparın.

---

[67] Qurbanzadə A.A. Dialektik coğrafiya. Bakı, 2017.

## 7.2. Tədbiqi elmi işləmə texnologiyası haqqında

***"Elm sahibi ona görə tədqiqatçı adlanır ki, problemin gerçəkliyinin həlli üçün qəti və hamıdan öncə tədbiqi elmi işləməni duyur və təhlil etməyi ifadə edir."***

Coğrafi informasiyalarını toplayıb işləmək üçün tədbiqi elmi işləmə texnologiyasına sahib olmaq imkanını qazanmaq lazımdır. Məsələ onunla ölçülür ki, tədbiqi elmi işləmə texnologiyanın "məhsulu" çox saylı konstruktiv elmi mahiyyət daşıyan coğrafi ideyalarına söykənir.

Coğrafiya elminin yaradıcılığının prizmasından baxılarsa, tədbiqi elmi işləmə texnologiyasının "məhsulu"nun[68] məqəsdində bir sıra suallar meydana çıxır:

- əgər tədbiqi elmi işləmə texnologiyası məhsul yaradırsa, aparılanan tədqiqat işləru bu sahədə nə dərəcədə meyilli ola bilər?
- tədbiqi elmi işləmə texnologiyasının "məhsulu"nun dinamikası hansı coğrafi faktorlarla bağlılıqları mövcuddur?
- elmi işləmənin qəbul edilən zamanı elmi-praktiki ideyalarının "nə vaxt"- "nə üçün" tədqiqat prosesinin inkişafı üçün yararlı ola bilər?
- qəbul edilməsi mümkün olan texnoloji ideyalarının davamlı olaraq aparılan elmi işinin coğrafi, iqtisadi-sosial və strateji əhəmiyyətinin nə dərəcədə effektli ola bilər?
- elmi işdə yeni işləmə texnologiyasının gerçəkliyinə ehtiyac duyulurmu? və s.

Tədbiqi coğrafiya elmi üçün "texnologiya" ifadəsi çoxşaxəlidir. Metodoloji əsaslara söykənən coğrafiya elmi tədqiqatlarının texnoloji tərəqqiyə və işləmə seçimlərinə arxalanmalıdır.

Tədbiqi elmi işləmələrinin texnologiyasından danışarkən, coğrafiya elmində mövcud effektiv təhlillərinin elmliyinə və metodki önəmlərinə dair mənbələrinə üstünlük verilməsini məqsədəuyğun sayırıq. Burada önəmli məsələlərinin təhlili

[68] Burada "məhsul" ifadısindən həm ideyanın tədbiqi, həmdə seçimin texnologiyası kimi istifadə edirik.

zamanı əldə edilən nəticələrinin əsasında elmi işinin tamamlanmasıda resurstutumlu, elmtutumlu davamlı sahələrinin ərazi təşklinin optimal texnoloji variantlarının mövzunun tələbinə uyğun kimi qəbul olunmalıdır.

▪ ***Məntiqi yanaşma:*** *Texnoloji tərəqi dedikdə ağlımıza, əsasən böyük kəşflər gəlir. Bu kəşflər texnoloji tərəqqinin iqtisadi amillərindən yox, elmi araşdırmalarından qaynaqlanan bir proses olduğunun təsəvvürü yaranır. Reallıq ondan ibarətdir ki, texnoloji tərəqqi* ***elmi-tədqiqat və işləmə*** *fəaliyyətinin nəticəsidir.*

Elmi fikir tarixinin dövriyyəsinə daxil olan "texnologiya" ifadəsinin mümkünlüyü tədqiqtcılarının elmi yaradıcılığının fəaliyyətləri üçün uğurlu metodiki əsasa çevrilmişdir. Belə bir sual ortaya çıxa bilər: bu məsələlərin həyata keçirilməsində coğrafiya elminin nə kimi ideya istiqmətləri və rolu var? Maddi varlığının enerji mənbəyiyinin çərçivəsində "coğrafi mühit-cəmiyyət" dialektikasında texnoloji tərəqqinin mövqeyi və təsir qüvvəsinin davamlığının əsasında inkişaf edir. Bu səbəbdən də coğrafiya elminin yaradıcılığının aparatında yeni istiqamətli elmi-tədqiqat sahələrinin yaranmasında özünü göstərir.

Elmi-tədqiqat və işləmələr coğrafiya elmində tədbiqi kompleks ərazi təşkilinin metodikasının əsaslarına söykənən tədqiqat işlərinin "məhsulu" bütün dövrlər üçün ideya mənbəyi olmuş və olmaqdadır. Bu idealogiya qloballaşan cəmiyyətin davamlı inkişafı üçün mühüm əhəmiyyət kəsb etmişdir (edir). Tədbiqi elmi işləmələrinin texnoloji düşüncə tərzində coğrafiya elminin tədqiqat sahələrinin yaranmasında, dinamik inkişafında xüsusi yeri, praktiki fəaliyyəti inkar edilməzdir .[69]

İşləmə texnologiyasının məqsədində aparıcı istiqamətlərindən biri də elmi-texniki məhsulunun formalaşmasında coğrafi ideyalarına söykənməsindən bilavasitə bağlıdır. Qəbul edilən bir ideya[70], eyni zamanda bir neçə tədqiqat işlərində də istifadə edilməsi mümkündür.

---

[69] Qurbanzadə A.A. İnsanşünaslıq. Bakı. 2009. s.124.

[70] Burada" ideya"-tədqiqat üçün məhsul yaratma potensialı nəzərdə tutulur.

# İrəliyə baxış

- Coğrafiya elminin işləmə texnologiyasının yanaşma metodikasında tədqiqat üçün mövzuya aid qərar qəbul etmə informasiyasının müəyyənliyinin yaratmış olduğu coğrafi seçimlərinin maraqlarına uyğun olmalıdır. Bu məsələ elmi işinin yerinə yetirilməsi üçün çox aktualdır.

- Coğrafiya elmində istifadə edilməsində mümkün olan struktur sahələrinin davamlı texnologiyasının elmi-metodik mənbələrinə əsaslanmalıdır. Elmi işinə imkan yaradan ideyalarının yenidən baxılmasının zəruriyyətlərinə həssaslıqla təhlillərinin aparılmasıdır. Bu ideya istiqamət coğrafiya elminin irəliyə baxışın tərəqqisidir.

- Coğrafiya üzrə elmi işləmə texnoloji qaydaları üzrə yerinə yetirilməsi, həm metodiki, həm də praktiki cəhətdən konstruktiv mövqeyə malikdir. Mövcud olan qaydalarla bərabər, iddiaçı özünün təklif etdiyi yeni məzmunlu ideyalarını da önəmə gətirməlidir. Bu elmi işin keyfiyyətini artıra bilər.

- İrəliyə baxışda bir sıra suallarının cavablarına maraq doğurur: hansı alternativ coğrafi elmi (təbii, biocoğrafi, ekocoğrafi, sosial və s.) strukturlar texnoloji işləmə dəyərliliyə (sərfəliliyə) malikdirlər? Ehtimal mövcud olmadığı hallarda biz öyrənilən dəyərlərinin məqsədli tədqiqat müqayisının tamlığı üçün maraq göstərməliyik?

**Praktiki düşünək:**

1. Təhlil edilmiş işləmə texnologiyası coğafiya elmi tədiqatının dinamikasında nə dərəcədə iştirak edə bilər?
2. Tədbiqi texnoloji innovasiyalardan ərazi-istehsal kompleksinin tərəqqisindəki yerini təyin edə biərsinizmi?
3. Elmi işləmə texnologiyalara münasibət bildir.

## 7.3. Elmi işləmənin ehtimallığı və qərar qəbuletmə

***"Hər bir tədqiqat işi ehtimaldan başlanır. Bu başlanğıcda tədqiqatçının özünə məxsus elmi məramı olmalıdır."***

Coğrafiya elmin işləməsinin məramının yolu = ehtimallıqla birlikdə, qərar qəbuletmənin nə dərəcədə elmlilik olmasından = bilavasitə asılıdır.

Coğrafiya elmi işləmənin ehtimallığının prinsipindən qərarlaşması=həm metodoloji, həm də qərar qəbuletməsinin elmliyinin baxımından öyrənilməsi üçün çox əhəmiyyətlidir. Daha dəqiq desək, bu əhəmiyyət baxımından, bizi hansı suallar maraqlandırmalıdır:

- coğrafi elmi işləmənin təhlili daha çox və hansı alternativ yanaşmalarına üstünlük verilə bilər?
- qərar qəbuletmə prinsipinin ehtimallığının nə kimi dəyərliliyə malik ola bilər?
- ehtimal mövcud olmadığı hallarda elmi qərar qəbuletmə funksiyalarının işləmə effektliyi məqsədəuyğundurmu?
- işləmənin ehtimallığına hesablanan coğrafi tədqiqatın keyfiyyət parametrinin iştirakı nə kimi faydalılığı ola bilər?

Elmi işləmə ehtimallığının mövcud olduğu şəraitdə tədqiqatın "hərəkəti" üçün xarakterik olan elmi qərar qəbuletmənin kriteriyasının mühüm məqsədlərə malik olması ilə fərqlənir. Tərtib edilmiş işləmənin variantlarının göstəriciləri coğrafiya elminin sabitliyini qoruyur və tədqiqat sahələrinin "gücü"nün potensialılını artırır.

▪ ***Haşiyə:*** *Keçən əsrin ortalarından başlayaraq coğrafiya elmi məktəblərində və eləcə də elmi nəşrlərində müəyyən səviyyəli "coğrafi ehtimallıq və qərar qəbuletmə"terminin funksialarına dair məlumatlar meydana gəlmişdir.*[71] *Əhatə etdiyi çərçivələrinin arasında coğrafi ehtimallığının müxtəliflik elmi sahələrinin variantlarının qəbul edilməsi və ya edilməməsi məsələlərinin müzakirələrinin əhatəsində əks etdirən məqalə və tezislərində özünü göstərmişdir.*

[71] Факторная география: общее определение, обзор, критические замечания (сборник). Киев. 1968. с.124.

Coğrafiya elmi işləmənin ehtimallığı ilkin və sonluğunda əldə edilmiş nəticələrinin praktikasına əlavə məlumatlarının ötürülməsinin qaydalarına münasibət bildirməkdir. Əhatə etdiyi əlavə məlumatlar = tədbiqi elmi işləmələrinin çərçivəsi=coğrafi mövqe səviyyəsinin kombinasiyası vasitəsilə müəyyən edilir (7.3.).




R= ehtimal işləmə seçimin səviyyəsi
L= işləmə qərar qəbuletmə səviyyəsi
E= tədbiqi elmi ehtimalın səviyyəsi

*7.3. Tədbiqi elmi işləmənin kombinasiyası (səviyyə variantı)*

Tədbiqi coğrafi elmi işləmə variantlarının müəyyənliyinin təyini ilə bərabər, texnoloji tempinin davamlığı ilə uzlaşmasına dair təhlillərinin aparılmasına da diqqəti artırmaq lazımdır. Başqa ifadə ilə desək, coğrafiya elmində baş verən dəyişkənliklər "ehtimal işləmə - qərar qəbuletmə - tədbiqi elmi ehtimal" şəbəkəsinin tamlığının uzlaşdırılmış kodlarından təşkil olunmasına üstünlük verilməlidir. Bu üstünlüklər elmi-tədqiqatının məqsəd və vəzifələrinə uyğun olaraq kombinasiyaları yerinə yetirilməlidir.

Konstruktiv seçim müstəvisində coğrafiya elminin qarşıiya qoyduğu "kombinasiya" terminində çoxməqsədli funksiyalarının təhlillərinin variantlarından istifadə edilməsi nəzəri cəhətdən düzgün sayılır. Bu məqsədlə variantlarının coğrafiya elmi yaradıcılığında önəmə gətirilməsi ilə metodiki qərar qəbuletmə funksiyalarının işləməsinin səbəbindən aparılan elmi-tədqiqatlarının xarakterinin dəyişilməsinə səbəb olmuşdur.[72]

▪ ***Yaddaş**: Bir çox mürəkkəb coğrafi sistemlərinin yaranması və elmin dövriyyəsinə daxil edilməsinin nəticəsində müxtəlif elmi-metodoloji ideyalarının formalaşmasına səbəb olmuşdur (enerji istehsal tsikllər, metakartoqrafiya, coğrafi innovasiya və s.).*

[72] Qurbanazadə A.A. Analitik coğrafiya. Bakı. 2018. c. 80-87.

Elmi-metodoloji araşdırmalarının ardıcılığının məqsədində bir tərəfdən elmin konstruktiv və kombinasiyalı təhlillərinin aparılmasında yer tutulması ilə yanaşı, həm də davamlı olaraq ziddiyyətli tərfələrinin olmasına dair mənbələrinə də rast gəlinir. Bu zaman təqdim edilən kombinasiyallı seçiminin məqsədinə çatmaq üçün nəzəri-praktiki ideyalarının tələblərinə uyğun olaraq müəyyən variantlı modellərinin qurulmasına səy göstərilməlidir.

Zidiyyətli tərəfin üstünlüyü isə qərar qəbul etmə ideyasının məqsədlərinə çatmaq üçün geriləməsinə səbəb olur. Beləliklə, öyrənilən hər hansı məsələdə tədqiqatçı elmi işləmə zamanı qərar qəbul edəndə ziddiyyət təşkil edən məqsədlərindən hansının rasional coğrafi işləmə miqyasının faktları ilə üzləşir.

> Rasional coğrafi işləmə keyfiyyətini özündə hiss edən tədqiqatçı geniş təxəyyülə malik olur. Rasional qərar qəbuletmədən aparılan elmi tədqiqatın optimal varaintlarının tapılması qeyri-mümkündür.

Rasional coğrafi işləmə ifadəsi - texnoloji ehtimallıq üstünlüklərinin qazanılımış situasiyalarda "hərəkət" güçünü artıran variantlarını özündə birləşdirir. Rasional coğrafi işləmə miqyasını tədqiqat sahəsində bir neçə fərqli formula da ola bilər. Kapital tutumlu istehsal sahələrinin texnologiyası, xammalın emalına maliyyə vəsaitlərinin qoyuluşunu və s. fərqli "hərəkət" formulaları fəaliyyət göstərir. "Hərəkət" formulanın güçünün artırılmasında ənənəvi coğrafi tədqiqatlarının mövqeyi və rolu inkar edilməzdir. Bir qayda olaraq elmi-tədqiqatın güçü üçün tədbiqi yönümlü metodologiyanın işləmə qaydalarınıdan istifadəsinə aid mənbələrinə üstünlük verilməlidir. Bu hallarda sadəcə tədbiqi xarakterli ehtimal üsullarından istifadə edilməsinin və onun tədqiqat prosesindəki üstünlüklərini nəzərə almaqla həyata keçirmək imkanları meydana çıxır.

Tədqiqat üçün işləmənin optimal elmi-metodoki variantlarının seçilməsi çox vacibdir. Bu sahədə rasional-intellektual qərar qəbul edilməsi geniş miqyaslı problemlərinin həlli ücün perspektivli imkanlar yarada bilər. Məqsədli mənbələrlə təmasda olmaq, fəal coğrafi yanaşma tərzi, məsələyə yaradıcılıqla yanaşmaq və fənlərarsı əlqaələrinin müqayisə etməklə aparılan elmi işinin xarakterik cəhətlərindən biridir.

Elmi-nəzəri və fəlsəfi mənbələrə ciddi yanaşmaq, cəsarətlə coğrafiya elmi təhlillərinin əsasında qurulan monoqrafiq və fundamental əsərlərininin tematikasına yiyəlmək tədqiqatçının qarşısında duran vəzifələrindən biridir. Müasir coğrafi elminin yaradıcılığında sürətlə dəyişilən innovativ seşimlərinin qəbul edilməsinə

qədəm qoymuşdur. Sürətlə dəyişilən elmi axtarışlarının ehtimalı o, qədər artmışdır ki, onun dərkinin tempini "kosmik hərəkətlə" belə müqayisə etmək olar.

Deməli işləmə ehtimallığı və qərar qəbuletmək imkanın templərinə uyğunlaşdırmaq, tədqiqat prosesində elmlilik və dinamiklilik əldə etmək imkanına malik olmaq lazımdır. Bu deyilənlərlə səsləşən bir kəlam mövcuddur: "Yer kürəsi hərəkət edir, biz də onunla bərabər".

A.X.Mirzəcanzadənin belə bir fikiri diqqətimizi cəlb edir: "Elmi faktlar, ancaq onları asılı olmayaraq təkrarən yenidən əldə etdikdən sonra öz varlığını büruzə verməyə başlayır". Bu bir həqiqətdir ki,elmi faktlarının seçimi, onların təkrar təhlillərinə qayıtmaq məqəsdləri elm sahiblərinin düşüncə tərzinin bir hissəsi olmuşdur.

Bundan belə bir nəticə çıxartmaq lazımdır ki, elmi-tədqiqat işlərinin aparılması üçün, əvvəlcə, artıq təhlil edilmiş elmi mənbənin nəticələrini yenidən işləmək lazıımdır. Bu istiqamət qərar qəbuletmə prosesinin davamlığından asıllı olaraq dəyişilməsinin səbəbindən yarana bilər. Elmdə belə bir deyim var = yaradıcılıqla təhlil edilən araşdırmalarının təkrar etmələri nəyinki ziyandır, hətta mütləq bir zəruriyyətdir = ifadəsi fikrimizcə çox aktualdır.

▪ ***Məna ifadəsi:*** *Düşündürücü məqamlardan biri də,coğrafiya elmi araşdırmaları zamanı nüfuzdan salan tədqiqat mövzularının seçilməsi və təqdim edilməsidir. Simvolik olaraq bir misal gətirək.Tutaq ki, təqdim edilən mövzu ilə əlaqəli təklif olunur ki, "Azərbaycanda banan yetişdirək". Buna qulaq asmaq olar, çünki ölkənin kənd təsərrüfatı üçün yeni təklifdir. Sonra isə buna oxşar elə tədqiqatların aparılması, eləcə də bu ideya tədbiq olunarsa kənd təsərrüaftının coğrafiyasında nə baş verdiyini qəbul etmək olarmı?*

Aktual mövzularına maraq göstərən elm sahibləri yuxarıda göstərilən məsələlərlə heç vaxt məşğul olmaq fikrində ola bilməz. Tədqiqtçının qarşısında problematik məsələlərinin öyrənilməsi, elmlilik istiqamətləri durur. Nəticədə isə elmi-tematik mövzularının artmasına dair metodiki yanaşmalarının meydana gəlməsinə səbəb olur.

▪ ***Seçim qarşısında:*** *Problemə ümumiləşdirilmiş coğrafi ehtimallığının tələbinə uyğun yanaşmaq məqsədəuyğun formada olmalıdır. Ölkəmizdə aparılan*

*coğrafi tədqiqatlarda ehtimallığının artımının elmi-metodoloji, eləcə də praktiki məqsədləri üçün dəyərlidirmi? Tam mənada isə əlbətdə aparılan tədqiqatlarının cəmində kifayyət qədər yox!*

Nəşr olunan əsaslərinin (əlbətdə çox deyil) coğrafiya elmində tədbiqinə dair verilən konstruktiv təkliflərinin ölkənin iqtisadi-sosial həyat tərzində, eləcədə ali məktəblərinin tədris proqramlarında yer ala bilməmsi ilə rastlaşmaq olur.Bu səbəbdən də ali məktəblərinin tədris proqramlarında coğrafiya elminin davamlı inkişafı üçün dəyərli (kompeks məzmunlu) mövzu seçimlərini özündə birləşdirən elmi-tematik planlarının olmaması narahatlıq yaradır.

Elmə aid olmayan, tələbələri düşündürməyə vadar etməyən, məzmunsuz, təkrar fənlərinin tematikasının tədris proqramlarına salınmasını da bu qəbiləyə daxil etmək olar.

Tədris proqramlarında elmiliyi nəzərə alan və kompleks coğrafi elmi tədqiqat işlərinə üstünlük verilməsinə dair problemlərinin önümlüyünü məsləhət bilirik. Bu coğrafiya elminin inkişafı üçün çox mühüm bir istiqamətdir. Rasional coğrafi işləmə metodikası üçün təklif edıən seçim ilk növbədə kompleks məzmunlu problemlərni "hərəkət"ə gətirir və məqsəd tamamlanır. Əhəmiyyətli məqam ondan ibarətdir ki, işləmə ehtimalın və qərar qəbuletmə mühitinin "hərəkət"in məqsədyönlü təlimlərinin təşkili üçün metodiki variantlarından istifadə edilməlidir.

▪ ***Ətraflı araşdır:*** *Coğrafiya elminin aparıcı metodikasında "zaman-məkan"nun qəbuletmə terminoloji faktorunun müəyyənlik halının öyrənilməsi vacibdir. Müəyyən məsələlərinin həllində bu önəm elmi-praktiki cəhətdən faydalı olmasına baxmayaraq, çox vaxt vacib nəticələrinin rasionallığının əldə olunması üçün müəyyən zaman kəsiyində vaxt tələb olunur. Misal üçün, elmi dəyərlərini özündə birləşdirən və yenilikləri tədbiq etmək bacarığı üçün coğrafiya elmi kadrlarının hazırlanmasına çox vaxt və illər ərzində kifayət qədər vəsaitlərinin hesabına yaranır.*

Coğrafiya elmi yaradıcılıqda mövzunun seçiminin xarakteri və dərkindən asılı olaraq tədbiqi işləmə qaydalarının müəyyənliyi önəmli məsələdir. Hər hansı coğrafi yanaşma təlimində elmi işləmə variantlarının qəbul olunmasının qaydaları sonrakı araşdırmanın məqsəd və vəzifələri üçün dayanıqlı mühitinin yaranmasına səbəb olur.

Dinamik olaraq, ilkin qəbul olunmuş hər hansı bir elmi işləmə qaydaları, sonrakı mərhələ üçün "qapalı", digərlərinin isə "açıq" ola bilər. Elmi işləmə ehtimalının prosesində "qapalı" və ya "açıq" önəminin faktiki olaraq qəbul edilən qaydalar coğrafiya elmi tədqiqatının xarakterindən və əhatə dairəsinin metodikasından asılıdır.

## Xülasə

- Coğrafi tədqiqat üçün işləmə ehtimallıq və qərar qəbuletmə funksiyaların əsaslandırılması həm elm, həm də praktiki-strateji məqsədli araşdırmalarının bir hissəsidir.
- Tədqiqatın işləmə ehtimallıq"hərəkət"in gücü tədqiqatçının qarşısına qoyduğu məqsədə doğru nə dərəcədə davranma cəhdindən asılıdır.
- Elmi tədqiqatın ehtimallıq təhlilinin önəmində coğrafi təbii-iqtisadi sistemlərinin müqayisəli davranışının variantlarının seçimini aparmaq qərar qəbuletmə ilə eynilik təşkil etməlidir.
- Təbii kompleksin işləmə ehtimallığı baxımından ən rasional seçimi coğrafi tamlılığının proqnozları hesab olunur.
- Mövzunun xarakterindən və metodikaısndan asılı olaraq ehtimallığının müəyyənliyi aparılan elmi işinin aktuallığını özündə birləşdirir.
- Hər hansı coğrafi işləmə ehtimallığına aydınlıq gətirilməsi, onun tam həllinin müəyyən "məkan – zaman" çərçivəsinin təsiri ilə hesablanır.
- Problemə dair qəbul olunmuş tövsiyyələrinin reallıqlarını önəmə gətirilməsi çox vacib məsələlərdən biridir. Faktik olaraq qərar qəbul edən zamanı elmi işləmə ehtimallığının metodoloji əsasını coğrafiya elmi tədqiqatının xarakterinə tabe olmalıdır. Elmi işinin əhatə dairəsinin tamamlanmasında iştirak etməlidir.

**Praktiki düşünək:**

1. Elmi işləmə ehtimallığının nəzəri və parktiki cəhətləri üçün mənbələrini seçin.
2. Coğrafi elmi işləmə metodikası üçün yeni fikir söyləmək imkanın varmı?
3. Coğrafi elmi işləmə və coğrafi seçim arasında fərqlərinin müəyyənliyinə fikir verin.
4. Təhlil zamanı elmi-metodiki qaydaları üçün variantlarının seçimini nəzərdən keçirin.

## 7.4. Mövzu seçimi və elmi işləmə texnologiyası haqqında bir neçə söz

***"Hər hansı hadisəni dərk etmək - onun modelinin qurmaq - metodoloji yenilik deyil, bu çoxəsrlik elmi yaradıcılığının sintezidir."***
**V.Tomson**

Tədqiqatçı özünü ifadə etmək ehtiyacı: apardığı elmi işinin yaradıcılıq texnologiyasını və metodlarını tapmalı və ona əməl etməlidir. Bu mövzu seçimində yaradıcılığının enerji mənbəyidir.

Mövzu seçimi və elmi işləmə texnologiyası = yaradıcılıq üçün enerji mənbəyi = elm sahibinin tələb olunan qanunu təfəkkür tərzidir. Bu fikirlər hər bir tədqiqatçının tələbat nöqtəsidir. Öyrənmək istədiyi hər hansı bir sahəyə uyğun metodika və nəzəri əhəmiyyətli mövzu seçiminə, bu sahədə elmi işləmələrinin aparılmasının hüququna sahibdir.

Çox vaxt dissertant öz mövzu seçiminə aid siz hansı metod və nəzəri texnologiyadan istifadə etmək istəyirsiniz? Sualını verdikdə, ənənəvi olaraq sualının cavabında isə demək olar ki, bütün metodlarını bir qayda ilə sadalayır. Bu məqsədəuyğun və düzgün yanaşma tərzi deyil. Qəbul edilən mövzu seçiminin "ruhu" ilə metodiki qaydalarla yaşamaq, onu dərk etmək, tələb olunan metolarına və nəzəri seçimlərinə qayğı ilə yanaşmasına üstünlük verməlidir. Mövzu seçimi və elmi işləmə texnologiyasının aparatının "inşası"ni başa çatdırıldıqdan sonra tədqiqat işinin başlanmasına qərar vermək mümkündür. Mövzu seçimi və elmi işləməsinin haqqındakı qaydalarının texnologiyasının metodikası məhz bunu tələb edir.

- ***Məntiqli önəm**: Mövzu seçimi və elmi işləmə hissinin əsasında həm elmi tədqiqatlarının daha effektli aparılmasına, həm də elmi yeniliyinin müəyyənliyinə xidmət edir. Aparılan tədqiqatlarının nəticələrinin elmi-praktikası üçün dərk edilən yanaşmalarının tamlığının yekunlaşması bununla əlaqələndirilir.*

Elmi-tədqiqat işi ilk növbədə mövzunun seçimi ilə başlayır. Bu səbəbdən də elmlilik dəyərlərini özündə əks etdirən mövzu seçiminin texnologiyasının yaddaşının məntiqinə həsasslıqla yanaşmaq lazımdır.

Həssaslıq prinsipi mövzu seçiminin əsas mənbəyi və tədqiqatın elmlilik sonluğu ilə bitməsi üçün metodiki qaydadır. Bu qaydaya daxildir: tədqiqatın başlanğıc nöqtəsi, sonluğun nöqtəsinə qədər davam edən seçilmiş metodiki variantlar, elmi işinin "tələb-təklif" məqsədləri və s. Bu zaman tədqiqatın "tələb-təklif" miqyasında mövzuya uyğun materiallarının yığımı, elmlilik qaydaları ilə təhlillərinin işləmə metodikasına qayğı ilə yanaşmağını təklif edirik.

Coğrafi elmi mövzunun seşimi və işləmə texnologiyasına görə, öyrənilən probleminin səlis məntiqli mühakimələrlə izahı və əsaslandırlılması mümkündür. Həddən artıq ümumi və qeyri-müəyyən seçilmiş mövzunun yerinə yetirilməsini dəqiq elmi işləmələrlə və qərar qəbuletməklə, nə izah etmək, nə də müəyyən nəticələrinə gəlmək olmaz.

Kompleks məzmun daşıyan elmi mövzunun seçilməsinin texnologiyası yüksək dəqiqlik tələb edir. Dəqiqlik fonunda müxtəlif məzmunlu mövzularının informasiyasına nail olmaq və eksperimentlər aparmaqla yanaşı, müəyyən praktiki-tədbiqi idrak funksiyalına qarşı meyilliyinin də artırmağına diqqət yetirilməlidir. Bu məsələ elmi-tədqiqat üçün çox vacibdir.

Mövzu seçimi və işləmə texnologiyasının eksperimenti zamanı ortalığa bir sıra suallar meydana çıxa bilər:

- mövzu seçimi zamanı hansı məqsədli coğrafi tədqiqat sahəsini məqbul saymaq olar?
- təklif edilən elmi işləmə texnologiyası tədqiqatın metodiki cəhətdən ardıcıl suallarına cavab tapmağa kömək edə bilərmi?
- eksperimentlər aparılmadığı hallarda hansı mövzu seşimi və işləmə konturları tədqiqat üçün əhəmiyyətli dərəcədə effektli və ya effektsiz ola bilər?
- mövzu seçimi və elmi işləmə texnollogiyası coğrafi proqnoz aparatı üçün eksperiment aparmaq imkanına malikdirmi və ya bu tələb olunurmu? Əgər tələb olunursa, hansı eksperment daha çox mövzunun öyrənilməsinə uyğun informasiya verər? və s.

Nəticə göstərir ki, coğrafiya elmində müxtəlif mövzular, işləmələr və ya xarakterik metodlarının (mövzular üzrə) əsasında tədqiqat işləri yerinə yetirilir. Onda belə tədqiqat mövzularına "çoxfunksional (çoxölçülü)" ifadısi daha çox uyğun gəlir. Belə mövzu seçimi ilə effektli və elmlilik dərəcəli nəticələrinə nail olmaq imkanı yarana bilər: imkanı harda və neçə axtarmaq lazımdır sualı meydana çıxır.

Cavabı sadə və həm də çox mürəkkəbdir. Sadədir ki, texniki cəhətdən çox dərin bilik tələb olunmur; mövzu seçimi ona qarşı inam və elmi həvəsindən ibarət olmasıdır. Bununla yanaşı, mövzu seçimi şablon xarakterli olmamalı. Tədqiqatçı = mövzu seçimində elmtutumlu və əhatəli, praktiki məqsədlərini özündə birləşdirən problemlərinə meyl göstərməlidir. Məntiqi mühakimə yolu ilə getmək bacarığına malik olması əsas məsələdir. Bu yol onu sadə və təkrar elmi işlərdən,şablondan qaçmağa məcmur edə bilər. Başqa ifadə ilə desək, şablondan qacmaq, sonrakı mərhələdə isə böyük qüvvəyə çevrilir. Mürəkkəblilik bununla ölçülür.

Bu zaman müxtəlif mümkün hadisələr üçün çoxsaylı təklif və nəticələrə dair subyektiv ehtimallarının müəyynliyi aşkar olunması mümkündür. Buraya coğrafi elmi bilgilər, mövzu seçimi ilə təkliflərin üst-üstə və s. çoxfunksional metodiki qaydalarını daxil etmək olar:

- mövzu seçimində coğrafi kompleksinin metodiki müəyyənliyi;
- elmi işləmənin texnologiyası üzrə tədqiqatın parametrlərinin təyini;
- təklif edilən mövzunun struktur modelinin qurulması;
- işləmə texnologiyanın proqnozunun elmi-praktiki aparatının tamamlanması və s.

Qeyd etmək istərdim ki, elmi düşüncə sahibinin öz tədqiqat mühitinin partiturasının dirijorudur. Buna görə də, tədqiqat zamanı “orkestrlə” öz işləmə metodikası ilə rəftar etməyi bacarmalı və elmi təhlillərinə “dirijorluq” etməyi bacarmalıdır.

Dediklərimiz bir daha təsdiq edir ki, mövzu seçimi və elmi işləmənin metodikası aparılnan tədqiqatın dürümüna dair təhlillərinin üstün cəhətlərinə daha ciddi yanaşılmalı və “lazımsız” yanaşmalarından xilas olunmalıdır.

Məqsədli mənbələrlə təmasda olmaq, coğrafiya elmi üçün “elmin güçü nədədir” mözularını seçib və onu coğrafi təfəkkür tərzinə çevirmək tələbinə cavab verməlidir. Coğrafiya elminin inkişafı bilavasitə mövzu seçimi və işləmə texnolofiyanın qaydalarının haqqında biliklərinin toplusunun yaradılmasını tələb edir. Sürətlə dəyişilən elmi informasiyaların dövründə mövzu seçimi çox aktualdır. Ona görədə mövzu seçimində tədqiqatçıda böyük səbr və cəsarət tələb olunur. Əgər bunlar varsa, o zaman kompleks və həssaslıq xarakterli elmi işlərinin yerinə yetirilməsinin mümkünlüyü yarana bilər.

# İrəliyə baxış

- Elmi mövzunun seçilməsi informasiyanın çatışmaması emosiya[73] (fransız dilində "həyacanlanma" deməkdir) ilə təmin etmək lazım gəlir. Buradan belə bir nəticə əldə etmək olur ki, tədqiqat prosesində emosiyasız həqiqi axtarış demək olar ki, effekt yaratmaq imkanını mədud edir. Əqli mülahizə qabiliyyətinin "aktivləşdirlməsi" üçün elmi dəyərlərə, düşüncə tərzinə malik əsərlərinin oxunması və dərk edilməsi lazımdır. A.Eynşteyn belə bir məntiqi vardır – "Dostoyevskinin yaradıcılığı mənim elmi axtarışlarıma, hər hansı böyük dühanın əsərlərindən daha çox kömək etmişdir."- mülahizəsi bu sahədə mühüm əhəmiyyət kəsb edir.

- Mözu seçimi ümumi elmi-metodiki işlərinə təsirinə dair araşdırmalarm kompleks məzmuna cavab verməlidir. Bu araşdırmalarda ayrıca götürülmüş hər hansı elmi mənbənin ardıcılığı tədqiqatın tələbi ilə müqayisə olunması mühüm şərtdir.

- Gələcəyə baxışda müqyisə metodikası tədqiqat ilə işləmə texnologiyasının arasında seçim coğrafiya elminin tələblərinə uyğun olmalıdır. Bu o, deməkdir ki, mövzu seçimi və işləmə düzgün düşünülmüş metodikaya söykənməlidir.

- Mövzu seçimində qərar qəbuletmək və buna uyğun olaraq problemin həlli üçün bir sıra işləmə texnologiyanın tədbiqi elmlilik səviyyəsinə malik olmalı və onu tamamlanmasına xidmət etməlidir.

**Praktiki düşünək:**

1. Mövzu seçimində ümumi elmi-metodiki baxışında hansı problemlərlə məşğul olmaq istəyirsiniz?
2. Mövzu seçimi və işləmə texnologiyası üçün "metodiki aparat" sxemini yaradın. Burada yollar axtarın.

[73] Mirzəcanzadə A.X. İxtisasa giriş. Bakı,1990.

# SƏKKİZİNCİ FƏSİL

# Elmi tədqiqat işinin məhsulu haqqında

**Fəslin icmalı və tədqiqat məqsədləri:**

**8.1. Elmi məhsul - başlanğıc ideya nöqtəsinin dərkidir**
Coğrafiya elmi məhsul ideyanın əsas keyfiyyət mənbələri haqqındakı başlanğıc nöqtənin dərkinə üstünlük verilir.

**8.2. Tədqiqat məhsulun elmi ölçüsünün kardinal dəyişkənliyi**
İdeya"məhsul"un metodiki ölçülərinin kardinal dəyişkənliyinin konturlarına münasibət bildirilir. Məqsəd aydınlığı, coğrafi biliyinin dəqiqliyi, ondan kompleks istifadə etməyin effektliyi önəmə gətirilir.

**8.3. Tədqiqatın elmi məhsula olan tələbin müəyyənliyi**
İdeyanın mövzuya uyğun geniş coğrafi biliklərinin praktikasına nail olmağına dair materiallar verilmişdir. Coğrafiya elminin ideya mənbələrinin öyrənilməsi və praktiki tədbiqinə əsalananaraq bir sıra məqamlarını önəmə gətirilməsi məsələləri tədqiqat obyekti kimi qəbul olunmuşdur.

**8.4. İnnovativ elm sahibi haqqında bir neçə söz**
İnnovativ elm sahibinin mövcudluğu müasir coğrafiya elmi tədqiqatının əhəmiyyətli bir ideya mənbəyi kimi dəyərləndirilir.Coğrafi resursun yeni keyfiyyəti ilə bağlı elm sahiblərinin maraq dairəsinə daxil olmuşdur. İnnovativ coğrafiya elminin əsas problemlərinə dair geniş məzmunda araşdırmalarına üstünlük verilmişdir.

## 8.1. Elmi məhsul - başlanğıc ideya nöqtəsinin dərkidir

***"Elmi məhsul-başlanğıc ideya nöqtənin davamlı olaraq dərk edilməsindən irəli gəlir."***

> Elm sahibinin yaradıcılığının xarakteri adətən onun ideyalarının elmi- praktiki təhlillərində və ideya məhsullarının üzərində qurulmasında özünü göstərir. Elmi ideyaya böyük maraq göstərilməli və davamlı olaraq öyrənməlidir. Bu elmi işçinin əldə etdiyi "məhsul" üçün əsas keyfiyyətdir.

Filosfoların kəlamlarında deyilir ki, "Dünyanın hökmranı ideyalardır". Deməli, dünyanın dərki fəlsəfi ideyalar üzərində "qurulmuşdur", davamlı olaraq dinamikdir. Bu səbəbdən də elmi ideya başlanğıc nöqtənin davamlı dərkinin əsas komponentlərini özündə birləşdirir.

İdeya = (yun. anlayış, fikir və s., deməkdir) elmə daxili məzmun verir,onun dərk edilməsinin məzmunu və dinamik olaraq "məhsul"[74] əldə etmək imkanlarını yaradır. Bu məqsədlə göstərə bilərik:

D ideya G ideyasına çevrilir
| ⟶ |
elmi məhsulun dəyərini yaradır

Dövrün tələblərinə uyğun olaraq çoxşaxəli informasiya çərçivəsində coğrafiya elminin qarşısında çox mühüm məsələlər durur. Bunu nəzərə alaraq, məxsusi tədiqatlarının aparılmasına yönəldilən yollarının artmasına səbəb olmuşdur. Coğrafiya elmi mənbələrində ideya məhsulu insanın ilkin həyat tərzindən başlayaraq özünü göstərmiş və sonrakı dövrlərdə isə məqsədə doğru yeni ideyalarının məhsuluna söykənərək müasirləşmişdir.

▪ ***Diqqət yetirək:*** *elm sahibi bir ideya irəli sürür. İdeyanın mənisənilməsi, tələbi və tədbiqi elmi məhsul yaradır. Yeni elmi ideyanın məhsulu uğurlu olasa, tədqiqatın praktiki əhəmiyyəti artacaq. Deməli, elmi tədqiqatın məqsədi və vəzifəsi ilkin olaraq ideya və məhsul yaratmaqdan ibarətdir. Bu məqam onu deməyə əsas verir ki, ideya və məhsul yaratmaq potensialı, tədqiqat nəticələrinin mənimsənilməsinin nə dərəcədə faydalığından asılıdır.*

---

[74] "Məhsul"- ifadəsindən həm elmi, həm də texnoloji məhsulu kimi istifadə edirik.

Buradan təbii olaraq belə bir sual ortaya çıxır: elmi məhsulun başlanğıc ideya nöqtəsinin dərkinin mənbəyi hardan başlayır və sonluğu hansı məqsədlə bitir? Bu bölmədə həmin suala cavab tapmağa çalışacağıq.

Elmi məhsulunun başlanğıc nöqtəsi mövzu axtarışı və yaradıcılığının potensialı ilə bağlıdır. Bu bağlılıq isə özlüyündə elmi və texnoloji variantlarının mənimsənilməsinin nə dərəcədə mövzunun elmliyi ilə bağlılıqlarının olmasıdır.

> Bəşəri biliklərinin 80 - 90%-i müasir dövrdə əldə edilmişdir. BMT-nın məlumatına görə, dünyanın kitabxanalarda qorunan elmi mənbələrindən yalınız ≈ 50%-dən istifadə olunmışdır.

Avropada yaranan elmi və texnoloji mənbələrinin mənilsənilməsini, sonrakı dövrlərdə geniş miqyaslı tədqiqat işlərinin aparılmasına səbəb olmuşdur. Elmi tədqiqat işinin məhsuluna həm zaman, həm də məkan sistemində baxılmasının üstünlükləri nəzərə alınmış və buna uyğun elmi işlərinin aparılmasının qaydaları yaradılmışdır. Coğrafiya elmində baş verən texnoloji elmi-metodiki informasiya xəritələrinin formalaşmasına səbəb olmuşdur. Bu qayda ilə yerinə yetirilən elmi-tədqiqat işlərinin məhsulları həm kəmiyyətcə və həm də keyfiyyətcə yeni məzmuna çevrilmişdir.

Coğrafiya elmi konstruksiyasının yeniləşməsində çoxistiqamətli ideyalarının və metodiki aparatlarının davamlı olaraq yeniləşməsi tərcübələri tədqiqat obyektinin əsas keyfiyyət xarakteridir. Elm-tədqiqatlarının yeniləşəsinin səbəbindən əsaslandırılmış coğrafiya elmi məktəblərinin yaranmasına səbəb olmuşdur[75]. Coğrafiya elmi dünyagörüşünün əsas fəlsəfi ideya (həqiqi və ya yanlış formada) məhsullarının ifadəsində özünü göstərmişdir.

Bir həqiqətdir ki, coğrafiya elminin məqsədində planetar, ümumibəşəri ideyalarını önəmə gətirilməsi durur. Bəşəri elmi ideyalarının öyrənilməsində, təbliğində tədbiqi coğrafiya fundamental elmlərinin sıralarına daxil olmuşdur.[76]

Elmin davamlı tədqiqat prosesinə daxil ola bilməyən ideyalar kənarda qalmışdır. [77] Tədbiqi coğrafiyanın ideya məqsədləri elmi məktəblərində yeni bilik və axtarışlarının ön sıralarında yer almışıdr. Buna görədə aparılan hər hansı

[75] İdeya mənbəyinə elmin məqsədini dərk etmək, ona nail olmaq, imkanları və səbəblərinin duymaq toplanır.

[76] Сб.Успехи современной географии. М., 2009. с.129.

[77] “Böyük elm” proseslərindən kənarda qalan lokal təhlillər əsl elm deyil.

coğrafi tədqiqat işlərinin nəticələrində elmilik şərtlərinin öyrənməsinə dair elmi işlərinin aparılmasına səy göstərilməlidir.

Hər hansı bir coğrafi hadisənin obyektiv və ya subyektiv ideya məhsulunun baçlıca nöqtəsinin təyini elmi-tədqiqat işləmə metodikası ilə ifadə olunur. İşləmə gerçəkliyinin öyrənilmədən, ona optimalllığının yarada biləcəyi məhsulu təyin etmədən,məqsədli nəticələrinnin varlığına münasibət bildirmək mümkün deyil.

**Suallara münasibət bildir**:

- Məqsədli real coğrafi ideyaların, faktların dialektikasına istinad etməklə tədqiqatın məhsulu ifadəsinin səviyyəsi nə dərəcədə effektli ola bilər?
- Bunun üçün hansı variantlarının seçimini düzgün hesab edə bilərsən?
- Tədqiqat məhsulu ifadəsini tamamlamaq məqsədində elmi taktikanın = nəzəri və ya praktiki işləmə=tədbiqinin qənaətinə gəlmək imkanın varmı ?

Nəzərə almaq lazımdır ki, coğrafiya elmi məhsulun dərk edilməsi və onun praktiki cəhətdən əsaslandırılması mühüm şərtdir. Təhlil zamanı ideya ilə onun məhsulunun arasındakı nisbətlərinin yarana bilən hadisələrlə bağlı olmalıdır. Elmi işinin obyektiv və subyektiv vəziyyətlərinin tarazlığı bununla ifadə olunmalıdır. Digər tərəfdən = elm və tədqiqat arasındakı əlaqənin öyrənilməsinin nəticəsində elə bir ideya meydana çıxır ki, o, xüsusi tədqiqat obyektinə çevrilməmişdir. Məntiqi varlıq göstərir ki, yeni bir ideya məhsulu,müəyyən hər mənada tədqiqatın davamlı dərkinin bir hissəsidir. Onu tədqiqat ideyasının praktikası kimi də adlandırmaq olar. Deməli, yeni keyfiyyətli bir ideya məhsulu öz məzmununa uyğun istiqamətdə öyrənilən probleminin tədbiqinin parktikasına da çevrilə bilər.

Əksinə, heç bir ehtiyac və əsası olmayan, tədqiqatın daxili kompaktlılıq (enerjili) şərtini ödəməyən = yığılan material (xüsusən, statistik) toplusunun ideya məhsulu kimi qəbul edilməsinin qaydası qeyri-mümkündür. Tədqiqat məhsulu = elmi tədbiqi sahənin başlanğıc nöqtəsinin davamlı dərk edilməsi və onun nəzəri-praktiki məqsədlərinin özündə birləşdirilməsinin dialektikası kimi qəbul edilməlidir.

- ***Xidmət tərzi:*** *Elmi məhsul = öyrəniləm problemin başlanğıc nöqtənin tamamlanmasına xidmə edən və inkişafının təminatında mövqe nümayiş etdirən, qarşıya qoyulan məqsədli konsepsiyasının əsasını əhatə edir. Elmi məhsulun*

*varlığı: yeniləşmiş ideyanın maddi varlığının enerjisinin kəmiyyət-keyfiyyət çevrilmələrinin tamamlanmasında iştirak edir. Yaradıcılığının əhatə dairəsinin varlıqlarının davamlı olaraq sonluqlarının nöqtələrinin dərkini özündə birlşdirir.*

Məntiqi yanaşanın təbiəti həm sadə, həm dən çox mürəkkəbdir. Ona görə sadədir ki, elmi ideyanın başlanğıc nöqtəsinin coğrafi varlığı, aparılan tədqiqat sahəsinin bir hissəsi kimi qəbul edirik. Aparılan mövzunun "coğrafi tədqiqatın məhsulu - texnoloji seçim" sintezinin differensiallığının nəzərə alınmasının şəratində komplekslı araşdırmalarının varlığıdır. Mürəkkəb bir tədqiqat sahəsidir. Çünki elmi-tədqiqat seçiminin daxilində gedən dialektik və kompleksli təhlillərinin metodikası = sadədən, mürəkkəbliyə doğru yolu davam etdirir.

Aparılan elmi-tədqiqat işinin təbiətində coğrafiya elminin öyrəndiyi idrakın dialektik yaradıcılığının imkanları meydana çıxır. Spesifik nəzəri-praktiki anlayışlarının əhatə dairəsinin fəlsəfsinin formalaşmasına xidmət edir. Obyektiv gerçəkliyinin (xüsusi halda coğrafi şəraitin) düşüncə tərzində ona xidmət edən biliklərinin mənimsənilməsi də fəlsəfi düşüncəsinin tərkib hissəsidir. Bununla da, tədqiqat işində ideyalarının fəlsəfi əlaqələndirilməsi, texnologiya və praktik fəaliyyətlərinin bir-biri ilə vəhdət halında birləşməsinə və yetginləşməsinə şərait yaranır. Daha doğrusu, ideyanın tələbatı texnoloji proseslərinin məhsulunun dayaq nöqtələrinin dialektikasının varlığını və onun istifadə edilməsinin metodiki varinatlarının yaradılmasını tələb edir. Elmi ideyanın başlanğıc nöqtəsinin davamlı dərkinin əsaslanmasının səbəb və nəticəsi məhz bu təlbatdan yaranır.

Elmi ideyanın  başlanğıc nöqtəsi nisbi müstəqil bir mərhələdir. Onun elmə tətbiqi üçün yeni keyfiyyətli xüsusi fəaliyyətinin sahəsinə diqqətinin artırılmasına ehtiyac duyulur. Daha dəqiq desək, məqsədli elmi məhsulunun gerçəkliyinin dərk edilməsinin prinsipi texnoloji fəaliyyətlə yanaşı, elmi biliklərinin praktikasının tələbatının seçimi ilə də əlqəlidir. Bu proses obyektiv coğrafi tədqiqatının qanunauyğunluğudur. Elmi məhsulun başlanğıc nöqtərlərinin kompleksliyinə uyğun qanunauyğunluqlarının vaxtında aşkar etmək və onun optimal yolla həyata keçirilməsinə dair varinatlarının seçilməsinə nail olmaq tələb olunur.

Elmi-tədqiqat məhsulunun başlanğıc nöqtəsinin əsasını təşkil edən yaradıcılıq elm sahibinin mədəniyyətinin tərkib hissəsidir. Bu mədəniyyət = konseptual coğrafi təhlillərinin funksiyanal əlaqələrinin öyrənilməsi mənbələrini əhatə edir. Nəzəri-metodoloji mədəniyyətinə söykənən coğrafiya elmi məhsulunun

son nöqtələrinin tamlığının yaranmasında funksioal struktrlarının ərazi təşkili ilə bağlıdır.

Fikrimizcə, ideya məhsulunun varlığının istiqamətləri onunla izah olunur ki, coğrafiya elminin metodoloji baxış fəlsəfəsinin əsasını "zaman & məkan", "coğrafi mühit & cəmiyyət" üzərində formalaşmasından irəli gəlir.

Praktika göstərir ki, "məkan & zaman" elmi məhsulunun alınmasındakı rolunu və mövqeyini inkaredilməzdir. Elmi məhsul coğrafi tədqiqatlarının xarakterindən asılı olaraq kardinal dəyişikliklərini özündə birləşdirmək qaydalarına malikdir. Elmi məqsədlərə nail olamaq üçün tədqiqat aparma mədəniyyətinə sahib olmaq lazımdır.

## Xülasə

- Tədqiqatın məqsəd və vəzifələri, eləcə də ideya istiqaməti olduqca yığcam olmalı. Ən kiçik nüanslara belə həssaslıqla yanaşmaq lazımdır.Əgər ideya tədqiqatın keyfiyyətinin parametrlərinə uyğun gəlmirsə, ona təsir etmirsə, yeni məzmuna çevrilmirsə, o zaman alınan nəticələri aparılan tədqiqatının məhsulu ola bilməz.

- Hər hansı ideya məhsulu haqqında düşünmək lazım gəldikdə səbrlə, elmlilik cəhətlərinə diqqət yetirilməlidir. Təhlil edilən mövzularının aktuallığını, onların yaradıcılıq imkanlarını müəyyənləşdirmək məqsədəuyğundur. Qəbul edilən tələblərinin müəyyən etdikdən sonra elmi işini başlamaq olar. Bu tədqiqat nöqtəsinin başlanğıcı üçün əsas məsələdir.

- Tədqiqat məhsulunun coğrafi proqnoz faydalılığının yaradılması üçün, onun kompleks axtarışlarında elmi mənbələrinin potensialının kodlarına müraciət etmək məsləhət görülür.

- Aparılan mövzuya uyğun olaraq qəbul edə biləcək ideyanın "yığma-seçmə" məhsulunun metodundan yaradıcılıqla istifadə etməyi qarşıya məqsəd qoymalıdır.

- Bəzi tədqiqat məhsulda nəzəri tədqiqat, bəzilərində isə tədbiqi tədqiqat nöqtələrinin işləməsi daha güclü olur. Bu fərqlərinin əsasını təhsil sistemlərinin arasındakı fərqlərlə bağlıdır. Belə bir fikir formalaşmışdır ki, abstrak (fransız tipi) düşüncə tərzinə malik olan elmi işlər nəzəri tədqiqatın inkişafı üçün məqbul sayılır. "Təşəbbüskarlıq mədəniyyəti"nı (ABŞ tipi) özündə birləşdirən tədbiqi tədqiqat məhsul seçimi texnoloji tərəqqiyə əsaslanır. ABŞ tipli yaradıcılıq mədəniyyəti coğrafiya elmi tədqiqatlarının innovativ məhsulu üçün strateji məqsədlərinə xidmət etməsi ilə fərqlənir.

**Praktiki düşünək:**

1. "İdeya məhsulu" ifadəsi altında daha hansı elmi-metodiki işlərinin yerinə yetirilməsi haqqında düşünün.
2. "Elmi məhsul"un başlanğıc nöqtəsinə dair imkanlarını dəyərləndirin.
3. "Təşəbbüskarlıq mədəniyyəti"nı (ABŞ tipi) mahiyyətinə dair mənbələrini seçin.
4. Coğrafi seçimlərinin təhlillərinə münasibət bildirin.

## 8.2. Tədqiqat məhsulun elmi ölçüsünün kardinal dəyişkənliyi

***"Tədqiat məhsulun kardinal dəyişkənliyi = ötəri bir ifadə deyil. Bu ifadə zaman keçdikcə məlum olur ki, daha dəyərli, faydalı məhsul ölçüsünün nəticəsidir."***

Tədqiqat zamanı elmin məhsulunun ölçüsünün təyin etmək üçün bəzən uzun illər tələb olunur. Qəbul edilən bir ideya məhsulundan sonra gələn proseslərininin ardıcıllığının təyini vacibdir. Buraya daxildir: ilk növbədə tədbiqi sahələrinin araşdırılması; sonra yeni məhsullarının işlənilməsinin metodikasının təyini; sonluqda isə aparılan mövzunun tamamlanmasına xidmət edən sahələrinin bir-birilə bağlılığı.

Məntiqi baxımdan bu yarım bölmədə tədqiqat məhsulun ölçülərinə dair ümumiləşdirilmiş kardinal dəyişkənlik variantlarının öyrənilməsidir. Burada təbii olaraq belə bir sual ortaya çıxır: tədqiqat məhsulunun tədbiqi elmliyinin dəyər ölçüsünun yaranmasının səbəbi nədən asılıdır?Həmin suala cavab tapmağa çalışacağıq.

Elmi mənbələrdə bəzən tədqiqat məhsula kardinal dəyişkənliyinin[78] prizmasından baxılır.

Bunun qəbul edilməsi elmi tədqiqatının xarakterinin dəyişilməsinə səbəb ola bilən nəticələrinə aparıb çıxarır. Məntiqə görə, hər hansı bir yerinə yetirilən coğrafi obyektinin (mövzunun seçiminin sahəsini) tamamilə adekvat olaraq kompleks ideya məhsulunun öyrənmək dərkinin imkanlarına aydınlıq gətirilir.

Elm - azad insan zəkasının ən böyük na - liyyəti, ideyalı və onun narahat ağlının məhsuludur.

**A.X.Mirzəcanzadə**

İdeya ötəri məhsul deyil, zaman keçdikdən sonra məlum olur ki, ideya daha dəyərli və faydalı "məhsul" kimi elmin dialektik inkişafının potensial mühitini özündə birləşdirir. Bu səbəbdən də coğrafiya elmi daima "hərəkət"də olan, ritmik dialektik ideyalarının inkişafının potensialına söykənir. Məqsəd aydınlığı, coğrafi biliyinin dəqiqliyi, ondan kompleks istifadə etməyinin effektliyində özünü ifadə edir. Bu ifadənin hansı dialektik cəhətləri var? Buna belə cavab vermək olar: seçilən mövzunun "elmlilik və tamamlılığının prinsipi".

[78] Kardinal dəyişkənlik = yeni keyfiyyət mərhələsinə keçidin ifadəsini daşıyır.

Elm həmişə fəlsəfi düşüncə tərzi ilə yanaşı, bir-biri ilə daha çox ideyalarla "qaynaq"olaraq irəliyə doğru addımlayır. Məlum məsələdir ki,bir şəxs tədqiqat prosesində elmi ideyalaının bütövlükdə əhatə etmək imkanına malik ola bilməz.

İdeyanın məqsədi = elmi bilklərinin yaratdığı məhsullarının dialektikasının müəyyənlilik halına çevrilməsindən ibarətdir. Lakin onun idarakı bununla bitmir. İdeya məhsulunun elmlilik dəyəri, onun tədqiqat sahələrinin konturlarının dəqiqləşdirilmiş ərazi təşkilininin variantlarının kompleksliyi ilə əlaqəlidir.

Elmi ideyanın kardinal dəyişənliyi tədqiqatın ümumi məqsədini zənginləşdirir, mövzunun qarşısında duran probleminin dərk edilməsinin həssaslıq tərəfidir. Buna görə də dərk edilə bilən həssaslığının seçiminə tədqiqatçı elmi yaradıcılıqla yanaşılmalıdır. Bu məsələ elmi araşdırma üçün çox vacibdir. Tədqiqat zamanı ideyalarının mövzunun tələbinə uyğun və düzgün gəlmədikdə, onu dəyişməyinə cəhd göstərilməlidir. Dərk etməlidir ki, təhlil etdiyi mövzunun kardinal dəyişkənliyinin tamlığında ideya məhsulunun qarşısında duran probleminin tərkibində rasionalizminin qaydaları mövcuddur[79].

Məntiqi yanaşma önunla ölçülür ki, = dərk edilən kardinal dəyişkənlik = başlıca cəhəti elmi məqsədlər üçün ondan istifadə edilməsindən asılıdır. Bu asıllılıq təhlillər zamanı qəbul edilən və ya qəbul-edilməyən coğrafi faktorlarının müəyyənliyinin ölçülərində iştirak edir və eləcə də köməklik göstərir. Tərtib edilən qayda ilə nizamlanan elmi kardinal dəyişkənliyinin nəticələrinin fəallığı elm sahibi üçün dinamik mənbədir. Coğrafiya elmdə kardinal dəyişkənliyinin qəbul edilməsinin bir cəhəti də onunla ölçülür ki, nəzəri qaydalarının praktika ilə əlaqələndirilməsində iştirakının təmin olunmasıdır.

Elmi ideyanı bir sitem kimi qəbul etsək, coğrafi-iqtisadi prosesin dərk edilməsində əsas kriteriya kimi kardinal dəyişikliklərinin keyfiyyət aspektlərinin qəbul edilməsidir. Bu, ilk növbədə, əslində elmi-tədqiqat prosesinin elmlilik anlamını daşıyır.

[79] A.A. Qurbanzadə. Dialektik coğrafiya. Bakı. 2017. s. 44.

# İrəliyə doğru

- Təhlili zamanı = coğrafi araşdırmanın texnoloji effektli ərazi təşkilinin kardinal konturlarının yaradığı elmi məhsulunun haqqındakı düşüncələrini bölüşdürmək lazımdır.

- Effektli ərazi təşkili dedikdə,istehsal məhsulunun texnoloji səviyyəsi, kompleks yaratmaq funksiyası nəzərdə tutulur. Bu məsələ coğrafi proqlozları və kardinal dəyişkənlikləri üçün çox dəyərlidir.

- İrəliyə baxışda elmi ölçüsünün gözləntilərinin coğrafi təhlillərinin balanslı-kompleksli xəttində olduğu deməkdir. Kreativ düçüncə, kapital və effektiv istehsalın ərazi təşkili tədqiqat məhsulunun dayanıqlığını təmin edir.

- Tədqiqat məhsulun gözləntiləri üçün, artım kəmiyyət göstəricilərindən asılı deyil. Elmi-tədqiqat və işləmələrinin konstruktiv təhlillərindən, başqa ifadə ilə desək, tədqiqatın yeni-yeni ideya və məhsulunun yaradılmasının qabiliyyətindən asılıdır.

- İrəliyə doğru baxışda kardinal dəyişkənliklərin məhsulun gözləntiləri davamlı institutların mövcudlugunu tələb edir. Bunun üçün mövzunun seçiminin məqsədində elm tutumlu sahələrinin öyrənilməsinə uyğun yanaşmalarına üstünlük verilməli və səmərəli modellərinin qurulmasına nail olmaqdır.

**Praktiki düşünək:**

1. Coğrafiya elmi tədqiqat sahəsində "tədqiqat məhsul gözləntiləri" ifadəsinə dair mənbələrini öyrənməyə səy göstərin.
2. Mövzunun seçimində kardinal dəyişkənlikləri haqqında bilklərinizi neçə artıra bilərsiniz?

## 8.3. Tədqiqatın elmi məhsula olan tələbin müəyyənliyi

***"Elmi məhsul tələbi: onun coğrafi seçimi ilə nə dərəcədə bağlı olmasından çox asılıdır."***

Tədqiqatın elmi məhsuluna olan təlabatı = informativliyə nail olmaq imkanını artırır. Ərazi kompleksinin variantlarının şərh edilməsində, konstruktiv nisbətlərinin yaranmasına və formalaşmasına dınamik, davamlı impuls verir.

Coğrafiya elmi məhsulunun tələbinin praktiki mövqeyi və onun təhlilinin metodiki qaydaları tədqiqat prosesinin inkişafın da mühüm yer tutur. Coğrafiya elminin praktiki məqsədinin əsasını rasional faktlarına söykənən məntiqi ideyalarının tələblərinin üzərində qurulmalıdır. Tələb qəbul edilən problemlər mövzuya uyğun nəzəri-praktiki coğrafi biliklərinə əsaslanmasından ibarətdir.

Coğrafiya elminin mənbələrinin öyrənilməsi və praktiki tədbiqinə əsalanaraq bir sıra məqamlarının müəyyənliyini önəmə gətirmək olar (8.3):

İlk növbədə elm və onun dialektikasında irəli sürülən klassik ideyalarına biganə qalmamağı tələb edir. Klassik elmi ideyalara söykənməklə irəliyə döğru tədqiqatının keyfiyyət funksiyalarının (məhsul vermə parametrlərinin) müəyyənliyində və elmi-metodiki seciminde özünü göstərir.

Hər bir tədqiqat məhsulunun variantları müəyyən öyrənilən obyektinin yaradıcılıq fəaliyyət dairəsinin elmlilik varlığının miqyasını özündə birləşdirir. Bu elmlilik reallıq çərçivəsinin daxilində aparılanan elmi işlərinin öz bəhrəsinin məhsulu kimi faktında birləşir.

Problemə dair elmi mənbələr və o, cümlədən ideaya (bilik) resursları əhatəlidirsə, elmi-metodiki və pratikasının nəticələri də bir o qədər effektli sayıla bilər. Bu zaman bilik resurslarının proqnoz istiqamətləri yeniləşir və "köhnə" ideya nisbətəndə "yeni enerjili" ideya məhsulunda özünü biruzə verir.

*8.3. Coğrafiya elmi "məhsula" olan tələbin mənbələri*

Coğrafiya elminin ümumi metodologiyasının tələbi konstruktiv tipli mənbələrinə daha çox istinad edilməsi ilə inkişaf etmiş və müasirləşmişdir. Yaradıcı

elm kimi fəaliyyət göstərən coğrafiyanın klassikləri tərəfindən nəsillərə ötürülmüşdür. Məsələyə biganə qalmamaq üçün klassiklərinin əsərlərini öyrənmək və yenilişdirmək gənc alimlərinin mənəvi borcudur. Klassik elmi coğrafi ideyalarına söykənməklə irəliyə döğru hərəkət etməyi tövsiyyə edirəm.

Müasir coğrafiya elmi konstruktiv (dinamik) və strateji mövzularının "inşasını" tələb edir. "İnşa edilən" mövzularının mənbələri yeni məzmunlu elmlilik üzərində qurularsa elmi-metodiki resurslarının praktikasının nəticələri də bir o qədər effektli sayıla bilər. Bu zaman ideyanın proqnoz istiqamətləri yeniləşir və "köhnə" məntiqli ideyanın nisbətəndə, praktikida "yeni enerjili ideya" məntiqində özünü biruzə verir.

Elmi mülahizələr göstərir ki, yeni enerji ideyalar hər bir ölkənin iqtisadi-sosial dayaq nöqtəsidir. Hər bir dayaq nöqtəsi ölkənin ərazi-istehsal kompleksinin yaranmasında iştirak etdiyi üçün, daimi olaraq maraq dairəsində olmalıdır. Bu elmlilik çərçivəsinin daxilində aparılan yeni işlərinin öz bəhrəsinin məhsulu kimi faktında özünü göstərir.

Tədqiqatın aparılması prosesində ideyanın sistemli hala gətirlməsi, metodoloji cəhətdən ümumi morfoloji təhlillərinə üstünlük verilməsi əsas mərhələdir. Burada məntiqi yanaşma ondan ibarətdir ki, elmi işlərinin xarakterini və eləcə də onun sistemli dialektikasını mövzuya uyğun aparılması və yeni praktiki məhsullu nəticələrinə gəlməsinin məqsədində baş verməsidir.

Fikrimizcə = elmin yekunları statistik göstəricilərindən yox, daha çox əsaslandırılmış elmi məhsullarının müəyyənliyindən keçir. Təəssüf doğuran odur ki, ölkəmizdə bir sıra coğrafi tədqiqatlarında elmi işçi özünün fərdi yanaşmasından və bacarığından çox vaxt sistemli və praktiki yaradıcılıq imkanlarından maksimum istifadə edə bilmir. Ona görə də statistik göstəricilərinə daha çox meyl göstərməyə məcbur olur. Müasir elm sahibi davamlı olaraq özünün sistemli, ritmik yaradıcılıq ideya çərçivəsini qurmalı və buna uyğun hərəkət etməsini qarşısına məqsəd qoymalıdır.

▪ **Tələbə doğru:** Azərbaycanda coğrafiya elmində aparılan tədqiqat haqqında düşünərkən bir neçə sullar meydana gəlir:

- Nə üçün innovativ elmi məhsullarına uyğun mövzu seçimi və buna münasib tədqiqtalarına yer verilmir?
- Problemə dair təşəbbüskarlığının artırılmasına diqqəti yönəltmək elm üçün nə dərəcədə faydalı ola bilər?

- Tədqiqat prosesində coğrafi biliyinin məhsulunun hansı metodlarla həll etmək olar? Bunun həlli varmı? Bu kimi sullar mövcuddur.

Tələbə doğru həqiqətin həlli üçün iki əsas istiqamət ola bilər: (1) ənənəvi tədqiqat sahəsindən tədricən uzaqlaşmaq və (2) elmi potensialının artırılmasının hesabına tədqiqat metodlarının davranışlarına istiqmətləndirilmiş yollarının seçilməsi. Bunların hər ikisi, fərqli funksiyalarını yerinə yetirir. Tələbin müəyyənliyi bundan ibarətdir ki, elmin məntiqli davranışlarının önəmə gətirməklə yanaşı, onlar arasındakı tarazlıq əlaqələrinin oyrənilməsinin, elmi məhsula doğru istiqamətlərinin təyinin bacarığına sahib olmasının məsələləri durur.

Elmi məhsulun müəyyən praktiki mövqeyi = “tədqiqat – məhsul-strateji məqsəd” = ən geniş mənada coğrafi resurslarının maddi məhsula cevirməsinin haqqındakı nəticələrinin alınmasından sonra baş verə bilər. Elmi məhsulunun resursları = maddi varlığının ərazi-istehsal strukturlarının təşkilinin yaradılmasına və şaxələnməsinə = xidmət etmək üçün mövcuddur. Ərazi-istehsal strukturunun davranışı tədqiqat zamanı əldə edilən məhsulunun praktikası ilə birbaşa əlaqəlidir. Məsələ onunla ölçülür ki, strukturun tələb etdiyi məhsulunun potensial praktikasında onun strategiyasının mövqeyi müəyyənləşir və dinamik hala çevrilir.

Tədqiqatın elmi məhsula olan tələbin müəyyənliyində hər hansı bir elmi-metodiki çərçivəyə “qapanmaq” məcburiyyətini aradan qaldırır. Elmi-metodiki həqiqətinin aşkarlanması nöqteyi-nəzərindən elm sahibi üçün daha çox faydalı məqamlarına aydınlıq gətirir. Həqiqətən də mövcud nəzəri-metodoloji və konseptual yanaşmalarda yer alan elmi məhsul tələbi bütün dövrlərdə aktual bir çərçivəyə daxil edilmişdir. Məsələ onunla ölçülür ki, elmi məhsula olan tələbin müəyyənliyi tədqiqat işinin konseptual ümumiləşdirilməsinə imkanlar yaradır. Bu çox mühüm və eləcə də aktual məsələdir.

## Xülasə

- Tədqiqatın elmi məhsula olan tələbatı çoxfunksionallığı ilə seçilir. Buraya texnoloji tərəqqi, tərəqqi barəsində biliklər, mövzunun elmlillik səviyyəsi, məhsulun keyfiyyət parametri  və s. daxildir.

- Elmlilik səviyyəsinə malik olan mövzularının aparılması üçün onu  elm sahibinə verilməsi, balanslı metodiki qayadalarına cavab verən proqramlarının tərtibindən asılıdır və s.

- Elmi məhsul funksiyanın tələblərinə əsaslanaraq, kompleks məzmunlu, coğrafiyanın tələbinə cavab verən nəzəri və tədbiqi modellərinin yaradılmasına qarşı doğru fikirlərini önəmə gətirmək məqsədəuyğundur.

- Elmi məhsul coğrafi  informasiya tsiklinin yaratdığı variantlarının üstünlüklərinin üzərində qurulmalı və istiqamətləndirilməsinin reallıqlarıana söykənməsinə səy göstərilməlidir.

- Elmi tədqiqatın sistemli hala gətirilməsində statistik göstəricilərlə yanaşı, metodoloji cəhətdən daha fəallıq göstərən metodoloji tələblərinə də üstünlük verilməlidir. Elmi işlərinin xarakterini və onun mövzu seçimində diqqətli olmağın vacibliyi əsasdır.

- Müasir elm sahibi özünün sistemli yaradıcılıq ideyasını qurmalı, doğru hərəkətini nizamlanmasına diqqət yetirməlidir.

**Praktiki düşünək:**

1. Elmi-texniki tərəqqi və onun məhsulu haqqında  əsaslandırılmış mülahizələrinə diqqət yetir.
2. Elmi məhsul  kompleks yarada bilərmi?
3. Əgər yarada bilərsə,hansı metodiki qayda ilə?

## 8.4. İnnovativ elm sahibi haqqında bir neçə söz

***"Elm sahibi yeniliyi axtarmaq səyinə malikdir. Hərtərəfli elm sahibi innovativ mənbələrinin seçiminin üzərində tədqiqatını qurmağı vacib sayır."***

Elm və innovativ düşüncə tərzi birlikdə ümumi məqsəd güdür. Başlanğıc nöqtələrinin yaranmasında elm və innovativ birliyinin gerçəkliyi fundamental tədqiqatlara doğru gedilən yolun başlanğıcıdır.

Elmi-texniki zaman çərçivəsində innovativ[80] coğrafi elm sahibinin təhlil etdiyi mövzular öz yeniliyi və elmliliyi ilə fərqlənir. Təhlil edilən mövzu yığımı və onun irəli sürdüyü təklif- məqsədlər coğrafiyanın öyrənilməsi və tədbiqi sahəsinin genişləndirilməsində aktual bir ideya mənbəyidir. Məqsədli tədbiqi nəzəri-metodiki variantlarının seçilməsi coğrafiya elmi üçün yeniişlənmə modelləşdirilmiş sxeminin yaranmasına xidmət edir.

▪ ***Seçim məqsədi:*** *Müzakirə edilən məsələ sadə bir model ifadəsi deyildir. İnnovativ elm sahibi tədqiqat sahəsinin bütün texnoloji modellərinin yaradılmasının imkanlarının istifadə edilməsini özündə əks etdirir. Rasional konsepsiyalarının öyrənilməsini tələb edir, onu praktika ilə birləşməsini təqdim edir. Xüsusi və ümumi coğrafi ideyalarının əsaslandırılmış mövzu üzərində təhlillərinin aparılmasında elmlilik mühitinin üstünlüklərini yaradır.*

Yuxarıda verilən seçim üzrə heç bir mərkəzi istiqamət olmadan aşağıdakı əsas üç suallara neçə cavablandırması ilə izahını məqsədəuyğun sayırıq:

- innovativ elm sahibi coğrafi tədqiqatının təhlilində hansı məqamlara üstünlük verə bilər?
- alınan innovativ elmi mənbələrinin praktika ilə əlaqələndirilməsinin yollarına dair hansı təkliflərini qəbul etmək mümkündür və ya mümkün deyil?

[80] "İnnovasiya" termini latınca "innovato" sözündən olub, yenilənmə və yaxşılaşma deməkdir. Bu termin elmi tədqiqatlarında XIX əsrlərdə meydana gəlib. "İnnovasiya" terminini ilk dəfə elmə Jozef Şumpeter tərəfindən gətirilmişdir.

- coğrafiya elmin konstruksiyasının sxemindəki innovativ tədqiqatın mövqeyinin əsaslandırılmasında nə kimi fayda verə bilər?

İnnovativ elm sahəsinin mövcudluğu müasir coğrafiya elmi tədqiqatının əhəmiyyətli bir mövqe mənbəyi hesab edilir. Coğrafi resursunun yeni keyfiyyəti ilə bağlı elm sahiblərinin tərəfindən irəli sürülmüş modellərinin praktikası aparılan tədqiqatlarının yaradıcılığının dairəsinə daxil olmuşdur. İnnovativ düşüncə tərzinə sahib olan elmi tədqiqatlarında innovativ coğrafiya[81] elminin əsas problemlərinə dair geniş məzmunda araşdırmalar aparılmışdır.

Elmi tədqiqatın cəmiyyətə verdiyi faydasının optimal variantlarının öyrənilməsində innnovasiyanın yeri və möveyi inkar edilməzdir. Üstünlük ondan ibarətdir ki, elmi-tədqiqat sahələrinin konstruksiyasında innovativ metodiki qaydalarının reallıqları strateji məsədlərə xidmət edir. İqtisadi-siyasi güc qüvvəsinə malik olan coğrafi tədqiqatlarının əsasında innovativ metodlarının üstünlüklərindən ibarət olmasıdır (8.4).

$$D_0 = \begin{pmatrix} \{D_0^1\} \to \{D_0^2\} \to \{D_0^3\} \to \{D_0^n\} \\ \{D_0^4\} \to \{D_0^5\} \to \{D_0^6\} \to \{D_0^n\} \\ \{D_0^7\} \to \{D_0^8\} \to \{D_0^9\} \to \{D_0^n\} \\ \{D_0^{10}\} \to \{D_0^{11}\} \to \{D_0^{12}\} \to \{D_0^n\} \\ \{D_0^{13}\} \to \{D_0^{14}\} \to \{D_0^{15}\} \to \{D_0^n\} \end{pmatrix}$$

***8.4. İnnovativ tədqiqatın elmi ({D₀} konstruksiyası (variant)***

* { $\mathbf{D_0^1}$} = coğrafi innovativ mövzunun seçilməsi;
* { $\mathbf{D_0^4}$} = hər hansı bir yeniliyinin müəyyənliyi;
* {$\mathbf{D_0^7}$} = texnoloji innovativ üsulların tədbiqi;
* { $\mathbf{D_0^{10}}$} = dayanıqlı innovativ məhsul seçimi;
* { $\mathbf{D_0^{13}}$} = innovativ məhsul modelin qurulması.

İnnovativ mənbələr çoxfunksionaldır.Buraya daxildir: • artan tələblər və onların yerinə yetirilməsi üçün məhdud imkanlar arasındakı əksliklərinin öyrənilməsi və tədbiqi; • elmi-innovasiya funksional modellərinin qurulması; • dayanıqlı tsiklli ideyanın təyini və s.

[81] Бабурин В.Л. Эволюционная география. М., 2006. с.24.

Funksional innovativ yanaşmalarının səmərəli və məhsuldar mexanizm (vasitə) kimi traktovkası bir qrup alimlərin (B.Tviss, T.Yord və s.) əsərlərində öz əksini tapmışdır. Məsələn, B.Tviss hesab edir ki, innovasiyanı "…kəşfin və ya ideyanın inkişafın məzmuna malik olduğu bir prosesdir."

Elmi mənbələrdə innovativ tsiklinə dair məlumatlar daha çox maraq doğurur. İnnovativ tsikllinin hər hansı bir "zəncirvari" məntiqinə malik olunmasını özündə birləşdirən dayanıqlı halıdır. Yəni bu tsiklin başlanğıc nöqtəsindən başlayaraq, dayanıqlı olaraq axırıncı nöqtəsinə qədər tədqiqatın yenililik üsulları ilə bağlıdır. Məsələnin elmi-metodiki cəhəti ondan ibarətdir ki, yenilik tələb edən dayanıqlı zəncirinin məhsul tsiklinin çərçivəsinin tamlığını təşkil edir. İnnovativ məhsul seçiminin tətbiqi xassənin sonluğunun yeniliyidir və texnnoloji sxemlərinin qurulmasında fəallıq göstərir.

XX əsrin ikinci yarısından inkişaf etmiş ölkələrin milli iqtisadiyyatının artımı əhəmiyyətli dərəcədə innovasiyalar hesabına təmin olunur. ABŞ, Yapoiya və Almaniyada ÜDM-in 2,5-2,8%-i, Fransa və İngiltərədə 2,3-2,4%-i və eləcə də Azərbaycanda isə 0,2%-innovasiyalara sərf olunur.

İnnovativ məqsədi ilə tədqiqat üçün çox sayda faktorlar var. Bunun üçün yalnız fərdi qabiliyyət, təşəbbüskarlıq və dövlət dəstəyi kifayət deyil. İnnovativ bir sıra elmi, strateji sistemlərinin (coğrafi sistem, ekosistem, texsistem və s.) formalaşmasını tələb edən məsələdir. Buraya dövlət siyasəti, elmi potensial mühiti, akademik təhsil sektoru və digər strateji məqsədlərinin həyata keçirilməsin nonotexnologiyanın tələbləri daxildir.

▪ ***Məntiqi reallıq:*** *Nanotexnologiyalar maddi obyektlərin istehsal prinsiplərini yeniləşdirir. Əvvəldən verilmiş xassələrlə yeni materialların və hətta canlı orqanizmi təqlid edən texniki sistemlərin təşkili sahəsində bütünlükdə bəşəriyyət üçün geniş imkanlar açır. Sıçrayışlı istiqamətlər üzrə açıq elmi-tədqiqat mərkəzlərini təşkil etmək, akademik və təhsil laboratoriyalarının səviyyəsinin zənginləşdirmək zəruriyyətənə sahibdir. Bunun üçün elmi-tədqiqat və təcrübi – konstruktor işlərinə çəkilən məsrəflərinin stimullaşdırmasının tələbləri mövcuddur.*

Azərabycanda innovativ coğrafi tədqiqatlara, yüksək bilik sahiblərinə üstünlük verilməsinə və buna şərait yaratmaq imkanına dair işlərinin yerinə yetirilməsi çox zəif həyata keçirilir. Müasir coğrafiya elmi innovativ tədqiqatlarına ehtiyac duyulur. ***"Alim olmaq xatirinə alim olmaq"*** əvəzinə***, "Alim olmaq xatirinə innovativ elm sahibi-*** alim ***olmaq"*** devizinə sahib olmaqla coğrafi innovativ tədqiqatlarının üstünlüyü artımış olar və bu da mümkündür.

▪ ***Haşiyə****: Azərbaycanda coğrafiya elmi sahələri üzrə aparılan elmi işlərinin nəticələri demək olar ki, fundamental elm mərkəzlərində, sanballı mətbuat səhifələrində özünü göstərə bilməmişdir (iqtisadiyyat, bir sıra texniki elmlər və s. bu kimi qəbilədəndir).*

**V.Vayskoporun (ABŞ)** maraqlı bir hesablaması diqqəti cəlb edir. O, göstərir ki, yunan filosofu Arximed dövründən başlayaraq müasir dövrə qədər elmi məktəblərdə aparılmış fundamental tədqiqatlarının elmi-praktiki dəyər qiymətləri ≈ 30 mlrd. $ həcmində hesab edilir.

## Məsədə doğru

- İnnovativ elm sahibi tədqiqat zamanı həm yeni sistem-struktur, həm də yeni “elmi məhsul” axtarışlarına malik olur.
- Texnologiyaların təşkilinə gətirib çıxaran, yeni dayanıqlı inkişafı ilə əlaqələn mövzularının sahibi olur.
- Tədqiqatçı F.Riqqs innovasiyanı “yeni ideyaların kommersiya mənimsənilməsi” kimi qəbul edir. B.Santo innovasiyanı “ideya və kəşflərin praktiki istifadəsi yolu ilə daha yüksək keyfiyyətli texnologiyaların təşkili prosesi” kimi təqdim edir.
- İnnovasiyanın elementləri coğrafi tədqiqatları üçün dəyəri, onun resurs tsikllərinin təyini və praktikasında istifadəsində öz əksini tapmasıdır. Qeyd etmək lazımdır ki, hazırda coğrafi informasiya mənbələrinin əsasını innovasiya - texnologiyanın optimallığına daha çox diqqət yetirilir.
- Azərbaycanın modernləşdirilməsinin sferalarında innovasiyanın ÜDM-in və digər makroiqtisadi göstəricilərin artımında istifadısi müşahidə olunur. Lakin hasilatçı sahələr və onların məhsulları əsas üstünlüyə malikdirlər. Başqa sözlə, innovasiyaların elementləri hər şeydən əvvəl hasilatçı sektora məxsusdur. Hesab edirik ki, keyfiyyətli iqtisadi artım dedikdə innovasiyalar hesabına potensial istehsalın artımını başa düşmək lazımdır.

**Praktiki düşünək**:

1. İnnovativ coğrafiya tədqiqatının çoxfunksionallığına dair mənbələrini seçin.

2. İnnovativ tədqiqat zamanı hansı metodlarına üstünlük vermək istərsiniz?

## DOQQUZUNCU FƏSİL

# Coğrafi tədqiqatda diaqnostik təhlil nə verə bilər?

**Bölmənin icmalı və tədqiqat məqsədləri:**

**9.1. “Diaqnostik” ifadəsinin coğrafi təlimi haqqında**
“Diaqnostik” ifadəsinin coğrafi təlimi haqqında baxışlar, keyfiyyət fonundan yanaşmalarına dair elmi-metodiki məlumatlar verilir.

**9.2. Diaqnostik modellərinin seçimi**
Diaqnostik modellər-elmi tədqiqat işinin effektliyini artırır, struktur sahələrinin ərazi təşkilində optimal mövqeyə imkanlar yaradır. Bu haqda elmi araşdırmlarından məqsədli istifadə edilməsinin yolları göstərilir.

**9.3. Coğrafi diaqnostik işləmələri haqqında**
Coğrafi elmi işləmələrinin zamanı diaqnostik təhlillərinin üstünlüklərinin məqsəd və vəzifələrinə aydınlıq gətirilir. Rasional coğrafi işləmlərinin elmi-praktikasına dair tövsiyələri verilir.

**9.4. Diaqnostik coğrafi rabitəsinin gözləntiləri**
Diaqnostik coğrafi rabitənin əmələ gətirdiyi funksional sahələrinin formalaşmasındakı rolu və mövqeyi təhlil obyektinə çevrilir. Onun elmi tədqiqat üçün yaratdığı funksiyalarına aydınlıq gətirilir.

## 9.1. "Diaqnostik" ifadəsinin coğrafi təlimi haqqında

*"Problemi özündə əks etdirən tədqiqat sahəsinin mənimsənilməsinin fonundakı seçimi diaqnostik keyfiyyətdir."*

Elmi tədqiqat zamanı qarşıya qoyulan coğrafi metodoloji istiqamətlərinin öz təxəyyülünü davamlı olaraq yeniləşdirimək lazımdır. Yeniləşdirilməsinin özündə keyfiyyət fonunun yaradılmasında və məzmununda "diaqnostik" təhlillərinin üstünlükləri durur.

Təklif etdiyimiz "diaqnostik" ifadəsinin əsasında elmi işinin keyfiyyətli yaradıcılığının təsir "qüvvə"sinin üstünlükləri mövcuddur. [82] Bu səbəbdən də coğrafiya elminin müxtəlif istiqamətli araşdırmalarının müəyənliyinin diaqnostik yanaşmalarına üstünlük verilməlidir. Tədbiqi elmi sahələrinin formalaşmasında, struktur kompleksinin ərazi təşkilinə aydınlıq gətirmək məqsədinin çevrəsinə ilk dəfə olaraq coğrafiya elmində "diaqnostik" təlim ifadəsinin daxil edilməsini məqsədəuyğun saymışıq.

Coğrafi diaqnostik təhlil zamanı yalnız mövzunun əhatə dairəsinin təyinatında istifadə edilməsinin qaydalarını məqbul sayırıq. Məsələ onunla ölçülür ki, diaqnostik yanaşmanın mexanizmi ilk növbədə cəhdi yaradıcılıq problemlərinin həllinə yönəldilən mövzularının aktuallığı ilə qarşılaşır. Tədqiqat zamanı elm sahibinin üzləşdiyi problemini işləyərkən "özündə hiss etməsi" [83]qabiliyyətinin diaqnostik-psixoloji keyfiyyətlərinin mənimsəməli və buna üstünlük verilməlidir.

Elmi araşdırma zamanı məqsədə çatmaq və mənbələrindən bacarıqla istifadə edilməsinə maraq göstərilməlidir. Maraq dairəsinə rəğmən bir neçə suallara cavab tapmağa cəhd etmək lazımdır. Bu cavablar gələcək elmi təhlilinin nəzəri-metodiki işləmələri üçün effektli bələtci ola bilər.

1. Diaqnostika =coğrafi tədqiqatda nə dərəcədə keyfiyyət yarada bilər?
2. Onun davamlığına və ərazi təşkilindəki mövqeyini tapmaq mümkündürmü?
3. Diaqnostik təhlilin effektlidir,yoxsa coğrafi resursların effektsiz istifadəsinə yol açır?

A.X.Mirzəzadənin belə bir fikri var: "Kim ki,bilir-**nə etməlidir**, o, bircə dəfə; kim ki, həm də bilir-**nə üçün etməlidir**, o, həmişə udur". Bu hikmətli

[82] Qurbanzadə A.A. Regionalogiya. Bakı. 2013.
[83] İfadə T.Lippsindir.

ifadənin özündə əks etdirən elm sahibi bütün bu işlərinin diaqnostik təhlillərinin daxilində aparırsa, deməli elmi naliyyətlərinə sahib çıxa bilər.

▪ **Yanaşma prizması:** *Diaqnostik yanaşma = coğrafi təhlillərə manasibət bildirərək,eyni zamanda onları özündə əks etdirir, həm də elmi nəticələrinə aydınlıq gətirir, ya da əksinə - məzmunsuz, faydasız bir hala salır. Bu səbəbdən də diaqnostik təhlil ifadəsinin altında elm sahibinin çox çətin əldə edə biləcəyi probleminin davamlığını təmin edir.*

Coğrafi tədqiqatın ləyaqəti, onun elmi diaqnostik təhlillərinin üzərində qurulmasından çox asılıdır. Elmi işinin layaqət diaqnostikasını qətiyyən "elmi dərəcə almaq" xatrinə dəyişik salmaq olmaz. Elmə addım-addım, səbrlə nail olmaq, onu ləyaqətini qorumaq lazımdır. Diaqnostik informasiyanın imkanından kompleks istifadəyə səy göstərməlidir.

Aparılan tədqiqatın diaqnostik layaqəti çox önəmli bir məsələni əhatə edir. Layaqəti olmayan elmi işinin məzmunu və elmliyinin təyini mütləq uğursuz bir hala çevrilməsinə səbəb olur.

Elmi işinin ləyaqətinin təyinində coğrafi diaqnostikasının metodikası və tədbiqi elmi yeniliyinin əldə edilməsində iştirak edir və onu aktivləşdirir. Tədqiqat işinin ləyaqətini qorumaq və alınan nəticələrinin diaqnostik informasiyanın imkanları ilə əlaqələndirilməsi coğrafiya elminin aparıcı mövqelərindən biridir.

Diaqnostik informasiya-coğrafiya elmin gələcək inkişafının "məkan-zaman" asıllığının elmliliklərinin mövqeyini nümayiş etdirir. Mövzunun dərk edilməsində metodiki rolu inkar edilməzdir.

Dərk etmək lazımdır ki, yerinə yetirilən elmi tədqiqat işlərinin ənənəvi bəsit qaydaları, tədqiqatın məqsədindən tədricən uzaqlaşdırır. Bu o, deməkdir ki, aparılan elmi işlərin dəyəri və praktikası gələcək elmi mənbələrinə yönəldilən mövzularının seçimlərinə üstünlük verilməsini tələb edir. Dərhal düzgün elmi mövqe seçməyi bacaran tədqiqatçı, diaqnostik təhlil zamanı müdrik qərarvermə qabiliyyətinə malik olduğu zaman apardığı iş elmlilik səviyyəsinə qalxa bilər. Bu elmi iş üçün çox vacib bir məsələdir.

Məlum məsələdir ki, hər bir elm sahibi ayrı-ayrılıqda, əlahiddə dərəcədə diaqnostik qabiliyyətinə malikdir. Təcrübə göstərir ki, mövzunun öyrənilməsinin prosesi bəzən mənimsənilməsi deyil, əzbərləməyə, sadə formalarına əsaslanır. Bir dəfə A.Eynşteyndən işıq sürətinin qiymətini soruşurlar. Dahi alim bunu bilmədiyi səmimi olaraq boynuna alır: "Mən istənilən məlumat kitabından asanlıqla tapıla bilən şeyləri heç vaxt yadımda saxlamıram".

Müasir dövr, əhatəli diaqnostik yanaşmalarına= dünyagörüşü və dar çərçivəli tədqiqat işlərinin aparılmasını tələb edir. Burada əsas məsələ ondan ibarətdir ki, elm sahibi tezliklə konservasiya olunur, başqa sözlə desək "olur". Diaqnostik təhlil zamanı hər şey yenidir, ətraf mühitinin mənimsənilməsinə meyl göstərir, gələcəyə çağırır.

Müasir Azərbaycan inkişaf modelinin coğrafiyasında qütbləşən iqtisadi-sosial modellərinin qurulmasında diaqnostik informasiyalarının tədbiqi strateji məqam kimi zəruridir. İlkin növbəsində qütbləşən iqtisadi-sosial sahələrinin coğrafiyasında baş verən diaqnostik informasiyalarının qeyri-müəyyənlliyindən irəli gələrək gələcəyə doğru dəyişkənlikləri baş veirir.

**Xülasə**

- Coğrafiya elmi praktikasının dəyərli seçimlərinə "diaqnostik" ifadəsinin daxil edilməsi, onun predmet və məqsədi üçün faydalıdır. Demək olar ki, bu məsələ elmin tədqiqat prosesində işlənməsi diqqətdən yayınmışdır.
- Coğrafi diqanostik seçimi-elmin gələcək effektli tədqiqatın aparılması və ideyanın praktiki asıllığının təminatında əsas məsədli bir yanaşmadır. Məsələ onunla ölçülür ki, bu parametrlərinin yerinə yetirilən elmi tədqiqat işlərinin ənənəvi metodiki yanaşmadan nisbətən uzaqlaşdırır. Yeniliyə doğru aparan ideyalarının meydana gəlməsinə və tədbiqinə imkanlar yaradır.
- Praktiki xarakterə malik olan coğrafiya elmi araşdırmasının tələbi coğrafi məkan və coğrafi iqtisadi-sosial modellərinin qurulmasının metodikasında, diaqnostik informasiya mənbələrindən yaradıcılıqla istifadəsi strateji məqam kimi zəruridir.
- Bu zərurət ilk növbədə qütbləşən iqtisadi-sosial sahələrinin coğrafiyasında baş verən informasiyalarının mənimsənilməsindən və eləcə də qeyri-müəyyənlik diaqnostik modellərinin elmlilik çərçivəsindən irəli gəlir.

**Praktiki düşünək:**

1. Tədqiqatınızda diaqanostik təhlil ideyasına qarşı münasibət göstərə bilərsənmi?
2. Diaqanostik təhlillərinin keyfiyyət parametrlərinin təyin edilməsinə səy göstərin.
3. Diaqanostik coğrafi biliklərinin metodiki yanaşmalarına diqqət yetirin.

## 9.2. Diaqnostik modellərinin seçimi

***"Diaqnostik modellər tədqiqatın barometridir. Təhlil modelini seçmək, ona qarşı diqqətinin cəmləşdirilməsi, bu artıq mövzunun dərk edilməsinin əlamətidir."***

Seşilmiş mövzunun tamamlanmasına reaksiya verən diaqnostik modellərinin "dilinə" çevirməklə məntiqi və praktiki elmi yeniliyə sahib çıxmaq olar. Bu məsələ tədqiqatın aparıcı və çox önəmli yanaşma gerçəkliyidir.

Coğrafiya elmi tədqiqatın ümumi dialektik düşüncə tərzində diaqnostik modellərinin mühüm nəzəri və praktiki mövqeyi inkanedilməzdir. Bu ilk növbədə coğrafi struktur sahələrinin davamlı inkişaf səviyyəsinin, eləcə də kompleks ərazi təşklinin şaxələnmiş variantlarının yaranmasına, tədbiqinə təsir göstərilməsi ilə fərqlənir.

- ***Diqqət yetirək:*** *Məntiqi nəticə ondan ibarətdirk ,varlı sənaye ölkələrinin ümumi dayanıqlı inkişafının coğrafiyasnda diaqnostik modellərinin tədbiqinə əsaslan tədqiqat sahələrinə üstünlük verilir. Bu tip ölkələrinin iqtisadi-sosial və strateji inkişafının önəmli cəhəhətləri bununla izah olunur.*

Məntiqi təhlil onunla ölçülür ki, bu ölkələrinin dayanıqlılığında (iqtisadi, siyasi və s.) diaqnostik metodikasına dair geniş miqyasda praktiki elmi-tədqiqat mərkəzlərinin apardıqları nəzəri-praktiki işlərinə söykənir.

Nəzəri biliklərdən istifadə edərək elmi tədqiqatlar diaknostik faktlara əsaslan modelləri yaradılır. Yaradılan modellər ölkənin yüksək artım tempinin diaqnostik seçim təsnifatınadan qaynaqlanan ideyalarının praktikası ilə ölçülür (9.2.1):

Məntiqi yanaşsaq, başqa modellərdən fərqli olaraq diaqnostik modellərinin özünə məxsus təhlili və tədqiqat ölçüləri var. Bu ölçülər əsasən coğrafiya elminin iqtisadi-sosial və siyasi kompleksinin neçə idarə edilməsindən asılı olaraq dəyişilir. Tipoloji ərazi-istehsal və siyasi kompleksin təşkili və onun şaxələnməsiminin praktikasında diaqnostik modelinin tədbiqinin üstünlükləri ilə əlaqəlidir. Bu adi bir bir məsələ deyil.




**$F_0^1$** = diaqnostik modelin texnoloji tərəqii ilə bağlılığı; **$F_0^2$** = effektiv diaqnostik modelin qurulması; **$F_0^3$** = diaqnostik seçimin artım tempi; **$F_0^4$** = diaqnostik tempin praktikası.

### *9.2.1 Diaqanostik modellərinin qaynaqları*

▪ ***Düşünmə tərzi:*** *Bəzi tədqiqatlarının uğursuzluğuna səbəb: qarşıya qoyulan məsələnin mümkün həllinin yollarını düzgün seçə bilməməsidən irəli gəlir. Bu səbəbdən də aparılan elmi işinin resurslarının səhv və ya səmərəsiz mövzularının üzərində qurulması üzrə paylanılır. Nəticədə isə elmi tədqiqat işinin məqsədi və nəticələri qeyri-mükəmməl sonluqla bitir.*

Diaqanostik modellərə əsaslanan elmi-tədqiqatının yekunu itirilmiş resurslarının faydalılığına aydınlıq gətirir, onu yaradır və müzakirə obyektinə çevirir. Bunları nəzərə alaraq dörd mühüm diaqnostik modelinin texnoloji mümkünlüyünü qısa şəkildə ifadə etmək olar (9.2.2.):




**9.2.2. Diaqnostik modelinin qurulması (variant)**

**K** = resurs tsiklin modeli
**Y** = tədbiqi seçim modeli ——— əsas texnoloji xətlər
**N** = davaranış modeli -·-·-·-·- yardımçı texnoloji xətlər
**P** = proqnoz modeli

Bunların hər biri coğrafi diaqnostik modelə xas olan müddəalar sayılır. Hər biri həmçinin coğrafiya elmdəki potensial roluna işarə edir. Müasir dövrdə coğrafi diaqnostik modelinin qurulmasının variantlarının arzu edilən müzakirə mövzularındandır. Məqsədyönlü məsələlərdən biri də coğrafi diaqnostik modelinin qurulması tədqiqatın hərəkətində yaranan uğursuzluğunun qarşısını alır; bəzi hallarda isə elmi mənbələrinin müdaxiləsinin yaratdığı rasional problemlərinin həllinin yollarını ortaya çıxarır. Nəticə ehtibarı ilə müəyyən modellərinin elmlilik gücünü artırır. Malik olan coğrafi strukturlarının yaradılması tədqiqat işinin strateji funksiyalarının davamlı inkişafının mövqeyini tarazlaşdırır (9.2.3.).




***9.2.3. Diaqnostik funksional strateji modelinin qurulması (variant)***

Hər bir tədqiqat sahəsinin diaqnostik strategiyasının məqsədində informasiya motivlərinin düzgün seçilməsindən asılıdır. Davamlı olaraq coğrafi struktur sahələrinin təşkili və idarə edilməsinin diaqnostik modellərinin praktikasına üstünlük verilməlidir. Ona görə də diaqnostik tipli modellərinin poqnoz göstəriciləri elmi işlərinin aparılması üçün dəyrəlidir və kompleks məzmunludur.

Faktiki olaraq Azərbaycanın gələcək strateji inkişafının diaqnostik modelinin çərçivəsində neft-qaz resursları ilə birlikdə qeyr-neft resurslarının inkişafının tempi nəzərə alınmışdır.

Strateji Yol Xəritəsinin tələblərinə uyğun olaraq diaqnostik texnoloji modelinin hərtərəfli qurulması və tədbiqi struktur sahələrinin hesabına genişləndiriləcəkdir.

## Gələcəyə baxış

- Dayanıqlı inkişafının coğrafiyasnda diaqnostik modellərinin qurulması mühüm əhəmiyyət kəsb edir. Bu tip modellər tədqiqat üçün ona görə faydalıdır ki, coğrafi resursunun potensialından neçə istifadə edilməsi üçün elmi istiqamətinin yollarını müəyyən edir.
- Diaqanostik funksional model: ərazi kompleksin təşkilinində, onun tamlığının yaranmasında fəallılıq göstərir.
- Funksional modelinin coğrafiya elmində mövcudluğu ilk növbədə kompleks xarakterli mövzularının qəbul edilməsi və araşdırılması üçün effektli (optimal) variantlarının seçimini önəmə gətirir.
- Effektiv variantlarının haqqında düşünmək lazımdır. Effektiv variant dedikdə = tədqiqatda elmtutumlu modelinin tədbiqi səviyyəsinin variantları nəzərdə tutulur. Bu halda düşünə bilərik ki: funksional struktur sahələrinin ərazi təşkilinin diaqanostik model variantları ölkənin strateji maraqlarına uyğun gəlir.
- Diaqnostik modelinin elmi-tədqiqat və işləmələrinin fonunda dayanıqlığının yeri və möveyi təyin olunur. Dayanıqlı strukturunun səviyyəsi ideya məhsulunun yarada bilən variantlarının tədbiqindən asılıdır.
- Diaqnostik modelləriinin elmi əsaslarla öyrənilməsi və tədbiqi gələcək elm sahiblərinin tədqiqatlarına xidmət etməsindən ibarət olmasıdır.
- Diaqnostik model: gələcəyə baxışa uyğun coğrafiya elmində tədqiqatlarının mövcudluğunu tələb edir. Bunun üçün öncə sınaqdan çıxmış və elmdə tədbiq olunmuş coğrafi konsepsiyalarının yaratdığı mövzulara üstünlük vermək məsləhət görülür. Bu mövcud tələb ardıcıl və elmi yaradıcılığının mənbələrinə əsaslanmalıdır.
- Aparılan tədqiqatlarının varlığı onun sayından asılı deyil. Tədqiqat sayının artması müəyyən bir müddətdən sonra sabit halda elmi-metodiki və praktiki artım tempinin üstələməsi ilə nəticələnə bilər.

**Praktiki düşünək:**

1. Diaqnostik model variantlarına nə kimi ideyalarını əlavə etmək mümkündür?
2. Diaqnostik modelinin qurulmasının coğrafiya elmi üçün dəyərinə dair faktiki materiallardan istifadə edin. Bu materialların əsasında elmi işinizinin tamamlanmasına dair suallarınızı tərtib edin və ona elmlilik səviyyədə cavab verməyə səy göstərin.

## 9.3.Coğrafi diaqnostik işləmələri haqqında

***"Diaqnostik işləmələrinin öyrənilməsi tədqiqatın elmlilik səviyyəsini artırır. Mövzu seçimi və onun variantlarının mənimsənilməsinin yollarını müəyyən edir".***

Coğrafi diaqnostik işləmələrin elmi mahiyyəti = ilkin olaraq onun tədqiqat prosesinin hansı mənbədən qaynaqlanmasından bilavasitə asıllığını meydana çıxardır.

Coğrafi diaqnostik funksional proseslərinin "hərəkət"nin tədqiqat zamanı əgər qəbul etsək, o zaman bir neçə suallara cavab verməklə bir sıra çox mühüm imkanlarının əldə edilməsinə nail ola bilərik:

- Kompleks xarakterli tədqiqat zaman diaqnostik işləmələrinin hansı variantlarında özünü göstərə bilər?
- Nəyə görə diaqnostik ehtimal baxışlar coğrafi tədqiqatlarda geniş miqyasda istifadə edilmir?
- Bu kimi suallarının daxilində hansı ideyalarının mənbələrinə isdinad etmək olar?
- Əgər çətinliklər vardırsa= bu çətinliklər hansılardir?

Elmi-metodoloji işləmələrinin fonunda diaqnostik keyfiyyət göstəricilərindən neçə istifadə edilməsi vacib sayılan cavablarından biridir. Mənbələrdən alınan cavablarının mürəkkəbliyi və yaradıcılığın prizmasından mənimsənilməsi bir sıra çətinliklərinin yaranmasına səbəb ola bilər.

▪ ***Mənisəmə faktı:*** *Mənimsəmə = coğrafiya elmi nöqteyi-nəzərdən çoxfunksional ifadələrinin özündə birləşdirən xarakterik tədqiqat sahəsinin gerçəkliyidir. Problemlə bağlı coğrafiya elmdə kifayyət qədər təkliflər mövcuddur. Fikrimizə, mənimsəmə = diaqnostik coğrafi təliminin aparıcı və dinamik bir halıdır. Buda coğrafi tədqiqat üçün yenilik kimi baxılmasına, elmi işinin məzmununa aydınlıq gətirməsinə qarşı meylini artırır. Mənimsəmə işləməlirinə qarşı qeyri-müəyyənlik yanaşma meyillərinin meydana gəlməsi isə tədqiqatın öyrənməsinin hallarına mənfi təsir göstərir.*[84]

[84] Mead, R.J.: Models in geography. London. 2001. pp.84.

Coğrafi diaqnostik işləmələrinin öyrənilməsinin nəticələri və tədbiqi yollarının "məkan-zaman"ın ideya məqsədlərinin keyfiyyət çevrilməsini tələb edir. Coğrafi işləmələrinin elmliyinin əsasını bunlar təşkil edir ( 9.3.1.).

$$\textbf{CDİ} = \begin{Bmatrix} \breve{G} = (\breve{G}_1,\ \breve{G}_2,\ \breve{G}_3 \ldots \breve{G}_n) \\ D = (D_1,\ D_2,\ D_3 \ldots D_n) \\ R = (R_1,\ R_2,\ R_3 \ldots R_n) \\ E = (E_1,\ E_2,\ E_3 \ldots E_n) \\ L = (L_1,\ L_2,\ L_3 \ldots L_n) \end{Bmatrix}$$

Ğ= coğrafi resurs potensialı
D = resurs tsiklinin ərazi təşkili
R = struktur kompleksin qurulması
E = diversifikasiya diaqnostikası
L = diqanostik coğrafi sərhəddin təyini

***9.3.1. Coğrafi diaqnostik işləmələri (CDİ)***

Diaqanostik təhlilinin önəmə gətirilməsində əsas məqsəd siyasi, texnoloji, coğrafi mühit, riyazi-iqtisadi və s. sistemli faktorlarının işləməlinə aydınlıq gətirməkdir. Sistemlərinin işləimə məzmununda yalnız kəmiyyət göstəricilərinin adekvat modelləşdiriməsi mümkün deyildir. Coğrafi sistemli təhlillində "keyfiyyət güçü"nün effektliyinin çərçivəsində neçə reaksiya verməsindən asılıdır. Bu şərt coğrafiya elmi araşdırması üçün əsas göstəricilərindən biridir.

▪ ***Düşüncə tərzi:*** *Qeyri-səlis məntiq nəzəriyyəsinin banisi L.Zadə əsalandırmışdır ki, insan düşüncə və biliklərinin əsas rol oynadığı humanistik sistemlərinin təhlilində adi kəmiyyət metodalrını effektli hesab etmək olmaz. Qeyri - müəyyənlik şəraitində qərarlarının qəbul edilməsinin "keyfiyyət" ifadəsi elmin mühüm düşüncə tərzidir. L.Zadənin irəli sürdüyü bu təkamül məntiqinin nəticələrindən coğrafi diaqnostik təhlilləri üçün istifadəsi geniş imkanlar yarada bilər. Məqsəd bu imkanlardan coğrafiya elminin yaradıcılığı üçün necə istifadə edilməsindən asılıdır.*

Coğrafi təhlildə keyfiyyət effekti ərazi-istehsal strukturunun təşkilinin **nəzəri və praktiki sahələrinin kompleksliyində diaqanostik işləmələrinin** tədbiqi daha geniş məznunda özünü göstərə bilir (9.3.2).




***9.3.2. Diaqnostik coğrafi işləmənin dərk edilməsi (varinat)***

Müasir dövrün tələbləri baxımdan coğrafiya elminin qarşısında duran önəmdən biri də innovativ işləmənin diaqnostik qaydalarıdır. Problemin diaqnostik qaydalarının nisbətində innovativ işləmələrinin kreativ resursunun üzərində qurulmasıdır. Bu tip diaqnostik əlaqələrinin praktikası varlı makrosənaye ölkələrinə aid edilir. İnnovasiya-texnologiyalarının tədbiqi kodlarının hesabına makrosənaye ölkələrinin coğrafiyası geniş miqyas alınmasına səbəb olmuşdur (9.3.3.).




***9.3.3. İnnovativ işləmənin diaqnostik kodları***

Qloballaşan cəmiyyətin diaqnostikasının coğrafiyası ölkələrinin sərhədlərinin ətrafında davamlı olaraq dəyişilir. İnnovativ inkişafının sferasının təsirinin cazibə qüvvəsi ərazi-istehsal kompleksinin sərhədlərinin "coğrafi genişlənməsi"nə şərait yaratmışdır.

Tədqiqat prosesinə daxil edilməsinin zərurət hesab etdiyim diaqnostik araşdırmalarının üstün cəhətlərinə artıq cavab vermişik. Təkrar olaraq göstərmək istəyirik ki, bu araşdırmalarının elmi nəticələrinin tədbiqi amilinə cevrilməsi haqqında izahlarını əsaslandırmışıq.

Müasir elminin tələbləri göstərir ki, kompleksli inkişafının təminatı üçün texnoloji yeniliklərinin tədbiqinin innovativi mexanizminin mənbələrinə çevrilməsinin prosesləri həyata keçirilir.

Elmi araşdırımalarının tələblərinə cavab verən "insan = kapital = xammal resursları" texnoloji xətlərinin strategiyasinın mənimsənilməsinin dərəcələrində seçimlərinin obyektinə çevrilməsinə aid mənbələrində özünü göstərməkdədir. Məqsədli olaraq kompleks araşdırma miqyasının çərçivəsində innovativ inkişafının variantları üçün konstruktiv tipli layihələrində istifadəsi aktual problemli məsələyə diqqətin artasını müşahidə edirik.

Kompleksli diaqnostik işləmələrinin mənimsənilməsi və onun ərazi-istehsal sahələrinin təşkili üçün önəmlidir. Ərazinin təşkilində diaqnostik təhlilləri göstərir ki, tsikllilik formalarının tərəqqisi və ya tənəzülü kimi irəli sürülən ideyanın nə dərəcədə mənimsənilməsi ilə bağlıdır.

Elmi-praktiki əhəmiyyətinin mahiyyəti ondan ibarətdir ki, tsiklli inkişafının dəyərlərinin variantları ön plana çəkilir və optimal diaqnostik xarakterinə çevrilməsinə səbəb olur.

▪ ***Önəmli bir məsələ:*** *Optimal diaqnostik inkişaf = coğrafi təbiəti etibarı ilə ərazi kompleksinin müəyyən bir hissəsidir. Müəyyən edilmiş diversifikasiya diaqnostik işləmələrinin coğrafiya elminin nəzəri baxımdan mənimsənilməsi, təhlil edilməsi və proqnozlaşmasının imkanlarının artırılmasında fəallıq göstərir.*

Diaqnostik işləmələr – coğrafi biliyin nisbi müstəqil sahəsi olmaqla, elmin inkişafının fərqli keyfiyyətlərini özünəməxsusluğunu öyrənir. Bir elm sahəsi kimi, diaqnostik işləmələr qloballaşan iqtisadi-sosial mühitdə vüsət almasına baxmayaraq, coğrafiya elmində vahid yanaşma tərzinə rast gəlmək mümkün deyildir. Ona görə də bu bölmədə problemin öyrənilməsinə dair təhlillərə üstünlük verilməsini məqsədəuyğun hesab edirik.

## Xülasə

- Elmi işləmələrinin diaqnostikasına dair çox az mənbələrinin olmasını nəzərə alaraq, bu yarımbölmədə bəzi məqamlara üstünlük vermişik. Gələcək elm sahibləri təqdim etdiyimiz məsələyə dair geniş miqyasda araşdırmalarının aparılmasına əminəm.

- Kreativ düçüncə sahibi olan gənc tədqiqatçılar diaqnostik təhlillərinin fonunda mövzu seçimi, metodiki apartanının qəbulunu edərkən, diaqnostik işləmələrinə aid mənbələrinə münasibət bilidirməyi tövsiyə edirəm. Məlumdur ki,elmi mənbələrə söykənən innovativ mövzularının nəticələri, davamlı olaraq yaradıcı tədqiqat işlərinin tamamlanması üçün ideal mənbədir.

- İnnovativ diaqnostik işləmələrinin əsasında təhlil edililən elmi işinin məzmunu və ideya istiqamətinin kodlarının praktikasının nəticəsində aparılan mövzunun elmliyini artırır və yeniliklərin yaranmasına səbəb olur. Bu elmi işinin yerinə yetirilməsi üçün vacibdir. Çünki, elmi iş kreativ işləmənin üzərində qurulmalıdır. Bu tip diaqnostik əlaqələrinin praktikası varlı makrosənaye ölkələrinə aid edilir. İnnovasiya-texnologiyalarının kodlarının hesabına makrosənaye ölkələrinin coğrafiyası geniş miqyas almışdır.

**Praktiki düşünək:**

1. Diaknostik coğrafi əlaqələrinə dair təhlil aparakən texnoloji xətlərinin yaratdığı mühitinin varlığı haqqında düşün.
2. İnnovasiya-texnologiyalarının kodlarının yeniliyinə münasibət bildir.

## 9.4. Diaqnostik nəzəri rabitəsinin gözləntiləri

***"Tədqiqatda diaqnostik nəzəri rabitənin nəticələri elmi işinin daha ritmik halına çevirir."***

Coğrafiya elmi üçün kompleks tədqiqatı zamanı heç şübhəsiz ki, diaqnostik nəzəri biliklərinin rolu və mövqeyini öyrənmək lazımdır. Tədqiqat sahəsinə ötürülmüş diaqnostik nəzəri rabitənin təhlillərinin yekun nəticələri rasionallığı ilə fərqlənir.

Coğrafiya elminin nəzəri baxışlarının öz imkanları, rasional yanaşmalarının qaydaları mövcuddur. Hər bir nəzəri baxışın daxili məzmunu ilə birlikdə, həm də onun formalaşmasının məqsəd və hərəktlərini də öyrənmək lazımdır. Hərəkətlər sistemində diaqnostik nəzəri rabitəsinin elmlilik xarakterinin rasional formalaşmasına səbəb olur. Səbəb kimi aşağıdakı məzmunda suallarına aydınlıq gətirilməsinin anları meydana çıxır:

- Tədqiqatın diaqnostik nəzəri rabitəsi baxımının tələbi nə ilə ölçülür?
- Coğrafi kompleksinin təşkili və idarə edilməsində rabitəli diaqnostik nəzəri gözləntilərinin aramasına imkanımız varmı?
- Diaqnostik nəzəri rabitəsinə dair elmi-metodiki coğrafi mənbələri mövcuddur? Bu kimi sullar yetərincədir.

▪ ***Haşiyə:*** *Məqsədə doğru bir addım atmaq üçün verilən sulllara yetərincə də olmasa belə, səviyyə daxilində cavab vermək imkanımız var. Belə bir imkan uzun bir dövr ərzində öyrənmək istədiyimiz coğrafiya elminin nəzəri-metodoloji qaydaları ilə bağlıdır.*

Diaqnostik nəzəri rabitənin önəmi elmi işlərinin daha məzmunlu aparılmasına söykənir. Gəlin, yuxarıda qəbul etdiyimiz suallarının cavablarına bir daha nəzərdən keçirək və daha sonra isə diaqnostik nəzəri baxışların necə faydalı olduğunu müzakirə edək.

Gözlənilən bir nəticəni əldə etmək üçün diaqnostik nəzəri rabitədən hansı məqsədər üçün neçə istifadə etmək mümkünlüyü haqqında fikirlərimizi bölüşdürək.Yuxarıdakı bölmələrində diaqnostik gözləntilərinin tədqiqat üçün nə dərəcədə əhəmiyyətli olduğuna dair münasibət bildirmişik. Bu yarımbölmədə diaqnostik təhlil zamanı nəzəri-metodiki baxışlarının gözləntilərini də nəzərdən keçirəcəyik.

Nəzəri gözləntilərinin hansı kanallarla təhlillərinin aparılmasının məqsədləri bir neçə yanaşmalarla bağlıdır. Məntiqlə yanaşsaq, cari və gələcək tədqiqat sahəsinin önəmində gözlənilən metodiki dəyişkənliklər bir çox kanallarla öyrənilməsi həm birbaşa, həm də aktivlik mühitinin varlığı ilə əlaqəlidir. Cari və gözlənilən gələcək elmi nəticələrinin alınması və onun praktikada əsaslandırılması diaqnostik nəzər biliyinin nə dərəcədə elmlilik olmasından bilavasitə asılıdır.

Elmlilik dərəcəsinin olması nəzəri cəhətdən tədqiqatın gələcək gözləntilərinin optimallaşmış variantlarının müxtəlifliyinə və yeni məzmuna çevrilməsinin səbəbi ilə əlaqəlidir. Çevrilmənin səbəbi isə ərazi-istehsal struktur sahələrinin təşkili üçün elmi bazasının yaradılmasının məqsəd və vəzifələri ilə bağlıdır. Belə bir gerçəkləşmənin tərzi ilkin olaraq mövzu seçimi və eləcə də metodiki işləmələrinin aparatı üçün kreativ məhsul sərvətinin artırılmasında və aktivləşdirilməsində iştirak etməsidir. Sonrakı mərhələdə isə öz növbəsində elmi işinin ardıcıllığında istifadə edilən nəzəri-metodoloji yeniliyinin dərk edilməsində özünü göstərir.

▪ ***Elmi yenilik:*** *Yeni kəşf,yeni nəzəri baxış yaratmaq deyil.Elmi yenilik: istifadə edilən biliyin diaqnostik təhlilləri zamanı neçə tədbiqinə nail olmaq ifadəsini özündə birləşdirilməsi deməkdir.*

Diaqanostik nəzəri biliyinin əsasında elmtutumlu tədqiqatın aparılması və eləcə də "kəmiyyət-keyfiyyət" aspektində elmi mövzunun yerinə yetirilməsinin məqsədində aşağıdakı rabitəlik mühitin qaydalarının tədbiqinə dair bir sıra məsələlərinə aydınlıq gətirək (9.4.1):




**9.4.1. Diaqnostik nəzəri rabitənin elmlilik mühiti**

- **N** =elm tutumlu mövzu seçimi. ——— əsas nəzəri rabitə
- **S** = coğrafi diaqnostik tədqiqat obyektinin seçimi. ----- yardımçı nəzəri rabitə
- **R** = aparılan elmi işinin diaqnostik effektli mühiti.
- **F** = diaqnostik nəzəri resursun qəbulu.
- **T** = elmi yeniliyin müəyyənliyi.
- **X** = diaqnostik rabitənin tamamlanması.

▪ ***Nəzəri baxış:*** *Elmlilik tutumlu mühitinin miqyasında diaqnostik rabitənin effektliyinin yarada bilən nəzəri biliyinin mənimsənilməsidir. Coğrafi tədqiqatın kompleks ərazi strukturunun formalaşmasında və eləcə də dinamikasında iştirak edir.Bu rabitənin ideya motivi ondan ibarətdir ki, diaqnostik yanaşma yüksək texnoloji tsikllərinin nəzəri əsasından istifadə etməklə, elmi-metodiki, kəmiyyət və keyfiyyət nəticələrinə sahib olmaqdır.*

Coğrafi cəhətdən genişlənən Azərbaycanın dayanıqlı inkişafı yeniləşir. Buna görədə bu yeniləşmə xəttinin istiqamətinə yeni prizmadan baxılmasını tələb edir. Coğrafi elmi diaqnostik nəzəri rabitənin yaradılması və genişləndirilməsi ölkənin gələcək taktikasının tərkib hissəsidir. Məqsədə şatmaq üçün diaqnostik nəzəri rabitənin qurulması və tamamlanmasına elmtutumlu, məqsədli işlərindən istifadə olunmalıdır.

İnnovativ strateji xammal resurslarına malik olan ölkələrinin cərgəsində Azərbaycanın xüsusi mövqeyi var. Ölkənin proqnoz enerji potensialı imkan yaradır ki, gələcək inkişaf prosesində coğrafi diaqnostik nəzəri-praktiki cəhətdən qloballaşan mühitinin çərçivəsinə tamlıqla daxil ola bilsin. Bu çox vacib bir strateji yanaşma tərzidir.

Azərbaycan diaqnostik qloballaşma mühitinə daxil olmasının məqəsində bir sıra iqtisadi-strateji problemlərlə üzləşir. Starateji mahiyyət daşıyan dayanıqlı layihələrinin həyata keçirilməsi siyasəti düzgün qurulmuşdur.Bununla yanaşı, ölkənin əsas ixrac potensialı hesab edilən karbohidrogen resurslarının hərəkəti xammal kimi dövriyədədir. Ümumi inkişafının tələblərinin baxımından bu yanaşma tərzi kifayyət qədər effektli sayıla bilməz. Bunu nəzərə alaraq “Strateji Yol Xəritəsi”nin gələcək tələblərinin qarşısında, yaxın dövrdə makroiqtisadi və ixrac potensiallı ərazi-istehsal komplekslərinin yaradılmasının problemi ilə üzləşmişdir.

**Diqanostik qloballaşan mühit** = terminin etimologiyası coğrafi - iqtisadi baxımından ikili xarakterə malikdir: (1) Dünya ölkələrinin əksəriyyətini əhatə etmir. (2) Əsasən iqtisadi dövriyyəsinin həcmində çıxış edir.Yəni 50-60 ölkənin Qlobal Məcmu Məhsulun 95%-dən çoxuna sahib olması əsas göstəricidir.

Məntiqi önəm ondan ibarətdir ki, yaxın gələcəkdə ölkənin diaqnostik qlobal mühitlə tarazlaşmasına dair tədqiqat işləri üzrə məqsədli elmi mövzularının üzərində yerinə yetirilməsidir.

Elmi diaqnostik rabitə mühitinin təhlillərinin əsasında qəbul edilən mövzu seçimi və metodiki yanaşmaların mənimsənilməsi üçün “enerji” mənbəyidir. Bu mənbədən neçə istifadə edilməsi isə elmi rəhbərinin təlimindən və tədqiqatçının səyindən asılıdır.

Tədqiqatda rabitə birliyi yoxdursa, deməli, təyin edilən məqsədin də məzmunu müxtəlif olacaqdır. Hər bir elmi işinin diaqnostik öyrənmə səviyyəsi və mental xüsusiyyətləri ilə determinə olunmuş inkişaf yolu mövcuddur.

Bu sahədə Azərbaycanın coğrafiya elmində müəyyən dərəcədə elmi əsərlərinin olmasına baxmayaraq,ümumi nəticədə isə demək olar ki, tədqiqat obyektinə çevrilməmişdir. Müasir tələblərə uyğun, coğrafi diaqnostik göstəricilərinin yeni elmi paradiqması hər bir aparılan elmi işinin sərhədlərinin tələblərinin çərçivəsinə daxil edilməsidir. Çərçivə seçimlər mövzunun məsəd və vəzifələrinin sərhədlərinin təyini üçün ilkin varinatlardlr. Elmi işlərinin yetirilməsində varinatlı çərçivə seçimləri müstəqil olmalıdır.

Tədqiqatın müstəqilliyinin seçiminində aparıcı diaqnostik coğrafi rabitəsinin sərhədlərinin öyrənilməsinin variantlarını göstərmək mümkündür: *təbii kompleksin sərhəddi; iqtisadi strukturun formalaşmasının sərhəddi; *kompleksin dəyişilməsinin sərhəddi və s.

Fikrimizcə, diaqnostik sərhədlərinin daxilində konseptual yanaşma, aparılan elmi işinin kompleksliyinin nəzəri rabitəsinin zərurətindən irəli gəlir. Buna görə də elmi təhlil zamanı iqtisadi və sosial sahələrinin ərazi təşkilinə qarşı həssaslığının tələblərinə uyğun nəzəri-metodiki işlərinin üzərində qurulmalıdır.

Elmi araşdırma prizmasından yanaşsaq,belə bir qənaətə gəlmək olur ki, tədqiqatçıda məntiqi coğrafi biliyinin mühakimə yolu ilə diaqnostik nəzəri rabitəsinin qurulmasına qarşı həssaslıq olmalıdır. Əks halda elmi işinin zəif cəhətlərini çox zaman böyük quvvəyə çevrilməsinə şərait yarada bilir.

▪ ***Düşüncə tərzinə baxış.*** *Məntiqi təhlil göstərir ki, tədqiqat prosesində bir mənbə üzərində araşdırma apararkən “zəif cəhətləri”nə manasibət bildirərkən, onun “lazımsız” etmək yox, elmliyinin nədən ibarət olduğun müəyyən edib, elmi cəhətdən nə səviyyədə olduğuna diqqət yetirməsinə nəzər yetirməlidir. Elm sahibi özünün düşüncə tərzində müəyyən fikirlərinin dərkindən sonrakı mərhələdən yenilik kimi məqsədəuyğun, məntiqi yanaşmalarına vərdiş edə bilər.*

Məntiqi düşünsək, Azərbaycanda coğrafiya elmi tədqiqatlarında diaqnostik nəzəri rabitəsinə dair təhlillər demək olar ki, yox dərəcəsindədir. Əsas kimi göstərə bilərik ki, gənc elm sahibləri məsələ ilə bağlı maraq dairəsi çox zəif, ya da hər hansı bir elmi məktəbə mənsub olmamasıdır. Elmi coğrafi məktəbinin varlığı = kompleks məzmunlu fundamental tədqiqat işlərinin aparılmasının yaradıcılıq yolunun "hərəkətverici" məktəbi sayılır.

Elmi təhlillərdə müəyyən bir qaydanı, fayda verən təklifə aydınlıq gətirmək üçün bir sıra analitik seçimlər ola bilər. Bu nə deməkdir? Sualın cavabı bir sıra məqamları əhatə edir. İlk növbədə tədqiqatçı ilə öyrənilən mövzu arasında elmlilik rabitəsinin ritmlilik səviyyəsinin yüksək əhatəli olmasıdır. Elmlilik rabitəsi - öyrənilən mövzunun ləyaqətlə işləmələrinin analitik qaydaları kimi qəbul olunur.

Fikrimizcə, coğrafiya elminin idrak məslək kredosunun[85] üstünlüklərindən istifadə etməklə tədqiqatın diaqnostik rabitəsinin təhlillərinin məqsədyönümlü aparmaq imkanını əldə etmək olar. Vacib odur ki, diaqnostik rabitənin təhlilinə qarşı arzun ola və inadla onu mənimsəməyi bacarasan. Kəmiyyət-keyfiyyət seçimi, müxtəlif qrafiklərin,cədvəllərin, xəritənin, modelin qurulması və s.=bu artıq elmi tədiqatının ≈ 40-45% -dir.

▪ ***Kredo şərhi.*** *Diaqnostik coğrafi rabitəsinin kredo qaydası = mövzunun araşdırma mexanizmi təkcə bilik yox, yaradıcı bacarığının olmasını da tələb edir. Bacarıqlı elm sahibi həmişə yaradıcılığının mənafeyini hər şeydən üstün tutur. Tədqiqatçının xarakterində bu məntiqi məslək olanda bütövlükdə öz kredosunun (məqsədinin) sahibi olur.*

Coğrafi diaqnostik tədqiqatlar üçün müəyyən idrak funksiyasının daxilində emosional dərketmə qabiliyyəti ilə yanaşı, məsələnin ardıcıl, kompleks təhlillərinə uyğunlaşmaq qaydalarını da özündə əks etdirməlidir. Elm işə maraq hissi: yeni axtarışlara qarşı müdrik olmaq, yaradıcılıq dözümlüyü və xeyrxah olmaq kredosu hər bir mənviyyətinin bir hissəsinin olmasını düşünməlidir.

Coğraya elmi üçün diaqnostik rabitənin varlığının araşdırılmasının kredosu mövzunun da xilində "keyfiyyət məhsulu"in "hərəkəti"ni özündə birləşdirəndə elmi təhlillərinin üstünlükləri üzə çıxır. Məna baxımdan bu o, deməkdir ki,

---

[85] Kredo ( lat.inam) – hər hansı əqidəyə inam simvolu.

diaqnostik rabitə, elmi təhlillərinin keyfiyyətinə təsir göstərən,praktikaya yönəldilən proyeksiyasıdır. Hər bir yaradıcı insanın üstünlükləri = təəccüb və maraq hissi; elmi axtarışlara həvəs kimi anlayışlarının qəbul edilməsi ilə fərqlənir. Məlim olmayan ideyanın heç bir tədqiqatçının fikirləşmədiyi kimi fikirləşmək, elmi nəticələr çıxarmaq və onu "keyfiyyət məhsulu"in "hərəkəti" daxilində konstruktiv təhlil etmək qabiliyyətinə malik olan elm sabiblərinin üstünlükləri bunlarla ölçülür.

Bu məqam onu tələb edir ki, öyrənilən hər hansı bir coğrafi obyektin həm özünün və həm də digər elmi mənbələrində verilən materiallarının yaradıcılıqla yanaşmağına sahib olasan. Deməli, yaradıcılıqla yanaşı, mövzuya qarşı həssas (coğrafi "qəlbə") malik olmalısan. Bu məna ifadəsi həm də coğrafi diaqnostik nəzəri rabitəsinin praktiki dəyəridir.

Qeyd etmək lazımdır kı, məqsədli struktur kompleksinin ərazi təşkilinin mexanizmi elmi mənbələrinin üzərində qurulmalıdır. Bu elmi-tədqiqat fəlsəfəsinin önəmli sahəsidir. Coğrafiya elminin effektli seçmə metodunun müəyyənliyi və kotlaşdırma əməliyyatının istifadəsi üçün zəruridir. Nəticə ondan ibarətdir ki, coğrafiya elmin davamlı metodiki əməliyyatlarının tədbiqi və alınan elmi nəticələrinə uyğunlaşmasında özünü göstərir.

Diaqnostik təhlili zamanı bəzi hallarda praqmatik[86] məsələlərinin həllinə üstünlük verilir. Əsas məsələnin mahiyyətndə qəbul edilən "risk"in qiymətinin zəruriliyinin nəzərə alınmaqla təhlillərinin aparlmasına üstünlük verilməsi əsas şərtdir.

Elmi işinin üstünlüyü onunla ölçülür ki, təhlillər zamanı müasir coğrafi tədqiqat rabitəsinin metodiki qaydalarının əsasında mövzunun məqsədlərini tamlıqla yerinə yetirməlidir. Bu sahədə elmi işçi özündə buna qarşı inam və dözümlülük vərdişini yaratmalıdır. İnamın məzxində elmi dəyərlərinin öyrənilməsinin inmalılıq üstünlük təşkil etməlidir. Dərk edilməlidir ki, elmi tədqiqat işi həm də müəyyən səviyyədə diaqnostik fantaziya, xəyalpərvərlik önəmlərinin tələblərinə qarşı reaksiya vermək qabiliyyətinə də malikdir.

Diqanostik nəzəri rabitə gözləntilərinin çərçivəsində ərazi-istehsal kompleksin (ƏİK) formalaşmasının sərhədlərinin təyini coğrafiya elmi tədqiqatının çox vacib və çoxşaxəli metodiki qaydalarından biridir. Nisbi münasibətdə ərazi-

[86] Praqmatik =obyektiv qanunların dərk olunmasını qəbul etməyən fəlsəfi cəryan.

istehsal kompleksinin sərhəddinin təyinin diaqnostik nəzəri rabitəsinin çoxfunksionallığı hansı coğrafi mənbələri ilə əlaqəlidir?

A.Cmayla (A.Smails) [87] istehsal kompleks anlayışını və onun sərhəddinin təhlillərini verərkən iki mühüm aspekti nəzərə almışdır: * coğrafi və * istehsal aspektləri. Fikrimizcə, coğrafi aspekt kimi ƏİK= coğrafi məkanın bir hissəsi olub, özünün struktur funksiyaları ilə digər struktur sahələrinin formalarıdan fərqlənir. ƏİK-nin strukturunun coğrafi əsası texnoloji əlaqələrinin bir-birilə eyniliklə birgə ritmlilik fəaliyyətinin tamlığının sərhədlərinin daxilində yaranır və kompleksinin funksional sahələrinin arasında birgə tamlığını özündə birləşdirir.

ƏİK-nin sərhəddinin təyinində müxtəlif mənbələrinin olması da nəzəri cəlb edir. X.Xassinger (H.Hassinger)[88] ƏİK-in şəhər aqlomerasiyasının sərhədinin təyinində əsas kriteriya kimi = əhalinin hərəkət dairəsini, nəqliyyat əlaqələrinin radiusu və şəhər kvartallarının sıxlılılıq dərəcələrini və eləcə də struktur formalarının təşkilini götürmüşdür. Şəhər ətrafı ƏİK-nin ərazi təşkili konsepsiyasında G.Doksiadisin (G.Doxidis) oykumenpolis (şəhər zonaları) ideyalarının "tədqiqat və inkişaf"nın səhrəddinin çərçivəsində (daxilində) formalaşmasına xüsusi diqqət yetirir.[89]

Fikrimizcə, ƏİK-in sərhədlərinin ümumi çərçivəsinin diaknostikası = dayanıqlı inkişafın = ərazi struktur kompleksinin optimal səviyyədə idarəeilməsinin qanunuyğun formalaşması kimi dərk edilməsində özünü göstərir. Nəqliyyat-kommunikasiya koridorlarının və zonal tipli çoxfunksional struktur kompleksinin coğrafi sərhədlərinin təsiri dairəsinin fonunda formalaşan ƏİK, elmi-tədqiqat işinin tamamlanması üçün daha çox aktivlik göstərir.

Məntiqi cəhətdən ƏİK-in sərhədlərinin informasiyasının diqanostik nəzəri cəhətdən əsaslandırılması coğrafiya elminin mühüm öyrənmə təlimidir. Təlimin "nüvə" çərçivəsindən başlanmış onu əhatə edən sosial-iqtisadi və funksional əlaqələrinin seçimləri məhz coğrafi araşdırmalarının sahəsində yerinə yetirilə bilər.

---

[87] Smailes A.E. The Geography of Towns. London. 1961.
[88] Hassinger H. The doaimne of Human Geography. London,1998.
[89] Doxiadis G.A.Ekistics. An İntroduction to the Science of Human settlements. London, 1996.

Azərbaycanda ərazi-istehsal kompleks strukturunun meydana gəlməsi Bakı aqlomerasiya şəbəkəsinin formalaşması ilə bağlıdır. Qeyd etmək məqsədəuyğundur ki, qəbul olunmuş "Strateji Yol Xəritəsi"nin gələcək planlaşdırılmasında, yaxın dövrləri ərzində Gəncə şəhərətrafı zonasında da ərazi-istehsal kompleksinin yaradılması lahiyəsinin həyata keçirilməsi də daxil edilmişdir.

Məsələnin elmi mahiyyəti onunla izah olunur ki,"resurs-istehsal-kompleks" formulasının qəbul etdirilməsi və eyni zamanda kompleksin sərhəddinin daxilində baş verən istehsal sahələrinin şaxələnməsi və yeni iqtisadi-sosial funksialarının yaranması ilə tamlıqla diaqnostik əlaqələrlə bağlıdır. Bakı aqlomerasiyasının tərkibində formalaşan ƏİK-in sərhədlərininin dayanıqlı struktur funksiyalarının təşkili ilə və idarə edilməsi qanununda fəaliyyət göstərir (9.4.2.). Funksiyalara daxildir: aqlomerasiyanın coğrafi mövqeyi, neft-qaz resurslarının potensial imkanları, nəqliyyat-kommunikasiya və beynəlxalq iqtisadi potensial əlaqələrinin strategiyası və s.




**9.4.2. Diaqnostik ƏİK-nin sərhədlərinin təyini (Bakı aqlomerasiyası, variant)**

**N** = Nüvə (İçəri şəhər). **G** = ƏİK-in sərhəd zonası (**F**-fəal rekonstruksiya; **D** - sənaye parkları; **R** - şəhərətrafı sənaye-peyklərin yaradılması və inkişafı; **T** = nəqliyyat - kommunikasiya sistemi, **K** - neft-kimya emalı.). **Ə** = ərazi-istehsal kompleks

Bakı şəhər aqlomerasiyasının sərhədlərinin formalaşması və onun dayanıqlığı ilk növbədə karbohidrogen resurslarının istifadə edilməsi və kompleks yaradılması ilə bağlıdır. Bakı aqlomerasiyasının tərkibində ƏİK-in sərhəddinin yaranması nəzəriyyəsi monosentrik, yəni bir nüvə (neft-qaz resurs) üzərində əmələ gəlmiş və sonrakı mərhələlərində isə əlavə strukturlarının daxil olmasının əsasında yeniləşmişdir.

Elmi təhlillər göstərir ki, Bakı ərazi-istehsal kompleksinin diqanostik funksional zonalarına ayrılması aqlomerasiya daxilində hər zaman xarakter olmamışdır. İlkin olaraq şəhər funksional zonalaşma prinsipi şəhər tipli yaçayış məskənləri yaranmış, karbohidrogen resursunun mənimsənilməsinin tələbləri ilə üzləşmişdir. Yenilik ondadır ki, kompleksinin funksiya və proseslərinin aydın formada sərhədlərinə ayrılırdı və bunun nəticəsi olaraq istehsal tsikllərinin təşkilində və yeni texnoloji üsullarının tətbiqinin nəticəsi kimi Böyük Bakı sərhədlərinin funksiyaları yeni məzmuna çevrildi (məsələn, Ələt sənaye zonası və s.).

Fikrimizcə, ölkəmizdə ƏİK-in tədricən diaqnostik zonalaşmasının prinsiplərinin elmi-metodiki qaydalarını mənisənilməsinə yönəldilən elmi işlərinin aparılmasının vaxtı çatmışdır. Bu çox vacib bir coğrafi-iqtisadi strategiyadır.

## Xülasə

- Diqanostik coğrafi nəzəri baxışlarının konseptual gözləntiləri gələcəyin real inkişafının rabitə dərəcələrindən biridir.
- Gözlətilərinin tələbi də, öz növbəsində diaqnostik davamlı inkişafından bilavasitə asılıdır. Gözlənilən tədqiqatın nəzəri "məhsulu"nu real dərəcədə coğrafi elmi sahəsinin yeniləşmiş modeli kimi qəbul edirik.
- Diaqnostik nəzəri rabitəsinin gözləntilərinin praktiki nəticələri tədqiqatın "məhsul" dərəcəsinin təyinatına necə təsir etməsi ilə əlaqəlidir.
- Coğrafi diaqnostik nəzəri rabitə müəyyən idrak funksiyasının daxili məzmunudur. Elmi araşdırmanın daxili emosional qabiliyyəti ilə yanaşı, ardıcıl, kompleks qaydalarının özündə əks etdirilməsidir. Bu önəmlər nə vaxt yarana bilər? Elmi tədqiqatda doğru maraq hissinin yaranması; yeni axtarışlarla birlikdə özünün hazırlığının səviyyəsi; səbrli və xeyrxah olmaq və s. kredosu verilən sualının cavabı kimi qəbul etmək olar.
- ƏİK-in diaqnostik nəzəri sərhədlərinin təyininin coğrafi aspektinin önəmə gətirilməsi həm elm üçün, eləcə də praktiki məqsədləri üçün əsas mənbələrindən biridir. Bu problem üzrə çoxsaylı elmi araşdırmalarının aparılmasına baxmayaraq, onun həllilinin yolları tədqiqat proseində tamamlanmamışdır. Bu ehtiyacı nəzərə alaraq Bakı aqlomerasiyasının timsalında diaqnostik nəzəri rabitəsinə dair araşdırılmalarına üstünlük vermişik.
- Məntiqi cəhətdən diqanostik nəzəri rabitəsinin informasiyasının qəbul edilməsi və coğrafi təhlillərinin çərçivəsindən başlamış onu əhatə edən sosial-iqtisadi və coğrafi əlaqələrinin ümumi ehtimallığının əhatəsinin varlığı kimi qəbul edilməsini məqsədəuyğun hesab edirik.

**Praktiki düşünək:**

1. Mövzuya uyğun məsələnin həlli üçün diaqnostik nəzəri rabitəsinin hansı yolları daha effektli sayıla bilər?
2. Gözlənilən gələcək diaqnostik nəzəri yanaşma tərzinin fəaliyyət dərəcəsinə münasibət bildirin.

# ONUNCU FƏSİL

## Tədqiqat haqqında tənqidi düşünmək

**Fəslin icmalı və tədqiqat məqsədləri:**

**10.1. Tədqiqatda seçim xətasına dair münasibət**
Tədqiqatın aparılmasında seçim xətasının ehtimalına dair öyrənilən qaydalarına üstünlük verilməsinə dair məqsədli münasibət bildirilir.

**10.2. Səbəbiyyət xətası varlığının dərk edilməsi**
Səbəbiyyət xətası probleminin coğrafiya elmi tədqiqatları üçün əhəmiyyəti önəmə gətirilmişdir. Coğrafi struktur sahələrinin konstruktiv təhlillərinin aparılmasında səbəbiyyət xətasının nəzərə alınmasına dair mülahizələri irəli sürülmüşdür.

**10.3. Statistik tədqiqatın tənqidi düşüncə tərzi**
Elmi-tədqiqatın yerinə yetirilən zamanı tələb olunan statistik materiallarının necə və hansı məqsədlər üçün istifadə edilməsinin tənqidi düşünmə imkanları aşkarlanmışdır.

## 10.1. Tədqiqatda seçim xətasına dair münasibət

*"Secim xətasına məruz qalan tədqiqata münasibət bildirmək yaradıcılığın mühüm şərtdir."*

Tədqiqatda istifadə edilən elmi yanaşmalarına və metodiki mənbələrinə istinat etməsində seçim xətası baş verə bilir.

Məlum məsələdir ki, aparılan tədqiqatın gərginliyi tədqiqatçıda fiziki aktivliklərinin yaranmasına səbəb olur. Elmi tədqiqatlarının aparılması gənclik dövrdən başlayaraq ahıllığının mərhələsinə qədər fiziki aktivlik özünü göstərir. Yaşa dolduqca informasiyanın dərk edilməsi və məlumatların ötürülməsi daha çox elmli olmasına səbəb olur. Bununla belə, hansı nəticələrinə gəlmək mümkünlüyü meydana çıxa bilər? Məsələn, tədqiqatçının 30-40 yaş ilə 60-70 yaş arasında 10 illik yaş intervalında əsasən heç bir passivləşmənin olmadığına aid hansı nəticələrinə gələ bilərik?

Hər iki suala eyni mənada bəli cavabı veririk. Hər iki halda da, əhəmiyyətli dərəcədə **seçim xətası** ehtimalı haqqındakı düşüncələrinin olmasına münasibətlər var. İki yaş aralığındakı elmi işçilər arasanda orta yaş dövrün (vaxtın) çox az fərqlənməsi təəccüblü deyil. Lakin bu hal, müəyyən bir tədqiqatçının yaşının artmasının dərəcəsində nə qədər passivləşdiyi barədə heç bir ehtimaldan xəbər vermir.

Bu istiqamətli dəyərlərinin anlamı = aparılan mövzunun və elmi yeniliyinin seçim xətasının metodiki səbəblərdən dolayı olsada, nüəyyən dərəcədə maraq doğuran məsələdir. Əsrlər boyu daha gənc və yaşlı elm sahiblərinin fundamental istiqamətli aparılan tədqiqatlarının nəticələrinin elmliyi qalmışdır. Buna görə də gənc və yaşlı qruplarının arasındakı müqayisəli elmi tədqiqatlarının əhəmiyyəti üçün xətalıdır.

Şübhəsis ki,öz fəaliyyətlərinin davam etdirən yaşlı elm sahiblərinin fərqli cəhətlərinin seçimləri daha müvəffəqiyyətlidir. Bu da bir həqiqətdir ki, gənc tədqiqatçılarının innovativ texnoloji tədqiqat sahələrinə qarşı tez qavrama qabiliyyətinin reaksiyalarının effektliyi (yaşlıdan) daha çox fərqlənir.

Seçim xətası problemi coğrafiya elminin bir çox tədqiqat sahələrinin əhatə dairəsindədir. Coğrafiya elminin əhatə dairəsinə daxil olmuş innovativ anlayışlarının qəbul edilməsi və mənimsənilməsi üçun düşünmə qabiliyyətinin varlığının olmasını tələb edir. Bir çox elmi istiqamətlərində coğrafi tədqiqat metodlarının qismən praktikadan keçirmək, alternativ metodlarının seçiminə təşəbbüs göstərilməsinin yeni qaydalarına söykənilməsinə ciddi yanaşılmasını məqsədəuyğun sayılır. Ənənəvi metodlarından da müstəqil olaraq istifadə edilməsi baxımından tədqiqatcı daha çox sərbəstliyə malik olmalıdır. Təbii ki,bu sahədə tədqiqatçının apardığı elmi işinin məqsəd və vəzifəsinə qarşı həssaslığının olmasında mühüm maraq doğurur. Mövzu seçimində, aparılan elmi yeniliyinin tələblərinə qarşı marağının geniş miqyaslı mənbələrinin əhatəsində olmasına diqqətin artırılmasına səy göstərilməlidir.

Elmi mənbələrinin seçim xətaları neçə və hansı səbəbdən meydana gələ bilər? Çox vaxt elmi tədqiqatın mövzu seçimi və problemin həlli yolları uğursuz hallarla üzləşir. Uğursuz seçim xətasının aradan qaldıracağını düşünə bilərsiniz. Lakin, uğursuz seçim bu problemi tamamilə aradan qaldırmaq imkanına malik olmur. Əsas məsələ, coğrafiya elminin təhsilinə daha çox diqqət yetirmək, daha çox elmi təfəkkürə malik olan,seçim problemindən yararlı yollarını bilən gəncləri tədqiqata cəlb etmək imkanlarına sahib olması ilə əlaqəlidir. Başqa sözlə, elmi yaradıcılıq seçimi daha yaxşı ixtisas sahibinin meydana gəlməsinə təsir göstərir. Daha sonrakı bir mərhələdə isə bu secim tədqiqatın elmi-metodiki dəyrinin miqyasının artmasının imkanlarının yaranmasında iştirak edə bilər.

Daha bir seçim nümunə = problemlərinin silsiləsinə kömək göstərmək mümkündürmü? Coğrafiya sahəsindəki bir çox tədqiqatların silsiləli məqsədi, "coğrafi mühit- insan" modelinin anlamağa və bu sahədə elmi işlərinin yerinə yetirilməsininin məqsədli meyllərinin artmasında özünü göstərir.

***Haşiyə:*** *"Coğrafi mühit – insan" modelinin tədqiqatı üçün nə dərəcədə əhəmiyytli olduğunu düşünün. Cəmiyynətin uzun müddət ərzində hansı aralıqda bu modelin üzunmüddətli bir tədqiqat sahəsi olduğunu dərk edə bilməniz maraq doğura bilər. Tədqiqatın üzünmüddətli olması qərarına gələ bilərsizmi? Qərar sahibi seçim edərkən ehtimal ki, məsələ ilə bağlı tədqiqatların əksəriyyətinin məqsədli yaradıcılığında çətinlik çəkəcəyini bilməklə, digər seçimlərini də edə bilər.*

# Xülasə

- Tədqiqatda seçim xətası - istifadə edilən metodiki vəsatlərinin kompleksliyinə münasibətdə seçim xətası baş verə bilər.

- Seçim xətası problemi coğrafiya elmi tədqiqatının müxtəlif sahələrində də baş verə bilər. Bu ideyanı anlamaq və praktiki həlli üçün istifadə edilməsi tədqiqatçının maraq dairəsindən asılıdır.

- Coğrafi tədqiqat işlərində seçim xətasına daha çox həssaslıqla yanaşılması tədqiqatçının yaradıcılıq imkanlarını artırır. Bir çox elmi-metodiki yaradıcı üsullarla məşğul olmasına yradımçı olur.

- Məqsədli struktur kompleksinin yaradılması elmtutumlu mənbələrin əsasında qurulmalıdır. Bu elmi-tədqiqat işinin əsas fəlsəfəsidir. Yerinə yetirilən elmi işin seçim xətaları bu məsələlərin düzgün dərk edilməsindən baş verə bilər.

- Elmi işinin müəyyən səviyyədə praktiki "məhsulvermə" mövqeyi olmalıdır. Praktiki "məhsulvermə" seçimi elmlilik üzərində qurularsa, heç vaxt seçim xətası ilə üzləşə bilməz.

- Ənənəvi tədqiqat seçimindən tədricən uzaqlaşmaq; innovativ məqsədli elmi işlərinə üstünlük verilməsinə seçim edilməsi məqsədəuyğundur.

**Praktiki düşünək:**

1. Tədqiqat prosesində seçim xətasını hansı yolla azaltmaq olması haqqında düşün.
2. Tədqiqatın aparılmasında və nəticələrində seçim xətasının haqqında misallar gətirin.

## 10.2. Səbəbiyyət xətası varlığının dərk edilməsi

***"Təhlil edilən bir məsələnin "ifrat" qiymətləndirməsinin seçimi, tədqiqatın səbəbiyyət xətasının qeyri-müəyyənliyi haqqında təsəffürlər yaradır."***

Səbəbiyyət xətası tədqiqat sahəsinin "səbəb-nəticə"si qaydaları aparılan elmi işinin ümumi bir problemidir. Bu problem coğrafiya elmi tədqiqatının bir çox struktur sahələri üzrə konstruktiv təhlillərinin aparılmasının məqsədləri üçün vacibdir.

Səbəbiyyət xətası haqqında düşüncələr coğrafi tədqiqatlar üçün ümumiləşdiilmiş məzmunda özünü necə göstərir? Seçim xətasından yaranmış coğrafi problemlərinin əhatə dairəsinin səbəb-nəticəsinin nə dərəcədə tədqiqatın təhlillərinin zaman kəsiyində nə kimi "reaksiya" verə bilər? Bu kimi məqamlar, bu mətndə coğrafi səbəbiyyət xətasının varlığı ilə cavab verməyə başlaya biləcəyimiz suallardır.

***Düşüncə tərzi:*** *Səbəbiyyətin müəyyənləşdirilməsi elmi-metodiki qaydaları üçün ümumi bir problemdir. Ona görə ki,coğrafi seçim xətasından yaranmış problemlərinin məzmunu əhatə dairəsindən kənara çıxır.*

Səbəbiyyət xətasını coğrafi korrelyasiyanın izahı üçün iki misal göstərək. Birinci = Varlı sənaye ölkələrində monopoliya sahibləri kapital yığımı və texnoloji tərəqqi tempinə malikdir. İkinci = Yer kürəsinin dağətəyi zonalarında dünya əhalisinin (və eləcə də taxıl əkinlərinin) ≈ 65- 70%-i yerləşmişdir. Bu faktlardan coğrafiya elminin dərki üçün korrelyasiya[90] ilə səbəbiyyət arasındakı fərqin müəyyən edilməsində nə kimi nəticələrinə gəlməsi mümkündür? Korrelyasiya əlqələrinin elmi işlərinin yerinə yetirilməsində mövqeyi nə dərəcədədir?

***Haşiyə:*** *Korrelyasiya ilə səbəbiyyət arasında fərq. İki dəyişənin paralel hərəkət etməsi birinci dəyişəndəki dəyişmənin ikinci dəyişəndəki dəyişməyə səbəb olması səbəb deyil. Bəlkə də səvbəbiyyət əks istiamətdədir; ikinci dəyişəndəki dəyişmə birinci dəyişəndə dəyişməyə səbəb olur.*

[90] İki dəyişən birgə hərəkətə meyillidirsə, onların korrelyasiya əlaqəsi mövcuddur.

Coğrafi səbəbiyyət xətasının varlığı səbəbiyyətlə korrelyasının müqayisəsi zamanı fərqlərin olmasının izahı ilə əlaqəlidir. İki dəyişən birgə hərəkətə meyillidirsə, onların korrelyasiya əlaqəsində olduğumi göstərir. İki dəyişən eyni istiqamətdə hərəkətə meyil edirsə, onların müsbət korrelyasiya əlaqəsində və əks istiqamətlərdə hərəkətə meyil edirsə mənfi korrelyasiya əlaqəsi ifadələrini özündə birləşdirir. Yuxarıda göstərilən nümunələrdə, dəyişənlər müsbət korrelyasiya əlaqəsidir. Amma korrelyasiya səbəbiyyət mənasına gəlmir.

Monopoliya sahiblərinin kapital yığımı və texnoloji tərəqqi tempinə malik olmasını bilmək üçün məhşur elm sahibi olması vacib deyil. Təhlillər göstərir ki, səbəbiyyətlə korrelyasiya əlaqəsi arasında ehtimallığının yaranması eyni zamanda baş verdiyi üçün hər ikisi eyni təzahür edir.

Nümunələrdən ən mürəkkəbliyi "səbəbiyyət-korrelyasiya"nin varlığıdır. Məntiqi olaraq müəyyən etmişik ki, dünya əhalisinin dağətəyi zonalarda 65-70% yerləşməsinə səbəb coğrafi mühitinin daha dayanıqlı formada olmasıdır. "Okean-yüksək dağlıq" arasında yaranan enerjinin dağətəyi zonalarında birləşməsidir. Nəticə də isə dağətəyi zonalar daha çox "məhsuldar potensial enerji" mənbəyinə çevrilir. Əhalinin məskunlaşması bu səbəbdən meydana şıxır. Burada hər iki istiqamətdə səbəbiyyət-korrelyasiyasının hipotezinin özündə birləşdirən nəzəri arqumentləri var.

"Coğrafi mühit-insanın həyat tərzi", "qidalanma və məskunlaşma" və bu kimi sosial-iqtisadi faktorlarının yaranmasında səbəbiyyət xətasının təsiri ilə ölçülür. Dağətəyi coğrafi mühitinin kompleks dərk edilməsində korrelyasiya formalarının təyin edilməsinin qaydasını bilmək vərdişi maraqlıdır. Bunun coğrafiya elminin inkişafı üçün səbəb olduğunu araşdırılması üçün tədqiqatçının bilik səviyyəsinin nərə dərəcədə olmasını ortaya çıxarır.

Səbəbiyyətin müəyyənləşdirilməsi coğrafiyanın elmi-metodiki təhlilləri üçün ümumi bir dəyərli istiqamətlərinin sıralarına daxil etmək olar. Ona görə ki, coğrafi seçim xətasından yaranmış problemlərinin əhatə dairəsinin genişləndirilməsinin məqsədində mühüm mövqe durur.

Müəyyən elmi sahələri üzrə tədqiqat məsələlərində vacib olduğu üçün coğrafiya elminin bir çox problemləri empirik səbəbiyyətinin qaydalarının müəyyənləşdirmək məqsədinə xidmət etmək imkanları yaranır. Elmi araşdırmalarının səbəb-nəticələrinin tələbi üçün səbəbiyyət əlaqəsininin önəmə gətirməklə bir sıra qaydalarına diqqət yetirək.

Empirik tədqiqat üçün praktiki səbəbiyyət anlayışının mühüm önəmlərin varlığını müəyyən edə bilərik. Praktiki varlığının dərki üçün seçiminin imkanlarının təsir dairəsi müəyyənləşir və miqyas cəhətdən olduğca geniş məzmuna çevrilir.

Praktiki araşdırmanın bir çox məsələlərinin önəmində səbəbiyyət formaları bir sıra çətinliklər yarada bilər. Hətta potensial faydasını özündə birləşdirən səbəbiyyət praktikasına da baxsaq, yenə seçilmiş obyektlərinin tədqiqat prosesinə qoşulmaması problemləri ilə qarşılaşırıq. Səbəbiyyət praktikasında təklif olunan problemlərinin rasional seçimi olarsa, elmi araşdırmanın ardıcılığının coğrafiya elmi yaradıcılığında belə yeni seçim xətası daxil ola bilər.

Potensial seçimdən səbəbiyyət praktikasına keçidin miqyası və istifadə edilməsinin üstünlükləri çox dəyərlidir. Bu ilk növbədə tədqiqatın real seçimlərinin xarakterində özünü göstərir. Potensial seçiminin tədqiqat üçün nə kimi dəyərləri mövcuddur? Mövzunun kompleks təhlilinin dərəcəsində səbəbiyyət seçiminin təsirinin olması haqqındakı fikirlərə aydınlıq gətirməyin mümkünlüyü ola bilərmi?

Bu kimi suallarda,verilən və təhlil etməyi ortaya qoymaq coğrafiya elmi tədqiqatı üçün effektli mühit yarada bilər. Daha çox və ya daha az şərtlərlə xarakteriza olunan elmi işlərinin dərəcələrinin müqayisəsinə diqqət yetirdikdə nə baş verməsinin səbəbi haqqında düşünə bilərik. Bu ilk növbədə elmin çoxfunksional struktur sahələrinin səbəbiyyət əlaqələrinin arasındakı yaranan fərqlərinin müxtəlifliyindən irəli gəlir.

## Xülasə

- Səbəbiyyət və korrelyasiya arasında fərqlər mövcuddur. İki dəyişən birgə hərəkətə meyillidirsə, onların korrelyasiya əlaqələri arasında tarazlıqlar yaranır.

- Ehtimal xüsusiyyətləri ilə eyni zaman kəsiyində səbəbiyyət və korrelyasiya arasında seşim edildiyi üçün hər ikisi eyni dərəcədə təzahür edir.

- Coğrafiya elmi ilə yanaşı, digər elmi sahələrində də olduğu kimi, nəzəriyyə adətən korrelyasiya ilə səbəbiyyəti bir-birindən fərqləndirməyə kömək edir.

- Coğrafi tədqiqatlar üçün mühüm əhəmiyyət kəsb edən səbəbiyyət anlayışının elmi təhlillərinə yönəldilməsinin məsələsinə diqqətinin yetirilməsini tələb edir.

- Səbəbiyyət əlaqəsini müəyyən edilməsi bir çox elmi tədqiqatlar üzrə optimal variantlarının təhlillərinin konstruktiv mövqe nümayiş etdirə bilər. Bu elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün çox vacibdir.

- Potensial seçimində səbəbiyyət xətasının praktiki müəyyənliyi elmi cəhətdən dəyərli sayılır. Bu praktikanın tədqiqat zamanı müqayisəsində neçə fərqləndiyinə fikir verin.

### Praktiki düşünək:

1. Səbəbiyyət xətasını neçə önəmə gətirmək olar?
2. Səbəbiyyət xətasının nəticələri ərazi strukturları ilə nə dərəcədə əlaqəlidir?
3. Müvafiq olaraq ərazi strukturlar dəyişilərsə, nə kimi dəyişiklik yarana bilər?
4. Səbəbiyyət xətasına nəzarət etmək üçün tədqiqatçı coğrafi təhlil zamanı fərqli struktur sahələrinin müqayisəsinin aparmasında hansı üstünlüklərinə nail olması haqqında düşünün.

## 10.3. Statistik tədqiqatın tənqidi düşüncə tərzi

***"Tədqiqatda istifadə edilən statistik alətləri elmi işinin vacib bir hissəsidir."***

Elmi-tədqiqat işində kəmiyyət cavablarının almaq və real məlumatlarına baxmaq məqsədində tənqidi statistik düşüncə sahibi olmaq imkanın reallıqlarında "güc" qüvvəsinə sahib olmaq lazımdır. "Güc"qüvvəni qazanmaq üçün mövzunun məzmununda statsitik elmi yanaşmalarına müraciət olunmalıdır.

Tədqiqat zamanı əldə edilən elmi düşüncə tərzinin praktikasında kəmiyyət və keyfiyyət mənalarının ≈ 20 - 25% statistik alətlərinin hesabına müəyyənləşir. Buna baxmayaraq tədqiqi düşüncə tərzində bir-birini tamlıqla əvəzləyən statistik təhlillərinə yönəldilən elmi işlərinin "hökmranlığına" verilməsini düzgün hesab etmə olmaz. Bəzən statistik təhlillərinə ifrat dərəcədə meyil edilən nəticələrinin sonluqların arasındakı elmlilik əlaqələrinin zidiyyətlərinin yaranmasına səbəb olur. Sonluqda isə elmi işinin demək olar ki, yarısından çoxu statistik göstəricilərinin hesabına formalaşır. Elmi işinin yerinə yetirilməsi üçün əsas məna onun təhlil etdiyi nəticələrinin "təsadüfən", yoxsa "həqiqətən" keyfiyyətcə və kəmiyyətcə məna kəsb etməsinə aydınlıq gətirilməsidir. Öyrənilən probleminin hərtərəfli mənimsənilməsi və məqsədə doğru irəlləməsi üçün statistik göstəricilərinin əhəmiyyəti inkaredilməzdir. Lakin mühakimələrinin elmliyinə doğru hərəkətinin varlığının müəyyənliyində statistik düşüncə tərzindən ifrat dərəcədə istifadə edilməsi öyrənilən probleminin məzmunuda və yeniliyində qeyri-məntiqli seçimlərinin ehtimallığının azalmasına səbəb ola bilər.

Statistik materiallarının tənqidi düşüncə tərzindəki elmlik təlimlərinin yaradıcılıqla istifadə edilməsi üçün effektli seçimi kimi əhəmiyyəti daha çoxdur. Bu əsasda elmi-metodiki nəticələrinə nail olmaq imkanlarına aydınlıq gətirməklə statistik materiallarının mövqeyini nəzərə almaq imkanları arta bilər. Mövzunun ehtimalının nə qədər doğru olmağına meyl edilən statistik materiallarına üstünlük verməklə müəyyən bir məqsədə nail olmaq miqyası məntiq cəhətdən genişlənə bilər. Boş hipotez [91]statistik materiallarının çoxluğu tədqiqat işinin elmliyini azaldır. Statistik boş hipotezının fərziyyəsi konkret olaraq müəyyən elmi nəticənin alınmasında fəallıq göstərmir.

[91] Tədqiqat zamanı statistik təsirin olmamsı fərziyyəsi boş hipotez adlanır.

Boş hipotez doğru olduğu təqdirdə əldə edilmiş elmi nəticənin ehtimalı dəqiq statistik materialların hesablanmasına üstün - lük verilir.

Boş hipotez ehtimal doğuran bir dəyərli nəticənin alınmasında dəqiq statistik dəyər = **p-dəyəri**=ifadəsində özünü göstərir. P-dəyəri – statistik əlaqə olmadığını iddia edən boş hipotezə doğru yolunun olduğu təqdirdə, seçmə veriləndə alınmış nəticənin əldə edilmə ehtimalı kimi qəbul edilir.

Burada bəzı məsələlərə diqqət yetirək. Statistik hesablama zamanı hər hansı təsirin mövcud olmadığını (sıfırdır) iddia edək. Maraq dairəsinə uyğun təsirinin təxminini əldə etmək üçün verilən materialları toplayaraq və hesablamalarını həyata keçiririk. Əldə edilmiş müəyyən təxmini nəzərə alaraq həqiqi təsirinin sıfır olması ehtimalını,yəni bu təxmin üçün **p**-dəyərinin hesablamasının imkanı yaranır. **P**-dəyəri sıfırdan kiçikdirsə, hesablanmış təsirin statistik əhəmiyyətli olduğu nəticəsinə gəlmək mümkündür.

Bunun üçün bir neçə sual ətrafında düşünün:

1. Tədqiqat zamanı keyfiyyət durumunda statistik materialının mövqeyini təhlil edə bilərsinizmi?
2. Müzakirə etdiyiniz ekspermenti sınaqdan keçirin.
3. Statistik təhlildən alınan məqsədli nəticələri əhəmiyyətlidirmi? və s.

Burada nə etdiyinizə diqqətlə yanaşın. Statistik hesablamağa səy göstərdiyiniz hər hansı coğrafi təsirinin funksialarını müəyyən edə bilərsiniz. Öyrənilməsi lazım bilinən funksiyalarının statistik tənqidi düşüncəniz əldə edilən elmi nəticələrinə ehtibar etməsini göstərir.

Elmi-tədqiqat işində ən vacib məsələlərindən biri də statistik reqressiya[92] təhlilidir. Reqressiya təhlilləri bizə nəzəri biliklərimizinin yoxlamağa imkanlar verdiyi üçün səmərəlidir. Burada statistik əhəmiyyətlilik qaydalarına qayıdırıq.

Nəticə ehtibarı ilə əlaqədar olaraq, reqressiya təhlili bir sıra müxtəlif elmi-tədqiqat sahələrində istifadə olunur.İqtisadi inkişafda, böhranların təsirlərin ölçüsünü qiymətləndirmək üçün məqbul hesab edilir. Qiymətlər artdıqda məhsulların alışı nə qədər azala bilər? Temperatur dəyişmələrinin okean sularının buxarlanmasına təsiri atmosferdə hansı dəyişikliklərinin yaranması baş verə

[92] Reqressiya = təhlilinin həm qiymətləndirmə, həm də sınaq üçün neçə istifadə oluna biləcəyinin dərk edilməsidir.

bilər? Tibbi xidmət pulsuz olarsa,əlavə nə qədər insan ondan istifadə edəcək və bu onların sağlamlığına nə dərəcədə kömək edəcək? Bütün bunlar statistik reqressiya təhlillərinin real nəticələrə əsaslanan və elmi gücə sahib olmasına köməklik edən empirik suallardır.

## Xülasə

- Hesablanmış təsirin sıfır olması ehtimalı xüsusi qymətləndirmənin əldə edilməsindən kiçik olduqda təxmin edilən təsirin statistik cəhətdən əhəmiyyətli olduğu ifadə edlir.

- Reqressiya təhlili, tənliklərdə əmsalların qiymətləndirilməsi üçün istifadə olunur. O, həmdə mextəlif coğrafi faktorların təsir ölçüsünü əldə etmək, həm də alternativ nəzəri baxışlarını yoxlamaq üçün istifadəsi üçün əhəmiyyət kəsb edir.

- Elmi-metodiki imkanlarını əldə etməyinin məqsədində statistik təhlilinin qaydalarından effektli istifadə edilməsi ehtimalı yaranır.

- Təhlillər zamanı statistik seçim qaydalarından mövzunun məzmununa uyğun yanaşmalarına üstünlük verilməlidir. İlk növbədə elmlik statistik qaydalarını önəmə gətirilməsinin vərdişlərinə nail olmaq vacibdir.

- Boş hipotez statistik araşdırma zamanı elmi işinin tamamlanmasında öz təsirini göstərə bilmir.

### Praktiki düşünək

1. Tədqiqat zamanı statistik ssenarilərində neçə istifadə edə bilərsiniz?
2. Reqressiya təhlilinin həm qiymətləndirmə, həm də sınaq üçün necə istifadə edilməsinin qaydaları haqqında düşünün.

# SON SÖZ

***"Coğrafiya: ərazi resursun və cəmiyyət təbiətinin coğrafi məkan çərçivəsində dərk edilməsi və seçiminin qanunuyğunluğunu öyrənən elmdir."***

***Tərifdəki "coğrafi məkan" və "seçim" əsas ifadələrdir.***

Yekun kimi qeyd etmək istəyirəm ki,coğrafiya elminin öyrəndiyi "coğrafi məkan və cəmiyyət" arasındakı seçiminin dialektik biliklərinin mənimsənilməsi və davranış sistemləri davamlı olaraq zənginləşmişdir. Bu səbəbdən də coğrafiya= davranış, seçim elmidir. Geniş mənada, bu seçim bilik resursunun maddi varlığının elmi-idrak dəyərləri ilə rəfdar etməsi coğrafiya elm sahiblərinin məqsdələri olmuşdur. Məqsədə doğru elmi biliklərinin artırılmasının səbəbindən coğrafiya əsrlər boyu öz müstəqilliyini qoruya bilmişdir. Burada təsdiq edilmiş bir həqiqəti həmişə yadda saxlamaq lazımdır. Seçim = bilik resurslarının kompleksli əlaqələrinin vəhdəti ilə nəticələn elmi işləmələrinin, sonrakı mərhələdə isə coğrafiya elminin metodikasına və öyrənməsinin predmetinə çevrilməsi deməkdir.

Coğrafiya elmini nə üçün müstəqil tədqiqat sahəsinə çevirməliyik? Buna ehtiyac varmı? Əlbətdə ehtiyac var. Cavabın ölçüsü göstərir ki, coğrafiya məkan elmi kimi keçmiş nəsillərdən gələn təbii-iqtisadi resurslarından neçə istifadə etməyi və onun təsir dairəsinin cəmiyyətdəki rolunu məhz coğrafi tədqiqatlar zamanı yerinə yetirilə bilir. Coğrafi məkan sistemində neçə seçim etməyinin yollarının tədqiqat sahəsinə yönəldir.

Yuxarıda göstərilən mənbələrinin əsasında coğrafiyanı öyrənmək üçün üç əsas səbəb var:

(1) düşünmək yolunu öyrənmək;
(2) coğrafi təlimi başa düşmək;
(3) elmli tədqiqatçı olmaq.

Elmin öyrənməyin, bəlkə də, ən əsas məsədi düşünmə yolunun öyrənməsindən keçir. Düşünmə yolunun nəticəsində aparılan mövzunun tələbinə uyğun

seçimlərinin həyata keçirilməsidir. Seçim etməkdə məqsəd alternativ və effektli qərarlarlarının qəbul edilməsi ilə yekunlaşır.

Qərarlarının qəbul edilməsi ilk növbədə coğrafi elmi resursunun nə dərəcədə effektli olması və ya qeyri-effektli olması ilə xarakteriza olunur. Qeyri-effektli, qısaca olaraq məhdud deməkdir.Ən vacib resursa nəzər salaq. Bir gündə ancaq 24 saat vaxt var. Elm sahibi öz iş planını bu məhdudiyyət çərçivəsində qurmağı bacarmalıdır. Elm adamı konstruktiv və praktiki elmi işlərlə məşğul olmaq, yoxsa elmlə əlaqəsi olmayan mövzulara seçim edib qərar qəbul etməlidir?

Coğrafiya elminin öyrənilməsinin digər bir səbəbi tədqiqatçı tərəfindən elmin metodiki tərəflərinin daha yaxşı başa düşüb, təhlil edilməsinin vərdişləridir. Elmin resurslarının cəmiyyətin inkişafının formalaşmasında yeri və mövqeinin xarakterinə təsiri var.

Məlumatlı tədqiqatçı olmaq üçün coğrafi elmi biliyin olması vacibdir. Təbiətdə və cəmiyyətdə nəyin baş verdiyini və həmçinin elmi mərkəzlərdə hansı istiqamətli tədqiqatlarının aparılmasına dair geniş məlumat sahibi olması əsas məsələdir. Coğrafiya elm sahibi həmcinin mənbələrdən neçə və hansı məqsəd üçün istifadə etmək bacarığınıa da malik olmalıdır. Bu yaxşı yoldur və ya yox? Bu tip texnoloji suallara cavab vermək tələbinin önündə aparılan mövzunun alternativinin bənbələri olmalıdır.

> Fiziki mühitin potensialı, maddi coğrafi məkan varlığının davamlığı, insanın təbiəti və s. coğrafiya elminin resurs məhsullarıdır.

Elmin metodiki əsasının müəyyənliyi biliyin başlanğıc nöqtəsinin varlığıdır. Başlanğıc və sonluğunun arasıda tarazlığının mənbərində elmlilik prinsipləri durmalıdır. Biliyin varlığının təbiətini tədqiqat prosesinə çevurmək metodoloji, kompleks strukturunun ərazi təşkilinin vəhtədinin yaradılması isə tədqiqatın idealoji problemidir.

Coğrafi elmi biliyinin maddi varlığa çevrilməsi tədqiqatçıda yaradıçılıq, məqsədli imkanlarını artırır. Yeniliyə doğru hərəkətinin üstünlüyünü meydana çıxardır. Üstünlük isə elmi-təqqiqat işinin praktika ilə əlaqələrinə stimul verir. Bu çox vacib bir yanaşmadır. Çünki, üstünlük seçimi bizə düşünmə yolunu öyrədir və düzgün qərar verməyəköməklik göstərir.

***Haşiyə**: Elmi işinin idrak səviyyəsi artdıqca tədqiqata qarşı maraqda artır. Marağı tənizmləmək məqsədində coğrafiya elmi məktəbinin varlığı olmalıdır.*

*Elmi məktəbin varlığının olması isə kreativ coğrafi biliyə uyğun gələn tədqiqatçı qruplarının hazırlanmasına səbəb olur. Bu səbəb coğrafiya elminin ehtiyacından irəli gəlir.*

Məhz belə bir ehtiyacdan irəli gələrək "Elmi-tədqiqata giriş" kitabının tərtibatına məndə meyl yaranmışdır. Kitabın tərtibində coğrafiya elmin öz daxilindəki biliklər sisteminin müəyyənliyinə xususi diqqət etirilmiş, nisbi müstəqil şəkildə təhlillərinin aparılmasının qaydalarına səy göstərilmişdir. Məqsədə doğru irəliyə baxdıqca, coğrafiya elminin ümumi dünyagörüşünə xidmət edən ideyalarının dərkinə və eləcə də tətbiqi-texnoloji biliklərinin metodiki təhlillərinin aparılmasının qaydalarına aid işləmələri ifadə olunmuşdur. İfadə olunan universal dialektik metodlarına söykənən konstruktiv kiçik həcmli[93] seçim qaydalarına da üstünük verilməsini məqsədəuyğun hesab etmişik. Bu kitabı yazmaqda da əsas məqsəd "damcı-damcı" yeni elmi işlərə meyl göstərən gənclərdə maraq oyatmaqdır. Gənc elm sahiblərinin elmi biliklərinin mənimsənilməsini geniş miqyasda dərindən düşünməyə sövq etməkdir.

Müşahidələr göstərir ki, (Azərbaycanda) bir sıra elmi işlərinin yerinə yetirilməsində çətinliklərinin olması haqqında fikirlərə, faktlara da rast gəlinir:

Birinci fakt = müasir coğrafi tədqiqatlarda çox zaman "təfəkkür tərzinə" çevrilmiş birtərəfli yanaşma metodlarına qarşı meyllərinin qalmasına dair fikirlərinin olmasıdır.

İkinci fakt = universitetlərin müvafiq kafedralarında coğrafi elmi-tədqiqat işlərinin fəaliyyətinin özündə birləşdirən koordinasiya mərkəzlərinin olmamasıdır. Mərkəzdə elm tutumlu mövzularının seşilməsi, elmi tədqiqat işlərinin yerinə yetirilməsi və s. bi tipli məsələlərinin cəmləşməməsidir.

Misal olaraq, dünyanın qabaqçıl universitetlərində məqsədli fundamental elmi işlərinin aparılmasına ustünlük verililir. Bu baxımdan, ABŞ, Yaponiya, Almaniya, eləcə də Türkiyə və s. ölkələrinin universitetlərində aparılan elmi sistemli tədqiqatlar və onların elmi potensialları xüsusi olaraq diqqətə layiqdir. ABŞ, Yaponiya, Almaniya, Kanada və s. ölkələrinin universitetlərinin kafedralarında aparılan fundamental elmi işlərinin 60-65%-dən

> Tədqiqat= elm üzərində "inşa" edilməlidir. Elm üzərində inşa edilən "bina" fundamental tədqiqatlara həsasslı olur.

[93] Kiçik su damcıları, xırdaca qum zərrəcikləri = Okeanı və Qurunu yaratmışlar.

çoxunu özündə birləşdirmişdir. Belə bir yanaşma tərzi həmin ölkələrinin strateji-taktiki inkişafının nəticəsi kimi qəbul edilir.

Digər tərəfdən, elmi-tədqiqat bölmələrinə elmliyi ilə fərqlənən, şöhrətli alimlərinin rəhbərlik etməsi də mühüm məqsədlərindən sayılır. Bu ilk növbədə elmi potensialının artırılmasına, yaradıcı kadrlarının səfərbərliyinin ehtimalı kimi qəbul edilir.

Burada müəllimlik və tədqiqatçı funksiyalarının arasındakı qarşılıqlı keçid imkanları yaranır. İmkanın üstünlüyü ondan ibarətdir ki, doktorant və tələbələrin universitet nəzdindəki elmi tədqiqat bölmələrinin potensialından istifadə etməsi hələ təhsil dövründə əslən elmi işlərinə cəlb oluna bilməsidir. Burada oxuyan tələbələr artıq peşəkar elmi tədqiqtlarının aparılmasında yaradıcılıq enerji qabiliyyətinə malik olur və davamlı olaraq aldığı enerjisini artırır.

***Məntiqi yanaşma***: *Belə bir nəticəyə gəlmək olar ki, ölkəmizdə coğrafi tədqiqat mərkəzinin yaradılması vacibdir. Coğrafi biliyinin dərk edilməsi, onun yaradıcılıq enerji resurslarının imkanlarının hərtərəfli mənimsənilməsinin praktikasına, yeni biliklərinin generasiyasının yaranmasına daha çox diqqət yetirilməlidir.*

Elmli olmaq kamillik zirvəsidir, lakin uca zirvəyə catmaq üçün bilik enerjisinə sahib olmaq gərəkdir. Ona görə də kamil tədqiqatçıya rəhbərlik etmək, ona bu sahədə innovativ seçiminin qaydalarını öyrətmək imkanına malik olmasının məqamları daha effektlilik yarada bilər. Enerji bolluğunun olması, elmin yaradıcılıq innovasiya potensialının kodlaşdırılmasına doğru hərəkət etmək lazımdır. Bu hərəkət bir sıra tədbiqi xarakterli nəzəri-metodoloji məsələlərinin kəşf edilməsinə imkanlar yarada bilər.

Tədbiqi elmi sahələrinə qədəm qoyan zaman ilk növbədə tədqiqatçı özünü dərk etmək bacarığına malik olmalıdır. Bəşəri əhəmiyyətli elmi mövzuların üzərində işləmək meyilliyi güclü olmalıdır. Tədbiqi elminin yaradıcılığının mənbəyində bu meyillərinin güçü elə burdan başlayır. Bunu nəzərə alaraq kitabın tərtibində gənc elm sahiblərinin yaradıcılığı üçün əhəmiyyətli sayılan müxtəlif qaydalarının öyrənilən mövzunun metodikasına cəlb edilməsinə dair tövsiyyələri irəli sürülmüşdür.

Müasir dövrün elm və əxlaq idealogiyasının bünövrəsində aparıcı qüvvə sayılan gənclərinin elmi mədəniyyətinin tərbiyyəsində daha geniş imkanlar

yaranmışdır. Məsələnin digər bir səhifəsində isə, gənclərinin bir qısmi elm və əxlaq konsepsiyasına yüksələ bilməməsi bizdə narahatlıq doğurur. Zamanın tələbi ondan ibarətdir ki, gənclər hümanist ideyalarına sahib olmaq ruhunda, hərtərəfli təlimi və elm-əxlaq konsepsiyalarının vəhdəti ilə inkişafa nail olmaq olar. Dahi A.X. Mİrzəcanzadənin belə bir kəlamı var: "... elm və əxlaq bəşəriyyətin öz ali məqsədinə doğru marafon yürüşündə bir vasitə, mövcudolma və dərketmə prosesində bir silah, maddi aləmi və özünü dərk etmək üçün özü yaratdığı bir alətdir".

Müəllif, coğrafiya elminin yaradıcılıq imkanlarından istifadə edilməsinin mədsədi üçün gənc tədqiqatçılarını səfərbərliyə dəvət edir. Aparılan araşdırılmalar və nəticələrinin əsasında məntiqi coğrafi tədqiqatlarının üzərində qurulmasına, ölkəmizin gələcək dayanıqlı inkişafının tələblərinə cavab verən mövzularının üzərində işlərinin tamamlanmasına çağırıram.

Bu kitabı həmin məqsədlə tərtib edən müəllif = gənc tədqiqatçı sabahın arzuladığı fundamental, elm tutumlu sahələrinin təminatında iştirak etməsini arzulayır. Kompleks xarakterli tədqiqat işlərinin həyata keçirilməsində fəallıq göstərən gəncələrinin potensial elmi imkanlarından səmərəli istifadə edilməsinə yönəldilən mövzularına yaxın olmasını təklif edir. Bunu bizdən zaman tələb edir.

Müəllif bu kitabın tərtibinin məqsədində: A.X.Mirzəcanzadənin belə bir düşüncə tərzini əsası kimi götürmüşdür: **"...bizim idealımız humanizmin ali formasına yaxınlaşmaq, təkamülün bu uca zirvəsinə yüksəlməkdir.Həmin zirvəyə yüksəliş yalnız elmin imkanı ilə mümkündür."**

Bu məsədlə = "Hər bir gənc tədqiqatçı ilk növbədə A.X.Mirzəcanzadənin **"İxtisasa giriş"** dərs vəsaitinin = öyrənməsinə, dərketməsinə çağrış edirəm."

# LÜĞƏT

## A

**Adaptiv gözləntilər**: Keçmiş səhvlərə əsaslanaraq gözləntiləri formalaşdıran keçmiş - istiqamətli metod.

**Adam başına real ÜDM**: Real ÜDM-in əhalinin təhlilində kompleksli rabitəsi.

**Asimmetrik informasiya**: Əməliyyatın tərəfindən birinin əməliyyatla əlaqəli digər tərəfdə olmayan məlumatlra sahib olması.

**Aralıq məhsul**: Son məhsulun istehsalında istifadə olunan məhsul.

**Asılı dəyişən:** Dəyəri bir və ya bir neçə başqa dəyişən tərəfindən təyin edilən dəyişən.

**Asılı olmayan dəyişən:** Əlaqədə və ya modeldə verilmiş kimi göstərilən dəyişən.

**Anqlosakson modelli qloballaşma:** Modernizm epoxasının, yaxud ərazi – istehsal tsiklin qlobal səviyyədə başa çatması.

## B

**Balanslı artım:** Buraxılış, kapital və effektiv resursun eyni templə artığı vəziyyət.

**Baza ili:** Müxtəlif illərdəki miqdarları müəyyən bir ildəki qiymətlərdən istifadə dəyərləndirərək real etməklə qiymətləri əsas götürülmüş il.

**Bağlılıq:** Coğrafi kompleksin yaranmasını təmin edən dialektik yanaşma.

**Baza ili:**Müxtəlif illərdəki miqdarları müəyyən bir ildəki qiymətlərdən istifadə dəyərləndirərək real etməklə qiymət əsas götürülmüş il.

**Bazis tsikl:** Funksional strukturun dalğalanmaların “reaksiyası”nın təhlili.

**Balanslı artım:** Buraxılış, kapital və effektiv sahənin eyni templə artdığı vəziyyət.

**Beyin axını:** İnkişaf etməkdə olan ölkələrdən olan savadlı insanların inkişaf etmiş ölkələrdə təhsilli biri olmaq və məzun olduqdan sonra orada qalma tendensiyası.

## C

**Coğrafiya:** ərazi strukturun və cəmiyyət təbiətin varlığını özündə birləşdirən coğrafi məkanın dərk edilməsi seçiminin qanuna uyğunluğunu öyrənən elm.

**Coğrafiya informasiya sistemi:** “təbiət və cəmiyyət” sistemində baş verən (planetar miqyaslı iqlim dəyişikliyi, demoqrafik problem, ekoloji gərginlik və s.) dinamik gerçəkliklərinin coğrafi informasiyanın təhlilini əhatə edir.

**Coğrafi elmi təfəkkür**: Tədqiqatın çoxölçülü məntiqi çərçivəsinin dərkidir.

**Coğrafiya elmi metodologiya:** Tədbiqi xarakterli sistemli, dayanıqlı tədqiqatlarını təmin edir.

**Coğrafi məkan:** coğrafi təfəkkürün gerçəkliyi və nəzəri baxışların önəmidir.

**Coğrafi-riyazi model**: Coğrafi tədqiqat obyektin riyazi üsullarla mənimsənilməsi.

**Çoxxətli coğrafi yanaşma:** Bu yanaşma coğrafi təhlil xətti interpretasiyası ilə diskret (sivilizasiyalı yanaşma) arasında orta mövqe.

**Coğrafi mühit**: tədqiqatın hərəkətverici qüvvəsidir. İlkin olaraq dialektik qanunlarla ifadə olunur.

**Coğrafiya elmi məntiqi**: tədqqatın rasional və qeyri-rasional formalarının dərk edilməsi.

## D

**Dayanıqlı inkişaf konsepsiyası:** rəqabətədavamlı kefiyyət əlaqələri olan, tsiklik xarakter daşıyan ifadəsidir. Bu mənada dayanıqlı inkişaf sabit deyil, ritmik olaraq dəyişkəndir. İnkişafın "hərəkverici qüvvəsidir".

**Dayanıqlı coğrafi kompleks:** resurs potensialından istifadə etməklə coğrafi sturukturun dayanıqlı təşkili.

**Dayanıqlı oriyentasiya:** iqtisadi-siyasi təlata cavab verən strateji istiqamət.

**Dayanıqlı yüksək model:** iqtisadi inkişafin optimal variantıdır.

**Diaqnostik coğrafi nəzəri baxış:** resursun potensiallığı, istifadə edilməsinin optimallığı, kompleks yaratması.

**Dayanıqlı yüksık model:** iqtisadi inkişafin optimal variantıdır. Kapitalın aktivliyinin nəticənin funksional tsiklli modeli.

**Dalğa reaksiyası:** Coğrafi kompleksin konstruktiv təhlilin faktor təhlilidir.

**Dalğa modeli:** İki dalğa modeli mövcuddur-əsas və nisbi. Əsas dalğa dayanıqlı inkikişafın bazisi, nisbi isə müvəqqəti sayılır.

**Dialektik coğrafi inkişaf:** coğrafi elmi biliklərinin davamlı "hərəkət" formasıdır.

**Dayanıqlı funksiyanın tsiklliyi:** Səbəb və nəticənin funksional tsiklli forması biliklərinin davamlı "hərəkət" formasıdırartırır.

**Dayanıqlı funksional zəif model**: iqtisadi inkişaf zamanı kapitalın azalması nəticənin funksional tsiklli forması.

**Diversifikasiya:** biliyin istehsal prosesində çoxfunksiyalarının yaratması.

**Diversifikasiya effekti:** Tədqiqatın effektli nəticələrini ümumi inkişaf konsepsiya ilə birləşdirir.

**Diaqnostik qeyri-müəyyənlik:** Coğrafiya elmin ən mühüm tədqiqat sahəsidir. Tədbiq edian elmi-məntiqi nəticələr ehtimal metodiki yanaşmasına imkan yaradır.

## Ə

**Ərazi:** Coğrafiya elminin tədqiqat obyektinin labarotiyası.

**Ərazi resursu:** məkan-zaman sərhəddi daxilində "yüklənmiş" potensial.

**Ərazi-istehsal kompleks:** resurs tsiklindən istifadə etməklə şaxələnmiş strukturun təşkili.

**Ərazi təşkili modeli:** ərazi resursun funksional çərçivəsində sistemləşdirilməsi.

E

**Elastiklik:** Bir dəyişəndə baş verən dəyişikliyə digər dəyişənin verdiyi reaksiyanı ölçmək üçün istifadə olunan ümumi konsepsiya.

**Elmi tədqiqat**: elmi biliyin gücü və zəruri dəyərin praktikası.

**Elmi bilik-**tədqiqat sahəsini konstruktiv varlığa -obyektə çevirir.

**Elmi-texniki tərəqqi:** Yeni keyfiyyət strukturun texnoloji elmi təhlilinin xətti.

**Empirik:** coğrafi metodları yoxlamaq üçün məlumatın toplanması və istifadəsi.

**Endogen artım modeller**:Texnoloji tərəqqi olmadıqda belə fiziki və insan kaptalının dayanıqlı artıma nail olduğu modellər.

**Endogen dəyişən**: Model daxilindəki digər dəyişənlərdən asılı olan, beləliklə model daxilində izah edilən dəyişən.

**Enerji-istehsal tsikl:** istehsalın kompleks ərazi təşkili üçün istifadə edilən metod.

F

**Fərqlərdəki fərq:** Nəticə dəyişənində zamanla yaranan orta dəyişikliyin nəzarət qrupundakı orta dəyişikliklə müqayisə edildiyi üsula baxmaqla səbəbiyyəti müəyyənləşdirən metod.

**Fəal resurs həssaslığı:** coğrafi –iqtisadi strukturun ilkin mənbəyi.

**Funksiya**: coğrafi sistemin varlığını təmin edir.

G

**Geosiyasi mövqe:** davamlı inkişafı ilə üzləşən siyasi coğrafi mövqe.

**Geoiqtisadi mövqe:** davamlı inkişafa təsir edən iqtisadi mövqe.

**Genetik enerji**: Coğrafi mühitin "məhsul"un tarazlığını təmin edir.

İ

**İnsan resursu**: cəmiyyətin hərəkətverici qüvvəsi, konseptual elm sahəsi.

**İnsan coğrafiyası**: Müstəqil coğrafiya elm sahəsi. Cəmiyyətin fəlsəfi təkamül modeli

**İnsan kapitalı:** biliyin kapitala çevrilməsini təmin edən qeyri-maddi kapital forması.

**İqtisadi model:** İqtisadi nəzəriyyənin formal ifadəsidir.

**İnsan inkişaf indeksi:** insan kapitalının ilə modelin qurulması 0-la 1 arasında ədədi dəyər alır.

### K

**Kapital:** İstehsal edilən və sonradan digər məhsul və xidmətlərin istehsallında istifadə olunanlar.

**Kardinal dəyişiklik:** tədqiqatın yeni keyfiyyət.

**Konstruktivlik:** tədqiqatda informasiya-texnoloji ideyanın araşdırılması, optimal şəbəkənin yaradılması və praktiki tədbiqi.

**Kodun ümumi halı**: coğrafiya elmi tədqiqatın kodu "resurs, struktur, dayanıqlı inkişaf" sistemi nin bağlılığı.

**Kompleks inkişaf:** ərazi strukturunun effektli tamamlanmış optimal gerçəkliyi.

**Kordinant başlanğıcı:** Üfiqi və şaquli oxların kəsişdiyi nöqtə.

### Q

**Qərar qəbul etmə:** Tədqiqatda coğrafi resursun səfərbərliyi.

**Qlobal elmi miqyas:** elmlərarası ideya miqrasiyasının coğrafiyası.

**Qərar qəbul etmə:** Tədqiqatda coğrafi resursun səfərbərliyi.

### P

**Potensial:** Tədqiqatın **keyfiyyət** imkanlarının müəyyənliyi nışlarını və fəaliyyətini mühakimə etmədən başa düşməyə çlışan coğrafi yanaşma.

**Pozitiv coğrafiya:** Sistemlərin davranış funksiyası

**Psixoloji diaqnostika:** Tədqiqatın yaradıcılıq psixologiyasını təşkil edir

### R

**Regional elm**: coğrafi biliklə geoiqtisadi və geosiyasi sistemini öyrənən elm sahəsi.

**Regional struktur**: Tədqiqatın taksonomik vahidlərindən biri.

**Rasional coğrafi məntiq:** Elmi tədqiqatın dialektik düşünmə tərzi.

**Resurs:** Effektli modelini qurulmasın da elmtutumlu, kapitaltutumlu və xammal tutumlu kompeksinin təminatı.

### M

**Metod anlayışı**: Tədqiqat gerçəkliyinin dərk edilməsi və nəzəri-praktiki məqsədə çatmaq üçün istifadə olunmasını önəmi.

**Monoqarafik istiqamət**: tədqiqat zamanı toplanmış ideyalar əsasında təhlilin aparılması.

**Morfoloji-statistik funksiya**: Tədqiqatın coğrafi informasiya fonunda tipoloji variantqatın həssaslığının praktikası.

**Model həssaslığı:** Tədqiqatın potensial strukturun diversifikasiya mühitini önəmə gətirir.

**Müsbət əlaqə:** İki dəyişən – X və Y arasında elə bir əlaqədir ki, X-dəki artım, Y-də artımla, X-dəki azalma Y-də azalma ilə müşayiət olunur.

**S**

**Struktur:** maddi varlığın dialektik qanununa tabedir. Coğrafi varlığın ehtimal çərçivəsidir.

**Səbəbiyyət:** Səbəblə nəticə arasındakı əlaqə.

**Sosial seçim:** Cəmiyyətin nə istədiyini müəyyənləşdirmə problemi.

**T**

**Tarazlıq:** Tələb və təklif arasındakı bərabərlik.

**Tədqiqatın məhsuldarlığı:** Elmi-tədqiat və işləmələrin yeni ideya və məhsul yarada bilmə qabiliyyəti.

**Texniliji sahələr:** Texnoloji biliklərin önəmləri.

**Texnoloji tərəqqi**: Tədqiqatda texnoloji metodlarının tədbiqi.

**V**

**Virtual coğrafiya**:Elmin tamlığının dərk etmə, biliyin mümkünlük sferasını öyrənir

## Müəllifin çap olunmuş elmi əsərləri

**Monoqrafiyalar**

- Организация аграрно-цикловых систем Азербайджана на этапе перехода к рыночной экономике. Ваку.1996.
- Azərbaycanın kənd təsərrüfatı strukturunun ekoloji-coğrafi sistemi. Bakı.1997.
- Концертуальная ревалюция в географии сельского хозяйства. Киев. 1998.
- Aqrar-strukturun regional inkişaf modeli: iqtisadi-coğrafi konsepsiyası. Bakı. 2004.
- İnsanşünaslıq. Bakı. 2009.
- Ekologiya: sosial-iqtisadi əsasları. Bakı. 2010.
- Dünya ölkələri: siyasi-iqtisadi və dialektik coğrafiyası. Bakı. 2013.
- Regionalogiya. Bakı. 2013.
- XXI əsr: Dayanıqlı inkişafın aqrar-sənaye klaster faktoru. Bakı. 2014.
- Dialektik coğrafiya. Bakı. 2017.
- Analitik coğrafiya. Bakı. 2018.
- Elmi-tadqiqata giriş. Bakı. 2019.

**Dərslik və dərs vəsaitlər**

- Yurdumuzun sərvətləri (dərs vəsati). Bakı.1984.
- Kənd təsərüfatı ərazi sistemlərinin coğrafi məsələləri (dərs vəsaiti). Bakı. 1990
- Azərbaycan subtropik təsərrüfatının coğrafiyası (dərs vəsaiti, S.Əzizovla birlikdə). Bakı.1998.

- Ərazi-ekoloji qovşaqlarının sosial coğrafiyası (dərs vəsaiti, Z.Ağayevlə birlikdə). Bakı.1998.
- Sosial və iqtisadi coğrafi sivilizasiya (dərs vəsaiti). Bakı. 2003.
- Meteorologiya və iqlimşünaslıq (dərs vəsaiti). Bakı. 2006.
- Təbiətşünaslıq (dərs vəsaiti, Ə.Həmzəyevlə birlikdə). Bakı. 2006.
- Bioekologiya: arealogiyası, dayanıqlı modeli (dərs vəsaiti, Ə.Həmzəyevlə birlikdə). Bakı. 2008.
- Ölkəşünaslıq (dərslik). Bakı. 2008.
- Azərbaycanın kənd təsərüfatı coğrafiyası (dərslik). Bakı. 2011.
- Tibbi coğrafiya (dərs vəsiti). İstambul. 2018.
- Biomüxtəliflik: məqsədli ekocoğrafi təhlil (Z.Məmmədov, Ü.Mahmudova) Bakı. 2019

**Məqalələr**

- Некоторые вопросы географии трудовых ресурсов в сельскохозяйстенного производства Азербайджана. //Территориальные проб. развития нард. хоз-ва… Москва, МГУ.1973.
- Производственные типы сельскохозяйственных предприятий Азерб-на.// У1 межвуз. конф.по природ. и эконом. геог. райониров. для с.х. Москва, МГУ. 1974.
- Территориальная организация виноградарства в Азербайджана.// Экономика сельского хозяйства. Москва,1980. № 5.
- Территориально-системная организация сельского хозяйства Азербайджана // Природ. и эконом. геогрф. райониров. сельского хозяйства. Москва, МГУ.1981.
- Социально-пространственная организация систем расселения и развитие структуры населенных мест Азербайджана // Из.АН Азерб. Сер.наук о Земле.1986. № 6.
- О сельском расселения в Азербайджане // Системы расселения в различных ра-нах .Горький. 1987.
- Территориальные конвейеры организации АТС //Народ. хоз. Азерб. Bakı.1987. № 8.
- Kənd təsərrüfatı ərazi sistemlərinin öyrədilməsinin metodikası //APU-nin əsərləri, Bakı, 1988.
- Анализ системы географических наук с позиции концерции структурных уровней // сб.III Все-союз. теор. географ. Киев.1989.

- Вопросы диверсификации аграрно-узловых районов на процесс образования территориальной структуры // «Географ. и природ. ресурсы», Иркутски, 1991. № 1.
- Aqrar sistemlərinin sosial resursları // Lənkəran XXI əsrin astanasında. L.1999.
- Aqrar-sənaye strukturunun tənzimlənmə məsələlri // Az.ETKTİ və Tİ "Elmi əsərləri" 2001. (1).
- Aqrar-tipoloji strukturunun elmi-nəzəri aspektləri // Az.ETKTİ və Tİ "Elmi əsrlər". 2001.(2).
- Lənkəran regionun təbii resursları və səmərəli istifadə yolları // LDU"Elmi xəbərləri, 2001. ( 1).
- Qloballaşma şəraitində milli bazar strukturunun ərazi təşkili məsələləri. //Az.ETKTİ vəTİ "Elmi əsərləri". 2003.( 3).
- Aqrar bazar şəaitində məhsulun ekoloji keyfiyyət kompleksinin ərazi təşkili // AKU "Xəbərlər" 2003 (2).
- Şəhərətrafı aqrar-sənaye strukturunun ərazi təşkili // Az.ETKTİ vəTİ "Elmi əsərləri" 2003. (2)
- Aqrar-sənaye strukturunda sahibkarlığın inkişafı və bazarın qorunması //AKU "Xəbərlər" 2003. (3)
- Azərbaycan aqrar-sənaye strukturunun ərazi təşkili problemləri // Azərbaycan Aqrar Elmi 2004. (1-3)
- Torpaq resurslardan istifad edilməsi istiqamətləri // Azərb. Aqrar Elmi, 2004. (3).
- Azərbaycanda kənd təsərrüfatı bitkilərinin bufer areallarının və coğrafi-ekoloji parametrlərinin tədqiqi // Sumqayıt DU-nin "Elmi xəbərləri. 2004 ( 2).

- Bazar iqtisadiyyatı şəraitində aqrar strukturun dayanıqlı inkişaf xüsusiyyətləri // AKU konf. materialları. 2004.
- Azərbaycan kənd məskunlaşma sisteminin sosial inkişaf problemləri //Sosial bilgilər, 2004 (1).
- Azərbaycanda aqrar istehsalının optimal ərazi təşkilinin parametrləri //Azərb. Aqrar Elmi. 2004 (4-6).
- Aqrar bazarın formalaşmasının nəzəri-metodoloji məsələləri// Bilgi Dərgisi. 2004 (3).
- Aqrar bazar şəraitində ixrac potensialının struktur inkişaf modeli //Az.RTKİ və Tİ Elmi əsərləri. 2004 (2).
- Aqrar məkan strukturunun ərazi təşklin idarəetmə modeli // Azərb. Aqrar Elmi. 2005 (1).
- Aqrar iqtisadi təhlükəsizlik sisteminin inkişaf modeli // Odlar Yurdu Unver. Xəbərləri, 2005 (15).
- Kənd məskənlərində sosial infrastrukturun təşkili və inkişafın metodoloji aspektləri // Azərbaycan Aqrar Elmi, 2006 ( 1-2).
- Azərbaycanın iqtisadi təhlükəsizlik konsepsiyası və ərzaq müstəqilliyinin təmin ediməsi // Milli inkişaf modelinin formalaşması problemləri. (N.Babaxanovla birlikdə) 2010.
- Qloballaşma şəratində miqrasiya informasiya sisteminin formalaşması // Azərb. Coğrafiya Cəmiyyətitinıı əsərləri XVI cild. 2011.

# Müəllifin tədqiqatlarına aid rəylər

Lənkəran Dövlət Universitenin Elmi Şurasında AAK-nın sədri, akademik **A.X.Mirzəcanzadə** ilə doktorluq dissertasiyam haqqında söhbətdən sonra rektor prof. M.Bağırov mənə söylədiki – "Azad müəllimin fikrinə görə, siz coğrafiyanın nəzəri məsələlərinin təhlil etmək qabiliyyətinə maliksiniz. Ancaq praktiki məsələlərlə çox məşğul olmalısınız."

***

Ağazeynal müəllimin A.X.Mirzəcanzadə ilə görüşdə iqtisadi coğrafiya elmin tədqiqat məsələlərinin önəmə gətirməyi bacarmışdır. Bu coğrafiya elmi üçün çox faydalı olmuşdur.

**Akaemik Z.Ə.Səmədzadə**

***

Azərbaycanda kənd təsərrüfatının ərazi təşkilinə dair Ağazeynal Alı oğlunun apardığı tədqiqatlarının nəticələri diqqəti cəlb. Sənaye əsaslarla aqrar-sənaye kompleksinin ərazi təşkilinə dair fikirləri coğrafiya elminin tədqiqat sahələri üçün faydalı ola bilər.

**K.İ.İvanov**

Moskva Dövlət Universitetinin professoru, coğrafiya elmləri doktoru

***

Əzizimiz Kuzma İvanoviçin xadirəsini həmişə yad etdiyiniz üçün ailəmiz Sizə təşəkkur edir. Siz, Kuzma İvanoviçin layiqli tələbəsiniz. Azərbaycan coğrafiya elminin inkişafında sizə uğurlar arzulayıram.

**N.V.Fadeeva-İvanova**

Rusiya Elmlər Akadeniyasının Coğrafiya İnstitunun baş elmi işçisi, coğrafiya elmləri doktoru

Kənd təsərrüfatının coğrafiyasına aid apardığınız tədqiqatlar iqtisadi coğrafiya elmi üçün yenilik kimi qəbul etmək olar.

**V.P.Şoiskiy**

Rusiya EA-nın Sibir və Uzaq Şərq Coğrafiya İnstitunun prof.,

coğrafiya elmləri doktoru.

***

A.Qurbanzadənin aqrar strukturun coğrafiyasına dair monoqrafiyası elmi-tədqiqat məzmununa görə dəyrəlidir. Bu əsər öz ideya və təhlil olunması istiqaməti ilə fərqlənir.

**Ə.Q.Əlirzayev**

İqtisad elmləri doktoru, professor, Əməkdar elm xadimi

***

Sizin aqrar-sənaye kompleksinin ərazi təşkilinə dair təklif etdiyiniz modellər Azərbaycanın aqrar inkişafı üçün elmi-praktiki əhəmiyyətə malik ola bilər. Öz işlərinizdə aqrar-sənaye kompleksinin infrastruktur sahələrinin coğrafiyasına da diqqət yetirəsiniz. Bu yaxşı olar.

**N.D.Pistun**

Kiyev Dövlət Universitetinin professoru,

coğrafiya elmləri doktoru

***

A.A.Qurbanzadənin tədqiqatları öz yeniliyi və mövzu axtarışı ilə fərqlənir. Daima axtarışda olan tədqiqatçı üçün bundan nə yaxşı ola bilər.

**N.A.Babaxanov**

Bakı Dövlət Universitetinin professoru,

coğrafiya elmləri doktoru

Qlobal aqrar struktur moderinləşməsi nöqteyi-nəzərindən respublikanın regional inkişaf sisteminin iqtisadi və sosial-coğrafi əsasları, aqrar coğrafiya elminin inkişafı,struktur sistem təhlillərinin aparılmasının nəticələrinin konseptual təhlillərinə dair A.Qurbanzadə tərəfindən dəyərli tədqiqatlar aparılmışdır.

**C.Q. Nuriyev**

Siyasi elmlər doktoru, professor

***

A.Qurbanzadənin “Dialektik coğrafiya” adlı monoqrafiyası coğrafiya elminin inkişafı üçün yenilikdir.

**T.G.Həsənov**

Bakı Dövlət Universitetinin professoru,
coğrafiya elmləri doktoru

***

Professor A.A.Qurbanzadə həmişə müəllimlik şərəfini yüksək tutmuşdur. Onun elmi və müəllimlik fəaliyyəti prinsipiallıq və obyektivliyə, səmimiyyətə əsaslanır.

**Cavid İsmayıl**

tarix elmləri namizədi

## SEÇİLMİŞ QISA MƏNBƏLƏR

Mirzəcanzadə A.X.: **İxtisasa giriş**. Bakı.1990.

Dərs vəsaitdə yaradıcı biliyin humanist ali formasının zirvəsinə çatmasında elmin imkanlarının mənimsənilməsini məntiqi dünyagörüşü ilə izah edir.

Qurbanzadə A.A.: **Dialektik coğrafiya**. Bakı. 2017.

Coğrafiya elmi idrak funksiyalarının yeni məzmunu, dialektik elmi-tədqiqatın kompleksliyinə dair konstruktiv təhlilləri önəmə gətirilmişdir.

Qurbanzadə A.A.: **Analitik coğrafiya: tədqiqat metodları & məntiq ehtimalı.** Bakı, 2018

Coğrafiya elmi tədqiqatı prosesində mövqe tutan məntiqi ehtimalının nəzəri-metodoloji təhlillərinə üstünlük verilmişdir.

Xəlilov S.S.: **Elm haqqında elm**. Bakı. 2010.

Elmşünaslıq problemləri təhlil edilir.Elmin məqsədi, idealogiyasını tədqiqat obyektinə çevirir və ona münasibət bildirilir.

Məmmədov Ə.B.: **Elmi idrak və onun inkişaf dialektikası.** Bakı.1998**.** Elmi tədqiqat idrakın məzmunu, dialektik təlimin metodikası önəmə gətirilmişdir.

Budaqov B.A.: **Landşaftşünaslıq.** Bakı. 1996.

Elmin nəzəri-praktiki problemlərinə dair geniş təhlillərinə üstünlük verilmiş və yeni coğrafi ideyalar irəli surülmüşdür.

Məmmədov Ə.B. Nəsirov V.H.: **Müasir elm və məkan zaman problemi.** Bakı.1980.

Əsərdə məkan-zaman kontekstində tədqiqatın fəlsəfi baxışların motivlərinin təhlilləri aparılmışdır.

Qasımlı V.Ə.: **İqtisadi modernizasiya**. Bakı. 2014.

Modernizasiya məsələləri tədqiq edilir. İqtisadi təhlillərinə yeni ideyalar təklif olunur.

Харвей Д.**: Научное объяснение в географии.** М. 1974.

Coğrafiya elmi modellərinin fəaliyyətinə dair praktikası və keyfiyyət parametrləri təhlil olunur.Coğrafiya müstəqil elm kimi izahı verilir və elmi təsnifatını təklif edir.

Бабурин В.Л.: **Эволюционная география.**М. 2014.

Coğrafi evolyusiya konsepsiyasına aydınlıq gətirilmiş, onun forma və metodologiyasını əsaslandırılmışdır.

Askerman E.A.: **Geography as a fundamental research discipline.** Chicago. 2000.

Coğrafiya fundamental elmi təlim kimi qəbul edilir. Obyektiv. reallıqlara əsaslanan coğrafi tədqiqatlarda nəzəri -metodiki ideyalarının praktikasına üstünlük verilir.

Mead R.J.: **Models in geography. London. 2001**.

Əsərdə coğrafi modellərinin "sərhəd"nin təsnifatına aydınlıq gətirilir. Modelin yaradılmasında coğrafi nəzəri – praktiki ideyalarının tədbiqinə üstünlük verilir.

# AĞAZEYNAL ALI OĞLU QURBANZADƏ

# ELMİ TƏDQİQATA GİRİŞ

---


| | |
|---|---|
| Nəşriyyatın müdiri: | Əhməd Ziyəddinoğlu |
| Kompüter tərtibatı: | Hacı İsmayılov |
| Korrektor: | Ramin Rəsulov |

Yığılmağa verilib: 10.08.2019
Çapa imzalanmış: 02.12.2019
Kağız formatı: 70x100, 1/16
Kağız növü: 70 qr. (ofset)
Fiziki çap vərəqi: 17
Tirajı: 200

Kitab Azərbaycan Kooperasiya Universitetinin
mətbəəsində çap olunmuşdur.
Ünvan: AZ1106, Bakı şəhəri, Nərimanov rayonu,
Nəcəf Nərimanov küçəsi 93.